**Cəbrayıl Qəhrəman**

# *Dağların təbəssümü*

*Şeirlər*
*Esselər*
*Hekayələr*
*Publisistika*
*Xatirələr*

**"APOSTROF-A"**
**BAKI – 2023**

**Redaktor: Rövşən Atakişioğlu**
şair-publisist

**Naşir: Akif Dənzizadə**

**Cəbrayıl Qəhrəman**.
**DAĞLARIN TƏBƏSSÜMÜ.** Bakı,
“Apostrof-A”, 2023, 296 səh.

**ISBN 978-9952-562-93-4**

“Dağların təbəssümü” Cəbrayıl Qəhrəmanın oxucularla altıncı görüşüdür. Kitabda müəllifin, əsasən, son illərdə yazdığı şeirləri, müxtəlif həyat hadisələrinə münasibətini əks etdirən esseləri, sənədli hekayələri, publisistik yazıları və xatirələri öz əksini tapmışdır.

İnanırıq ki, müəllifin Vətənə, təbiətə, insana sevgi üstündə köklənmiş şeirləri, habelə, müxtəlif mövzulu esseləri, hekayə və publisistik yazıları oxucular tərəfindən maraqla qarşılanacaq, onların qəlbinə yol tapacaqdır.

*Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.*
***© CƏBRAYIL QƏHRƏMAN, 2023***

# Həqiqət və gözəllik sorağında

Qarşımda hələ cilidlənməmiş bir kitab var. Müəllifini yaxşı tanıyıram; Uşaqlığından ahıllığına qədər. Hətta sevgisindən nifrətinə, yumşaqlığından sərtliyinə, ağrısından rahatlığına qədər tanıyıram onu. Onu tanıyıb-bilənlər çoxdur, amma mənə elə gəlir ki, hamıdan yaxşı mən tanıyıram. O adam iliyinə, sümüyünə qədər, cismi və canı ilə o qədər mükəmməldir ki, "mikroskopla baxsan" belə, qüsurlarını çətin taparsan. Bu adam eloğlum, dəyərli ziyalı, pedaqogika üzrə fəlsəfə doktoru, şair-publisist Cəbrayıl Qəhrəmandır. Tanıdığım adamlar içərisində onun qəlbimdə xüsusi yeri var. Alim adı da, şair adı da, dost-qardaş adı da elə bil onun boyuna biçilib, alnına yazılıb...

Cəbrayıl müəllim haqqında, onun yaradıcılığı haqqında bir neçə dəfə yazılarım mətbuatda dərc olunub. O, mənimçün elə insanlardan, elə qələm adamlarındandır ki,onun haqqında bir fikir bildirmək, bir yazı yazmaq istəyəndə ürək özü məni böyük şövqlə, istəklə qələmə, varağa doğru çəkir. Və yazdıqlarım da ürəyimcə alınır. Çünki söz sənəti hər şeydən əvvəl könül işidi. Necə deyərlər, ürəkdən gəlməyən ürəyə yatmaz. Bu nöqteyi-nəzərdən həmişə haqqında böyük ürəklə yazmaq istədiyim insanlardan, yazarlardan biridir Cəbrayıl müəllim.

Cəbrayıl müəllim qarşımda olan bu yeni kitabına " Dağların təbəssümü" adını verib. Bəlkə də, bir neçə il əvvəl olsa idi, kitabına bu adı seçməzdi. Çünki bir neçə il əvvəl Dağlar

əsarətdə, sıxıntıda idi, işğalda idi. İşğaldan azad edilən yurdlarımıza ilk qədəm qoyanlardan olan Cəbrayıl müəllimi, mən tam əminəm ki, dağlar təbəssümlə qarşılamışdı. Və kitabına seçdiyi bu ad da çox yəqin ki, buradan yaranıb.

Kitabda əks olunmuş yazılar Cəbrayıl müəllimin daxili aləmini o qədər aydınladır ki, o, ta uzaqlardan seçilən bir gözəlliyi xatırladır. Kitabın ilk səhifələri şeirlərdir. Cəbrayıl müəllim yaradıcılığının əvvəlki illərində də şeirə müraciət etmişdi. Və o, özünü "Dünya sevgi yaşındadır" şeirlər kitabında bir şair kimi təsdiqləmişdi. Lakin həmin kitabından sonrakı illərdə şairin həyatında fırtına kimi görünən, onun ruhunu parçalayan Ana itkisi yeni kitabında elegiyalar silsiləsinə çevrilən şeirlərə döndü.

Ana mövzusu əzəli və əbədi mövzudur. Anaya olan sevgi və məhəbbətin yaşı insanlığın yaşı qədər qədimdir. Cəbrayıl müəllimin əziz anasına həsr etdiyi şeirlər də göz yaşları və qürur qarışıq bir duyğunun nişanələridir.

Ana sarıdan Cəbrayıl müəllim şanslı qardaşımızdır. Hər ananın da Mina xanım kimi üstünlükləri olmur axı! Övladlarına cismi və ruhu ilə bağlı, elinə, obasına canıyanan, hər kəsə isti nəfəsi ilə nəfəs verməyi bacaran, şair təbiətli, müdrik, ağbirçək Mina xanım! Allah sənə rəhmət eləsin! Yerin cənnət olsun!

Cəbrayıl müəllim üç-beş şeirində anasının əbədi heykəlini yarada bilib. İçdən gələn, sevgi dolu misralar, bəndlər ruhun təlatümləridir. "Ana" adlı şeirində:

*Ölüm bata bilməz ölümsüzlərə,*
*Hara baxıramsa, ordasan, ana.*

- deyən oğul Cəbrayıl müəllim anasının ölümü ilə barışa bilmir.

Başqa bir şeirində özünü qınayan şair;

*Məni bağışlayın, dağlar, a dağlar,*
*Od salır qəlbimə zirvədə qar da.*
*Çəmən də, çiçək də könlümə yatmır,*
*Mən dağa çıxmışam, anam məzarda.*

- deyərək, təzadlarla dolu bu həyatın acılarını qəbul edə bilmir.

Cəbrayıl müəllim Anasının sağlığında söylədiklərini də ipə-sapa düzərək, oxuculara təqdim edir. Bu təqdimatlarda biz bir şairənin Vətən, qəriblik, insana sevgi və ehtiram, qadın və ailə, qadın və dünya haqqında söylənilmiş dəyərli fikirlərilə rastlaşırıq. Hələ Ananın çağırdığı Sarı Aşıq havalı bayatıları ayrıca bir dünyadır!

Cəbrayıl müəllimin əsas mövzularından biri yurda, vətənə bağlılıq, doğulduğu, boya-başa catdığı torpağa etibar, yanım və bu etibar və yanğıdan doğan nisgildir. Ata, ana üçün darıxmaqla yanaşı, şair dağları, dərələri yerindən oynadan sellərin, gecələri aydınladan ildırımların, şimşəklərin sorağındadır. Bu intizar və iztirab şairin "Darıxdım" şeirində üzə çıxır:

*Xəyalım dağlarda gündüz, gecə də,*
*Necə vüqarlıydı, dağlar necə də!*
*Gürşadlı, leysanlı, zülmət gecədə,*
*İldırımın çaxışına darıxdım.*

*Düşdüm obalardan, eldən aralı,*
*Gözüm qan ağlayır, qəlbim yaralı.*
*Göylərə baş çəkən qonaq-qaralı,*
*İşıqlının duruşuna darıxdım.*

*Cəbrayıl, yetməzmi yanıb bişdiyim,*
*Yolumu gözləyir yollar-keşdiyim.*
*Bir gündə yüz dəfə çıxıb-düşdüyüm,*
*Bilavdaşın yoxuşuna darıxdım.*

Şairin şəhidlər haqqında, doğma yurddan uzaq düşmüş qardaşları və bacıları haqqında yazdığı şeirlər diqqət çəkir:

*Haqdan yarandılar, haqdan gəldilər,*
*Vətəni, milləti uca bildilər.*
*Əbədiyaşardı, demə öldülər,*
*Vətəndi, millətdi, ölməz şəhidlər.*

İşğaldan azad ediləndən sonra doğma kəndi Güləbirdi ziyarət edən Cəbrayıl müəllimin "Qartal ömrü" şeiri təbiətlə insanın vəhdətindən yaranan misralarda nə olur-olsun yurdunu tərk etməyən qartalla özü arasında bir ziddiyyət müşahidə edir və haqlı olaraq üstünlük qartal tərəfində olur:

*Qartalın məskəni uca zirvələr,*
*Tərk etməz yurdunu, yüz il qalsa da.*
*Zirvədə yaşayar, zirvədə ölər,*
*Dimdiyindən qırov, buz sallansa da.*

*O, zirvəyə, zirvə ona yaraşır,*
*Onunçün yaranıb sanki zirvə də.*
*Utandım dağlardan,- sözün doğrusu,*
*Uduzur qartala insan hələ də.*

Cəbrayıl Qəhrəmanın yeni kitabını bəzəyən şeirlərin bir qismi isə aşiqanə məzmunlu, məhəbbət və sevgi ilə süslənmiş, ürək çırpıntılarıdır. Bu mövzuda qələmə alınmış bütün şeirlərdə Füzulinin Məcnunu kimi "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni, Bir dəm bəlayi-eşqdən etmə cüda məni" fəlsəfəsini görürük. Lirik qəhrəman ayrılıq əzabı ilə çırpınan aşiqdir. Onu bu əzablardan yalnız sevgilisinin gəlişi xilas edəcək. Lakin... "Ruhu xıncım-xıncım əzilmiş" aşiq çarəsizdir! Amma ümidsiz deyil!

Aşiqin könlünə hakim olan, eşqinə əsir düşdüyü, onu qılınsız, nizəsiz bir ədasıyla, naz-qəmzəsiylə öldürən sevgilisi qulac saçlı, əfsun baxışlı, qələm qaşlı, mələk misallı, hicranı vüsalından şirin olan, ürəyində əbədi taxt-tac qurmuş bir gözəldir;

*Bu necə sevdadır, necə məhəbbət?!*
*Hicranın vüsaldan şirindir, gülüm.*
*Bu necə xoşbəxtlik, necə səadət-*
*Ürəyim əbədi yerindir, gülüm!*

Şairin gözəlliyə, gözəllərin vəsfinə həsr etdiyi "Gözəl", "Sənsən", "Gözlər", "Ala gözlər", "Neylim", "Yaşadım" şeirləri diqqəti cəlb edir. Şeirlərdə hiss olunur ki, şairi riqqətə gə-

tirən bu “Allahın bəlası” gözəllər şairin ilham mənbəyidir, onun diriliyinin səbəbi elə bu gözəllərdir. Yoxsa, şair çoxdan dünya ilə vidalaşmışdı. Belə şeirlərində Vaqif, Zakir, Aşıq Ələsgər duyğulu ürəyin, vəsfdə mahir qələminin gücünü görürük.

Cəbrayıl müəllimin dünya ilə “söhbətlərində” fəlsəfi ümumiləşdirmələr, şairin dünya ilə “davası”, “gileyi” başına gələnlərdən qaynaqlanır. Lakin o, ona əzablarla dolu bir ömür “biçmiş” bu dünyanı çox sevir, onu sülh və əmin amanlıq içində görmək, üzərində yaşayanlarınsa daim gülərüz və sevincli olmasını istəyir.

Cəbrayıl Qəhrəman insanların bir-birinə sevgisinin azaldığını, bir-birinə qənim kəsildiyini, haqsızlığın meydan suladığını, nadanların alimə bələdçilik etdiyini, əyrilərin düzə hökm oxuduğunu, doğru sözün küncə sıxıldığını görəndə təəssüfləniur, haray çəkir, Tanrıya üz tutur. İlahidən insanlara sevgi, mərhəmət hissləri diləyir:

*Cəbrayıl, insafmı söz ağlar qalıb?!*
*Açılmır eynimiz, göz ağlar qalıb,*
*Əyri hökm oxuyur, düz ağlar qalıb,*
*Niyə düz olanı əydin, İlahi?!*
*Bir az sevgi göndər göydən, İlahi!*

O, həqiqəti deyə bilməməyi, nahaqqın qarşısında susmağı insanın ən böyük ağrısı hesab edir:

*Ən böyük ağrıdır susmaq ağrısı,*
*Ürəkdə qalan söz ürəyə güllə.*

*Dara çəkilsən də, ey insan oğlu,*
*Haqqın yanında ol, ürəyi dinlə.*

Cəbrayıl müəllimin esselərini xüsusi maraqla oxudum. Onun bədii-publisistik səliqəsinə heyran qaldım. Hər cümləsi ölçülü-biçili, xatirələrində dəqiq və doğru... Doğma Vətəni Güləbirdə ziyarəti ilə bağlı qələmə aldığı hər cümlə o qədər içdən qələmə alınıb ki,istənilən oxucu oradan nə isə özü üçün götürəcək.

Onun torpaqlarımızın işğalı, səbəblər, nəticələrlə bağlı yazılarını, narahatlıqlarını təbii hesab edirəm. Əslində ziyalılıq elə budur: Xalqının, Vətəninin gələcəyi üçün narahatlıq və narahatlığı doğuran səbəblər…

Cəbrayıl Qəhrəmanın yaxın dostları, habelə ruhən özünə yaxın bildiyi tanınmış adamlarla görüşləri,süfrəarxası söhbətlər və bu görüşlərdən yaranan təəssüratlar da kitabda incə detallarla öz əksini tapmışdır.

Müəllifin pedaqoji görüşlərinin, elmi-fəlsəfi düşüncələrinin nəticəsi olaraq yaranan esse və mülahizələri onun həyat və hadisələrə müdrik yanaşmasını göstərir. Tarixi rəvayətlər və həqiqətlərə elmi yanaşma, pedaqoq tövsiyələri, ağsaqqal öyüdləri gələcəyimiz, gəncliyimiz üçün örnək ola biləcək bir ömrün dostcasına pıçıltılarıdır.

“Təbiətin dedikləri” bölməsindəki esselər bizi əhatə edən aləmdəki hadisə və predmetlərin, canlı və cansızların öz quruluş və xüsusiyyətləri, təbii halı ilə bütün yönlərdə insanlara bir doğru istiqamət verməsini, “bax, gör-götür, öyrən” deməsini aşılayan paralellərdir. Müqayisələrlə zəngin

didaktik xarakterli yazılardır. "Ağaclar və adamlar", "Arximed qanunu bizə nə deyir", "İşıq, dualizm və insan", "Torpağın hikməti", "Birlik və pərdə", "Qartalın dedikləri" bu baxımdan maraqlı esselərdir.

Cəbrayıl müəllimin "Dağların təbəssümü" kitabını oxuduqdan sonra gəldiyim əsas qənaət bu oldu ki, müəllif bütün kitab boyu-şeir, esse, sənədli hekayə, mülahizə və xatirələrində həqiqət və gözəllik axtarışındadır. Müəllif duyğu və zəkasıyla, qələminin gücü ilə həqiqət və gözəllikləri üzə çıxardıqca, qəlbən, ruhən bir rahatlıq tapır və həmin hissləri oxucuya da ötürə bilir.

Yaşının ən müdrik çağını yaşayan, 65-ni tamamlamağa hazırlaşan, haqqında həmişə qürurla, ürəklə danışdığım və yazdığım Cəbrayıl müəllimi daha yaxşı tanıyın, onu qoruyun, gərəyini bilin,- deyə yazdım bu sətirləri.

Əzizim, Cəbrayıl müəllim! Siz dəyərli ziyalısınız! Siz yorulmaz qələm adamısınız! Siz etibarlı dostsunuz! Sizin haqqınızda, yaradıcılığınız haqqında danışmaq, yazmaq mənim üçün həmişə xoşdur. Sizə həyatınızın bundan sonrakı hər saatında, hər günündə, hər ilində sağlıq, dinc və rahat ömür, yeni-yeni yaradıcılıq uğurları arzu edirəm.

Tanrı sizi qorusun!

*Hörmətlə, Rövşən Atakişioğlu,*
*Şair-publisist*
*06.06 2023*

# Analar dünyadan nigaran gedir

*Ş E İ R L Ə R*



# Ana

Nələr çəkdiyimi biləydin, ana,
Göyəmi üz tutum, Yerə-bilmirəm?
Səni axtarıram hey yana-yana,
Qayğılı çöhrəni görə bilmirəm.

Qapını açmağa ürəyim gəlmir,
Görmək istəmirəm yerin boş qalıb.
Gözümdə yaş durmur,ürək dincəlmir,
Baharım gedibdi, yerin qış alıb.

Əzəldən bu dünya sənlə əyişdi,
Əbədi dünyanı seçmisən, ana.
Yox! Əsla ölmədin, dünyan dəyişdi,
Sevən ürəklərə köçmüsən, ana!

Ölüm bata bilməz ölümsüzlərə,
Hara baxıramsa, ordasan, ana.
Yaxşı əməllərin qaldı bizlərə,
Hamıya köməksən darda, sən, ana!

İlahi bir təpər vardı qanında,
Hər yerdə, hər zaman yerin görünür.
Elə gücsüzəm ki, sənsiz anımda,
Sızqaca bir arx da dərin görünür.

Başıuca oldun, hörmətli oldun,
Oğulun yanında, qızın yanında.
Həmişə hər zaman uca bildiyin-
Kəlmənin yanında, sözün yanında.

Görmədim bir rahat olasan, ana,
Yolundan sapanı başa salardın.
Sanardın hamını öz balan kimi,
Qəlbini oxşayıb könlün alardın.

Yanardın birinin gözləri dolsa,
Harda bir dərdli var, ordaydın ana.
Ürəyin gülərdi, şadlanan olsa,
Darda olanlarla dardaydın, ana!

Bir oda düşənə baxmadın gendən,
Qəlbin közə dönüb, çəkmisən ağrı.
Səni başa düşüb duyduğum gündən,
Görürdüm gedirsən Allaha doğru!

Tanrı dərgahına çatmısan, ana,
Ən uca yerdədir məqamın sənin.
Ömrümə min çalar qatmısan, ana,
Necə gözəl idi, hər anın sənin!

Hanı, o, analı çağlarım,hanı?!
Ürəkdən sevinib gülə bilmirəm.
Bu, aylı-ulduzlu gözəl dünyanı,
Daha əvvəlkitək görə bilmirəm.

# Getdi

*Anama*

Haqdan, ədalətdən gileyli anam,
Qəlbi açılmadı, sozaldı getdi.
Dilinin əzbəri: vəfa, etibar,
Dünyada etibar azaldı, getdi.

Bir dağ çeşməsiydi o, yaranışdan,
Ruhu güc almışdı bahardan, qışdan.
Ürək bulandıran bir nahaq işdən,
Alışdı, tutuşdu,köz oldu, getdi.

Hardasa qırıqlıq dərdi, səriydi,
Ruhumun ən rahat, isti yeriydi.
Sözə aşiq idi, söz zərgəriydi,
Tanrı dərgahından söz aldı, getdi.

Bir baxışla qəlbi duyub bilərdi,
Qonşuyla tikəni yarı bölərdi.
Hamıya xoşbəxtlik,xoş gün dilərdi,
Həyatdan dərsini düz aldı, getdi.

Yaxşılıq edərdi,vurmazdı üzə,
Aşiq yaranmışdı doğruya, düzə,
Fəqirə, məzluma,bir kimsəsizə,
Ömrün sonunacan göz oldu, getdi.

Vətənsiz ağlayıb kiriyən anam,
Ömrünü qar- boran bürüyən anam,
Zülmətdə şam kimi əriyən anam,
Yolların ağına düzəldi getdi.

Ən şirin kəlmədir adı dilimdə,
Ona təslim oldu qəddar ölüm də.
Elin yaddaşında,elin qəlbində,
Bir şirin xatirə,söz oldu, getdi.

# Anasız dünyam

Bu gecə nə yaman uzun gecədir,
Ulduz sıxır məni, ay sıxır məni.
Bir dağın döşündə elə yalqızam,
Bulaq ağı deyir, çay sıxır məni.

Artıb ürəyimin döyüntüsü də,
Sıxır ürəyimi dağın havası.
Anasız qəlbimdən bir ah yüksəlir,
Qarsıyır dağları ahın havası.

Məni bağışlayın, dağlar, a dağlar!
Od salır qəlbimə zirvədə qar da.
Çəmən də, çiçək də könlümə yatmır,
Mən dağa çıxmışam, anam məzarda.

Dağların duruşu nə gözəl idi,
Analı günlərim keçir qəlbimdəm
Elə bil dağlar da qərib görünür,
Anam bu dünyadan köç edən gündən.

# Ağlama, anam, ağlama

Keçər dövran belə qalmaz,
Ağlama, anam, ağlama.
Anın hökmü ilə qalmaz,
Ağlama, anam, ağlama.

Didərginik nə zamandı,
Vətən deyib bağrın yandı.
Atam ruhu nigarandı,
Ağlama, anam, ağlama.

Yurdu talan olan ağlar,
Gülüstanı solan ağlar.
Sən ağlarsan,balan ağlar,
Ağlama, anam, ağlama.

Bəxti yatmış hünərik biz,
Düşmənləri yenərik biz.
O yurdlara dönərik biz,
Ağlama, anam, ağlama.
Ağlama, anam, ağlama.

# Anamın dediklərindən

Anam ölümündən təxminən bir il əvvəl mənə dedi ki, bir şer qoşmuşam. Dəftər-qələm gətir, deyim yaz.Dəftər-qələm gətirdim. Onu da deyim ki, anam xeyli müddət idi insult keçirmişdi. Ona görə də çətinliklə danışırdı. Çox rəvan, səlis nitqi olan anamın nitqində qüsur yaranmışdı. Çətinliklə olsa da, qəlbinə gələn şeiri dedi, mən də yazdım. Və sonra da özünün qoşduğu, bildiyi yüzlərlə bayatıdan bir neçəsini elə həmin vaxt dedi. Onları da yazdım. Yazı-pozu bilməyən anamın nə sözü vardısa, sinəsindəydi. Birdən fikirləşirəm: Mənim ağlıma anidən bir fikir gələndə onu həmin anda bir yerə qeyd etməsəm, sabahsı günü, əsasən, yadımdan çıxır. Yaxud, olduğu kimi yadımda qalmır. Deyirəm, o hesabla gör anamın qəlbinə gələn nə qədər sözlər, bayatılar yadından çıxıb. Çünki yazıb-oxumaq bilmirdi. Amma onu da deyim ki, anamın güclü yaddaşı vardı. Qəlbinə gələnlərin çoxu yadındaydı. Əbəs yerə nənələrimizə sinədəftər nənələr deməyiblər ki! Deyim ki, bu bayatıların tam əksəriyyəti özünün yazdıqlarıdır. Çox təəssüf ki, yüzlərlə bayatını özü ilə apardı. Yaza bilmədim...

# Qayıdarıq vətən sarı

May ayının on yeddisi,
Ayın-Günün ən dərdlisi.

Təbiətin coşan vaxtı,
Gül-çiçəyin açan vaxtı.

Həkərinin daşan vaxtı,
Bənd-bərəni aşan vaxtı.

Göyü qara bulud aldı,
Düşmən bizi tora saldı.

Od ələndi başımıza
Su qatdılar aşımıza.

Ağır elim yalan oldu,
Dolu evim talan oldu.

Girov qaldı məzarımız,
Çölə düşdü güzarımız.

Qoşulduq biz Həkəriyə,
Ah-nalamız çatdı göyə.

Daşqın sellər bizi aldı,
Nələr yandı, nələr qaldı!

Gur sellərdə axa-axa,
Dönüb geri baxa-baxa.

Gəlib çıxdıq Bakıyacan,
Çalxanırdı Azərbaycan.

Başımıza nələr gəldi,
Sinəmizə dağ çəkildi.

Qaçqın olduq, köçkün olduq,
İllərinən düşgün olduq.

Qaçqın sözü neştər kimi,
Sızıldatdı qəlbimizi.

İnanıram gələr bir gün,
Millət zəfər çalar bir gün.

Dağlar gülər, gedər qarı,
Qayıdarıq Vətən sarı.

# Bayatılar

Məni görən ağlasın,
Zülfün hörən ağlasın.
İndi görən demirəm,
Əzəl görən ağlasın.

Mən aşiq yana canım,
Od tuta yana canım.
Özüm nə gündəyəm ki,
Kiməsə yana canım.

Maral meşəli yerdə,
Gül, bənövşəli yerdə.
Fələk bizi elə vurdu,
Qaldıq döşəli yerdə.

Dəryada sijim gördüm,
Sijimin ucun gördüm.
Vətəndən ayrılmazdım,
Fələyin gücün gördüm.

Bu yol heşana gedər,
Aşar keşana gedər.
Vətən dərdi mənimlə,
Gora nişana gedər.

Anam yox dərdim bilə,
Gözlərim yaşın silə.
Ağlayır qan-yaş tökür,
Gözlərim gilə-gilə.

Dərd adamı dəng edər,
Vurub başa dəng edər.
Dərd adamı öldürməz,
Saraldıb bədrəng edər.

Apardı tatar məni,
Qorxuram satar məni.
Yaxşı qardaşım olsa,
Axtarıb tapar məni.

Vətənin əkə dərdi,
Yüklənib lökə dərdi.
Nər çəkməz, maya çəkməz,
Fil gərək çəkə dərdi.

Gedən getmə, işim var,
Zərgərdə gümüşüm var.
Ağzı bağlı otaqda,
Gözü bağlı quşum var.

Gecələr gecə keçər,
Gündüzüm gecə keçər.
Mənimki, ah-vay ilə,
Səninki necə keçər?

Mənim anam, öz anam,
Qoynu dolu köz anam.
Bir gün Qələbə olar,
Səbir elə, döz anam.

Əziziyəm, qar gəlir,
Yağış gəlir, qar gəlir.
Allah, Vətəndən çıxmaq,
Mənə yaman ar gəlir.

Burdan bir atlı keçdi,
Atın oynatdı keçdi.
Ay kimi kölgə saldı,
Gün kimi batdı keçdi.

Burdan bir paşa getdi,
Nə də tamaşa getdi.
Yığdı dünyanın malın,
Vurdu bir daşa getdi.

Burdan bir maya getdi,
Sallandı çaya getdi.
Əzab çəkdim, car çəkdim,
Əməyim zaya getdi.

Bağa su düşdü neylim,
Məhləm su içdi neylim.
Tanrım qismət payladı,
Mənə bu düşdü neylim.

Əzizim, Vətən sarı,
Yol gedir Vətən sarı.
Tanrım qismət eliyə,
Qayıdaq Vətən sarı.

# Darıxdım

Yaman kövrəlmişəm,dolmuşam bu gün,
Nur atamın baxışına darıxdım.
Kirpiyiylə od götürən nənəmin,
Üzündəki qırışına darıxdım.

Xəyalım dağlarda gündüz, gecə də,
Necə vüqarlıydı, dağlar necə də!
Gürşadlı, leysanlı zülmət gecədə,
İldırımın çaxışına darıxdım.

Düşdüm obalardan, eldən aralı,
Gözüm qan ağlayır,qəlbim yaralı.
Göylərə baş çəkən,qonaq- qaralı,
İşıqlının duruşuna darıxdım.

Cəbrayıl, yetməzmi yanıb bişdiyim,
Yolumu gözləyir yollar- keçdiyim.
Bir gündə yüz dəfə çıxıb- düşdüyüm,
Bilavdaşın yoxuşuna darıxdım.

# Qədir oxuyur

İlahi, yenə də oxuyur Qədir!
Xəyalım göylərdə dolaşır yenə.
Könlüm şəhərinə od düşüb,nədir?!
Tutuşub qəmlərə alışır yenə!

Bu səs ilahidir, bir möcüzədir!
Öldürür, dirildir,yandırır,Allah!
Bu səs hardan gəlir,bu nə nalədir?!
Damarda qanımı dondurur,Allah!

Bu nalədən ürəklərə od düşür,
Qəlbi olan aşiq olur,vurulur.
Bu səs ilə ilahiyə qovuşur,
Neçə ürək bu nalədən durulur.

Bu səsə sığışıb bir xalqın dərdi,
Təbriz də burdadı, Araz da burda!
İlahi bu səsi hardan göndərdi?!
Könlüm alışmada,ruhum da darda!

Bu səs bizi bizdən alır,İlahi!
Allah bilir, nə çəkirəm bu səsdə!
Bu səsdən yüksəlir Məcnunun ahı,
Görürəm alışır Kərəm bu səsdə!

Yurdda "biçilməmiş zəmimiz qaldı"
Onunçun çağladın,çağla ay Qədir!
"Dəryada qərq oldu gəmimiz qaldı",
Bu çəkilməz dərdə ağla, ay Qədir!

Saraldı "gülümüz yarpıza döndü",
Bizə zülm elədi zaman, ay Qədir!
Ulduzlu Şuşada ulduzlar söndü,
Dağlarını aldı duman, ay Qədir!

"Ay Laçın" söyləyən dilinə qurban,
Müddətdi Laçının fərağındayam.
Qarabağ adlanan elinə qurban,
Bu cənnət diyarın sorağındayam.

"Neçin gəlməz",ahü- zarda qalmışam,
Fəryad elə, sən harayla,ay Qədir!
Qürbət eldə,qar- boranda qalmışam,
Əğyar vuran min yarayla,ay Qədir!

İlahi avazın, şaqraq səsinlə,
Neçə könüllərə od salacaqsan!
Təkrarsız xalların, gül nəfəsinlə,
Qəlblərdə əbədi yaşayacaqsan!

# "Allahım, sınaqsa, bəs eylə daha" ...

*2016- cı il mayın 18- də- Laçının işğalı günündə Məhəbbət Kazımovun "Laçınım" mahnısının lent yazısına qulaq asarkən keçirdiyim hisslər...*

"Laçınım" oxuyur Məhəbbət, Allah!
Bu necə yanğıdı, ündü, Məhəbbət!
Həsrətdən bir nalə çağlayır yenə,
Ürəyim dağlanan gündü, Məhəbbət!

Getdi, o dağların şenliyi getdi,
Getdi, çoxlarının mənliyi getdi.
Hamı qaçqın oldu, kimliyi getdi,
Vüqarım dağlardan endi, Məhəbbət.

Dağların havası var nəfəsində,
Laçındı kədərin, məhəbbətin də.
Mən nələr duyuram qəmli səsində,
Həsrətdən alışıb söndün məhəbbət!

Laçın həsrətiylə sən nələr etdin?!
Həmişə yaşarsan, demərəm bitdin.
Laçın soraqladın, Laçınsız getdin,
Bu necə taledi, sondu, Məhəbbət!

Ruhuma zindandır illər Laçınsız,
Gözümdə çağlayır sellər Laçınsız,
Laçın Məhəbbətsiz, ellər Laçınsız,
Yanıb- yaxılıram indi, Məhəbbət!

İndi bizdən küsüb dumanlı dağlar,
İndi saralıbdır gülüstan bağlar,
İndi ağı deyər, indi qan ağlar,
Dağların bərəsi, bəndi, Məhəbbət!

Laçın baş əyməzdi düşmənə,yada,
Laçını namərdlər verdilər bada.
Allah kömək olsun, yetişsin dada,
Düşmənlər milyondu, mindi Məhəbbət!

Səsin bir ordudur, səsin köməyim,
Vətən ucalığım, arzum, dilətim.
Cəbrayılam, yurdsuz yanan ürəyim,
Laçın həsrətiylə dindi, Məhəbbət!
Ürəyim dağlanan gündü, Məhəbbət!

# Yerindən

Allah qismət edə,baxam dünyaya,
Həsrətin biryolluq bitən yerindən.
Vüqarlı dağlara bir salam verəm,
Əlimin göylərə yetən yerindən.

Bostanım saralıb, uralanıbdır,
Ürəkdə həsrətdən od qalanıbdır,
Dağlar dağa dönüb sıralanıbdır,
Qəlbimin ağrıyan Vətən yerindən.

Sarısünbül zəmilərim tellənə,
Dağ-dərələr naxışlana,güllənə,
Ruhum qanadlana, qəlbim dillənə,
Gülşəndə bülbülün ötən yerindən.

# Bir gün

Dərd içində üzən adam,
Gözlədiyin gələr bir gün.
Ürəyindən qəm- qüssəni,
Yox eliyər, silər bir gün.

Fələk bizi çəkdi dara,
Yara üstdən vurdu yara.
Olmazlara olar çara,
Bəxt üzünə gülər bir gün.

Nə çəkirəm bircə bilsən,
Tanımarsan, gəlib görsən.
Cəbrayılın yerin bil, sən.
Demə ölər, gedər bir gün.

# Qardaşım

Heç kimin sönməsin yurdda çırağı,
Yurd həsrəti yaman olur, qardaşım.
Xəyalda gəzirəm meşəni, dağı,
Göz ürəyə daman olur, qardaşım.

Gedib ağzımızın dadı- ləzzəti,
Hanı, o vaxtların xətir- hörməti?
Biçarə qaçqının dönük qisməti,
Aha dönür, aman olur qardaşım.

Puç oldu həyatda arzu- diləyi,
Üzü gülmür, ağı olub çörəyi.
Gecə- gündüz nalə çəkir ürəyi,
İnildəyən kaman olur, qardaşım.

Günləri ah olur qəlbi dağlının,
Yolları açılsın yolu bağlının.
Gözü yolda qalan insan oğlunun,
Göz dikdiyi güman olur, qardaşım.

Cəbrayıl, vaxt gələr bitər qəmimiz,
Açılar eynimiz, gülər üzümüz.
O doğma yurdlara qayıdarıq biz,
Dərdə məlhəm zaman olur, qardaşım.

# Ölməz şəhidlər

Azadlıq uğrunda candan keçdilər,
Xalqa məhəbbətdir, ölməz şəhidlər.
Yolların içində haqqı seçdilər,
Haqqa şəhadətdir, ölməz şəhidlər.

Haqdan yarandılar, haqdan gəldilər,
Vətəni, milləti uca bildilər.
Əbədiyaşardı,demə öldülər,
Vətəndi, millətdi,ölməz şəhidlər.

Torpağa can verər odlu nəfəsi,
Şəhidlər vətənin, torpağın səsi.
Şəhidlik insanın sevgi zirvəsi,
Sevgidən heyrətdir,ölməz şəhidlər.

Şəhidin əxlaqı bir fəzilətdir,
Dünyada amacı haqq- ədalətdir.
Milləti yaşadan namus,qeyrətdir,
Namisdu, qeyrətdi, ölməz şəhidlər.

Şəhidlik- varımız,millətə şöhrət,
Şəhidlik- bayrağa,torpağa qiymət,
Şəhidlik- bu günə, keçmişə hörmət,
Qürurdu, qüdrətdi, ölməz şəhidlər.

Şəhidlər ümmandır, çağlayıb daşar,
Haqqa qovuşmaqçün sədləri aşar.
Ölümü öldürüb əbədi yaşar,
Sonsuz cəsarətdir, ölməz şəhidlər.

Şəhid məzarları tarixdə izdir,
Tökülən qanları dərya, dənizdir.
Yurdumun hər yeri ona əzizdir,
Təbrizdi, Dərbənddi, ölməz şəhidlər.

Şəhidlik- Vətənə, yurda məhəbbət,
Şəhidlik- dönməzlik, hünər, ləyaqət.
Cəbrayıl, şəhidlik- əhdə sədaqət,
Əhdə sədaqətdir, ölməz şəhidlər.

# Qartal ömrü

*Laçına getmişdim*

Qartallar qıy vuran yerdəyəm yenə,
Qarışıb o qıya könlümün səsi.
Vətən havasıtək doldu sinəmə,
Yanımdan ötüşən qartal kölgəsi.

Qartalın məskəni uca zirvələr,
Tərk etməz yurdunu, yüz il qalsa da,
Zirvədə yaşayar, zirvədə ölər,
Dimdiyindən qırov, buz sallansa da.

O, zirvəyə, zirvə ona yaraşır,
Onunçün yaranıb sanki zirvə də.
Utandım dağlardan,- sözün doğrusu,
Uduzur qartala insan hələ də.

# Məni dərd böyütdü

İllərdi dərdimlə yol gedirəm mən,
Məni dərd böyütdü, sındırammadı.
Qəlbimin atəşin,ürəyin odun,
Boranlar, çovğunlar dondurammadı.

Dərdimlə hər zaman həmdərd olmuşam,
Dərdimə dost, özümə sərt olmuşam.
Güc çatmasa, gücümə pərt olmuşam,
Yüz aqil bir nadan qandırammadı.

Dərdi mən özümə ustad sanmışam,
Dərd öyrədib,çox mətləblər qanmışam.
Dərdin atəşiylə alovlanmışam,
Atəşlər ruhumu yandırammadı.

# Tanrım

Bir özgə təmənnam yoxdu dünyadan,
Məni sevgilərə tuş eylə, Tanrım.
Ürəkdən məhəbbət tükənən günü,
Bir çöllük səhrada daş eylə, Tanrım.

Qıyma gözəlliyə vədəsiz solsun,
Ürəkdə məhəbbət taxtını qursun.
Məcnunlar, Kərəmlər sıraya dursun,
Məni o sırada baş eylə, Tanrım.

Sevim ağacı da, sevim daşı da,
Bir nazik bədənli qələm qaşı da.
Lap elə pirani, qoca yaşımda,
Sevgi qiymətimi beş eylə, Tanrım.

# Dünyadı

Bir hikmətdi, müəmmadı əzəldən,
Altı məzar, üstü bazar dünyadı.
Xəzanı soldurar fəsli- baharı,
Gahdan nəşə, gahdan azar dünyadı.

Şahları devirib taxtından salar,
Mənəm deyənləri odlara qalar.
Kimə nə veribsə, birbəbir alar,
Özü verdiyindən bezar dünyadı.

Kəsər qarşımızı sıldırım, yoxuş,
Yorular çoxları,gətirməz duruş.
İstər ha əlləş, istər ha vuruş,
Sonunda torpağa güzar dünyadı.

Odur uzaq olan, odur yaxın da,
Odur sığal çəkən, odur yaxan da.
Biz nə yazırıq ki, ona baxanda,
Cəbrayıl,ən böyük yazar dünyadı.

# Axtar

Qartalı dağların zirvələrində,
Hikməti aqilin sözündə axtar.
Baxan gözlərimiz bizi aldadır,
Dünyanı ürəyin gözündə axtar.

Hardadır deməmiş dərdini qanan,
Halına acıyıb ürəkdən yanan.
Özgələrdən umma dərdinə dərman,
Dərdinə dərmanı özündə axtar.

Tapa bilsən, hər müşkülün öz yolu,
Bir qılınc yolu var, bir də söz yolu.
Cəbrayıl, Allaha gedən düz yolu,
Köhnə kişilərin izində axtar.

# Gəncliyim

Bir vaxtı coşardın, hey çağlayardın,
Ömür yollarında itən gəncliyim.
Demərəm yellərə mən verdim səni,
Oğlumda,qızımda bitən gəncliyim.

Yalda, yamaclarda quş tək uçardım,
Şimşəktək parlayıb işıq saçardım.
Bağlı qapılara düşən açardım,
Hər yerdə dadıma yetən gəncliyim.

Cəbrayıl, qaydadır alışan sönər,
Qəlbım o günlərin eşqiylə dinər.
Durnalar qayıdar,fəsillər dönər,
Bir də geri dönməz ötən gəncliyim.

# Dolanır

Bu dünya bir dolanmaqdır,
Külli aləm- pər dolanır.
Dolandırır bizi xeyir,
Xeyir üstə şər dolanır.

Dolanırıq yar başına,
Güman yeri pir daşına.
Gecə- gündüz Gün başına,
Ay dolanır, Yer dolanır.

Sönəni yandırmaq üçün,
Nadanı qandırmaq üçün,
Bizi dolandırmaq üçün,
Başda yüz fikir dolanır.

Bu Cəbrayıl sadiq bəndən,
Ağlı kəsib bilən gündən.
Uca Tanrı ətəyindən,
Tutub, birtəhər dolanır.

# Təbiətdən öyrənək

Bir hikmətdir təbiət-
Suallara cavabdır.
Oxuya bilsən onu,
Ən mənalı kitabdır.

Yan- yörənə yaxşı bax,
Yanındadır dərmanın.
Duysan hali olarsan,
Hər işindən dünyanın.

Görək nə deyir bizə,
Yanımızdan axan su.
Görükən zahiridir,
Batindədir doğrusu.

Niyə dünya düz deyil,
Hər tərəf dağ- dərədir?
Bax, canlıya, cansıza,
Hərəsi bir cürədir.

Əsirgəməz heç nəyi,
Anamızdır təbiət.
Görənə doğru yoldur,
Sevənlərə məhəbbət.

Həyat bəxş edər bizə,
Səmasıyla, yeriylə.
Bəzən də öz sözünü,
Deyər tufan diliylə.

Dünyaya nur yağdırar,
Yağar, güllər bitirər.
Bərəkətli çöllərdən,
Bizə ruzi yetirər.

Öyrənək təbiətdən,
Həm yaxşını, yamanı.
Ləyaqətlə yaşayaq,
Bu sehirbaz zamanı.

Birliyin qüdrətini,
Bir ağacdan öyrəndim.
Hər yerdə, hər bir işdə,
Mən birliyə güvəndim.

Başın aşağı əyər,
Bar verəndə ağaclar.
Kökünə ehtiramdır,
O,əyilmiş budaqlar.

Təmizliyi, saflığı,
Öyrənək təbiətdən.
Orda hər şey gözəldir,
Yaranışdan, əzəldən.

# Tanımaz

Yanar, məşəl olar, bir mərd ürəyi,
Necə möhtəşəmdir arzu, diləyi.
Heyif ki, dünyanın ölüm mələyi-
Əzrayıl namərdi, mərdi tanımaz.

Məhəbbətsiz heçdir gözümdə aləm,
Bir aşiq varmı ki, görməsin dərd- qəm?
Mən dərdə həmdəməm, dərd mənə həmdəm,
Nadanlar, dayazlar dərdi tanımaz.

Cəbrayıl,olmayaq yaxşıya yaman,
Hər şeyi yerbəyer edəcək zaman.
Yaxşıya,yamana biganə insan,
Həyatda xeyirdi, şərdi tanımaz.

# İlahi

Çəkilib göylərə sevgi, məhəbbət,
Bir az sevgi göndər, göydən, İlahi.
Qənim kəsilmişik bir- birimizə,
Düşmüşük taqətdən, heydən, İlahi.

Sızlayır yurdumun torpağı, daşı,
Əzir, tapdalayır qardaş qardaşı,
Yaltaq gözə girir hər addımbaşı,
Olmuşuq ağadan, bəydən, İlahi.

Bələdçi olubdu alimə nadan,
Qalmayıb bəşərdə nə din, nə iman.
Didir bir- birini, qan içir insan,
Başlar dumanlanıb "meydən", İlahi.

Nə vaxt kəsiləcək zalımın səsi?
Kəsən olacaqmı, bu kəshakəsi?
Yenə çalxalanır bu Yer kürəsi
Olubdu haqsıza meydan, İlahi!

Cəbrayıl, insafmı söz ağlar qalıb?!
Açılmır eynimiz, göz ağlar qalıb.
Əyri hökm oxuyur, düz ağlar qalıb,
Niyə düz olanı əydin, İlahi,
Bir az sevgi göndər, göydən, İlahi!

# Var

Bu qoca dünyada acı, şirindən,
Hamı dadacaqdır, geci, tezi var.
Hərdən qucaq açır,xumarlanırsan,
Hərdən də yandıran odu,közü var.

Gündə neçə dəfə dəyişir donu,
Ömrü sona qədər xoş keçən hanı?
Hələ mehribandır, bilinmir sonu,
Qəfildən çevrilib dönən üzü var.

Gah qonaq eyliyər şərbətə, aşa,
Gah da ki,qismətin dirənər daşa.
Hərə bir cür vurar ömrünü başa,
Kiminin kimisi,kimin özü var.

Cəbrayıl, keçibdi ömür yarıdan,
Hələ seçə billəm ağı qaradan.
Bir az möhlət versə, Ulu Yaradan,
Ürəyimin deyilməmiş sözü var.

# Susmaq ağrısı

Ən böyük ağrıdır susmaq ağrısı,
Deyə bilmədiyin qalar ürəkdə.
O sözlər səf çəkib bir ordu kimi,
Davalar, qırğınlar salar ürəkdə.

Ürək ağrı tapar bu qovğalarda,
Sevinci, kədəri duyan ürəkdir.
Ağrıyan ürəkdən kimə nə fayda,
Sözünü deməyən kimə gərəkdir.

Ən böyük ağrıdır susmaq ağrısı,
Ürəkdə qalan söz ürəyə güllə.
Dara çəkilsən də, ey insan oğlu,
Haqqın yanında ol, ürəyi dinlə.

Amma ki, neyləyim,olub ki, hərdən,
Desəm həqiqəti qan olacaqdır.
Kiminsə gözündə sönəcək həyat,
Bir ömür yarıda qırılacaqdır.

Bir nadan alimə "ağıl" verəndə,
Özümü zor ilə susdurmağım var.
Biçarə ürəyi dar ağacına,
Özüm öz əlimlə qaldırmağım var.

Bəzən də susmağa məhkum olursan,
Başının üstündə ovxarlı qılınc.
Deyə bilmədiyin həqiqət ki, var-
Ürəyə bir yükdür, başına qaxınc.

Dilsiz bildiyimiz Yer kürəsi də,
Tufanla, çovğunla deyirsə sözün,
Ürək çağıranda necə susasan,
Necə dayanasan,görürsə gözün.

Göylər gurultuyla danışar, dinər,
Buludlar dolubsa, leysan tökəcək.
Səyirdib dördnala şimşək atını,
Zülmət qaranlığın bağrın sökəcək.

Nahaqqın önündə haqq əziləndə,
Susmaq işgəncədir,dözmək işgəncə
Susmağın əzabın çəkən ürəkdir,
Dilə qıfıl vuran ağıl, düşüncə.

Qəlbimiz deyəni ağlımız desə,
Zirvədən-zirvəyə ucalarıq biz.
Bəzən də ürəyi ağıl eşitsə,
Bir anda bir ömür qocalarıq biz.

# Məktəb xatirələri

*Sinif yoldaşlarıma*

Deyirəm, İlahi,möcüzə ola,
Bir anlıq qayıdam ötən günlərə.
Məktəb yollarında, yalda- yamacda,
Hər gün bir nağılla bitən günlərə.

O illər necə də uzaqda qalıb,
O illər necə də yaxındı mənə.
Fərəhli günlərim perik düşdülər,
Ağrılar, acılar sığındı mənə.

Bir başqa aləmə düşdüm elə bil,
O,ötən günləri düşündükcə mən.
Sinif yoldaşlarım, məktəb illərim,
Gəlib bircə- bircə keçdi gözumdən.

Yayın istisində,şaxtada, qarda,
Qaynayıb daşardı məktəb yolları.
Necə bilməmişik,keçirmiş demə,
Həyatın ən gözəl, xoşbəxt anları.

Yolumuz boyunca doğma Həkəri,
Ruha qanad idi həzin nəğməsi.
Kotan dəmirini daşla döyərdik,
Başımdan getməyib o zəngin səsi.

Partanın gözündə kitab çantamız,
Partanın üstündə çernel qabları.
Üst- başı çernelli,yamaqlı...amma,
Ürəyi tərtəmiz kənd uşaqları!

Unutmaq olarmı, müəllimləri?!
Ömür yolumuza işıq saldılar.
Əbədi haqları var üstümüzdə,
Şam kimi əriyib yanan oldular.

Müəllim gələndə farağat durar,
Çıxarıb papağı salam verərdik.
Bir xoş işimizi tərifləyəndə,
Atadan, anadan doğma bilərdik.

Oxuyan da vardı,şıltaq olan da,
Bəzən savaşsaq da, ara qatmadıq.
Müəllim deyəni elədik...amma
Sinif yoldaşını darda satmadıq.

Məktəbin bağında, göy çəmənlikdə,
Qızlar əllərində üçqulaq yonca.
Hərə ürəyində bir qız tutardı,
Bir yarpaq çəkərdik ona sayınca.

Hərdən də yayınar, dərsdən qaçardıq,
Gedərdik bulağa oğlanlı- qızlı,
Hərənin qəlbinə bir köz düşmüşdü,
Çoxu da deməzdi, yanardı gizli.

Necə sevinərdik hər yeni ildə,
Uşaqlar toplaşıb yolka qurardı.
Bəzərdik yolkanı min bir həvəslə,
Qızlar ətrafında dövrə vurardı.

Novruz bayramı da bir ayrı aləm,
Bayram gəlcək civə kimi qaynardıq.
Dəstə- dəstə yığışardı uşaqlar,
Gah voleybol, gah da futbol oynardıq...

O vaxtdan nə qədər illər keçibdir,
Ağarıb saçımız yaşa dolmuşuq.
Altmış il qabaqkı nəvə uşaqlar,
Gör nə vaxtdır baba, nənə olmuşuq.

Oğul evləndirib, qız köçürmüşük,
Nəvəmiz doğulub qanadlanmışıq.
Atamız, anamız köçüb dünyadan,
Dərdimiz dağ olub, necə yanmışıq!

Heç zaman uymadıq vara, dövlətə,
İnsanlıq dəyərin möhkəm tutmuşuq.
Ağrılar, acılar çəkib başımız,
Şükür, altmış beşə gəlib çatmışıq.

Amma nə edəsən, fani dünyadır,
Yarıya çatmayıb sönən də oldu.
Onlara Allahdan rəhmət diləyək,
Taleyi kür, çərxi dönən də oldu...

Öyrənib öyrətmək başa çatmayıb,
Əgər ki, diriyəm, yaşayıram mən.
Yenidən başlanıb məktəb yolları,
Nəvəmin çantasın daşıyıram mən.

Səhərlər qoşulub nəvələrimə,
Məktəbə gedirəm ahıl yaşımda.
Döyürəm qapını:-Müəllim, olar?
Uşaqlıq havası yenə başımda.

# Dolanıram

Söz ruhumun qidasıdır,
Mən sözünən dolanıram.
Əyrilərlə işim yoxdur,
Mən düzünən dolanıram.

Ürəyimə məlhəmdi söz,
Həm sevincdi, həm qəmdi söz.
Həyat verər bir duru göz,
Mən gözünən dolanıram.

Cəbrayılın həmdəmi-tar,
Ürək dostu, bir də ki, yar.
Ay ömrümə həmdəm dostlar,
Mən sizinən dolanıram.

# Deyəsən dəhnədən, başdan bulanıb

Bu qoca dünyada hər şey görk olur,
Bir azca düşünsən, baxsan, dərk olur
Şərə qulluq edən bilir tərg olur,
Bilə- bilə əməlindən yorulmur.

Nə qədər qəm yatır quru budaqda,
Nə qədər nəğmələr donub dodaqda,
Nə qədər boğublar haqqı nahaqda,
Hələ də boğulur, divan qurulmur.

Dahilər asılıb, oda qalanıb,
Yaxşı pisə, pis yaxşıya calanıb.
Deyəsən, dəhnədən, başdan bulanıb,
Dünya yaranandan axır, durulmur.

# Belə də olur

Ömür keçdi qovğalarda,
Saya ömür yaşamadım.
Kölə olub bir qul kimi,
Boyunduruq daşımadım.

Usanmadım gecə-gündüz,
Haqq- ədalət sorağında.
Ömrüm boyu oturmadım,
Yad süfrələr qırağında.

Amma gərək düzün deyim,
Hərdən olub aldanmışam.
Hər adamı adam bilib,
Hər adamı düz sanmışam.

Demiyəsən düz bildiyim,
Bildiyimdən uzaq imiş.
Dayanıbmış girəvədə,
Tələ imiş, duzaq imiş.

"Adam" gördüm mənsəb üçün,
Yüz yol yolun dəyişdilər.
"Adamlar" var,necə deyim,
İnsanlığa söyüşdülər.

# A dünya

Bir ömür qoynunda sitəmlər çəkdim,
Olmadı halımı duyan, a dünya!
Vətən həsrətiylə qovruldum, bişdim,
Yetməzmi zülümün,dayan, a dünya?!

Yox olub bəşərdə Allah qorxusu,
Hopub çiçəklərə ölüm qoxusu.
Deyəsən, dünyanın gəlir yuxusu,
Silkələn, ayıq ol,oyan, a dünya!

Tükənməz heç zaman sirri, hikməti,
Vardı həm nəşəsi, həm də zilləti.
Ürəkdə qövr edən dərdi, möhnəti,
Gözümün yaşıyla yuyan, a dünya!

Yazda gözəlləşib cilvələnirsən,
Qışda qara dönüb hey ələnirsən.
Günəş qürub edir, kölgələnirsən,
Oldumu bir səndən doyan, a dünya!

Cəbrayıl, arifə dərs deyir nadan,
Əcaib işlərə mat qalır adam.
Kimlər gəldi, kimlər getdi dünyadan,
Gəlib-gedənləri sayan, a dünya!

# Yaşa

*Cahangirin 64 yaşına*

Ömrün xəzan görməsin,
Bahar yaşa, yüz yaşa.
Həmişə zirvələrdə,
Qartal kimi süz,yaşa.

Çox yetmisən köməyə,
Əhsən belə ürəyə.
Ehtiyac yox deməyə -
Halal yaşa, düz yaşa.

Su içmisən Əsrikdən,
Söz demisən ürəkdən.
Çətinlik olur hərdən,
Möhkəm dayan, döz, yaşa.

Xar olsun düşmən, yağı,
Gəlsin gözəllik çağı.
Dolan aranı, dağı,
Dostlar ilə gəz, yaşa.

Ünvan oldun dostlara
Qəlbdəsən- getsən hara.
Salam denən Qoşqara,
Lalə, nərgiz üz,yaşa.

Ellər dağa köçəndə,
Xoşbulaqdan içəndə,
Dostlar yada düşəndə,
Qəm etmə, bizsiz yaşa.

Zəhmətin versin bəhər,
Üzünə gülsün səhər.
Cəbrayıl da sevinər,
Haqqa çıraq, göz yaşa.

# Nə xəbər var

*Rəhimin 65 yaşına*

Qardaşıma salam olsun,
Hal- əhvaldan nə xəbər var?
Qar bürüyüb dağ- dərəni,
Yasamaldan nə xəbər var?

Xoş ovqatla aç səhəri,
Əsas ruhdur,saxla diri.
Görürsənmi Cahangiri,
Əhli- haldan nə xəbər var?

Tacir müəllim düşdü yada,
Ənənəni vermə bada.
İş gedirmi kafedrada,
Qeylü- qaldan nə xəbər var?

Günlər keçdi yaxşı- yaman,
Çox yer gördüm zaman-zaman.
Vurğun yazan cənnətməkan-
Talıstandan nə xəbər var?

Musa Yaqub- Haqqın səsi,
Hər şeirində gül nəfəsi.
Cənnət idi Maydərəsi,
Gülüstandan nə xəbər var?

Cəbrayıl soruşur,- qağa,
Nə vaxt bitər qan- qadağa?
Baxtı qara Qarabağa,
Gedən yoldan nə xəbər var?!

# Altmışın mübarək

*Təhmirazın 60 yaşına*

Çiçəkli, çəmənli bir yaz günündə,
Göz açdın dünyaya hamı sevindi.
Halal bir ocaqda yetdin kamala
Halallıq qəlbinə, ruhuna sindi.

Necə də tez keçdi fəsillər, aylar,
Gözümün önündə çatdın altmışa.
Halal çörəyinə haram qatmadın,
Bir ömür yaşadın, layiq alqışa.

Yadımdadır, tələbəlik illərin,
Ən çətin anlarda sınmadın yenə.
Pulun az olsa da,bir çox uşaqlar,
"Yeyib- içən qardaş" deyərdi sənə.

Şahlığın-şuxluğun elə o vaxtki,
Ruhunla qoşadır yenə cavanlıq.
Akiflə söhbətin düşür yadıma,
O günləq dönəydi kaş bircə anlıq.

Atıldın həyata gənc yaşlarında,
Harda çalışdınsa, "çox sağ ol" aldın.
Yolunu saxladın böyük- kiçiyin,
İz qoydun həyatda,qəlblərdə qaldın.

Ömrə zindan oldu Laçınsız illər,
Ağartdı saçını Vətən həsrəti.
Qoymadı sınasan bu yükün altda,
Sənə arxa oldu dost məhəbbəti.

Alnıaçıq qarşıladın altmışı,
Altmışın mübarək,əziz dostumuz!
Allah qismət edib bu ad gününə,
Ən böyük hədiyyə - AZAD YURDUMUZ!

# Ürək deyir ki...

Ş E İ R L Ə R



# Sənsən

Ay xumar baxışlı,ay incə belli,
Bu könül dünyamın sultanı sənsən.
Gözləri can alan, ay siyah telli,
Sızlayan qəlbimin dərmanı sənsən.

Gəl, mənim mələyim, ruhumu dindir,
Divanə aşiqəm göylərdən endir.
İstər qoynuna al, istərsə öldür,
Əmrinə hazıram fərmanı sənsən.

Bir yanar oddayam, atəşim sönməz,
Ölürəm, üstümə cananım gəlməz.
Yüz həkim yığıla dərdimi bilməz,
Dərdimin çarəsi, loğmanı sənsən.

Sənsiz saatları,günləri saydım,
Nələr çəkdiyimi bilib duyaydın!
Cəbrayıl neyliyər, sən olmasaydın,
Ruhuna can verən cananı sənsən.

# O gözlərdə axtarın

Bir payız axşamı gəldik göz- gözə,
Gözlərin qəlbimi çaldı, nə çaldı.
Ağlımı başımdan aldı, apardı,
Dəli bir sevdaya saldı , nə saldı.

Haldan-hala düşdük, o bircə anda,
Nə mən bir söz dedim, nə sən danışdın.
Ovladın qəlbimi bir lal baxışla,
Canımdan can alıb cana qarışdın.

Məni sərməst edib xumar gözlərin,
O gözlərin tilsiminə düşmüşəm.
Ürəyim heç yerdə qərar tutmadı,
O baxışa, o gözlərə köçmüşəm.

Gülzarımı o gözlərdə tapmışam,
Könül aşiqidir gülün, gülzarın.
Dağlarda, daşlarda gəzməyin məni,
Axtarsanız, o gözlərdə axtarın.

# Neylim

Ay mənim həyatım,gözümdə didəm!
Sən bir mələk idin,gəlmişdin göydən.
Oduna yananı tərk etdin nədən?
Əllərim dünyadan üzülür,neylim?!

Dünyama Günəşdin,ruhuma candın,
Mən səni ömrümün əşrəfi sandım.
Eşqinlə çağladım,eşqinlə yandım,
Dərdlərim sinəmə düzülür, neylim?!

Min gözəl yığıla məni ovutmaz,
Huri- mələk ola,qəlbimə yatmaz.
İndi peşimansan,zaman qayıtmaz,
Göz yaşın yanağa süzülür, neylim?!

Qayıtmaz o günlər,yan- yaxıl indi,
Daha coşqun sular lal axır indi,
Gözlərim tor görür, can sıxır indi,
Ruhum xıncım- xıncım əzilir, neylim?!

# Gözəl

Allah nə xoş gündə yaradıb səni,
Qəlbinə dəydiyim İlahi gözəl.
Yadıma düşəndə dünyam qaralır,
Bağışla, etdiyim günahı, gözəl

Müddətdi inciyib küsmüsən məndən
Baxmayıb üzümə gedirsən gendən.
Neyləyim,kükrəyir qəlbimdə hərdən,
Fırtına, zəlzələ gah- gahi, gözəl.

İlahi, çəkdiyim sənə əyandır,
İnciyən qəlblərdə rəhmi oyandır.
Allah da günahı bağışlayandır,
Unutma Tanrını, Allahı, gözəl.

Cənnət misallısan,solmaz baharsan,
Bu könül dünyamda əbədi varsan.
Necə qəmzəlisən,nə şirin yarsan,
Könlümün sirdaşı, pənahı gözəl.

Yerişin can alır, baxışın əfsun,
Qulac saçlarından göz necə doysun.
Heyranı olduğum qoy mənim olsun,
Məndən əsirgəmə mətahı, gözəl.

O, şəhla gözlərin süzülüb gedir,
Baxan tilsimlənir,üzülüb gedir,
Qəlbimdə misralar düzülüb gedir,
Neyləsin Cəbrayıl,ay ahu gözəl?!

# Deyir

İlahi,bu gözəl vəsfə gələrmi?!
Ürək dilə gəlib mənə yaz deyir.
Gözəllik eşqinə qələm çal, şair,
Yanaq deyir, işvə deyir, naz deyir.

Gözəl, gözlərindən gözəl gözmü var?!
Atəşin mislində görən közmü var?!
Gözəlliyin söyləməyə sözmü var?!
Çağla aşıq, sinəmdəki saz deyir.

Belə gözəl gəlməyibdir cahana,
Sev məni,söyləyir bu gözəl sona.
Baxışı, duruşu, özü bir yana,
Ayağı altından qopan toz deyir.

Gəl,eşqin bağına, görüşək yenə,
Qəlbimə işıq sal,həyat ver mənə.
Elə gözəlsən ki, görənlər sənə,
Laləli, nərgizli bahar- yaz deyir.

Mən səni görəndən olmuşam mail,
Görənlər əqlini edirsən zail.
Eşqinlə Məcnuna dönən Cəbrayıl
İnan, nə deyirsə, hələ az deyir.

# Gözlər

Bir süzgün baxışla saldı kəməndə,
Məni alışdıran, alışan gözlər.
Sahilsiz ümmantək alıb qoynuna,
Bir sevgi dastanı danışan gözlər.

O gözlər zülmətdə çırağım oldu,
Dəli gəncliyimə sorağım oldu,
Mənə ən yaxınkən uzağım oldu,
Qismətə,qədərə qovuşan gözlər

İntizar çəkməkdən olmuşam xəstə,
O gözlər yandırıb-yaxmaq həvəsdə,
Hərdən də Ay kimi başımın üstə
Xumar-xumar baxıb dolaşan gözlər.

Cəbrayıl,o gözlər gözümdən getməz
Qaydadır,aşiqlər vüsalə yetməz.
Mən ölüb gedərəm,bu sevgi bitməz,
Ömrümə,ruhuma qarışan gözlər!

# Ala gözlər

Məni məftun edib bir ala gözlü,
O, ala gözlərlə yatıb dururam.
Ürək dilə gəlir bir baxışıyla,
Dərdimi,sərimi atıb dururam.

Yoluma çıraqdı dumanda,çəndə,
Dünya gözəlləşir adam sevəndə.
O gözlər süzülüb cilvələnəndə,
Dirilik suyuna çatıb dururam.

Cəbrayıl,can alır gözlər axanda,
Gözəl mələk olur ürək yaxanda.
Süzdürüb gözlərin xumar baxanda,
Eşqin zirvəsinə yetib dururam.

# Bu necə sevdadır

Bu necə sevdadır,necə məhəbbət?!
Hicranın vüsaldan şirindir, gülüm.
Bu necə xoşbəxtlik,necə səadət-
Ürəyim əbədi yerindir, gülüm!

Bir dəli sevdaya salmısan məni,
Bilmirəm mələksən,yoxsa bəşərsən.
İlahi bir varlıq tək sevirəm səni,
Qorxuram gözümdə adiləşərsən!

Divanə könlümə əbədi yarsan,
Uzaqda deyilsən, eləməndəsən.
Mən harda varamsa, sən orda varsan,
Qəlbimə hakimsən, sirli bəndəsən!

Bilmirəm hardasan, amma bilirəm,
Bir gözəllik işıq saçır dünyaya.
İnan ki, o işıq sönsə, sönərəm,
Günəş yaranmısan Günəşə, Aya.

Olduğun məkan da sevinir indi,
Gözəllik bürüyüb gəzdiyin yeri.
Qəlbim bir həsrətlə dillənir indi,
Alıb ağuşuna sonsuz göyləri.

Qaçım sənə tərəf- eşqim boyunca,
Gündə milyon kərə sənə vurulum.
Baxım gözlərinə, baxım doyunca,
O saf gözlərinə baxım, durulum.

Ey yanar qəlbimin sevinci, dərdi!
Ürəyim inləyən bir kaman simi.
Bu dünya alışıb külə dönərdi,
Sən məni sevsəydin mən sevən kimi!

# Yaşadım

Ruhumu yerindən oynadan gözəl,
Bu dünyanı baxışında yaşadım.
Məni məndən aldın xumar baxışla,
Məhəbbətin ağuşunda yaşadım.

Qəlbimdə bir dəli sevda oyandı,
Ürək oda düşdü,yandı,nə yandı!
Aləm işıqlandı, nura boyandı,
İldırımın çaxışında yaşadım.

Bilməm nə sevgiydi bu payız çağı,
Fırlatdın başıma aranı, dağı.
Özümü zirvədən atıb aşağı,
Şəlalənin axışında yaşadım.

Məni bir atəşə atdı bu sevgi,
Yandırıb yaxmaqdan şaddı bu sevgi,
Ömrümə min çalar qatdı bu sevgi,
Bir sevdanın naxışında yaşadım.

# Sənin

Ulduzlu gecədir,şehlənib çəmən,
Yenə xəyalındı, bir ay, bir də mən.
Harda oluramsa, könlümdə sənsən,
Könlümdə taxt qurub xəyalın sənin.

O,incə yerişin canımı üzər,
İlahi yar olsun, dəyməsin nəzər.
Qaşlarının tağı hilala bənzər,
Məni məftun edib hilalın sənin.

Sinəmdə eşqinlə bir ürək çağlar,
Könül nalə çəkər,gözlərim ağlar.
Hicranın alovu sinəmi dağlar,
Aşiqə dərmandı vüsalın sənin.

Məndə can qoymadı o,qara xalın,
Dilində şəkərin, dodaqda balın.
Sənin gözəlliyin- sənin cəlalın,
Həmişə var olsun,cəlalın sənin.

Cəbrayılın qəlbi eşqinlə dinər,
Səninlə sevinər, səninlə gülər,
Sönməz bir günəşdir,qəlbə nur çilər,
Natəvan misallı kamalın sənin.

# Gəlmədi

İllərlə oduna yandığım gözəl,
Məni oda salıb getdi gəlmədi.
Ahımdan dağlar da alışıb yandı,
Qəlbimi pərişan etdi, gəlmədi.

Onsuz keçən bu dünyanı neylərəm,
Ulduzu qaralmış aysız göylərəm.
Gecə- gündüz ahü- fəğan eylərəm,
Fəryadım göylərə yetdi, gəlmədi.

Cəbrayıl, keçmədi ömrün cəfasız,
Gözəllər olurmuş demə vəfasız.
Hələ də qəlbimdən boylanır o qız,
Bir ömür beləcə bitdi, gəlmədi.

# Məni

Bu can sənin əlindədir,
Ağlat məni, kirit məni.
Gedim o dünyanı görüm,
Öldür məni, dirilt məni.

Bilməmişəm,xam olmuşam,
Yarı idim, tam olmuşam,
Gecələrə şam olmuşam
Gilə- gilə ərit məni.

Niyə düşdüm səndən uzaq,
Tökülürəm yarpaq-yarpaq,
Süleymanı alan torpaq,
Al qoynuna çürüt məni.

# Gülüm

Gecə- gündüz fərağınla,
Bülbültək ötürəm, gülüm.
Görmək üçün səni bir an,
Yollarda bitirəm, gülüm.

Qəlbimə salmısan közü,
Dolanıram dağı, düzü.
Sən keçən yolları, izi,
Gözümə təpirəm, gülüm.

Dərdə dərman mətahımsan,
Mən qulunam, sən şahımsan.
Bilməm,bəlkə günahımsan?
Eşqinə əsirəm, gülüm.

Bir şəmisən, pərvanəyəm,
Keçən günəm, əfsanəyəm,
Mən bir dəli- divanəyəm,
Nə qoca, nə pirəm, gülüm.

Cəbrayılı çəkmə dara,
Bimarınam, eylə çara.
Xəyal getdi uzaqlara,
Mənzilə yetirəm gülüm.

# Gözümdə

Sənsiz bu dünyanı neylərəm, gülüm,
Aləm cənnət ola heçdi gözümdə.
Sənsiz üzüm gülməz,eynim açılmaz,
Çiçəkli bahar da qışdı gözümdə.

Canımı yolunda qurban eylədim,
Bağrımın başını al-qan eylədim,
Sənin həsrətinlə fəğan eylədim,
Gecələr səhəri açdı gözümdə.

Cəbrayıl, hər zaman eşqin dəmisən,
Yar gələn yollara ürək sərmisən.
Dedilər əğyara könül vermisən,
Yerlə göy birləşdi, uçdu gözümdə.

# A Leyli

Məni Məcnun edən o gözlərindən,
Bir ömür yazsam da çatmaz,a Leyli.
Huri- mələk ola, göylərdən enə,
Qəlbimə bir kimsə yatmaz a Leyli.

Bir gülsən, güllərin qönçəsi, təri,
Gözündə gözlərim açdım səhəri
O şəhla gözləri görəndən bəri,
Gözüm çimir etməz, yatmaz, a Leyli

Dolanır başına günlərim,ayım,
Cəbrayıl, o gözlər Tanrıdan payım.
Gündüzlər Günəşim, gecələr Ayım,
Ay batar, o gözlər batmaz, a Leyli.

# Nədir

Qılıncsız, nizəsiz öldürdün məni,
Belə bəzənməkdə məramın nədir?!
Bir süzgün baxışla dondum yerimdə
Təbibim, loğmanım, dərmanın nədir?!

Sən bir mələkmisən,gəlmisən göydən?
Ağlımı, başımı almısan sərdən.
Tufanlar, çovğunlar keçdi içimdən,
Bu yazın günündə tufanın nədir?!

Ötdü xəzan fəsli,yetişdi bahar,
Dərdimə çarə qıl, qalmışam naçar.
Bu zindan, bu qıfıl, bu da ki, açar,
Əmrin, sərəncamın, fərmanın nədir?

Sənin xəyalların yeddinci qatda,
Mənsə alovlanıb yanıram odda.
Yaman qəlbidaşsan,o sinən altda,
Aramsız döyünən,vuranın nədir?

Ay mənim həyatım, dinim, imanım,
Tükəndi taqətim, üzüldü canım.
Məni məftun etdi sənin bir anın,
Cəbrayıl soruşur: hər anın nədir?

# Bu gecə

Elə bil göylər də mənimtək dolub,
Buludlar gözünü sıxır bu gecə.
Bir narın yağışın qərib səsindən,
Könlümə bir həsrət yağır bu gecə.

Dünyada bir şey yox, həsrətdən ağır,
Ürək güc gələndə neyləsin ağıl?
Göylərə qoşulub gözüm də yağır,
Bu təşnə qəlbimə axır bu gecə.

Duyub-düşündükcə, günəş camalı,
Can alan gözləri, yanaqda xalı,
Yetmədim vüsalə, dərdi-məlalı,
Qəlbimi yandırıb yaxır bu gecə.

Bu gecə şadlanır çöl də,çəmən də,
Bir mənim ürəyim düşüb kəməndə.
Çöldə narın yağış, amma sinəmdə,
Leysan var, ildırım çaxır bu gecə.

# Olmasaydı

Zülmətə dönərdi gözümdə dünya,
Heyranı olduğum göz olmasaydı.
Necə vəsf edərdim şəhla gözləri,
Ruha qanad verən söz olmasaydı?

O gözlər olmasa, inan donardım,
Bilmirəm, od tutub bəlkə yanardım?!
Sinəmdən asılan bir daş sanardım,
Ürəyim alışıb köz olmasaydı.

Eşqin badəsini içə bilməzdim,
Keçiməz yolları keçə bilməzdim,
Sevən ürəklərə köçə bilməzdim,
Cəbrayıl yolunda düz olmasaydı.

# Sənsən

Sualla öpüşən nida kimiyəm,
Sahilsiz dəryada ada kimiyəm,
Kimsəsiz, ocaqsız oda kimiyəm,
Gəl,isit qəlbimi,ocağım sənsən.

Sən könül tarımın sarı simisən,
Görməyəndə gözlərimin nəmisən.
Laləli, nərgizli çəmən kimisən,
Güllü-gülüstanım,həm bağım sənsən

Ay xumar baxışlım, ay qaşı kaman,
Sabaha çıxmağa qalmayıb güman.
Eşqinlə qovrulub mən bişən zaman,
Üzümü tutduğum yaylağım sənsən.

Şəfəqlər saçılır al yanağından,
Bülbül aralanmaz gül budağından,
Gülüm, bal süzülür dil- dodağından,
Şəkərim,noğulum,qaymağım sənsən.

Məhəbbət bağının şirin barısan,
Sən könül mülkümün ixtiyarısan.
Bir dağ çeşməsisən-safsan,durusan
Gözündən içdiyim bulağım sənsən.

Unutmaz eşqimi ayna bulaqlar,
Çiçəkli çəmənlər,dumanlı dağlar.
Necə şirin idi o sənli çağlar,
Ömrümə yazılan o çağım sənsən.

Cəbrayıl, dikilib yollara gözüm,
O gələn yollara qurbanam özüm.
Ən şirin qafiyəm, ən şirin sözüm,
Kitabım,qələmim,varağım sənsən.

# Esselər

# Hekayələr

# Publisistika

# Xatirələr



# İllər nə tez keçdi...

Bir göz qırpımında 65 də gəldi. Elə bilirəm, 60 illik yubileyimi dünən-srağagün qeyd eləmişik. Bu beş il necə tez gəlib keçdi, gözlərimə inana bilmirəm. Artıq bir neçə gündür ki, ömrün altmış beşinci ilindən xərcləməyə başlamışam. Özümə deyirəm ki, xeyirli-uğurlu olsun. Elə altmış beşin astanasında olan dostlarım da sağ olsunlar, bu münasibətlə yığışıb xeyir-dua verdilər. Bu altmış beşin xofundan çıxmaq üçün özümüzə əməlli-başlı qulluq elədik.Ta başımız dumanlanıb özümüzü cavan oğlan hiss edənədək…

İllərin belə tez gəlib-keçməsini düşünəndə, iki fikir keçir başımdan: Ya çox yaxşı yaşayırıq, zamanın fərqində deyilik, ya da dolanışıqla bağlı başımız o qədər qarışıqdı ki, işdən-gücdən başımız ayılmır: Görək səhər nə zaman açıldı, axşam nə vaxt düşdü. Amma şükranlıqla onu da deyirəm ki, 65-ə gəlib çıxa bildik. Üzüağ, alnıaçıq, mənəvi itkilər vermədən. Fiziki itkilər verməyimiz təbiidir. Saç ağarır, diş tökülür, bel bükülür, qol qüvvədən düşür...

Amma şükür Allahın böyüklüyünə, ətrafa baxırsan, şəvə saçlı, qolları güclü, dişləri cağbacağ, şux qamətli oğlun, qızın, nəvələrin yanındadır. Özümüzdən aldıqlarını səxavətli, qadir Allah beş qatı, on qatı ilə övladlarımıza, yaxınlarımıza verir.

Bineyi-qədimdən dünyanın quruluşu belədir. Özü də nə yaxşı ki, belədir. Dünyanın nizam-tərəzisini quran o gözəgörünməz necə məsləhət bilibsə, orda bir hikmət var, gözəllik var. Ona görə də, Allahın elədiklərinin hamısına ilahi gözəllik deyirlər...

Vaxtilə bizim "Bilik" hazırlıq kursunda Hacı Əkbərli adında qocaman bir pedaqoq çalışırdı. Abituriyentlərin nizam-intizamına nəzarət edirdi. Səksəndən çox yaşı olan Hacı müəllimin, həm də yaxşı natiqlik məharəti var idi. Bəlağətli çıxışlar edər, yüksək pafosla şeirlər deyərdi.

Yaşdan söz düşəndə deyirdi ki, yaşın oldu əlli-işlərin bəlli. Yəni,evin-eşiyin ailən, oğlun-qızın, həyatda qoyduğun iz və s.

Yaşın oldu altmış-gör nə etmisən, nə qalmış. Yəni çalış kəm-kəsir işlərini də yekunlaşdır, yarımçıq qalmasın.

Yaşın oldu yetmiş-qorxma, demə ki, işim bitmiş, Allah-təala izn verər, bir az da yaşayıb ürəyindən keçənləri, arzularını həyata keçirəsən.

Yaşın oldu səksən-görürsən ki, məclisdə təksən. Yəni 80 yaş elə yaşdır ki, o yaşda məclisdə tək-tük adam olur. Yaşın oldu doxsan-ola bilər ki, anidən yoxsan. Və axırda da pafosla deyirdi ki, əgər yüzə çatsan-demək qəhrəmansan!

Hacı müəllimin hesabıynan hələ cavanıq. Şükür ki, hələ təklənməmişik. Ətrafımızada xeyli dost-tanış var. Ayda, iki ayda bir dəfə dostlarla yığışırıq, dünyanın get-gəlləri barədə söhbətləşirik, dərdləşirik. Hələ yeri gələndə, sağ olsunlar, bəzi yeyib-içməyə meyilli olan dostların təkidi ilə süfrə arxa-

sında maraqlı bir gün də keçirdirik. Tələbəlik illərindən, orta məktəb illərindən yadda qalan maraqlı hadisələr məclisə xüsusi bir ahəng gətirir, gözəllik verir.

Çox vaxt yaşımızın da fərqinə varmadan özümüzə həmin illərin gözü ilə baxıb deyirik: Uşaqların bir-ikisi gecikib, gəlin onları da, gözləyək gəlsinlər, hamımız bir yerdə gedərik. Bəzən müşahidə etmişəm "uşaqlar" sözünü eşidən kənardakı adamlar saç-saqqalı ağarmış bizlərin "uşaqlar" sözünə əməlli-başlı təəccüblənibıər...

İndi 65 yaşın zirvəsindən keçmişə boylanıram. Gözəl səsi, avazı olan Məhəbbət Kazımovun oxuduğu ''Ay ilk məhəbbətim, son məhəbbətim" mahnısının bir misrası yadıma düşür: "Sən nə istəyirdin, nələr itirdin."

Uşaqlıq, gənclik arzularımı xatırlayıram... Həyata keçənləri də var, keçməyənləri də. Orta məktəbdə oxuyanda ən böyük arzularımdan biri Bakı Dövlət Universitetinə daxil olmaq, müəllim olmaq, millətimizin balalarına elm, təhsil vermək idi. Bu arzum həyata keçdi, hələ üstəlik fizika metodikası sahəsində alimlik dərəcəsi də aldım, beş kitabın nəşr olundu: "Abasqulu Abaszadənin elmi-pedoqji irsi'', ''Düşüncələr işığında'', ''Ömür bitər, yol bitməz", "Gördüyüm dünya'', "Dünya sevgi yaşındadır''.

Ailə-övlad sarıdan da narazı deyiləm. Dörd övladım universitet bitirib, bir övladım isə orta ixtisas təhsili alıb. İstəyirdim ki, müstəqil dövlətimiz olsun, oldu da. 1991-ci il 18 oktyabr günü nə qədər sevinmişəm, bir Allah bilir. Amma ne-

cə oldu? Bir gözümüz ağladı, bir gözümüz güldü. Bir tərəfdən sevindik və qürur duyduq ki, imzalar içində bizim də imzamız, bayraqlar içində bizim də bayrağımız var. Amma qəlbimiz qan ağladı ki, torpaqlarımızın iyirmi faizi işğal olundu, doğma yurdlarımızdan didərgin düşdük. Didərgin düşmüş insanlar müxtəlif bölgələrə səpələndilər. Hərə bir diyarda məskunlaşdı. Qohum qohumdan, ana baladan, el–eldən aralı düşdü. Qaçqın, köçkün damğasıyla, sıxıntılarla, məhrumiyyətlərlə yaşadıq. Bəzən dünyasını dəyişən ellilərimizdən aylardan sonra xəbər tutduq...

Yaxud, yaşadığımız cəmiyyətdə çox vaxt haqq-ədalət görməyəndə, bir çox məmurların xalqın malını talan etdiyini görəndə, sözün düzünü deyərkən təqib olunduğunu görəndə məyus olursan. Türk istiqlal marşının müəllifi, şair Mehmet Akif Ərsoy nə gözəl deyib:

*Ölmək deyildir dünyanın ən fəci işi,*
*Müşkül olan odur ki, ölməkdən qabaq ölür kişi.*

Bəli, ölməkdən qabaq mənən ölmək çox böyük faciədir! Çox təəsüf ki, , “Danabaş kəndinin əhvalatları” bu gün də aktualdır. Yenə də hər addımbaşı Xudayar bəylərlə rastlaşırıq və onlar yenə də Vəliqulunun anasını ağladırlar...

Açığı bu 65 illik ömrümün 30 ili çox sürətlə keçdi-bir göz qırpımında. Bu bayatıda deyildiyi kimi:

*Dünyaya yayaq gəldim,*
*Yatmadım oyaq gəldim.*
*Ömür deyir yüz il keçdi,*
*Ürək deyir bayaq gəldim.*

Bu, bir tərəfdən onunla bağlıdır ki, son 30 ildə nələr görmədik ki! Sovet hökumətinin dağılması, hərc-mərclik, I Qarabağ müharibəsi, doğma yurdlarmızın işğalı, dövlət çevrilişləri, milli-azadlıq hərəkatı, 20 yanvar faciəsi, II Qarabağ müharibəsi...

Amma mənim bu illərdən bir təsəllim var ki, həmişə böyük ideyalar naminə yaşadım, həqiqət naminə yaşadım, öz mənafeyimi ictimai mənafedən heç vaxt yuxarı tutmadım. Gücüm çatan qədər öz millətimə xeyir verməyə çalışdım; müəllim peşəmlə, haqqın, ədalətin, yanında olmağımla. Kiməsə yamaq olmadım, kölə, müti həyat yaşamadım. Piyada getsəm də, heç vaxt bir çoxları kimi "payada", getmədim. Yaxşı nə varsa, onu qorumağa, daha da inkişaf etdirməyə çalışdım.

2020-ci ildə çox sevindik. Torpaqlarmızın mütləq əksəriyyəti işğaldan azad olundu. 2021-ci il may ayının 17-də doğma yurdlarımıza-Fizuliyə, Cəbrayıla, Qubadlıya, Laçına, öz doğma kəndimə-Güləbirdə gedə bildim. Bunu ayrıca bir yazıda təfərrüatı ilə qeyd etdiyimə görə çox danışmaq istəmirəm. Amma Qarabağla bağlı nıgarançılığımız hələ də qalmaqdadır.

Çox təəssüf ki, "sülhməramlı", deyilən rus qoşunları Qarabağda yerləşdirildi. Onların məramı 200 ildən çoxdur ki, bizə məlumdur. Allah onların məramına lənət eləsin!

İnnən belə iki böyük arzum var: Doğma yurdlarımızda əbədi sülh bərqərar olsun. İkincisi, millətimizə, dövlətimizlə bağlı görmək istədiklərimi, görə bilmədiklərimi bizdən sonra gələn nəsillər həyata keçirsinlər. Biz görməsək də, bizim nəvə-nəticələrimiz Azərbaycanın gözəl günlərini görsünlər və xoşbəxt yaşasınlar.

# Üç sualın ağrısı

Adətən, sualın cavabını tapanda adam rahatlaşır. Amma düz iyirmi dörd ildir ki, cavabın bildiyim üç sual gecəli-gündüzlü məni rahat buraxmır: Laçın niyə işğal olundu? Biz Laçında nələri itirdik? Biz Laçına qayıtmaq üçün nə etməliyik? Sözsüz ki, bu suallar işğal olunmuş bütövlükdə Qarabağımıza da aiddir. Mən ona görə birinci olaraq Laçından başladım ki, Laçın rayonunun Güləbird kəndində dünyaya göz açmışam. Ömrümün 35 ili-uşaqlığım, gəncliyim və on bir illik müəllimlik həyatım Laçınla bağlıdır. Və bir də ki, 1988-1993–cü illərdə, bilavasitə, Laçında və onun ətrafında baş verən, cərəyan edən hadisələrin içərisində olmuşam...

Sözsüz ki, bizim üçün hal-hazırda vacib olan üçüncü sual və onun cavabıdır. Yəni, biz Laçına qayıtmaq üçün nə etməliyik? Şuşaya, Laçına, Kəlbəcərə, Qubadlıya, Zəngilana, Cəbrayıla... bütövlükdə işğal olunmuş Qarabağımıza necə qayıtmağın yolları hal-hazırda uşaqdan-böyüyə hamını düşündürür. Və həmçinin, belə düşünənlərdən, nəinki düşünənlərdən, yurd həsrətiylə, yurd ağrılarıyla yaşayan yüz minlərlə insanlardan biri də mənəm...

Məlum həqiqətdir ki, qalibiyyətə gedən yolun əsas hissəsi məğlubiyyətin dərslərini dərk etməkdən keçir.Bu baxımdan biz doğma Qarabağımıza, Laçınımıza necə qayıtmağı özündə ehtiva edən üçüncü sualın cavabını tapmaq üçün ilk

iki sualın cavabını araşdırmaqdan başlamaq təbii və məqsədəuyğun olardı.

Və beləliklə, birinci sual: Laçın niyə işğal olundu? Əvvəla ondan başlayaq ki, yaxşının, gözəlliyin pərəstişkarları olduğu kimi, bədxahları, düşmənləri də olur. Pərəstişkarlar – sevən dostlardır, böyük qəlbi olan insanlardır. Amma başqasına aid olan bir yaxşını gözü götürməmək, yaxud onu ələ keçirmək, zəbt etmək istəyi naqislikdir, haqsızlıqdır, düşmənçilikdir.

Tanıyanlar bilir ki, Laçın rayonu təbiətinə, sərvətinə görə gözəl və zəngin bir yerdir.Geostrateji mövqeyinə görə əlverişli bir məkandır. Laçına həmişə mərdlik qalası deyiblər, füsunkarlığına görə dağlar gözəli adlandırıblar.Bəli, bu gözəlliyin-Laçın yurdunun, Laçın təbiətinin doğma laçınlılar və bu torpaqlara açıq ürəklə, saf qəlblə ayaq basmış, dincəlməyə gəlmiş insanlar kimi vurğunları, pərəstişkarları, sevənləri var...

Təəssüflər olsun ki, belə bir gözəl, əlverişli məkanın əhatəsində güclü, məkrli himayədarları olan, Laçının gözəlliyindən gözü qamaşan, onun sərvətinə göz tikən və ən əsası Laçına Qarabağın qara qapısı kimi baxan hiyləgər bir erməni dövləti də var. Sovet hökümətinin dağılma ərəfəsindən başlayaraq, qarmaqarışıqlıqdan istifadə edən ermənilər Rusiyanın böyük hərbi dəstəyi ilə Laçına, o cümlədən, Qarabağ ətrafı rayonlara və Qarabağdakı Azərbaycan kəndlərinə hücuma keçdi. Yerli camaat müqavimət göstərsə də, bu mütəşək-

kil silahlanmış düşmənlə müqayisədə yetərli deyildi. Eyni zamanda, yenicə yaranmağa başlamış ordumuzun zəifliyi, hakimiyyətdə böhran, daha doğrusu, hakimiyyətsizlik, ölkəni bürümüş xalq hərəkatı, təəssüflər olsun ki, xalq hərəkatının içərisində bəzi xəyanətkar qüvvələr, "sapı özümüzdən olan baltalar" və bu kimi neqativ hallar Laçının işğalına yol açdı, rəvac verdi.

Onu da qeyd etmək lazımdır ki, ermənilər bu işğala himayədarlarının, xüsusilə, rusların köməyi ilə təkcə keçən əsrin 90-cı illərində nail olmadı. Onlar "Daşnaksütyun"adlı faşist partiyasının rəhbərliyi ilə uzun illərdi ki, buna hazırlaşırdı. Biz isə etiraf edək ki, bu müharibəyə nəinki hazırlaşmış, əksinə, bir qonşu kimi hər zaman öz qonşuluq və insanlıq borcumuzu yerinə yetirməyə çalışmışıq.

Keçən əsrdə-1905-1907, 1918-1920-ci illərdə baş verənləri, erməni quldurları tərəfindən xalqımızın başına gətirilənləri, qırğınları unutmasaq da, həmin hadisələrə böyük yazıçımız C.Cabbarlının dediyi kimi "atan kazaklardır"prizmasından yanaşmışıq. Qonşumuz olan ermənilərdən daha çox araqarışdıranları, himayədarlıq edənləri-rusları, fransızları, ingilisləri günahlandırmışıq. İnana bilməmişik ki, qonşu-qonşuya bu qədər xəyanətkar, qəddar və amansız ola bilər.-Qonşuluğu həmişə müqəddəs bilmişik. Milli-mənəvi dəyərlərimizi uca tutmuşuq. Çünki ata-babalarımızdan belə görmüşdük, belə eşitmişdik.

Amma çox heyif ki, atalarımızın bir sözünü unutmuşduq:Qarı düşmən dost olmaz.Yaxud atalarımızın başqa bir sözü: İtlə yoldaşlıq elə, amma çomağı yerə qoyma. Əslində, gərək biz hər zaman ermənilərlə ehtiyatlı olmalıydıq, sayıqlığımızı əldən verməyəydik. Amma etriraf edək ki, ermənilər bizə qarşı on illərlə müharibəyə hazırlaşanda, Azərbaycan mühitində gizli tədqiqatlar aparıb elmi əsaslarla "boş damarlarımızı" tapıb üzə çıxaranda Üzeyir Hacıbəyli demişkən, biz hələ yatmışdıq. O vaxt oyandıq ki, artıq iş-işdən keçmişdi.Elə ermənilərin fəallaşdığı, baş qaldırdığı 1988-1992 ci illərdə bizim başımız öz-özümüzlə vuruşmağa qarışmışdı. Demək olar ki, düşmən yaddan çıxmışdı. Bu, əsasən, mərkəzdə belə idi. Mərkəzlə əlaqəni itirmiş yerli Qarabağ camaatı düşmənlə əlbəyaxa,köməksiz qalmışdı.

Çox təəssüf ki, həmin vaxtlar düşmənlə ölüm-dirim mübarizəsinə qalxan, doğma yurdlarımızın, torpaqlarımızın bütövlüyü uğrunda döyüşən igid oğul-qızlarımızla yanaşı, vəzifə, hakimiyyət, sərvət uğrunda mübarizə aparanlar da var idi. Bəlkə də, işğalın əsas səbəblərindən biri elə bu idi.Ancaq bu da bir həqiqətdir ki, istər sovet rejimi zamanı, istər ondan əvvəlki dövrlərdə, istərsə də hal-hazırki dövrdə bölgədə hegemon və böyük gücə malik olan ruslar hər zaman ermənilərin nəinki tərəfini saxlamış, onlara himayədarlıq etmiş, eyni, zamanda, azərbaycanlıları sıxışdırmışdı. Son hadisələr başlayanda eyni bir dövlətin –SSRİ -nin tərkibində olmağımıza baxmayaraq, ruslar azərbaycanlılardan ov tü-

fənglərini də yığmış, əvəzində isə erməniləri ən müasir silahlarla silahlandırmışdır.

Həmin hadisələri – 1988-1993-cü illər hadisələrini öz taleyində yaşayan bir laçınlı kimi deyə bilərəm ki, camaatımız uşaqdan böyüyə, cavanından ağsaqqalına kimi hamı gücü çatan qədər düşmənə qarşı igidliklə, cəsarətlə döyüşdü. Nə qədər əsir düşənlər, ölənlər, yaralananlar, şikəst olanlar oldu. Laçının altı nəfər igid oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Amma nə edəsən ki, qüvvələrin qeyri-bərabərliyi, əvvəldə qeyd etdiyim bir sıra obyektiv səbəblər, ən başlıcası isə Rusiyanın ermənilərə güclü himayədarlığı, həm canlı qüvvə, həm də texnika sarıdan böyük kömək göstərməsi nəticəsində laçınlılar ata-baba torpaqlarından, yurd-yuvasından didərgin düşdü. Və beləliklə, 1992-ci ilin 18 mayında Laçın işğal olundu.

Biz Laçında nələri itirdik? Sözsüz ki, hər zaman qazanmaq mümkün olan var-dövləti, ev-eşiyi mən bura daxil etmirəm. Ən başlıcası, biz doğma yurdlarımızı, ata-babalarımızın bizə əmanət qoyduğu əzəli torpaqlarımızı, tarixin daş yaddaşı olan və erməni vandallarının yerlə yeksan etdiyi maddi-mədəniyyət abidələrimizi, səfalı yaylaqlarımızı, "qüdrətdən səngərli qalalı dağlar"ımızı, zümrüd meşələri, ayna bulaqları olan loğman təbiətimizi itirdik. Söz yox ki, biz torpaqlarımızı işğaldan azad edəcək və doğma yurdlarımıza, əzəli-əbədi torpaqlarımıza qayıdacağıq. Ancaq elə itkilər var ki, onların yeri milli-mənəvi dünyamızda bəlkə də, əbədilik boş qalacaq və

bizi zaman-zaman ağrıdacaq. Bu tarixin daş yaddaşı olan maddi-mədəniyyət nümunələrinin məhv edilməsi nəticəsində yaranan itkilərdi...

Camaatımız pərən-pərən düşdü. Məzarlarımız düşmən tapdağında qaldı. Fidan balalarımız igid atalarını itirdi, uşaqlığını itirdi, dodaqdakı gülüşlərini itirdi. Analar oğullarını itirdi.Gəlinlərimiz ömür-gün yoldaşlarını itirdi, gözəlliyini, şuxluğunu itirdi.Ata-analarımızın dərd-kədərdən, yurd həsrətindən beli büküldü. Dideyi-giryanlıqdan-didərginlikdən gözlərinin nurunu, qəm yükünün ağırlığından dizlərinin taqətini itirdilər. “Kaş gedib orda-doğma yurdumda, elimin-obamın içində öləydim, əzizlərimin məzarına qovuşa biləydim”-arzuları ürəyində qaldı. Heç olmasa, son olaraq doğma torpaqlarına qovuşa bilmədilər. Hərəsi bir diyarda, bir ölkədə, bir rayonda yurd nisgili ilə dünyadan köçdülər. Məzarları da didərgin düşdü doğma yerlərdən. Laçın yurdu, Laçın dağları doğma elini, elatını itirdi. Laçın torpağı “Qoy ölüm, bir qarış torpağın artsın”, -deyən minlərlə laçınlının məzarını itirdi...

Daha Sarıbabasız, İşıqlısız, Əlyetməzsiz, Çalbayırsız, Həkərisiz...dünyaya gəlir laçınlılar. Dağ qürurundan, yalçın qayaların əzəmətindən, bulaq saflığından, torpaq səxavətindən, yaylaq qonaqpərvərliyindən, dəli dağ çaylarının nəriltisindən uzaqlarda göz açır laçınlılar. Elə bu səbəbdən də özgürlüyümüz, özünə məxsus adət-ənənələrimiz də yavaş-yavaş itməkdədir... “Qazandığımız” isə vətən həsrəti, yurd nis-

gili, bir də...bir də 24 ildir ki, qəlbimizi ağrıdan, ürəyimizə ox kimi sancılan, çiyinlərimizdə Yer Kürəsinin ağırlığına bərabər olan qaçqın adı, didərgin adı...

Biz doğma Qarabağımıza, doğma Laçınımıza qayıtmaq üçün nə etməliyik? Bunun bəlkə də ən qısa cavabı budur ki, hərə öz üzərinə düşən işi vicdanla yerinə yetirməlidir. Şagirdindən tutmuş məmuradək, tələbədən tutmuş alimədək, müəllimdən, həkimdən tutmuş mühəndisədək, əsgərdən tutmuş generaladək. Bəlkə də bu yolda ən çətin və gərəkli iş müəllimin işidir. Çünki yetişməkdə olan gənc nəslin bilik və bacarıqlarının formalaşmasında, onların yüksək vətənpərvərlik ruhunda böyüməsində müəllimin böyük rolu vardır. Mən həmişə müəllim əməyini, müəllim işini düşünəndə Almanyanın başçısı olmuş Bismarkın bir sözü yadıma düşür: "Prussiya-Fransa müharibəsində biz qalib gəldik, daha doğrusu, alman müəllimi fransız müəlliminə qalib gəldi". Bəli, hamı öz işində vicdanla çalışsa, dövlətimiz daha da güclü olar. Və məlum həqiqətdir ki, hamı güclü ilə hesablaşır. Daha doğrusu, hesablaşmağa məhkumdur.

Yekunda bir məsələni qeyd etmək istərdim ki, müasir dövr, fiziki güc, silahlarla savaş dövründən daha çox, intellekt mübarizəsi, intellekt savaşı, intellekt yarışı dövrüdür. Diplomatiya dövrüdür. Uğurlu siyasət aparmaq dövrüdür. Kiminsə, hansı dövlətinsə bizi düşdüyümüz bəladan çıxarması absurddur. Birinci növbədə, güc özümüzdən gəlməlidir: dövlətimiz güclü, onun daxili və xarici siyasəti məqsədyönlü olma-

lıdır. Sözsüz ki, sözlə başa düşməyəni güclə başa salmalısan. Odur ki, ordumuz da hər zaman yüksək səviyədə olmalıdır: həm texnika, həm də canlı heyət baxımından. Bir sözlə, torpaqlarımızı işğaldan azad etmək üçün, uğurlu daxili siyasətlə yanaşı, xarici siyasətimizi daha da gücləndirməli, dünyada söz və güc sahibi olmalıyıq. Və inanıram ki, biz buna nail olacaq, doğma yurdlarımızı, cənnət Qarabağı yağı düşmənlərdən azad edəcəyik.

**P.S.**- *Bu yazı 2016-cı ildə qələmə alınmışdır. Şükürlər olsun ki, 2020-ci ildə Qələbə ilə başa çatan 44 günlük İkinci Qarabağ müharibəsi bu ağrıları ürəyimizdən silə bildi. Doğma yurdlarımız yağı düşməndən azad edildi. Düz 28 il ayrılıqdan sonra Laçın rayonuna, doğma kəndim Güləbirdə səfər etdim. Bu barədə növbəti səhifələrdə söhbət açacağam.*

# Yol gedir Vətən sarı...

16 may 2021-ci il. Gözəl bir yaz günü idi. Vaxti ilə Beyləqanda orta məktəbdə dərs dediyim və o gündən bu günə xoş münasibətimiz olan, hal-hazırda Aztv-də fəaliyyət göstərən Sərvər Bayramovdan mənə zəng gəldi. Hal-əhval tutduqdan sonra bildirdi ki, Cəbrayıl müəllim, xahiş edirəm sabah saat 4-də (gecə) Aztv-nin həyətində olarsız. Bir qrup Laçın sakinləri (əksəriyyəti sizin Güləbird kəndindəndir) və televiziya işçiləri Laçına səfər edəcəyik...

Qələbə ilə bitən 44 günlük İkinci Qarabağ müharibəsindən sonra bizim kəndə gedənlər olmuşdu. Videolar çəkib göndərmişdilər. Xüsusi ilə də, əziz şagirdlərim olmuş İsayev Elnur, Firidov Fikrət kəndin son vəziyyəti ilə bağlı xeyli videolar, həmçinin, bizim evi də çəkib mənə göndərmişdilər. Amma özümün getməyim bir başqa. 28 ilin yurd həsrətini, keçirdiyim hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bu mənada sevincimin həddi-hüdudu yox idi. Düz 28 ildən sonra doğma yurdum Güləbirdə səfər edəcəkdim. Özü də Laçının işğal olunduğu, böyük ağrılarla andığımız bir gündə -mayın 17-də. Düzdür, Laçının işğalı günü təqvimdə 18-may göstərilir. Əslində, düşmən hərbi bölmələri öz havadarlarının köməyi ilə Laçın şəhərini 1992-ci il may ayının 17-də tutmuşdu. Ola bilər ki, o, məşum təslim olma günü mayın 18-də olmuşdu.

Açığı bu işğaldan sonra əksər illərdə “Laçın” qəzetinin 18 mayda çıxan saylarında mənim işğalla bağlı geniş həcmli yazılarım dərc olunub. 18 may ərəfələrində Aztv-də, İctimai televizyada, Mədəniyyət kanalında, müsahibələrim, çıxışlarım olub. “Respublika”, “Laçın”, “Qarabağa aparan yol”, “Qanun və məmur”, “Təhsil”, “Ədalət”, “Pillələr”, “Zəngəzur” və digər mətbuat orqanlarında milli birliyimizlə, gənclərin vətənpərvərlik tərbiyəsi ilə bağlı xeyli yazılarım dərc olunmuşdu.

Və indi biz 17 may 2021-ci ildə 28 ildən çox həsrətində olduğumuz Laçında Laçın sakinləri ilə birlikdə qələbə gününü qeyd edəcəyik. Şükür Allahın bu xoş gününə!

Vədələşdiyimiz kimi mayın 17-si gecə saat 4-ün yarısında qardaşım İsa ilə evdən çıxdıq. Balaca qardaşım Vüqar bizi maşınla Aztv-nin binasının həyətinə apardı. Laçına səfərə gedənlər yavaş-yavaş toplaşırdı. Çox keçmədi ki, bizim kəndin sakinlərindən kəndin axırıncı kolxoz sədri olmuş Tahir Salahov, vaxtı ilə Güləbird kənd orta məktəbində dərs dediyim, hal-hazırda milli məclisin deputatı Mahir Abbaszadə, digər bir şagirdim olmuş Məcburi Köçkünlərin Sosial İnkişaf fondunun direktor müavini Vüqar İmranov, həmçinin həmkəndlim, Aztv-də jurnalist kimi fəaliyyət göstərən Vüsal Mətləb gəlib çıxdılar. Və televizyanın bir neçə əməkdaşı, çəkliş rəhbərləri də toplaşdıqdan sonra saat 4-də Laçına yola düşdük.

Yola düşməzdən qabaq Vüqar İmranovun dediyi bir söz açığı məni duyğulandırdı. Vüqar dedi ki, müəllim qismətə bir bax . Sizin 2013-cü ildə kəndimizlə bağlı yazdığınız kitabın adı "Ömür bitər, yol bitməz" adlanır. Doğrudan da yol bitmədi. Bizim yolumuz 28 ildən sonra yenidən doğma kəndimizə-Güləbirdə doğru davam etməkdədir...

Hamıda bir qələbəlik ruhu vardı. Bir neçə saatdan sonra Füzuli rayonunun Horadiz qəsəbəsinə çatdıq. Horadizdə böyük bir hərbi post var idi. Hərbi postda bütün maşınlar saxlanıldı və hamı bir-bir yoxlanıldı. Təxminən bir saat yoxlanışdan sonra bizi hərbi postdan yola saldılar. Və bir hərbçi maşını da bizi müşaiyət edirdi. Onu da deyim ki, Horadiz postunda bir neçə nəfər kəndçilərimlə-Birinci Qarabağ savaşında çox böyük döyüş yolu keçmiş Murad Eyvazov,Nazim Qəhrəmanov və İlqar Quluyevlə görüşdüm. İlqar Quluyev İkinci Qarabağ müharibəsində də fəal iştirak etmiş, medallarla təltif olunmuşdu... Onlarla görüş zamanı məlum oldu ki, İctimai televizyanın, Atv-nin, ARB-nin, Real-TV-nin əməkdaşları da Laçına səfər edirlər. Azad olmuş yurdlarımızdan çəkilişlər etmək, reportajlar hazırlamaq üçün.

Füzuli rayonunun Böyük Bəhmənli kəndindən keçəndə burada yeni görülmüş işləri, tikintiləri görəndə ürəyim dağa döndü. Deməli, illər öncə bu kəndə bir yas yerinə getmişdim. Demək olar ki, həmin vaxtlar kəndə bir sönüklük var idi. İşğaldan qabaq bir neçə yerdə ev tikmək üçün tökülmüş daşqum eləcə də qalmışdı. Heç kim yeni nəsə etmək istəmirdi.

Daşı-daş üstə qoymaq həvəsi qalmamışdı. Çünki erməni postları lap yaxınlıqda idi. Tez-tez atəşkəs pozulurdu. Hər an hücum ola bilərdi. Kənd işğal oluna bilərdi.

Mən orda olanda (gərək ki,2011-ci il idi) yerli adamlar söylədi ki, camaatın əl-qolu soyuyub.Yeni heç bir iş görə bilmirik. Cavanlar kənddə qalıb ev-eşik tikmək istəmirlər. Demək olar ki, evlərin bir çoxu da boş idi. Kənd adamları qapıları qıfıllayıb Bakıya, Sumqayıta və digər yerlərə köçüblər. Onu demək istəyirəm ki, İkinci Qarabağ müharibəsindəki qələbəyədək Ağdam, Füzuli rayonlarının işğal olunmamış, yəni bizdə olan kəndlərində inkişaf baxımdan bir sönüklük var idi. 2021-ci il may ayındakı vəziyyəti görəndə çox sevindim. Artıq camaat hamısı öz evlərinə qayıtmış, qələbədən keçən 6-7 ay içərisində kəndlər yaxşılığa doğru görkəmini xeyli dəyişmişdi. Hamı əkin-biçində, tikinti-quruculuq işləri ilə məşğul idi. Kəndə bir qaynar həyat hökm sürürdü...

Füzuli rayonunun ərazisində keçərkən, təxminən, altı ay qabaq baş vermiş bir hadisə yadıma düşdü. Deməli, Zəfərlə bitən 44 günlük İkinci Qarabağ müharibəsindən bir neçə gün sonra, duyğulu anlar yaşadığım bir gün tarda bir "Segah" çalıb zümzümə etmişdim. Deyim ki, neçə illərin yurd həsrəti, qələbə sevinci bir-birinə qarışıb kövrək bir musiqi alınmışdı. Və nəvəm Raul da həmin çalıb-oxumağımı telefonun yaddaşına köçürmüşdü. Bu musiqi yazısını yaxın dostum, söz-sənət adamı, əslən Füzuli rayonunun Yağlıvənd kəndindən olub, ta uşaqlığından Şuşanın işğalınadək Şuşada

oxuyub-işləmiş Kərim Kərimliyə göndərdim. Məni kimi 28 il yurd həsrəti ilə yaşamış Kərim müəllim həmin musiqidən duyğulanaraq, şeir yazmış və mənə göndərmişdi. Füzuli rayonunda olarkən həmin şeirin bir neçə bəndi yadıma düşdü. Bu bəndlərin demək olar ki, əksəriyyəti yurd nisgilli, vətən havalı bəndlər idi..

Dərdinə şərik eylə,
Sevincimi böl mənim.
Yarısı azad olan,
Yurd sənindir, el mənim.

Bu nə hicran səsidir,
Nə ahu-zardı belə?
Nə qərib nəfəsdir,
Nə intizardı belə?!

Güləbird həsrətimi,
Laçın dərdimi dərdin?
Dinlədikcə səsini,
Dərdindən dərdi dərdim.

Pünhan qəm-kədər adlı,
Yarın var imiş sənin.
Dar məqamda qucmağa,
Tarın var imiş sənin.

Sıx sinənə tarını,
Ağla, doyunca ağla.
Salvartıdan Qırxqıza,
Həkəri boyunca ağla.

Qoy yağının suları,
Durulmasın, Cəbrayıl.
Mizrab çalan qolların,
Yorulmasın, Cəbrayıl.

Əllərimiz bir yumruq,
Çiyinlər çiyin olsun.
Məhv edək düşmənləri,
Qələbə yeyin olsun.

Kədərdən əl çək daha,
Qələbəyə köklənək.
Laçına yol çək daha,
O dağlara söykənək.

Yol boyu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının ərazilərindən keçdikcə erməni vandalları tərəfindən dağıdılmış evlər, məktəblər viranə qalmış, xarabazara çevrilmiş yurd yerlərimiz ürək ağrıdırdı. Amma gördüyümüz, baxdığımız mənzərədə iki şey adamın ruhunu oxşayırdı. Birincisi o idi ki, yaz vaxtı ola, Qarabağ torpağı ola: Hər tərəf gül-çüçək lalə, nərgiz, yaşıl çəmənliklər gül çiçəyin ətri, çəmən-

liklərin qoxusu adama bir ruh verirdi. Ciyər dolusu təmiz dağ havası, Qarabağ havası da bir başqa gözəllik! Bir də ki, yol boyu texnikaların işləməsi, gediş-gəlişin olması, murdar ermənilərdən azad olmuş yollarda bizimkilərin piyada, ya da maşınla qarşımızdan azad, sərbəst o yan-bu yana ötməsi bizə çox böyük ruhi dinclik gətirir, ürəyimiz açılırdı. Gör nə vaxtdır bu yollar doğma insanlara həsrət idi! Deyim ki, adını çəkdiyim rayonların ərazisində çox böyük yol-tikinti işləri gedirdi.

Vaxtı ilə biz getdiyimiz yollar tamamilə dağılıb sökülmüşdü. Bir də ki, ermənilər ora yaşamaq, yaratmaq üçün, yol çəkmək, yolları bərpa etmək üçün gəlməmişdilər ki! Əvvəla onlar kim idi ki, bizim torpaqlara gələ, bizim dədə-baba torpaqlarımızı işğal edə. Onları ora gətirən var idi. Arxasında duran böyük güclər var idi. İkinci də onlar bilirdilər ki, əzəl-axır bizim torpaqlarımızdan rədd olub gedəsidilər. Bu torpağın dədə-baba yiyələri var. Nə vaxtsa onlar qayıdacaqlar...

Deməli, müəyyən yerlərdə təzəliklə çəkilmiş yol ilə köhnədən olan yollar çulğaşırdı, müəyyən yerlərdə isə uzaqlaşırdı. Təzə çəkilmiş əsas yol ilə əsas yoldan yeni yaradılmış hərbi hissələrə gedən yollar bəzən qarışırdı bir-birinə. Ona görə də maşın karvanından ayrılan maşınlar bəzən çaş-baş qalırdı. Xüsusilə də, doğma yurdlara tez çatmaq həvəsi ilə qabaqda gedən maşınlar yolu itirirdi.

Horadiz postundan çıxandan sonra Tahir Salahovun idarə etdiyi və mənim, Sərvər Bayramovun, Mətləb Vüsalın əyləş-

diyi bizim maşın ən qabaqda gedirdi. Və bayaq qeyd etdiyim kimi belə yol qarışıqlığında Cəbrayıl rayonunun ərazisində biz yolu itirdik. Maşını bir Çinar ağacının kölgəsinə verib o biri maşınlardakı adamlarla əlaqə yaratmağa çalışdıq. Dərd orasıdır ki, maşından düşəndən sonra yeni çəkilmiş yoldan kənara çıxıb gül-çiçəkliyə, çəmənliyə doğru getməyə ehtiyat edirdik. Horadiz postunda hərbiçilər qəti göstəriş vermişdi ki, magistral yoldan kənara çıxmaq olmaz. Çünki, magistral yol minadan təmizlənib boş sahələrdə mina basdırıla bilər. Nəhayət, o biri maşınlardakı adamlarla əlaqə saxlayıb əsas yolun yerini müəyyənləşdirə bildik. Təxmini olaraq iki-üç kilometr geri qayıdıb yolun haçalandığı yerə gəldik. Və həmin yoldan əsas yola çıxdıq. Yolun sol tərəfində Qələbədən sonra əkilmiş taxıl zəmiləri göz oxşayırdı.

Cəbrayıl rayonunun Niyazqulular kəndindən keçəndə bir çox xatirələr yadıma düşdü. Bu kənd mənim tələbə yoldaşım Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Quliyev Vahid Həbibulla oğlunun kəndidir. Bu kənddə mən çox olmuşam. Hər gələndə Həbibulla kişi və ailəsi məni hörmətlə qarşılardı. Haqq dünyasına qovuşublar. Allah hər ikisinə rəhmət eləsin. Vahidlə axşamlar kəndin yuxarılarına-təzə məhlələr deyilən yerə çıxıb gəzişərdik... Haşiyə çıxaraq deyim ki, ehtiyyatda olan polkovnik-leytenant Vahid Quliyev hal-hazırda Bakıda yaşayır. Ara-sıra görüşüb dərdləşirik. Vahidin birinci Qarabağ müharibəsində böyük əziyyətləri, xidmətləri olub. Amma çox təəssüflənirdi ki, heyf oldu bütün əziyyətlərimiz. Amma İkinci Qarabağ müharibəsindəki qələ-

bədən sonra bütün xalqımız kimi onun da ürəyi bir rahatlıq tapdı...

Yol boyu diqqətimi çəkən hadisələrdən biri də Cəbrayıl-Zəngilan əraziləri sərhəddində Araz çayı üzərində yaradılan iri bir dəryaça oldu. Dəryaçanın bir tərəfi İranın dağ kəndlərinə qədər uzanıb gedirdi. Nə vaxt yaradıldığını bilmirəm. Amma işğaldan sonrakı işdi. Biz o vaxtı bu yolla gedəndə bu dəryaça yox idi. Təxminən 7-8 il bundan qabaq eşitmişdim ki, İranla Ermənistan birgə həm suvarma sistemi, həm də elektrik enerjisi almaq məqsədi ilə Araz çayının qabağına bənd atıb dəryaça yaratmaq istəyirdilər. O vaxtı mən onu elə belə şaiyə kimi qəbul etmişdim. Əslində doğru imiş.

Maşınımız Zəngilanın Ağalı kəndinə daxil olanda orada böyük tikinti quruculuq işlərinin şahidi oldum. Bildiyiniz kimi hal-hazırda orada "Ağıllı kənd" deyilən böyük bir kəndin inşası başa çatdırılıb. İnşallah məcburi köçkünlərin qayıdışını gözləyir.

Yol boyu irəlilədikcə Qubadlı rayonu ərazilərində də dağıdılmış, viran edilmiş kəndlərimizin xarabalıqları adamın ürəyini dağlayırdı. Diqqətimi çəkən hadisələrdən biri də Qubadlının böyük kəndlərindən olan Xanlıq kəndi ərazisində, Həkəri çayının sol sahilində Suriyadan gətirilən ermənilər üçün tikilən böyük bir qəsəbə oldu. Sözsüz ki, biz ordan keçəndə evlər bomboş idi. Necə deyərlər, lələ köçüb yurdu qalıb. Qəsəbə yaxınlığında bir neçə yerdə bizim hərbi hissələrimiz uzaqdan görünürdü. Onu da deyim ki, Qubadlı ərazi-

lərində Həkəri çayı boyunca xeyli yeni üzüm sahələri salınmışdı. Düzdür, əvvələr də bu ərazilərdə böyük üzüm plantasiyaları var idi... Yeni salınmış üzüm plantasiyaları hesabına üzümlüklər daha geniş əraziləri əhatə edirdi.

Qubadlının Xanlıq kəndini keçəndə gün xeyli qalxmışdı. Saat on birə qalırdı. Nəhayət, Qubadlının sonuncu kəndi, mənim üçün doğma olan və bizim qonşu kənd olan Muradxanlı kəndinə çatdıq. Burada da tikinti-quruculuq işləri gedirdi. Yol tikintisi ilə bərabər yola yaxın bir yerdə böyük bir binanın tikintisi aparılırdı. Məktəb binasına oxşayırdı. Dedilər ki, hələlik hərbi hissə üçün nəzərdə tutulub. Yəqin Muradxanlı camaatı doğma yurda döndükdən sonra ya xəstəxana, ya uşaq baxçası, ya da orta məktəb olacaq.

Mənim üçün xeyli xatirələri olan qədim Muradxanlı xəstəxanasının yeri dümdüz idi. Elə bil burada heç xəstəxana binası olmamışdı. Ona görə qədim deyirəm ki, bizim kənddə xəstəxana olmamışdan hələ 30 il qabaq bu xəstəxana mövcud olmuşdu. Həm də yaxşı həkimlər çalışırdı. Bizdən Laçın şəhər xəstəxanasına 35 kilometr, Muradxanlı xəstəxanasına isə 5 kilmetr idi. Ona görə yadımdadır ki, atam, anam xəstələnən vaxt bura çox gəliblər. Eləcə də məni və məndən sonrakı qardaşım Rafaeli də bir neçə dəfə bu xəstəxanaya gətirmişdilər.

Muradxanlı kəndində uzun illər bazar olub. Yadımdadır ki, neçə illər dalbadal, xüsusilə də Novruz bayramı ərəfəsində atamla bu bazara gələrdik. Atam bayram üçün bazarlıq edərdi. Özü də atla gələrdik...

Muradxanlı xəstəxanasına çatar-çatmaz kəndin içindən keçən balaca bir çayın üstündə hələ o vaxtlar körpü salınmışdı. Ermənilər bu ərazilərdən qaçarkən o körpünü də partlatmışdılar. 44 günlük müharibə bitdikdən sonra çayın üzərində müvəqqəti olaraq yeni bir körpü salınmışdı.

Muradxanlı kəndini keçdikdən sonra axrıncı döngədən bizim kənd – Güləbird kəndi görünməyə başladı.

Nələr keçirdiyimi bir Allah bilir... Muradxanlıdan Güləbird körpüsünədək olan 5 kilometr yol sanki bitmək bilmirdi. Adam qanadlanıb uçmaq istəyirdi. Bir az da tez çata bilsəydik... Və nəhayət ki, 17 may 2021-ci il saat on ikinin yarısında Güləbird körpüsünə çatdıq. 28 ilin ayrılığı, torpaqlarımızın işğaldan azad olunmasının sanki bir möcüzə olma həyəcanı, yanımızdan şaqqıltıyla axan Həkəri çayının qıjıltılı doğma səsi, uzaqdan görünən Sarı qayanın, Pələklinin, Barmaqların, Gen dərənin, Bilavdaşın... doğma "baxışları"müqəddəs, pak duyğulara dönüb ürəyimin döyüntülərinə qarışmışdı. Az qala ürəyim yerindən çıxacaqdı. İllərdi ürəyimə axan kədər yaşları bu gün sevinc yaşlarına dönüb gözümdə göllənməşdi. Və ilk olaraq Bəhmən Vətənoğlunun iki bənd şeiri keçdi xəyalımda:

İllər ayrısıyıq gəl qucaqlaşaq,
Nə yaxşı görüşdük salam, a dağlar.
Bu yurdun ən gözəl şairi sənsən,
Mən sənin yanında lalam, a dağlar.

... Bəhmənəm, o illər gendə qalıbdı,
Azdığım dumanda, çəndə qalıbdı,
Mənim cavanlığım səndə qalıbdı,
İndi bir saçları çalam, a dağlar.

Bəli, kənddən çıxanda 35 yaşım vardı. İndi isə 63 yaşım var. Daraq batmayan qapqara saçlarım ağappaq qara dönüb.

Güləbird körpüsü ilə bağlı ta keçən əsrin 70-ci illərindəki tikintisindən başlamış 1993-cü ilə kimi nə qədər xatirələrim baş qaldırdı. Yadımdadır ki, bu böyük körpü biz orta məktəbdə oxuyanda tikilirdi. Dərsdən sonra sinif yoldaşlarımızla gəlib, Bakıdan-Neft daşlarından gəlmiş mühəndis, konstruktorların, fəhlələrin (bir neçəsi rus idi) böyük diametrli turbaları çayın ortasına necə basdırdıqlarına maraqla baxırdıq.... Tələbə vaxtı Bakıya gedərkən körpünün yanındakı dayanacaqda avtobus, yol maşını gözləməyimiz, körpünün gözündəki "Bayatı" pavilyonunda yaxın dostlarla yeyib-içməyimiz, ordakı "Bayatı" qutusuna təzə eşidib-bildiyimiz bayatıları yazıb atmağımız bir-bir gəlib keçdi gözümün önündən...

Körpünün kəndə giriş hissəsini ermənilər qaçan zaman partlatmışdı. 44 günlük müharibə başa çatdıqdan sonra qismən bərpa edilmişdi. Körpünün yaxınlığında Həkəri çayının sol yamacında yerləşən "Bayatı" pavilyonundan əsər-əlamət qalmamışdı. Ora yaxın bir yerdə müharibədən sonra vaqonlar qoyulmuş və tikinti aparmaq məqsədi ilə xeyli texnika

toplanmışdı. Əsasən yolları bərpa etmək, yeni yol salmaq üçün. Yeni olan bir də o idi ki, ermənilər Həkəri çayının üstündə, kəndin girişində elektrik stansiyası tikmişdilər. Görünür, ermənilər bu zonada yerləşən hərbi hissələrini və Güləbird kəndində təkəm-seyrək yaşayan erməni ailələrini elektrik enerjisi ilə təmin etmək üçün bu stansiyadan istifadə edirlərmiş.

Laçın səfərində olan Laçın sakinləri, hər iki Qarabağ müharibəsinin iştirakçıları və televizya əməkdaşları, demək olar ki, hamısı Güləbird körpüsünə çatmışdılar. Kəndə girməmiş hamı maşınlardan düşüb gəzişirdi. Şəkil çəkdirən kim, təbiətin qoynunda gül-çiçək dərən kim, Həkəri çayına enib əl-üzünü yuyan kim. Körpünün yanından həm Qubadlı, həm də Laçın istiqamətə gözəl bir mənzərə açılırdı. Hamı bu gözəl mənzərəni seyr edirdi. Həmin ərəfədə dost-tanışdan mənə xeyli telefon zəngləri gəldi. Votsapda şəkillərimi görən dostlar doğma yurdda, Laçında olduğma görə məni təbrik edirdilər.

Sonra maşın karvanı- bir avtobus, beş minik maşını körpüdən keçib Güləbird kəndinə doğru yön aldı. Kəndin girişində hündür bir yerdə- Aşığın yaylağı deyilən yerdə bayrağımız dalğalanırdı.Vaxtı ilə Aşığın yaylağı deyilən yerin sağ tərəfində yerləşən Güləbird kənd xəstəxanasından və onun aşağı hissəsində hektarlarla uzanıb gedən alma, ərik bağlarından əsər-əlamət yox idi. Ağaclar tamamilə qırılmış, ya da

baxımsızlıqdan quruyub tələf olmuş, xəstəxananın mişar daşları axırıncı dənəsinə kimi sökülüb aparılmışdı.

Səfərdə olanlar ilk olaraq kəndin girişinə yaxın bir yerdə, hündür bir təpədə yerləşən, lakin tamamilə dağıdılmış, yerlə yeksan edilmiş Sarı Aşığın qəbrini ziyarət etdilər. XVII əsrin yadigarı olan Aşıq günbəzi, Sarı Aşığın abidəsi, girişdəki darvaza, divarları, Sarı Aşığın qəbri erməni vandalları tərəfindən tamamilə dağıdılmışdı.

Sarı Aşığın qəbrini ziyarət edən zaman xoş bir təsadüf hamının ürəyincə oldu. Mənim kəndçim, qohumum, şagirdim olmuş Vüqar İmranov vaxtı ilə özünün hazırladığı, daş üzərində oyduğu Sarı Aşığın kiçik abidəsini daşların altından tapıb çıxardı. Və o qədər sevindi ki! Bu barədə televizyaya müsahibə də verdi.

Mən hələ 1993-cü ilə qədər kənddə olanda bilirdim ki, Vüqarın daş üzərində oyduğu Sarı Aşığın kiçik abidəsi böyük abidənin yanında yerləşdirilmişdi. Amma düzü bu kiçik abidənin müfəssəl tarixini bilmirdim. Vüqar müsahibəsində dedi ki, Sarı Aşığın qəbri üzərində onun abidəsi hazırlanan vaxt mən orta məktəbdə oxuyurdum. Abidə bizim evə yaxın olduğu üçün mən tez-tez gəlib memarın işi ilə maraqlanır, heykəltaraş Aslan Rüstəmova kömək edirdim. Aslan Rüstəmov mənim əl qabliyyətimi, memarlığa marağımı görüb dedi ki, sən də öz düşündüyün kimi, necə təsəvvür edirsənsə, Sarı Aşığın daş üzərində bir şəkilini çək, oyma üsulu ilə. Gətir yerləşdirək Sarı Aşığın heykəlinin yanında. Mən də bu daş

üzərində oymanı hazırladım və heykəltaraşın çox xoşuna gəldiyi üçün burada yerləşdirməyi lazım bildi.

Mənim üçün çox möcüzəli gəldi ki, o boyda Günbəzin, Abidənin dağıdılmış, qalaq kimi üst-üstə yığılmış daşları altında Vüqar həmin oyma memarlıq əl işini necə tapıb çıxara bildi. Elə bil əliynən qoymuşdu. Vüqar jurnalistə müsahibə verən zaman dedi ki, bu uşaqlıq əl işimi indilikdə Bakıya aparıram. İnşallah gələcəkdə Sarı Aşığın abidəsi, Bayatı muzeyi yenidən hazır olanda bu kiçik abidəni də həmin muzeyə təhvil verəcəm...

Güləbird kəndi deyim ki, Həkəri çayı boyunca dörd kilometrdən çox uzanıb gedir. Eyni zamanda keçən əsrin 80-cı illərindən sonra kənd eninə də genişlənərək dağın döşünə doğru xeyli "irəliləmişdir".

28 ilin həsrətindən sonra hərə böyüyüb, boya başa çatdığı öz evlərinə, ya qismən, ya da tamamilə dağıdılmış evlərinin xarabalıqlarına baxmağa tələsir, həsrətin odunu az da olsa, soyutmaq istəyirdi. Odur ki, kəndin əsas, ana yolu ilə kəndin aşağısından yuxarıya doğru evlərə, məhlələrə baxa-baxa, daha doğrusu, ağrıya-ağrıya (işğaldan azad olma sevinci ilə yanaşı) gedirdik.

Kəndin ortasında olan nəhəng klubdan əsər-əlamət yox idi. Söküb aparmışdılar. Onu da deyim ki, kənddə olan hərbiçilər kəndin yolundan uzaq olan evlərə getməyə icazə vermirdilər. Əvvəla, yoldan kənarda otu yarıb keçmək olmurdu, həm də hərbiçilər yuxarı sahələrdə minalar olmamasına zə-

manət vermirdilər. Deyirdilər ki, bura erməni postlarına yaxın ərazilərdi. Ola bilər ki, onların kəşfiyyatı gecəynən yaxın əraziləri minalaya bilər. Ona görə də əsas yoldan kənara çıxmaq təhlükəli hesab olunurdu.

Və nəhayət ki, qardaşım İsa ilə mən boya-başa çatdığımız evimizə gəlib çatdıq. Həyət-bacanı gəzdik. Bağdakı ağacların çoxusu qurumuşdu, evimiz, evin arxasındakı tövlə demək olar ki, salamat idi. Amma ikinci mərtəbədə “plaşadka” dediyimiz 60 kvadratmetrə yaxın böyük sahəsi olan eyvanın bir xeyli taxtası sökülmüş, məhəccərin daşlarının yarısı yox idi. İkinci mərtəbədə otaqlarda 20-yə yaxın çarpayı var idi. Görünürdü ki, əsgərlər uzun müddət evdən kazarma kimi istifadə ediblər. Qonşularımız olan Rəşid kişinin, Əziz əmimgilin evlərinin xeyli hissəsi dağıdılmışdı. Bizim evdən bir-iki ev yuxarı tərəfdə yerləşən Hüseyn əmim və İbiş əmimgilin də evləri demək olar ki, salamat idi. Onlardan da kazarma kimi istifadə olunduğu görünürdü.

Desələr ki, bu 28 ilin ayrılığından, həsrətindən sonra doğma yurdumuzda, öz evinizdə hansı hisslər keçirirdiniz? Vallah, deyim ki, donub qalmışdım. İçimdəki saysız-hesabsız suallarla qarşı-qarşıya sanki mücadilədə idim. -Axı niyə belə oldu? Ata-anamızın gözümüzün qabağında halal zəhmətlə, min bir əziyyətlə tikdiyi bu evdə niyə axı biz ürəyimizdən keçən kimi yaşaya bilmədik? Adam da öz yurd-yuvasından, obasından didərgin düşərmi? Buna hansı qansız, vicdansız qol çəkdi? Niyə yüz minlərlə insanlar çöllərə dağıldı? Niyə minlərlə oğullarımız şəhid oldu? Nəydi onların günahı? Niyə

onların ata-anaları, bacı-qardaşları çöllərə düşüb ahu-zar edə-edə hərəsi bir diyarda torpağa kömüldü? Qardaş bacıdan, ana oğuldan ayrı düşdü? Niyə günahsız, məsum körpələr yetim qaldı? Evimiz də, həyətimiz də, həyətdə suyu qurumuş arx da mənə yetim görünürdü. Elə qu desən, qulaq tutulan bütün kənd də mənə yetim görünürdü. Elsiz, uşaqsız, böyüksüz, ağsaqqalsız, cavansız, qızsız, gəlinsiz, qoyunsuz-quzusuz, toyuqsuz-cücəsiz... kənd necə görünər ki!

Kənddə diqqətimi cəkən cəhətlərdən biri də o oldu ki, bağlarda, yol qıraqlarında əvvəl olmayan xeyli qoz ağacları, xurma ağacları vardı. Ya bunlar sel-sularnan gələn toxumlardan özü bitmişdi, ya da ki, ermənilər özü salmışdı. Demək olar ki, qoz və xurma ağacları saysız-hesabsız idi. Biz 1993-cü ildə kənddən çıxanda az-çox qoz ağacları olsa da, xurma ağacları bəlkə də yox idi. Açığı Güləbird kəndində istənilən meyvə ağaclarından, özü də gen-bol var idi. Amma nədənsə o vaxtdan bizim kənddə xurma ağacları yox dərəcəsində idi. Mən bildiyimdən bir Abbasov Müseyibin bağında xurma ağacları var idi.

Kəndin ortalığında, bir də lap aşağı qurtaracağında kolxozun çox böyük sahələri əhatə edən alma-ərik bağları tamamilə yoxa çıxmışdı. Ya kəsib doğramışdılar, ya da ki, susuzluqdan quruyub tələf olmuşdu. Amma onu da deyim ki, kəndin müəyyən yerlərini, xüsusən də, Həkəri çayı boyu və onun yaxin ətraflarını söyüd, yulğun, iydə, ləpir, böyürtkən kolları elə basmışdı ki, sanki meşəni xatırladırdı.

Səfər zamanı mənim üçün ən ağrılı cəhət o oldu ki, əzizlərimizin qəbirlərini ziyarət edə bilmədim. İllərlə ayaq dəyməyən qəbirstanlığı elə kol-kos basmışdı ki, getməyə çətinlik çəkirdim və o biri tərəfdən də hərbiçilər icazə vermirdi ki, sahələr minalanmış ola bilər. Bu azmış kimi digər tərəfdən də çəkiliş proqramına daxil olan 6 nəfərin (mən də o proqramda idim) iş qrafiki çox sıx olduğuna görə açığı kənddən kənara çıxmağa vaxt da qalmadı.

Biz bir neçə nəfər Bayraq meydanında çəkilişdə olarkən qardaşım İsa hərbiçilərin diqqətindən yayınıb Aztv işçisi Sərvər Bayramov və Vüqar İmranovla qəbirstanlığa gedə bilmişdilər...

Bayraq meydanındakı çəkilişdən sonra bütün səfərdə olanlar Humay bulağına gəldik. Bulağın buz kimi suyundan içib bir az dincəldik. May ayı olsa da, həmin gün hava bərk isti idi. Hər kəs Bakıya, Sumqayıta yaxınlarına, doğmalarına neçə illər həsrətində olduqları Vətən suyundan aparmaq istəyirdi. Odur ki, hərə bir-iki qab su doldurdu. Həmçinin mən də.

Həmin ərəfədə anam xəstə yatırdı. Mən də anam üçün, evdəkilər üçün 3-4 butulka Humay bulağından su götürdüm. Dedim 28 ildən sonra doğma yurdun suyundan anama aparsam böyük savab olar. Ya qismət, doğma yurda qayıtmaq anama qismət ola ya olmaya, ömür çata, ya çatmaya. Və çox təəssüf ki, düz üç ay sonra anam dünyasını dəyişdi...

Axşam düşürdü. Ürəyimiz ayrılmasa da, Bakıya yola düşməyə hazırlaşan maşınlar bizi gözləyirdi. Doğma yurd

yerlərinə baxa-baxa və əbədilik qayıtmaq ümidiylə kəndimizdən ayrıldıq. Və hamımız bir nəfər kimi Allaha şükür etdik ki, doğma yurdlarımızın işğaldan azad olunduğu günləri gördük. İnşaallah ellərimizin doğma yurdlara köçü başlayan günlərə çox qalmayıb ...

Həmin anlarda 2016-cı ildə – 5 il bundan qabaq yazdığım bir şeirim yadıma düşdü:

Necə xoşbəxt idim yuxuda, Allah!
Ellərin qayıdan köçünü gördüm.
Nura boyanmışdı qənirsiz Şuşa,
Gözəl Qarabağı, Laçını gördüm.

Gözləri dolmuşdu Sarıbabanın,
Göylərə baş çəkən o gövhər –kanın.
Yaman sevinirdi anamız –Laçın,
Dumanlı dağların tacını gördüm.

Baxdım, o dağlara doyunca baxdım,
Zirvədə buludun əlini sıxdım.
Sevindim, yuxudan sevincək qalxdım,
Ayıldım, ağrını, acını gördüm.

Yuxum çin olmuşdu.Yaxşı yuxularınız hər zaman çin olsun!

# Çin olmuş yuxular

Yuxugörmənin səbəb və sirrlərini hələ müasir elm axıra qədər aça bilməyib. Amma bəzi səbəblərini bir çoxları kimi mən də bilirəm. Əvvəla, yuxugörməyə, zənnimcə, iki yöndən yanaşmaq daha düzgün olardı: Niyə yuxu görürük? Və gördüyümüz yuxular bizə nə deyir?

Bəzən yuxular, doğrudan da, tamamilə çin çıxır, yaxud ona oxşar nəsə olur. Amma ola da bilər ki, gördüyün yuxudan əsər-əlamət olmayan bir hadisəyə də rast gəlmiyəsən. Biz, adətən, israrlıyıq, istəkliyik ki, gördüyümüz yuxu olduğu kimi qarşımıza çıxsın. Bu, əlbəttə, düzgün yanaşma deyil. Bundan çox bəlkə də yuxunun alt qatlarına, onun şifrələrinə baş vurmaq, bu yuxu dolayısı ilə sənə nə deyir, o haqda düşünmək daha doğru olardı...

Belə qənatdəyəm ki, yuxugörmə adamın həm fiziki sağlamlığı, həm də mənəvi, ruhi aləmi ilə çox sıx bağlıdır. Yəni, o adamlar daha çox yuxu görür ki, həm fiziki, həm də mənəvi-psixoloji baxımdan narahat olan adamlardı. Və özü də o adamları daha çox yuxuda görürsən ki, onlara sən ruhən çox yaxınsan, çox bağlısan, o adamları çox düşünürsən. O hadisələri yuxuda görürsən ki, o hadisələrlə birbaşa olmasa da, dolayısı ilə daha çox bağlılığın var. Yəni, yuxugörməyə meyilliyi olan adamlar, əsasən, çox narahat və ya duyğusal, həssas adamlardı. Narahatçılıqdan da narahat olmağa dəyməz. O

boyda L.Tolstoydan halını soruşanda:-Şükür Allaha, narahatam,- deyir.

Yuxugörmə ilə bağlı bir əndişəmi də deyib, keçirəm əsas məsələyə. Deməli, yuxugörmə ilə bağlı mənim üçün ən maraqlı məsələlərdən biri də odur ki, yuxuda olduğum beş dəqiqənin içərisində gördüyüm yuxunun miqyası, danışsam saatlarla davam edə bilər. Bunu mən planlı şəkildə eksperiment də eləmişəm. Gecə baxıram saata: ikiyə qalıb beş dəqiqə. Hələ yatmamışam. Və ayılıram ki, saat üçə işləyib on beş dəqiqə. Yəni yatmışam cəmisi, təxminən on-on beş dəqiqə və həmin on-on beş dəqiqədə bir sijilləmə yuxu görmüşəm.

Adama elə gəlir ki, yuxuda gördüklərimiz fərqli zaman-məkan müstəvisində baş verir. Bir də maraqlı cəhət odur ki, yuxu görüb ayılan anda gördüyüm yuxu nöqtə-vergülünə qədər yadımda olur. Amma səhərisi çox vaxt gördüyüm yuxunu tam təfərrüatı ilə xatırlaya bilmirəm, yaddaşımdan çox yerləri silinir. Ona görə də bəzən gördüyüm yuxuları, əgər həmin anlarda sevincdən, ya kədərdən, həyəcandan ayılsam, ərincəklik eləmədən durub əsas elementlərini qeyd dəftərimə yazıram: Əgər mənə qeyri-adi dərəcədə maraqlıdırsa. Bəzən elə yuxular görmüşəm ki, hərəsi ən azı bir hekayə mövzusu ola biləcək qədər maraqlı, qeyri-adi yuxulardı. İnanın ki, adam ayıq olanda belə sujet qura bilməz. Amma təəssüf ki, çox az qeydlərim var. Ümumiyyətlə, uşaqlıqdan, tələbəçilikdən üzübəri mənim bu yuxugörmə ilə bağlı xeyli sərgüzəştlərim olub.

Yadımdadır ki, altıncı sinifdə oxuyanda bir riyaziyyat məsələsinin üstündə bir gün əlləşmişəm. Cavabı alınmırdı. Mən də riyaziyyatı çox yaxşı oxuyurdum. Rəhmətlik riyaziyyat müəllimim, böyük pedaqoq, gözəl insan Əliqulu müəllimin qarşısına necə çıxacam, onu təsəvvür edə bilmirdim. Odur ki, naəlac qalıb gecə saat on radələrində qonşu Cicimli kəndində sovet sədri işləyən İbiş əmimə zəng edib məsələni ona oxudum. Sonra nə oldusa, kommutatorla əlaqə kəsildi. Təkrar çalaşmaq da uzun məsələ idi. Əmim tarixçi olsa da, riyaziyyatı yaxşı bilirdi. İndi 90 yaşı var. Allah can sağlığı versin. Əlqərəz həmin gecə yuxuda məsələni həll etdim. Və sabahsı gün əmimlə əlaqə yaratdım ki, narahat olmasın, məsələni həll etmişəm. Deməli, məsələ çoxsuallı məsələ idi. Yadımdadır ki, axırıncı sualda vahiddən $\frac{2}{3}$-ni çıxmalı imişəm. Və çıxıb $\frac{1}{3}$ aldım. Cavab da $\frac{1}{3}$ idi. Ondan sonra sinif yoldaşlarım mənə zarafatla deyirdilər ki, sənin başın yuxuda yaxşı işləyir...

Son illərdə ən çox gördüyüm yuxular 30 ildir ayrı düşdüyümüz doğma yurdlar, boya-başa çatdığım kənddəki evimiz, biçənəkdə atamla ot çalmağımız, Üçtəpə yaylağındakı uşaqlıq sərgüzəştlərim, yaylaqdakı alaçıqlardan aşağıdakı qəjəldə qoyun-quzu otarmağımız, böyük daş mağaralara baxıb ayı yuvaları axtarmağımız, Ağbulaq ətrafında baldırğan yığmağımız, iyun-iyul aylarında Qarnaqdan vedrə-vedrə buz daşımağımız...

Ən çox da atamı, anamı, babam Qardaş kişini, nənəm Səkinəni, bir də sinif yoldaşlarımı yuxuda görürəm. Babamı yəqin ona görə yuxuda çox görürəm ki, düz səkkiz il dalbadal uşaq vaxtlarımda Üçtəpə yaylağında onun yanında olmuşam. Atmış ilə yaxın yaş fərqimiz olsa da, yoldaşlığımız, dostluğumuz yaxşı tuturdu. Qoyun-quzuya birgə gedirdik. Birgə çörək yeyirdik. Alaçığın daman yeri olanda babam deyirdi, ay Səkinə (nənəm), mənim yerimi orda sal, uşaqlar xəstələnər. Özü daman yerdə yatardı. Bunları yazanda qeyri-ixtiyarı gözlərim doluxsundu. Necə şirin, mehriban günlər var idi! Bax belə, yaddaşıma dərindən hopmuş hadisələri tez-tez yuxuda görürəm.

Hərdən dostlarım Rəhim, Cahangir, Xanlar, Təhmirazla bir yerə yığışanda Rəhim zarafatla: Təzə, babat nə yuxu görmüsən? Maraqlısı varsa, danış. Və xoşuna gələndə deyir ki, ay Cəbrayıl, vallah zarafat eləmirəm, bunları topla yığ bir yerə "Mənim Yuxularım" adlı maraqlı bir əsərdi. Deyəsən, Rəhimin dediyi yavaş-yavaş çin olur...

Allahdan olan kimi son il yarım ərzində mənə qəlbən, ruhən çox yaxın olan və böyük rəğbət bəslədiyim tələbə yoldaşım Cahangir müəllimi, şair Ramiz Rövşəni və şair Ağa Laçınlını yuxuda necə görmüşəmsə, ərinmədən, yorulmadan durub gecənin bir aləmində qeyd dəftərimə yazmışam. Sözsüz ki, yuxu çox maraqlı olduğuna görə. İndi o qeydləri oxuyuram. Və bu yazıları da elə həmin qeydlər əsasında yazıram. Bu yuxularda zəfərlə bitəcək 44 günlük müharibənin

başlanması, özü də əsasının Tovuz döyüşlərində qoyulması, dronlardan geniş istifadə edilməsi, 14 il bundan qabaq dünyasını dəyişmiş Ağa Laçınlının "gələn il gərək özümə yaxşı bir yubley keçirəm",- deməsi, Ramiz Rövşənin "Qubadlıya toya gedirəm",-deməsində torpaqlarımızın işğaldan azad olunması ilə bağlı nə qədər öncədən deyilmiş mesajlar var imiş...

44 günlük ikinci Qarabağ müharibəsindən bir neçə ay əvvəl Tovuzlu tələbə yoldaşım, dostum Cahangirlə bağlı gördüyüm yuxudan başlayım. Bu yuxunu görəndə hələ biz bilmirdik ki, II Qarabağ müharibə olacaq, ya olmayacaq, torpaqlar işğaldan azad olunacaq ya olmayacaq. Amma mən bu yuxunu bir məclisdə Cahangirin özünə danışmışam. II Qarabağ müharibəsindən 5-6 ay qabaq. Rəhim müəllimlə Təhmiraz da orda idilər. Onlar da Allah şahididir. Gördüyüm o yuxuda Cahangirdən başqa digər dostlarım da var idi. Rəhim, Xanlar, Abbas, Hakim və Əlövsət. Ona görə Cahangirlə bağlı yuxu deyirəm ki, yuxunun əsas qəhrəmanı Cahangir idi.

Deməli, yuxuda görürəm ki, Xəzər dənizinin sahilindəyik. Hardasa, Mərdəkan tərəflər idi. Görürəm ki, Cahangir dənizçilər kimi dumağ geyinib, yedəyində də bir ağ at bizə tərəf gəlir. Bir az aralıda da bir dümağ rəngdə təyyarə var. Faytonu, arabanı ata necə qoşurlar, Cahangir də bu təyyarəni fayton kimi qoşdu özünün ağ atına. Və ayağını üzəngiyə qoyub atıldı ağ atın belinə. Əlində də şallaq. Və həmin anda tələbə yoldaşımız Rəcəbli Əlövsəti səslədi.Əlövsət qəfil hardansa peyda olub gəlib oturdu təyarənin sükanında. Biz digər tələbə yoldaşları da dənizin sahilində dayanıb bu səhnə-

yə maraqla tamaşa edirik. Koroğlu Qıratı çapan kimi Cahangir də ağ atı dənizin sahilindəki qumluqla elə çapır, elə çapır toz-duman aləmi bürüyüb. Ağ at da o boyda ağ təyyarəni yüngül bir araba kimi dalınca sürüyüb aparır. Amma onu deyim ki, təyyarə mühərriki işə düşmədən elə səssiz-küysüz atın dalınca şütüyür. Bir üç yüz-dörd yüz metr getdikdən sonra at qalxdı havaya. Təyyarə də onun dalınca. Uçuş zolağının sonunda təyyarə havaya qalxan kimi.

Biz də təəccüb dolu baxışlarla müşahidə edirik. Atla birgə təyyarə qoşqu şəklində havaya qalxdıqdan on-on beş dəqiqə sonra Cahangirin komandir ədasıyla ucadan gələn səsini eşidirik. Elə bil mikrofonla yerdə yanımızda danışır. At və təyyarə qoşqusu xeyli yüksəkliyə qalxdıqlarına görə təyyarə buludlar arasında təxminən qartal boyda təyyarəni aparan at və onun belində olan Cahangir atla bir yerdə nöqtə boyda görünürlər.

Günəşin şəfəqlərində par-par parıldayan bu ağ at və ağ təyyarə qoşqusu elə təəssürat yaradır ki, sanki bir qartal kimi ağ buludların arası ilə düşmən üstünə şığıyırlar. Cahangirin isə sanki yanımızda ucadan danışırmış kimi əzəmətli səsi eşidilməkdədir.. Komandir koordinatları deyən kimi Cahangir deyir ki, biz indi yerdən yeddi kilometr yüksəklikdəyik. Burda çox soyuqdur. Temperatur mənfi on dərəcə, atmosfer təzyiqi üç yüz millimetr civə sütunudur. Hədəfə beş yüz kilometr qalıb. Bir saatdan sonra Yerə qayıdacağıq. Bizi gözləyin.

Biz yerdən müşahidə edən tələbə yoldaşlarını da maraq götürüb ki, bu at, bu təyyarə hansı qüvvənin təsiri ilə göyə qalxdı. Səssiz-küysüz havada birlikdə necə də gözəl süzürlər. Sadəcə məəttəl qalmışıq...

Bəli, bu yuxum altı aydan sonra çin çıxacaqmış. 44 günlük İkinci Qarabağ müharibəsi zəfər başlanğıcını elə mənim tələbə yoldaşım, dostum Cahangirin doğma yurdu Tovuzdan,Tovuz döyüşlərindən alacaqmış. Elimizin qeyrətli ağ atlı oğlanları Koroğlunun dəliləri kimi, "Leş bir yana, baş bir yana",–deyib düşmənə qan udduracaqmışlar.Havada arı kimi qaynaşan dronlar düşmənlərin canına vəlvələ salacaqmış. Yuxuda təəccübləndiyimiz və dediyimiz ki, bu at, bu təyyarə gücü, qüvvəni haradan alır? -sualının cavabı da bəlli olacaqmış. Bu qüvvə cəngavər oğullarımızın gücüymüş. Bu qüvvə, bu güc millətimizin və türk birliyinin gücüymüş!

3 may 2020-ci il. Laçının işğal gününün 28 illiyinə 15 gün qalıb. May ayı yuxularımın qarışdığı aydır. Biz tərəflərin cənnət vaxtı olsa da, biz laçınlıların cəhənnəm yaşadığı aydı...

Deməli, zəfərlə bitən 44 günlük müharibəyə təxminən 5 ay qalmış ərəfədə- 3 may 2020-ci ildə yuxuda görürəm ki, Qubadlı rayonunun Məmər kəndinə getmişəm. Xəbər gəlib ki, gəlinimizin atası Qabil kişi ağır xəstədir. Onun yanına dəyməyə. Görürəm ki, Qabil kişiyə baş çəkib evə qayıdıram. Təbiətin də yaz vaxtıdı. Hər tərəf gül-çiçək, yaşıllıq. Kəndin kənarından keçən yolun üst tərəfindəki gül-çiçəkli yaşıl yamacınan piyada gedirəm Qubadlıya tərəf. Bir də gördüm ki, qarşı tərəfdən şair Ramiz Rövşən ağır-ağır mənə tərəf gəlir.

Ramiz Rövşəndən xeyli arxada, uzaqdan görünən gəminin birinci dor ağacı görünən kimi şair Vaqif Bayatılı Ödərin başı görünməyə başladı. Və Ramiz Rövşən mənə çatar-çatmaz bir iri daşa ilişib yıxıldı və xoşbəxtlikdən ciddi bir xəsarət almadı. Yuxu olsa da, Ramiz Rövşəni çox istədiyimə görə yuxuda da istəmirəm onun ayağına daş dəysin. Cəld yaxınlaşıb onu yerdən qaldırdım. Soruşdum ki, Ramiz müəllim, hara belə gedirsən? Xeyirdimi? Niyə piyadasan? Dedi ki, təbiətin bu gözəl vaxtında dağlarda piyada gəzməyi çox istəyirəm. Bir də ki, bir dostumun oğlunun toyudu. Ona görə gəlmişəm. Maşınımızı da aşağıdakı kənddə bir qapıda saxlamışıq. Vaqifə dedim ki, gəl piyada gedək. Onun da başı qarışıb təbiətin gözəlliyinə. Görürsən də qalıb dərənin dibində-əliylə göstərdi: Birdə ki, yəqin bilirsən, mən Əmircanda doğulsam da Qubadlı mənim ata-baba yurdumdur. Çoxdandır Qubadlıya gəlmirdim. Şükür ki, toy-qismət olub gəlmişəm.

Gördüm ki, xəstəhaldı. Çətin nəfəs alır. Ona görə dedim ki, Ramiz müəllim, bu vəziyyətdə nə vacibdi? Gəlməsəniz də sizdən heç kim inciməzdi. Dedi ki, yox məni sayıb çağırıblar. Gəlməsəm, yaxşı çıxmazdı. Bir də savab iş oldu ki, doğma yerləri gördüm. Ya qismət, bir də bura nə vaxt güzarım düşə, ya düşməyə. Allah bilir!

Bu söhbətdən sonra onun qoluna girib toy olan kəndə tərəf aparmağa başladım. Yıxıldığına görə çox çətinliklə yeriyirdi. Uzaqdan dağ kəndinin baş tərəfində qurulmuş toy mağarı görünürdü. Qara zurnanın səsi dağ-daşı bürümüşdü.

Bilmirəm, qara zurnanın beynimə və qəlbimə işləyən məhəbbət dolu səsindən ayıldım, yoxsa dağ yoxuşunun təngnəfəsliyindən. Amma belə bir şirin yuxudan və yuxugörmədən ayıldığıma görə çox peşiman oldum. Ramiz Rövşən o qədər saf və səmimi insandır ki, nəinki real həyatda lap yuxuda da görəndə sevinirsən, sənə xoş anlar bəxş edir.

İndiyə qədər Ramiz Rövşənlə bir neçə dəfə görüşmüşəm. Gərək ki, dörd dəfə real həyatda, iki dəfə yuxuda. Televizorda gördüklərimi demirəm. Ona görə dəqiq sayı ilə deyirəm ki, onunla hər dəfə görüş mənim üçün çox əzizdir. Onunla üzbəüz onun intellektinin, düşüncələrinin, qəlbinin sehrinə düşmək, öz dilindən şeirlərini eşitmək adama böyük zövq verir. Ruhun dincəlir. Ramiz Rövşənlə şəxsi tanışlığımız isə yazıçı Fəxri Uğurlunun təşkilatçılığı və mənim təşəbbüsümlə 2018-ci ilin yanvar ayında Sulutəpədə, "Karvan" restoranında olub. Və həmin gecə böyük şair dərin mənalı, səmimi söhbətləriylə, gözəl şeirləriylə bizi söz və sənət dünyasına qonaq elədi...

Qayıdıram Ramiz Rövşəni gördüyüm bu yuxunun çin olmasına. Qələbədən beş ay qabaq Ramiz Rövşənin xəstə-xəstə Qubadlıya toya getməsi (yuxumda gördüyüm),- "Qismət oldu neçə illərdən sonra Qubadlıya gəldim", -deməsi, qələbəmizi yuxumda öncədən görmə mesaji deyildimi?

Üçüncü danışacağım yuxu rəhmətlik şair Ağa Laçınlı ilə bağldır. Yeri behişt olsun! Ağa müəllim 2008-ci ildə 68 yaşında dünyasını dəyişdi. Onunla 1977-ci ildən ta dünyasını dəyişənə kimi daimi münasibətim və ünsiyyətim olub. Otuz il-

dən çox. Darıxdığım insan idi. Həm BDU-da oxuduğum illərdə, həm də ondan sonrakı illərdə tez-tez olmasa da, ara-sıra gedib Universitetdə görüşərdim. Çox təmiz, saf, gözü tox, adına yaraşan ağayana bir kişi idi. Onunla görüşəndə, həmsöhbət olanda adam arınıb durulardı. Bəlkə ona görədir ki, Ağa müəllimi lap tez-tez yuxuda görürəm.

Deməli, Ağa müəllimlə bağlı bu axırıncı yuxunu görəndə 44 günlük müharibənin Qələbə ilə başa çatmasından təxminən iki ay keçmişdi. Qələbəmiz ona əyan olmuşdu. Çox sevinirdi. İndi danışacam.

12 yanvar 2021-ci il. Yuxuda görürəm ki, Ağa Laçınlı, mən, tələbə yoldaşlarımdan Göyçəli Abbas, Sabirabadlı Xızır, Qaxın İlusu kəndindən Gülbahar, Bakılı tələbə yoldaşım Dilarə, sinif yoldaşım, tələbə yoldaşım, dostum Yaqub müəllim, əmioğlu Əli, qardaşlarım Rafael və Vüqar Güləbird kəndində bizim həyətdəki tut ağacının kölgəsində oturmuşuq. Bir qonaqlıq süfrəsi açılıb. Amma nə ilə bağlıdır, bilmirəm. Yemək, içmək maraqlı söhbətlər, Ağa müəllimin, mənim, Abbasın şeir deməsi, Gülbaharın tələbəlik illərindən maraqlı xatirələr danışması... Görürəm ki, tələbə yoldaşlarımı Ağa müəllimə təqdim edəndə deyirəm ki, Ağa müəllim, bu Abbas müəllim Göyçəlidi, özü də Aşıq Ələsgərin kəndçisidir. Aşıq Ələsgərdən, Aşıq Alıdan da gözəl qoşmalar bilir. Bunu deyəndə, Ağa müəllim çox sevindi. Aşıq Ələsgərə rəhmət oxuyub onun "Dağlar" qoşmasından bir bənd söylədi:

Bahar fəsli,yaz ayları gələndə,
Süsənli, sünbüllü,lalalı dağlar.
Yoxsulu,ərbabı şahı,gədanı,
Tutmaz bir-birindən aralı dağlar.

Ağa müəllim bu bəndi elə şövqlə dedi ki, hamı əl çalaraq, onu alqışladı. Və bu alqışlardan sonra dedim ki, Ağa müəllim, icazə versəniz, Aşıq Ələsgərdən bir-iki şeir də Abbas müəllim deyərdi. Ağa müəllim dedi ki, çox gözəl olar. Bu gün məclisimiz elə olsun Aşıq Ələsgər məclisi. Onun ruhu da şad olar. Abbas müəllim də sağ olsun. Dedi ki, məmuniyyətlə və Aşıq Ələsgərin məşhur "Gərəkdi" qoşmasından bir-iki bənd dedi;

Aşıq olub diyar-diyar gəzənin,
Əvvəl, başda pür kamalı gərəkdi.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Abbas müəllim bu dərin mənalı, maraqlı, şeiri dedikdən sonra hamı onu ürəkdən alqışladı. Sonra Ağa müəllim üzünü mənə tutub dedi: - Cəbrayıl, ustaddan bir şey bilməmiş olmazsan. Birini də sən de. Yadımdadır ki, mən də Aşıq Ələsgərin "Dolanır" qoşmasından bir neçə bənd dedim:

Axşam üstü bulaq sənin başına,
Bilirsənmi, neçə canlar dolanır.
Büllur buxaq, alma yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

...Adım Ələsgərdi, Göyçə mahalım,
Dolanım başına, qadan mən alım.
Hüsnün şöləsinə xəstə xəyalım,
Pərvanədi, şəmistanlar dolanır.

Ağa müəllim mənə təşəkkürünü bildirdi. Birdən Ağa müəllim mənə baxıb dedi: -Ay Cəbrayıl, o yeddi söhbət Vüqar hara getdi? Ani olaraq fikirləşdim ki, bu yeddi söhbət nə deməkdir? Özü də Ağa müəllim Vüqarı birinci dəfədir ki, görür. Sonra ürəyimdə fikirləşirəm ki, şair təxəyyülüdü, duyğusudu. Yəqin ki, ilk baxışdan Vüqarın hərəkətindən, davranışından nəsə duyub ki, belə deyir. Mən də dedim ki, Ağa müəllim bizim arxın altında yaxşı armud ağaclarımız var. Dedim ki, gedib armud yığıb gətirsin. İndi gələr. Dedi, -lap yaxşı. Görək Güləbird armudunun dadı necə olar. Söz ağzımızdan qurtarmamış Vüqar bir böyük ləyən armudu qoydu stolun üstünə. Adama birini götürüb şirin-şirin yedik.

Sonra görürəm ki, ürəyimdən keçir soruşam ki, Ağa müəllim bayaq dediyiniz o "Yeddi söhbət Vüqar" nə demək idi, başa düşmədim. Və soruşdum da. Dedi ki, bayaqdan müşahidə edirəm, Vüqar hamımızdan cavan olsa da, hər işə

yarıyır; Cavanlığa da, ağsaqqallığa da, bişirməyə də, düşürməyə də qonaq qəbul etməyə də, qonaq yola salmağa da. Yəni, nə iş olsa, ordan çıxmağı bacarır. O mənada deyirəm.

Sonra Ağa müəllim ayağa durub dedi:- Çox gözəl bir gün oldu. Sizdən ayrılmaq istəmirəm. Amma getmək vaxtıdı. Sonra görürəm ki, Ağa müəllimin bizə gəldiyini eşidən qonşularımız Rəşid, İmran, Xanış kişi də bizim həyətə gəldilər. Və Ağa müəllim hamıyla görüşdü. Qalanlar qaldı. Ağa müəllim, tələbə yoldaşlarım və mən həyətdən çıxdıq.

Daha sonra görürəm ki, Ağa müəllim, mən və tələbə yoldaşlarım hər tərəfi dağlarla əhatələnmiş bir qalın meyvə bağlarının ortasından keçirik. Bizdən bir az aralıda ağacların kölgəsində xeyli sayda stol-stullar düzülüb. Və aralıdan gördüm ki, Ağa müəllimin oğlu Fəxri Uğurlu, Ağa müəllimin kəndçisi, qohumu Mail müəllim də ordadı. Bir xeyli tanımadığım adamlar da var. Fəxri bizə əl elədi ki, burdan gəlin. Biz ora çata-çatda gördüm ki, bağın o biri səmtindən də xeyli adamlar stol-stul düzülən yerə tərəf gəlirlər. Burda da nə məclisdir, bilmirəm. Görürəm ki, hamı cəld bir hərəkətlə ən yaxşı kölgəsi, təzə stol-stulu olan yerləri seçib oturdu. Ağa müəllimin oğlu Fəxri atasını səsləyir ki, ay ata, bura yaxşıdır, gəlin burda oturun.Ağa müəllim də elə əhəmiyyət vermir.

Hamı oturandan sonra görürəm bizə qalır bir köhnə stol-stul. Mən də Ağa müəllimin yanındayam. Onun harda oturmağını gözləyirəm. Ağa müəllim deyir ki, qoy otursunlar, bura hamısından yaxşıdır. Görürəm kimsə deyir ki, Cəbrayıl müəllim də ləng adamdı (mədəni şəkildə fərasətsiz

adamdı, demək istəyir). Cəld tərpənib həm özünə, həm də Ağa müəllimə bir yaxşı yer tutmadı. Oturublar köhnə, taxta stulun üstündə.

Sonra görürəm ki, yemək-içmək gətirirlər. Kimsə qonşu stoldan deyir ki, araq lazım deyil, bir azdan Ağa müəllimin universitetdə dərsi başlayacaq. Mənə də bir az təəccüblü gəlir ki, bu dağ, bu meşə ,bu bağ-bağat hara, universitet hara. Ağa müəllim də deyir ki, mənə görə qəti narahat olmayın. Hər şey gətirin. Mən də deyirəm ki, Ağa müəllim, şükür keçən ildəkinə nisbətən bu il daha yaxşısız, Maşallah! Görürəm deyir ki, yox, görmürsən xeyli zəifləmişəm, arıqlamışam. Amma çox şükür, arıqlasam da, özümü yaxşı hiss edirəm. Daha sonra görürəm ki, oturduğumuz yer çox bürküdür, bizi tər götürüb gedir. Həm də adamın nəfəsi çatmır. Baxıram ki, ətrafımızdakı dağın döşündən qalın duman sürünür. Deyirəm ki, Ağa müəllim, hava buludlu olanda,rütubət olanda hava çatmır,bürkü olur.Deyir ki,hə elədir.Duman,bulud çəkilsə, hava yaxşı işləyər. Həm də bilirsən, yerimiz çox çökəkdir, dörd tərəfimiz də hündür dağlar, biz də ortada, çökəklikdə Ağa müəllim söhbət əsnasında dedi ki, şükür, indi görürəm ki, hamının vəziyyəti əvvəlki illərdən daha yaxşıdı. Demişəm qismət olsa, gərək gələn il özümə bir yaxşı ad günü keçirəm. Bütün dostları da çağıracam. Heç indiyə kimi özümə fərli-başlı ad günü, yubiley keçirməmişəm. Bir dəfə sağ olsun dostlar, 60 illiyimi Yazıçılar Birliyində keçiriblər. Bu dəfə qismət olsa, özüm keçirəcəm. Dedim ki, Ağa müəllim

İnşallah. Təki sağlıq olsun. Mən də söz verirəm ki, yubileydə sizin yazdığınız "Atamın dağı" şeirini söyləyəcəm. Sonra görürəm ki, bürkünün təsirindən nəfəs ala bilmirəm. Və yuxudan ayıldım. Durdum ki, qan-tərin içindəyəm. Amma çox istədiyim bir insanı yuxuda gördüyüm üçün çox sevinirdim. Saata baxdım, 6-ya 15 dəqiqə qalırdı. Dedim yadımdan çıxar, işığı yandırıb yuxuda gördüklərimi qeyd dəftərinə yazdım.

Bax, indi sizə danışdıqlarımı həmin qeyd dəftərinə baxıb yazıram. Və bu yuxumun mənə mesaj verən tərəfi odur ki, Ağa müəllimin ruhu şad idi. ll Qarabağ müharibəsində biz qalib gəlmişdik. Yadımdadır ki, bu yuxunu gördüyüm günün səhərisi Ağa müəllimin oğlu Fəxriyə zəng edib ona danışmışdım. Ağa müəllim ölümündən düz 12 il sonra 80 illiyində yurdların işğaldan azad olunduğunu onun ruhu duymuşdu. Ağa müəllim sevinirdi. Özünə yubiley keçirmək istəyirdi. Deyirdi ki, şükür, əvvəlki illərə nisbətən vəziyyətimiz indi yaxşıdır. Özümü çox gümrah hiss edirəm. İstəyirəm gələn il özümə yaxşı bir yubley keçirəm. Bu yuxu mənə deyirdi ki, doğma yurdlarımız düşmən əsarətindən azad olduğuna görə Ağa müəllimin ruhu şad idi.

Ağa müəllim torpaqlarımızın taleyindən nigaran getmişdi. O çox həsrətlə gözləyirdi ki, doğma yurdlarımız işğaldan azad olsun. Təəssüflər olsun ki, onu görə bilmədi. Amma qələbədən sonra onun ruhu şad idi. Ruhun həmişə şad olsun, Ağa müəllim!

# Nisgil

Həkimlik təhsili olmasa da, fitrətən həkim olan, xüsusilə də, sınıq-çıxıq sahəsində ad-san qazanmış atam 1986-cı ildə qəflətən xəstələndi. O vaxt atamın 59 yaşı vardı. Və deyim ki, uşaqlığından bu yaşa qədər ağır bir həyat yolu keçmişdi. Hələ körpə ikən valideynlərini itirmiş, əmisi Əvəz kişinin himayəsində böyümüşdü. Həyat yoldaşını çox erkən itirmiş Əvəz kişi də səkkiz nəfərdən ibarət böyük bir külfəti aclıq illərində, müharibə illərində təkbaşına, çətinliklərə sinə gərərək saxlamışdı. İki oğlunu texnikumda oxutdurmuşdu. Atam isə yeddiillik təhsil almışdı. Amma yaxşı oxumuşdu. Demək olar ki,mən altıncı sinifdə oxuyana qədər çətinlik çəkdiyim riyaziyyat məsələlərinin həllində mənə köməklik edərdi. Və həmin vaxtlar, məni öyrədə-öyrədə atamın dərin xəyallara daldığını çox görmüşdüm. Bir dəfə soruşdum ki,- dədə, nə fikirləşirsən? Dedi ki,- heç. Səbəbini demədi...

Lap sonralar, mən kənddə müəllim işləyən vaxtlarda atamla bir süfrə arxasında çörək yeyəndə , söhbət edəndə də onun anidən xəyala getdiyini çox görmüşdüm. Və bir dəfə onun səbəbini soruşanda dedi ki, mənim həyatda ən böyük nisgillərimdən biri atamı görməməyimdir. Bilirsən ki, mən üç aylıq olanda atam yaylaqda, o vaxt “qara sancı ” deyilən bir xəstəlikdən dünyasını dəyişib. İndi həmin xəstəliyə kor bağırsaq tutması deyirlər, və iki-üç günə müalicə edirlər. O vaxt isə ucqar bir yaylaq yeri, xəstəxana yox. Belə xəstələri sağaltmaq müşkül məsələ olub. Amma o vaxtlar adamlar

çoxlu təbii, təmiz göy-göyərti, həmçinin təbii qidalar yediyinə görə belə xəstəliyə də nadir hallarda tutulurmuş... Mənim çox vaxt dərin xəyallara getməyimin səbəbi atamla bağlıdır. İndicə yenə atamı düşünürdüm. Deyirəm, kaş atam İsanın üzünü görəydim. Görəydim ki, necə insandır,- deyib kövrəldi. Müharibə illərinin ağrı-acısını görmüş, yetimçiliklə böyümüş atamın ağır uşaqlıq illərini fikirləşib mən də kövrəldim. Bu yazını yaza-yaza elə bilirəm ki, elə indi də atamın kövrək xatirələrini dinləyirəm. Gözlərim yenə də doluxsunur...

Atam axırıncı dəfə xəstələnəndə mən beşinci il idi ki, öz kəndimizdə fizika müəllimi işləyirdim. Qardaşım Qəhrəman Polşada hərbi xidmətdə, Rafael isə Bakıda işləyirdi. İki qardaşım və bir bacım orta məktəbdə oxuyurdular...

Atamın xəstəliyi dörd aya yaxın çəksə də, cəmisi beş-altı gün yataqda yatdı. Bu dörd aya yaxın müddət ərzində ayaq üstə gəzə-gəzə əvvəl barmağının, sonra əlinin, daha sonra qolunun ağrıdığını və nəhayətdə həmin ağrıların zaman-zaman çiyninə, döş qəfəsinə qədər yayıldığını deyirdi.

Xəstəliyinin bünövrəsi belə oldu ki, yaz vaxtı bağ-bostanda işləyəndə, sağ əlinin şəhadət barmağına nəsə batmışdı. Və barmağına batan xırda bir çökürü çıxarandan sonra da bir müddət həmin əlinin ağrısından şikayətlənirdi. Və deyirdi ki, ağrı gündən-günə yuxarıya doğru hərəkət edir. Əslində, çökür batan yerdə heç bir dəyişiklik, şişkinlik və yara deyilən bir şey yox idi. Güman edirdik ki, keçib gedər.

Və bir gün, xəstələndiyi vaxtdan təxminən üç ay sonra atam həyətdə gəzişən zaman onun addımlarını düzgün ata bilmədiyini hiss etdim. Elə həmin gün kəndin baş həkimi, əs-

lən Qubadlı rayonunun Xanlıq kəndindən olan Baxış həkimi evə gətirdim. Baxış həkim atamda insult əlamətlərinin, beyinə qan sızma əlamətlərinin olduğunu dedi. Və bir neçə dava-dərman yazıb dedi ki, bunları sabahdan eləmək lazımdır.

Atam, təxminən bir aya yaxın dava-dərmanları qəbul etsə də, elə bir irəliləyiş olmadı. Və əksinə, günlərin bir günü, daha doğrusu , 1986-cı il avqustun axırlarında atamın vəziyyəti daha da ağırlaşdı.

İsti bir yay günü idi. Maşın axtarmaq üçün kəndin mərkəzinə- ‘‘Klub’’ deyilən yerə yollandım. Yolda yaxın qohumumuz Xanış kişinin oğlu Əli ilə rastlaşdım. Vəziyyəti ona danışdım. Sağ olsun Əli, canıyananlıqla,- xalaoğlu, hara deyirsən aparaq, təki İsmayıl əmimin axırı yaxşı olsun, kəndimiz üçün, el-oba üçün qənimət adamdır,- dedi. Anam xəstəxanaya lazım ola biləcək bəzi şeyləri yır-yığış etdikdən sonra atamı Laçın şəhər xəstəxanasına aparmaq üçün yola çıxdıq.

Həkəri çayının sol kənarı ilə uzanan və ‘‘Poçt yolu’’ adlanan bu yol kəndimizlə üzbəüz idi. Bu yoldan baxanda yaşıl bağlara bürünmüş, dağlar qoynunda yerləşən kəndimizin füsünkar gözəlliyi adamı valeh edirdi. Maşınımız çayın kənarındakı yüz illərlə yaşı olan əzəmətli Tək Çinarın yanına çatanda atam Əliyə müraciətlə: - “Əli, qardaşoğlu, maşını bir saxla, axırıncı dəfə kəndimizə doyunca baxım. Ürəyimə damıb ki,mən bu yolla bir də sağ qayıtmayacam. Bu Tək Çinarı bir daha görməyəcəm”. Onu da deyim ki, bu Tək Çinar və ondan bir az aşağı tərəfdə olan Sarı Aşığın sevgilisi Yaxşının qəbri bizim evin düz qarşısında idi. Həkəri çayından sağ sa-

hilində bizim evimiz, onunla üzbəüz sol sahilində isə Tək Çinar idi.

Hava yoluyla bizim evlə Tək Çinarın arası dörd yüz-beş yüz metr olardı. Yayın ən isti vaxtında Həkəri çayının sol sahilində olan bu Tək Çinarın ürəyə rahatlıq gətirən sərin kölgəsi hər kəsi bir maqnit kimi özünə çəkirdi. Uşaqdan tutmuş böyüyə qədər bu Tək Çinar hamı üçün çox əziz və müqəddəs idi. Bir də ona görə ki, bütün yayı bu Tək Çinarın beş-on metrliyində olan Həkəri çayının ən dərin yerində, "göl" dediyimiz yerdə çimərdik. Çimib qurulanandan sonra Tək Çinarın kölgəsində dincələr, zümzüməylə axan Həkəri çayına tamaşa edərdik...

Düzü atamın Əliyə dediyi bu duyğulu sözlərindən mən də kövrəldim və ağlamaqdan özümü güclə saxladım. Mən yavaş səslə Əliyə,- maşını bir az yavaş sür ki, dədəm kəndə rahat baxa bilsin,- dedim. Əli maşının sürətini xeyli azaltdı. Demək olar ki, maşını adam yerişinə bərabər sürətlə ehmal-ehmal sürürdü. Atam maşının arxa oturacağında üzü kəndə tərəf yastığa dirsəklənmişdi. Fikir verdim ki, o, çayın o tayında olan kəndimizə və bir az uzaqlardan boy göstərən "Barmaqlar", "Qoşa qaya", "Bilavdaş", "Topdaş" deyilən yerlərə doğru sanki ilk dəfə görürmüş kimi, axırınca dəfə baxırmış kimi diqqətlə, bir az da pəjmürdə halda baxırdı.

O vaxt mənim iyirmi səkkiz yaşım vardı. Atamın ölməsi fikrini qətiyyən ağlıma sığışdırmaq, qəbul etmək istəmirdim. Odur ki, mən atamda yaşamaq ümidi, sağalmaq, evə qayıtmaq ümidi yaratmaq və bir də həkimə tez çatmaq məqsədiylə Əliyə maşını saxlamamağı məsləhət gördüm və atama de-

dim: - Dədə, Vallah sənin elə bir ağır xəstəliyin yoxdur, İnşaallah beş-altı günə yaxşı olub sağ-salamat kəndimizə qayıdacaqsan, Tək Çinarın kölgəsində yenə əvvəlkitək oturub dincələcəksən. Atam: - Nə deyirəm, təki sən deyən olsun, sürün gedək, - dedi.

Günorta vaxtlarında xəstəxanaya çatdıq. Rəhmətlik dostum, təmənnasız insan Arif həkimin köməyilə atamı ən yaxşı palataya yerləşdirdilər. Taleyin işinə bax ki, atamın qohumları içərisində ən böyük rəğbət bəslədiyi, həddindən çox istədiyi, şəklini həmişə ürəyinin üstündə gəzdirdiyi, həmişə taleyindən ürək ağrısı ilə danışdığı ziyalı və cəsarətli insan, əmisi oğlu Musa Qəhrəmanov cavan yaşlarında bu palatada dünyasını dəyişmişdi. Atam palatanın hər tərəfinə diqqətlə baxandan sonra, dərindən köks ötürərək dedi:- Bir ona görə qəlbim rahat oldu ki, Musa da axırıncı dəfə bu palatada yatıb.

Atam beş gündən sonra həmin palatada dünyasını dəyişdi. Çox təəssüf ki, ürəyinə damdığı kimi kəndimizin axar-baxarlı qənşərində yüz illərdir ki, qərar tutan Tək Çinarın yanından sağ qayıda bilmədi. Beş gün əvvəl maşını Tək Çinarın yanında saxlamamaq mənə həmişəlik bir dərd oldu, nisgil oldu.

Bütün yayı kölgəsində dincəldiyimiz, sərin mehində uyuduğumuz, müqəddəs bildiyim Tək Çinarın acı xatirəsi, atamın axırıncı dəfə ordan doğma kəndinə vidalı baxışları heç vaxt gözlərimin önündən getmir və hələ də məni ağrıdır.

# Ana məhəbbəti

2002-ci ilin axırları idi. Qış düşər-düşməz bərk xəstələndim. Yuxum qaçmış, iştahadan tam kəsilmişdim. Xüsusilə, yuxusuzluq mənə çox əziyyət verirdi. Kəskin ağrılarım olmasa da, xeyli müddət idi ki, gözlərimə yuxu getmir, səhəri dirigözlü açırdım. Bütün qış uzunu bir çox xəstəxanalarda müayinə və müalicə olunsam da, elə bir ciddi irəliləyiş hiss olunmurdu. Həkimlərin müalicəsi, onların yazdığı dava-dərmanlar istənilən nəticəni vermədikdə, bir çox yaşlı, dünyagörmüş adamların məsləhəti ilə türkəçarələrdən də istifadə edirdim.

Həmin günlərdə ailə üzvlərim, qohum-qardaş və dostlarımla yanaşı, mənə ən çox dayaq olan, daha çox sözümüz-söhbətimiz tutan, məni, bəlkə də, həyatda ən çox duyan ixtiyar yaşında olan anam idi. Demək olar ki, hər gün yastığımın yanında oturar, mənə təskinlik verər, diqqətimi xəstəlikdən yayındırmaq üçün keçmiş xatirələrindən, başına gələn hadisələrdən maraqlı, ibrətamiz söhbətlər edərdi. Bir də həmin günlərdən daha çox yadımda qalan, qəlbimə kədərqarışıq bir rahatlıq gətirən, hələ dörd yaşı tamam olmamış qızım Günayın tez-tez üstümə atılıb “can ata, qurban ata” – deməsi idi...

Həmin vaxtlar bir çox həkimlərin, xüsusilə Xırdalanda hamının “Müzəffərov” kimi tanıdığı Rais həkimin və Sulutəpədə yaşayan mənim həmyerlim, Laçın rayonunun Mişni kəndindən olan Rasim həkimin üzərimdə çox böyük zəhmət

və əziyyətləri olub. Onların diqqət və qayğısını, zəhmət və əziyyətlərini, insani münasibətlərini heç vaxt unutmaram. Demək olar ki, Rasim həkim iki ay müddətində –qışın şaxtasında, qarda-boranda hər gecə saat 11-12 radələrində uzun məsafəni piyada qət edərək, gəlib məni yoluxar, dava-dərman edərdi.

Onu da deyim ki, həmin qış çox sərt keçirdi. Bir neçə dəfə yarım metrdən çox qar yağmışdı. Sulutəpə qəsəbəsi yenicə salındığından, yollar hələ düzəlməmiş, asfalt salınmamışdı. Odur ki, Rasim həkim palçıqlı yollarla çox çətinliklə, əziyyətlə gəlib-gedirdi. Amma bu əziyyətləri bircə dəfə bildirməz, özünün insanlıq borcu, peşə borcu hesab edərdi...

Yadımdadır ki, qarlı günlərin birində kiçik qardaşım Vüqar öz maşını ilə məni "Kaspar" xəstəxanasından evə gətirərkən güclü qar yağdığından maşınımız Sulutəpə qəsəbəsinin "Mədən yolu"nda qara batdı. Yaxınlıqdakı uşaqlar köməkləşib maşını birtəhər çıxartdılar...

Bu minvalla ağrılı-acılı, qarlı-boranlı 2003-cü ilin qışı başa çatdı. Novruz bayramına bir-iki gün qalmışdı. Yaz havasının nəfəsi duyulur, yavaş-yavaş təbiət canlanırdı. Həyətimizdəki fındıq, heyva, gilənar, gilas, iydə, yasəmən, qızılgüllər tumurcuqlamış, ərik ağacları isə çiçəkləmişdi. Elə təbiətin bir parçası olan insanlarda da bir canlanma yaranmış, həyət-bacada oynayan uşaqların səs-küyü bir-birinə qarışmışdı.

Get-gedə xəstəliyimin azaldığını hiss edirdim. Adamı yaşamağa, təbiətin gözəlliklərindən zövq almağa sövq edən,

öz yaşıl qoynuna səsləyən baharın gəlişi, bağda oxuyan quşların nəğməsi, pəncərədən düşən ılıq yaz günəşi ruhumu xeyli yüksəltmişdi. Elə bu əhvali-ruhiyyədə yataqdan qalxıb həyətə düşdüm.

Onu da deyim ki, bağ-bağat, yaşıllıq həvəskarı olduğum üçün, demək olar ki, həyətyanı sahədə hər bir ağacdan əkmişdim. Sulutəpədə yurd saldığımız yeddi il ərzində yaxşı bir bağ əmələ gəlmişdi. Yeri gəlmişkən deyim ki, bir dəfə dostlarla yayda ağacların kölgəsində oturub çay içən zaman qardaşım İsa zarafatla dedi ki, maşallah, Cəbrayıl Qəbələnin meşəsini Bakıya gətirib... Xülasə, həyətə düşərkən nə görsəm yaxşıdır? Gördüm ki, ixtiyar çağlarını yaşayan, fiziki gücü xeyli azalmış anam haray-həşirlə gah yenicə tumurcuqlamış Yasəmən ağacının dibini qazır, gah da ağacın yanlarından çıxmış cavan şivləri qoparmağa çalışır. Amma gördüm ki, çox əziyyət çəkir, şivləri dartıb çıxarmağa gücü çatmır. Yaxınlaşdım ki, ay ana neynirsən, ağacı niyə çıxarırsan? Anam məni görüb əl saxladı. Və günah etmiş adam kimi, amma bir az da mənim yavaş-yavaş sağalmağımdan sevinən kimi dedi:

– A bala, o vaxt sən bu Yasəmən ağacını əkəndə bir söz demədim. Amma elə o vaxtdan narahatam. Elə bilirdim ki, kiməsə nəsə olacaq.

Anam ani duruxub xəyala gedən kimi oldu və yenidən sözünə davam edərək dedi:

– Rəhmətlik Səkinə nənən həmişə deyərdi ki, dədə-babadan Yasəmən ağacı ilə göyərçin saxlamaq bizə düşmür. Hətta belə bir söz də işlədərdi: Yasəmən deyib ki, "ya sən, ya

mən”. Yoxsa, a bala, bu Yasəmən ağacının yaraşıqlı görkəmi, ətirli, gözəl gülləri mənim də xoşuma gəlir. Amma Səkinə nənənin “Yasəmən ağacı bizə düşmür”– sözünün narahatçılığı məni buraxmır ki, buraxmır. Elə bilirəm ki, bu Yasəmən ağacını çıxarıb atsaq, xəta-bəla bu evdən, bu məhlədən sovuşacaq, sən tamam sağalacaqsan. Anam sözünü tamamlayıb əlindəki bellə ağacın dibini qazmağa başladı...

Sözsüz ki, böyüklərin dediyi, elin tapındığı hər bir inancda bir hikmət var. Amma sözün düzü, belə inanclara o qədər inanmasam da, anamın sözləri mənə də sirayət etdi: Bəlkə, doğrudan da, bu Yasəmən ağacını çıxarsaq, bütün xəta-bəla ailədən və məndən sovuşar, – fikri keçdi xəyalımdan. Elə həmin andaca o da xəyalımdan keçdi ki, zavallı Yasəmənin nə günahı? Sözsüz ki, xəyalımdan keçən birinci fikrin üstündən elə xəyalımdaca xətt çəkdim. Təbiətin yenicə cana gəldiyi bir zamanda bir canlının həyatını yarıda qırmağa, onun yaşamaq, ətir saçmaq, cilvələnmək istəyini gözündə qoymağa necə qıya bilərdim... Ürəyimdə anamın əl saxlaması, günahsız Yasəmən ağacını çıxarmaması üçün nə deyəcəyimi düşünürdüm.

Anamın heç kimə gənəşmədən qan-tər içində bu gözəl ağacı çıxarmağa çalışması, elə bil ki, mənim sağalmağım üçün onun son ümidi idi. Odur ki, arabir nəfəsini dərib ağacın kökünü qazmaqda davam edirdi. Anidən əl saxlayıb dayandı. Deyəsən çox yorulmuşdu. Əlindəki belə dirsəklənərək bir mənə, bir də ağaca baxdı. Kövrəldiyini hiss etdim. Ürəyin-

dəkiləri deməyə gücü çatmadı. Onu bir anlıq hisslərin burulğanına düşmüş vəziyyətdə gördüm. Yasəmən ağacını çıxarmaq istəyinə görə anamın daxilən əzab çəkdiyi açıq-aşkar hiss olunurdu. Amma onun çöhrəsində bu inancın həyata keçəcəyindən doğan bir rahatlıq ifadəsi də sezilirdi. Onu da hiss etdim ki, bu daxili çarpışmada övlad məhəbbəti, anamın inancdan aldığı qüvvət artıq Yasəmən ağacının bu həyətdən çıxarılmasına qəti hökm vermişdi...

Açığı, əziyyətlə, eyni zamanda həvəslə, boyunu oxşaya-oxşaya böyütdüyüm bu gözəl Yasəmən ağacını çıxarmağa, ülfət bağladığı daşından-torpağından ayırmağa heç cür əlim gəlmirdi. Özü də yazın gəlişini bayram etdiyi bir vaxtda! Zavallı Yasəmən nə biləydi ki, onun varlığı, onun gözəlliyi kiməsə ziyan gətirə bilər! Və əslində gətirmişdimi?! Nə biləydi ki, günlərin birində bir inancın güdazına gedə bilər!..

Anama "ağacı çıxarma", – deməyə və onun qəlbini qırmağa ürəyim gəlmədi. Deyə bilmədim ki, ay ana, axı bu da canlıdır, bunu da Allah yaradıb, onun da yaşamağa haqqı var, onu məhv etməyə bizim haqqımız yoxdur...

Anam ağacı çıxarmaqda çətinlik çəksə də, məqsədində israrlı idi. Hiss edirdim ki, deməsə də, gücü çatmadığına görə məndən kömək gözləyir. İki yol ayrıcında qalmışdım... Əlim gəlməsə də, anamın niyyətinə xilaf çıxmadan Yasəmən ağacının çıxarılmasına mən də kömək etdim. Amma qəlbimdə əzab çəkə-çəkə...

İki şeydən riqqətə gəlmişdim: Biri anamın – "Yasəmən ağacını çıxarıb atsaq, oğlum sağalacaq", – fikriylə qan-tər içində ağacı çıxarmağa çalışmasından, başqa sözlə, ananın övlada olan sonsuz məhəbbətindən!

O biri isə bir yaz günündə gül açmaq istəyi, yaşamaq eşqi "ürəyində" qalan, həyata vida deyən bir Yasəmən ağacının səssiz harayından! Təzəcə tumurcuqlamağa başlayan, bir azdan güllərinin gözəlliyi və ətri ilə xoş ovqat yaradan, bağa yaraşıq verən bir canlını yazın gəlişini bayram etdiyi bir vaxtda məhv etməyi, ən əsası isə mənə görə həyata vida deməsini heç cür özümə bağışlaya bilmirdim.

Bir canlıya həyat vermək üçün o biri canlının həyatına son qoymaq! Əlbəttə, hələ inanclar, gümanlar doğru olsa! Ana böyük ümidlə möcüzə gözləyirdi! Birdən gümanı, inancı doğru olar! Bundan sonra bu evdə vaxtsız-vədəsiz bədbəxt hadisələr, xəstəliklər baş verməz! Əlindən nə gəlirdi yazıq ananın! Mənim yaxşı olmağım üçün eşitdiyi, bildiyi nə vardısa, hamısını eləmişdi. Axırıncı ümidi Yasəmən ağacı ilə bağlı inancıydı, güman etdiyi, gücü çatdığı zavallı Yasəmən ağacıydı...

Həmin gün gözlərimin qarşısında övladının sağalması, bu evdən gələcək xata-bəlanın qovulması üçün bir ana qəlbi məşələ dönüb alovlanırdı. Həmin gün gözlərimin qarşısında bir günahsız Yasəmən ağacı məhv edilirdi. Ağrılı dəqiqələr idi. Məhəbbət və ölüm!... Ana məhəbbətinin böyüklüyü qarşısında təslim oldum.

# Anamla söhbət

Sakit və mülayim bir yaz axşamı idi.Darvazanı açıb həyətə daxil olanda yenicə tumurcuqlamış, bəziləri çiçək açmış ağaclara maraqla baxan və bir az da fikirli-fikirli bağda gəzişən anamı gördüm. Yaxınlaşıb hal-xoş etdim. Vəziyyətini xəbər aldım. Yaxşıyam, desə də, hiss elədim ki, daxilən narahatdır. Narahatçılığının səbəbini soruşanda dedi ki, ay oğul, vallah özüm sarıdan elə bir nigarançılığım yoxdu. Şükür Allahın məsləhətinə, mən az-çox yaşamışam, yaşım həştadı keçib. Yaxşı-yaman ömrümü başa vurmaqdayam. Amma sizdən, indiki cavanların gələcəyindən çox narahatam. Bayaq televizorda göstərirlər ki, bir nəfər cavan oğlan yüz manata görə doğmaca əmisi oğlunu bıçaqlayıb öldürüb. Yerimdəcə donub qaldım. Elə bil adamların bir-birinə yanımcıllığı azalıb, insanlar qəddarlaşıb, insaf-mərhəmət hissləri yox olub. Heç nəyə görə adamlar bir-birini öldürür, yalan danışır, nəfslərinin yedəyində hara gəldi gedirlər. Dünyada qalan dünya malı insanların gözünü tutub. Atalarımız:

Mal sahibi, mülk sahibi
Hanı bunun ilk sahibi?
Mal da yalan, mülk də yalan,
Al bir az da sən oyalan.

-deyiblər. Mal-mülk nəmənə şeydi ki, insanlar ondan ötrü bir birini öldürür, nəsildə ədavət yaradırlar. O biri tərəfdən, böyük-kiçik münasibətləri gündən-günə pisləşir, cavanlarda, qız-gəlinlərdə abır-həya hissləri gündən-günə azalır. Dolanışıq üçün çatmayanı zəhmətlə, əziyyətlə qazanmaq olar, amma ondan da vacib olanı insanın insanlığıdır. İnsanlıq, abır-həya, haqq-ədalət, böyük-kiçik olmayan yerdə qızıldan evin olsa da beş qəpiyə dəyməz.

Dedim ki, ay ana, tarixən elə hər zamanın, hər dövrün öz çətinliyi olub. Səbəbsiz bir şey ola bilməz. Yəqin buna da səbəb nə isə var, İnşallah ötüb keçər. Anam sözümü təsdiqləyib dedi ki, ay oğul, düzdür, bütün zamanların həmişə çətinlikləri olub, amma indiki dövrün çətinliyi bir ayrıdır. Yerə-göyə sığan deyil. Deyəsən, lap çətinə düşmüşük. Son vaxtlar deyildiyi kimi, deyəsən, qiyamət günü yaxınlaşır. Heç nəyin üstündə qardaşın qardaşı, oğlun atanı, ərin arvadını öldürməsi, ananın körpə balasını zibilliyə atıb getməsi, qadınların həddən ziyadə açıq-saçıqlığı, bir çox hallarda abır-isməti ayaq altına atması... və bu kimi nalayiq hərəkətlər adi hala çevrilib. Bizim vaxtımızda dolanışıq çətinliyimiz olsa da, insanların bir-birinə münasibəti daha yaxşı idi. Saflıq vardı, xətir-hörmət vardı, abır-həya vardı. Bir "sən öl"ə qan bağışlanardı.

Anam ötən günlərin ağrı-acılarından, gözəl adətlərindən danışa-danışa bir anlıq xəyala daldı...və uşaq vaxtlarında başına gələn bir ibrətamiz əhvalatı danışdı.Dedi ki, Böyük

Vətən müharibəsi deyilən illər idi. Yeddi-səkkiz yaşım olardı. Kəndin əksər kişiləri kimi mənim də atam müharibəyə getmişdi. Dolanışıq çox çətin idi. Ailəni demək olar ki, qadınlar dolandırırdı. Kişi işlərini də qadın və uşaqlar görürdülər. Öküzlə yer şumlamaq, taxıl və çəltik əkmək, oraqla taxıl biçmək, dərz bağlamaq, uzaq məsafədən onu xırmana daşımaq, vəl sürmək, başaq etmək, mal-qoyun saxlamaq... ailə başçıları müharibəyə gedən qadın və uşaqların gündəlik gördükləri ağır işlər idi. O biri tərəfdən də müharibə xofu, müharibədən gələn qara xəbərlərin acısı, atalarımızın müharibədən qayıdıb-qayıtmayacağı haqqında gecə-gündüz çəkdiyimiz xiffət...

Yadımdadır ki, taxıl biçilib-yığılan vaxtlar idi. Anamla mən xırmandan evə qayıdırdıq. Həmin gün gecikib gecəyə qalmışdıq. Səbəbi də oydu ki, həmin gün xırman yeli gec əsmişdi. Siz bilməzsiniz, taxılı, buğdanı sovurmaq, təmizləmək üçün gərək bir az meh, külək olaydı ki, xəlbirdə taxılı sovurub, təmizləyə biləydik. Həmin o mehə, zəif əsən küləyə xırman yeli deyirdilər. Bir sözlə, həmin gün xırman yeli gec əsdiyinə görə xeyli gecikmişdik. Demək olar ki, xırmandan evə yola düşəndə hava qaralmışdı. Evə çatmağa xeyli qalmış gördük ki, yoldan bir az aralıda, hündür bir qayanın dibində beş-altı kişi ocaq qalayıb ətrafında dövrələmə oturublar. Ocağın işığına çörək yeyirdilər. Üz-gözlərini tük basmış bu adamların ocağın işığında titrəşən vahiməli kölgələri biz irəliləyən cığıra qədər uzanıb gedirdi. Anam pıçıltı ilə dedi ki, qaçaqlardır. Qorxma, səs eləmə, sakitcə keçib gedərik. Qaçaqlar uşaqlara, qadınlara dəymirlər- desə də, anamın da-

xilən həyəcan keçirdiyini hiss edirdim. Anam ayaq səsləri eşidilməyəcək dərəcədə qorxa-qorxa, ehmallı addımlarla yeriyirdi...

Ay oğul, yəqin ki, eşidib bilərsən o vaxtlar qonşu Əlyanlı, Başarat, Mollu, Qaracəlli, Qayalı və daha uzaq kəndlərdən hökumətə tabe olmayan adamlar dağda-daşda gizlənir, qaçaqlıq həyatı keçirirdilər. O qorxulu, müdhiş gecədə ilk ağlıma gələn kənddə el arasında qaçaqlarla bağlı danışılanlar oldu. Kənddə-kəsəkdə danışırdılar ki, hökumətin gəzib axtardığı, hər an təqib etdiyi, tutulub güllələnmək təhlükəsi olan qaçaqlar dünyadan bezmiş insanlardı.Onlar dağ-daşda rast gəldiyi adamlara hücum edir, əlində olanları alır, onların yerini bilməmək üçün rastına çıxan adamları güllələyirlər. Odur ki, bu fikirlərin təsiri altında istər-istəməz bərk qorxu hisləri keçirirdim. Dizlərim tir-tir əsirdi. Anamın əlindən bir az da bərk yapışaraq ona sıxıldım. Anam bildirməsə də, üzündə-gözündə bir təlaş, həyəcan vardı. Ürəyimdə Allaha yalvarırdım ki, burdan sağ-salamat keçib gedək. Qaçaqlar bizi öldürməsin…

Hələ də yadımdadır ki, qaçaqlar bizi görsələr də, baş qaldırıb bizə baxmadılar. Bildilər ki, yoldan keçən qadın xeylağıdı. İndi o hadisəni xatırlayıram. Bir çox fikirlər keçir xəyalımdan. Düşünürəm ki, bəlkə də onların bizə yazığı gəldi. Bəlkə də bizə baxmadılar ki, biz qorxarıq. Bəlkə də baxmadılar ki, əri müharibədə olan, dolanışıq ucbatından gecəni gündüzə qatan bir qadındır. Bəlkə də öz ailə-uşaqları gözlərinin

qabağına gəldi, düşündülər ki, ev-eşiklərinə gedə bilməyən, dağda-daşda gizlənən, hökümətin axtardığı bu adamların öz qadın və uşaqları da bu gündədir. Və həmin hadisədən ən çox qəlbimdə dərin iz buraxan kişinin qadına olan pərdəli, namuslu münasibətidir. Sözüm ondadır ki, o vaxtlar namus-qeyrət, kişilik ləyaqəti çox yüksək idi. İndiki bəzi hadisələri, pis işləri eşidib-biləndə adamın ayağının altından yer qaçır. İndi oturub fikirləşəndə qədim vaxtların tərbiyəsinə, adamların etibarlılığına, yanımcıllığına, bir-birinə əl tutmasına, kişilərin ləyaqətinə, qız-gəlinin abır-həyasına həsəd aparıram. Söhbət var-dövlətdə, pul-parada deyil. İnsanı yaşadan, onu ucaldan insanlıq hissləridir, abır-həyadır, haqq-ədalətdir, halallıqdır. Mən həmişə arzu etmişəm ki, insanların var-dövləti, pul-parası az olsa da, insanlıqları yüksək olsun. Mən həmişə diləmişəm ki, köhnə kişilərin getdiyi yolları heç vaxt ot basmasın...

Doğrusu, anamın danışdığı bu əhvalatdan çox duyğulandım və bunu qələmə almağı özümə borc bildim. Təhsil görməyən, hərif tanımayan anamın insanlığa, əxlaqi dəyərlərə belə böyük önəm verməsindən, onun dünya baxışından açığı, qürur hissləri keçirdim. Və alqış dedim qəlblərdə belə dərin iz buraxan, fəxarət hissləri doğuran köhnə kişilərin əxlaqına! Həmçinin alqış dedim bu dəyərləri yaşadan, təbliğ edən insanlara! Bəli, İnsan insani dəyərlərlə böyükdür, güclüdür, qüdrətlidir!!! Yalnız insani dəyərlərlə! Qalanı əfsanədir!

# Bir qış axşamı

Yerdə qar az olsa da, şaxtalı bir hava idi. Təxminən doqquz-on yaşım olardı. Yadımdadır ki, qış yenicə girmişdi. Dekabr ayının axırları idi. Axşam mal-qaranı, qoyun-keçini yerinə yığıb ot-ələf verəndə gördük ki, bir keçimiz yoxdu. Anam dedi ki, keçi yelinnəmişdi, bu günə-sabaha doğmalı idi. Yəqin örüşdə doğub, nobatçı görməyib. Bu gecə çöldə qalsa, canavar, çaqqal yeyəsidi. Anam mənə:- Tez get nobatçı İmrandan soruş gör sürünü hansı səmtdə, hansı örüşdə otarıb,- öyrən gəl. Mən də cəld gedib İmran kişidən sürünü hansı səmtdə otardığını öyrənib qayıtdım. Tərslikdən həmin axşam atam da evdə yox idi.

Anamla mən kənddən təxminən üç-dörd kilometr məsafədə olan "Gen dərə" deyilən yerə yollandıq. Biz evdən çıxanda artıq hava qaralmışdı. Şaxtalı, sazaqlı bir havada "Bilavdaş"ın sərt yoxuşunu çıxıb "Köhnə Rəfi" dərəsinə çatdıq. Oradan da daha bir sərt yoxuş olan "Sarı yoxuş"la qalxıb "Gen dərə" istiqamətinə yön aldıq.

Sazaqlı küləyin qovduğu buludların arasından arabir bədirlənmiş ay özünü göstərib, yoxa çıxır və yenidən görünürdü. Ayın işığında daşların, qayaların, kolların, ağacların, yan-yörəsinə, qarı ərimiş yerlərə baxa-baxa gedirdik. Birdən iri bir qayanın dibində tərpənən bir qaraltı gördük və yavaş-yavaş həmin qaraltıya doğru irəliləməyə başladıq. Nobatçının gözündən yayınan keçi orada doğub qalmışdı. Özü də

əkiz bala doğmuşdu. Xoşbəxtlikdən qurda-quşa yem olmamışdı. Anamla mən hərəmiz bir çəpişi əlimizə götürdük. Keçi balalarını qoxlaya-qoxlaya arxamızca gəlməyə başladı.

Biz geri qayıdanda hava ayazımışdı. Şaxta qılınc kimi kəsirdi. Kəndə gedən yolumuz "Köhnə Rəfi" qəbirstanlığının yanından keçirdi. Qəbirstanlıqdan gecə keçməyin qorxulu olması haqqında eşitdiyim fikirlər, qarlı, şaxtalı hava, gecə vaxtı, belə havalarda hər an qarşımıza çıxa biləcək ac canavar təhlükəsi bizi təqib edirdi. Anamla mən bir-birimizə heç nə demədən sakitcə gedirdik.

"Fərhad bulağı" deyilən yerdən təzəcə keçmişdik ki, "Köhnə Rəfi" qəbirstanlığının üst tərəfindəki "Topdaş" deyilən yerdən və biz yenicə keçdiyimiz "Sarı yoxuş" tərəfdən canavarların ağız-ağıza verib ulaşması anamla məni əməlli-başlı qorxutdu. Canavarlarla bizim aramızda uzağı üç yüz-dörd yüz metr məsafə var idi. "Topdaş" tərəfdə olan canavarlar görünməsə də, ( mövqe elə idi ki,onlar da yəqin bizi görmürdü) geriyə dönüb baxanda "Sarı yoxuş" tərəfdə olan canavar gözlərinin işıltıları adamı vahiməyə salırdı. Hələ də məəttələm ki, "Sarı yoxuş" tərəfdən olan canavarlar niyə bizə hücum etmədi. Güman edirəm ki, bəkə də bizi görmədilər.

Əks–sədası ilə məşhur olan nəhəng "Narlıq qayası" silsiləsi canavarların ulaşma səsini bütün dağ-dərəyə salmışdı. Üç-dörd canavarın ulartısı əks-sədadan yüzlərlə canavarın səsinə dönüb bütün daş-qayanı, dərə-təpəni titrədirdi. Yeganə ümidim cibimdə olan kibrit qutusuna idi. Eşitmişdim və kitablardan oxumuşdum ki, canavar oddan qorxur. Fikrimdə

tutmuşdum ki, canavarlar bizə tərəf gəlsə, kibriti yandırıb onlar tərəfə atım.

Hələ qarşıda köhnə qəbiristanlıq var idi. Açığı mən qəbiristanlıqdan gecə keçməkdən elə də qorxmurdum. Anam isə həmişə deyrdi ki, mən gecə qəbiristanlıqdan keçməkdən çox qorxuram. Sanki həmin gecə anamın qəbiristanlıqdan qorxmaq xofu mənə də sirayət etmişdi. Anam güclə eşidiləcək bir səslə belə bir havada, qaranlıq vaxtı bir keçiyə görə evdən çıxmasına, dağa-dasa düşməsinə rəğmən özünü məzəmmət edirdi. Bəlkə özündən çox mənim başıma bir iş gələcəyindən qorxurdu. Heç nəyə görə canavara yem olmaq! Sarsıntı keçirmək! Açığı bir-birimizə deməsək də, həmin qorxulu, vahiməli yerdən keçdiyimiz on-on beş dəqiqə bizim üçün bir il oldu. On-on beş dəqiqə başa çatmaq bilmirdi.

Nəhayət ki, o, məsum, üzüntülü on beş dəqiqə canavar ulartılarının müşayəti ilə başa çatdı. Canavar təhlükəsindən, qəbiristanlığın gecə zəhmindən xilas olub “Bilavdaş” deyilən, kənd görünən hündür bir yerə çatdıq. “Bilavdaş” a çatanda elə bil üstümüzdən ağır bir yük götürüldü. “Bilavdaş” dan baxanda Həkəri çayı boyunca dağın yamacında uzanan və işıqlara qərq olmuş kəndimiz adama ürək-dirək verirdi. Düzdür kəndə hələ xeyli qalırdı. Amma bilirdik ki, canavarlar işıq olan yerə gələ bilməz.

Az bir müddətdən sonra sağ-salamat evə çatdıq. Keçini və əkiz balalarını tövlədə yerbəyer edib kallayı evə keçdik. Peçə bir iki odun atıb əlimizi qızdırmağa başladıq. Keçirdiyi-

miz gərginlikdən əlimizin şaxtada donması da tamam yadımızdan çıxmışdı. Əlimizi odun peçində qızdırarkən anamın doluxsunmuş gözlərini gördüm. Məni qucaqladı, üzümdən öpüb dedi: Səni verənə şükür! Sən olmasaydın mən gecə vaxtı "Gen dərə" yə tək gedib gələ bilməzdim. İndi keçimizi də canavar yemişdi.

# Bir sualın tarixçəsi

Bakı Dövlət Universitetinin fizika fakültəsində oxuduğum illəri (1976-1981) xatırlayıram. Yadımdadır ki, ixtisas fənnlərindən əlavə xeyli sayda humanitar fənnlər də tədris edilirdi. Sov. İKP tarixi, fəlsəfə ( dialektik materializm, tarixi materializm), siyasi iqtisad, psixologiya, pedaqogika, rus dili, ingilis dili, hər həftənin bir günü səhərdən axşama hərbi dərslər və s. Bu humanitar fənnlər içərisində fəlsəfəyə xüsusi marağım vardı.

Dialektik materializm fənnini tədris edən Əziz Məmmədov da maraqlı müəllim idi. Bizə bir köynək də yaxın idi. Ona görə yaxın idi ki, baza təhsili fizika idi.Bir çox fəlsəfi hadisələri fizika elminə istinad etməklə izah edirdi. Yaxşı mühazirə demək qabiliyyəti vardı.

Dialektik materializm fənninin tədrisində müxtəlif fəlsəfi cərəyanlar haqqında məlumat xarakterli biliklər verilsə də, sözsüz ki, Karl Maksın, Fridrix Engelsin və Leninin materialist təlimi fəlsəfənin aparıcı xətti kimi bizə tədris edilirdi. Deyim ki, marksizmdən başqa digər fəlsəfi cərəyanlar kitaba sadəcə tənqid edilmək, gözdən salınmaqdan ötrü daxil edilmişdi. Aydın məsələdir ki, bu da sovet ideologiyasından irəli gəlirdi. Dialektika qanunları , materialist filosofların fikirləri, əsərləri mütləq həqiqət kimi tədris və təbliğ edilirdi...

Fəlsəfədə bizə öyrədilmişdi ki, bir ictimai formasiya (ictimai quruluş) o zaman digəri ilə əvəz olunur ki, əvvəlki

formasiyanın müəyyən mərhələsində mövcud istehsal münasibətləri məhsuldar qüvvələrin (insan və əmək vasitələri) inkişafına bir növ buxov olur. İnkişaf etmiş məhsuldar qüvvələrlə köhnə istehsal münasibətləri arasında bir uyğunsuzluq yaranır.Bu zaman məhsuldar qüvvələr bu buxovu (köhnə istehsal münasibətlərini) qırdıqda ,yeni ictimai quruluş meydana gəlir. Bu proses isə, əsasən, qanlı toqquşmalar, inqilablar vasitəsilə həyata keçirilir.

Açığı bu tərif,bu formula məni qane edirdi. Fikirləşirdim ki, miqyası yüz illərlə ölçülən zaman müddətində məhsuldar qüvvələrin komponentləri olan insan və əmək vasitələri elmi-texniki tərəqqi hesabına, doğrudan da, xeyli inkişaf edir, amma istehsal münasibətlərinin əsasları olduğu kimi dəyişməz qalır. Ona görə də on illərlə, yüz illərlə davam edən köhnə istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafına bir əngəl yaradır. Və məhsuldar qüvvələrin də qarşısına çıxan bu maneələri, əngəlləri aradan qaldırmağa cəhd göstərməsi və nəhayətlə inqilab yolu ilə onun aradan qaldırılması tam təbii bir hadisədir. Lakin onu da fikirləşirdim ki, zaman sonsuzdur və inkişaf da əbədidir. Belə çıxırdı ki, bu ictimai quruluşlar da sonsuz olmalıdır. Yəni, bizə öyrədildiyi kimi kommunizm quruluşu sonuncu quruluş ola bilməz .

Bu sual məni çox narahat etdiyinə görə fəlsəfə dərslərinin birində dialetik materializm fənnini tədris edən Əziz müəllimə belə bir sual verdim:- Əziz müəllim, bizə tədris etdiyiniz dialetik materializm qanunlarına görə inkişaf əbədidir. Belə olan halda kommunizm sonuncu quruluş ola bil-

məz. Ya da ki, kommunizm quruluşunun özü sonsuz sayda alt hissələrdən ibarət olmalıdır. Sizin fikrinizcə, kommunzim quruluşu deyək ki, tam bərqərar oldu. Ondan sonra hansı quruluş meydana gələ bilər? Əziz müəllim çox fikirləşmədən, sanki bu sualı gözləyirmiş kimi cavab verdi:- Komunizmdən sonra ikinci tərtib ibtidai icma quruluşu.

Əslində, bu cavabın özü də marksizm-leninizmə əsaslanırdı.Yəni, spiralvari inkişafa görə hər bir şey inkişaf edərək daha yüksək səviyyədə təkrarlanır.

Sözsüz ki, o dövrdə hamı materialist ruha kökləndiyinə görə cavab məni az-çox qane elədi. Ancaq ikinci tərtib ibtidai icma quruluşunun inkişaf səviyyəsini tam mənası ilə təsəvvür edə bilmədim. Tək ağlıma gələn A.Eynşteynin bir fikri oldu: Dördüncü dünya müharibəsində insanlar ox və kamanla vuruşacaqlar.

Tarixdən bildiyimiz kimi ibtidai icma qurluşunda insanların əsas silahı ox və kaman idi. A.Eynşteynin bu fikri ordan qaynaqlanır ki, insanlar Üçüncü dünya müharibəsində atom və nüvə silahlarından, kimyəvi silahlardan istifadə etsələr, yəqin ki, bəşəriyyət və sivilizasiya məhv ediləcək.Planetimizdə dağda-daşda, ucqarlarda təsadüfi qalan insanlar hər şeyi yenidən başlayacaqlar. Yəni ibtidai icma qurluşunda olduğu kimi ox və kamandan.

Açığı fəlsəfə müəllimimizin cavabı məni hələ də düşündürür. Bilmirəm, onun cavabı ciddi idi , yoxsa vəziyyətdən çıxmaq, məni yola vermək üçün belə cavab verdi. Suala tez

reaksiya versə də, sualı tez cavablandırsa, da hiss edirdim ki, inamsız danışır. Anladığım əsas bir şey o oldu ki, sosializmin ideoloqları, mütəxəssis filosoflar belə kommunizim cəmiyyətinə inanmırlar. Sadəcə bu şəkildə danışmağa məhkum idilər.

# Qəhrəmanlığa aparan əxlaq

35 illik müəllimlik fəaliyyətimdə çox böyük rəğbət bəslədiyim şagird və tələbələrim olub. İndi onların arasında müəllim də var, həkim də, alim də, şair də... Böyük məmnunluq duyuram ki, onların yüksək mövqe tutmasında az-çox mənim də payım var. Və hər zaman onlarla isti bir münasibətlə görüşür, bir-birimizin hal-əhvalı, vəziyyəti, müvəffəqiyyət və çətinlikləri, yaradıcılığı ilə maraqlanırıq. Bir-birimizdən heç vaxt köməyimizi əsirgəmirik. İxtisasından, vəzifəsindən asılı olmayaraq, mənə ən yaxın olanları sözsüz ki, yüksək mənəviyyatlı, haqq-ədalətin, həqiqətin, xalqın tərəfində olan şagird və tələbələrimdi...

Çox təəssüf ki, belə rəğbət bəslədiyim, böyük sevgi ilə yanaşdığım şagirdlərimdən bir neçəsi Qarabağ müharibəsində şəhid oldu. Onların gənc yaşlarında dünyalarını dəyişməsi, şəhid olması məni, eləcə də bütün elimizi-obamızı ağrıtdı. Böyük kədərlə, lakin böyük bir fəxarətlə onların adını çəkmək istərdim: Qorxmaz Eyvazov, Gəray Məmmədov, İlyas Cabbarov, Əfqan Qorçuyev, Şəmsi Abbasov, İslam Aslanov, Alış Allahverdiyev. Kəndimizin bu say-seçma oğulları torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldular. Çox qısa, lakin şərəfli bir ömür yaşadılar. Bu gün onlar haqqında yazmaq mənim üçün çox böyük şərəf

olsa da, onlar haqqında keçmiş zamanda danışmağa heç cür dilim gəlmir. Ancaq onları gələcək nəsillərə bir örnək kimi tanıtmaq hər bir ziyalının şərəf işi olmalıdır. Mənim şagirdlərim olmuş bu şəhidlər, habelə kəndimizdən olan digər şəhidlər -Rizvan Hümbətov, İsak Məmmədov, Əhliman Quliyev, İlhami Nəzərov və Mustafa Abbasovun ömür və döyüş yolu haqqında 2013- cü ildə nəşr olunmuş ‘‘Ömür bitər, yol bitməz’’ kitabında gücüm çatan səviyyədə yazmışam...

Bu yaxınlarda eşitdim ki, Azərbaycanin Milli Qəhrəmanı Qorxmaz Eyvazov haqqında kitab hazırlanır və Qorxmazın müəllimi kimi həmin kitabda mənim də ürək sözlərimin olmasını istəyirlər. Mən böyük məmuniyyətlə razılıq verib bu sətirləri yazmağa başladım. Və açığı belə qəhrəmanlarımızın, igid döyüşçülərimizin həyat yolu haqqında yazmağı, ona gələcək nəsillərə çatdırmaq missiyasını ürəkdən alqışladım.

Qələmi əlimə alarkən, ilk olaraq Qorxmazın nakam, lakin şərəfli taleyini düşünməyə başladım. Həm kədərləndim, həm də fəxarətdən gözlərim doldu."Millət fərdlərin sayı ilə deyil, mərdlərin sayı ilə qüdrətlidir" fikirləri keçdi xəyalımdan... Qorxmazın həyatdan çox gənc getməsi, şəhid olarkən övladlarının körpə olması, ata-anasının, gənc həyat yoldaşının gözü yaşlı qalması, bütün dost-tanışlarının, bütövlükdə elimizin Qorxmaza yas saxlaması bir-bir gözümün qarşısından keçdi...

Yeddinci sinifdən başlayaraq, ta orta məktəbi bitirənədək dörd il Qorxmaza fizika dərsi demişəm. Müəllimlikdən əlavə bir qohum kimi münasibətləri də bura əlavə etsəm, de-

yə bilərəm ki, onu daha yaxından tanımaq imkanım olub. Qorxmaz mənim ən sevimli, istəkli şagirdlərimdən idi. İntizamlı, tərbiyəli, saf ürəkli olduğuna görə, yoldaşlarına, özündən balacalara qarşı diqqətli və qayğıkeş olduğuna görə. Dərslərini gücü çatan səviyyədə oxuyurdu. Yaxşı yaddaşı, hadisələri məntiqlə izah etmək qabiliyyəti vardı. Tapşırılan hər hansı bir ictimai işi məsuliyyətlə yerinə yetirməyə çalışardı. Özündən böyüklərə həmişə ehtiramla yanaşardı. Yadımdadır ki, sinif kollektivi ilə bərabər məktəbin həyətyanı sahəsində bir iş görəndə, yaxud iməcilik zamanı həmişə işin ən ağır tərəfindən yapışardı. Qorxmaz artıq yuxarı siniflərdə uca boylu, yaraşıqlı, iti baxışlı, ciddi görkəmli, casarətli bir oğlan olmuşdu...

Deyirlər ki, insanın xarakterinin əsas hissəsi qanla, genlə bağlıdır. Yadımdadır ki, Qorxmazın atası- anamın bibisi oğlu rəhmətlik Abış kişi halal, zəhmətkeş və dəyanətli bir adam idi. Abış kişi çox etibarlı, əmanəti göz-bəbəyi kimi qoruyan bir adam olduğuna görə hər bir şeyi ona etibar edərdilər. Nə etibar etsəydilər, onu sədaqətlə qoruyar, qızıl olsa belə, gözünün ucuyla baxmazdı.

Abış kişi ona etibar ediləni sədaqətlə qoruduğu kimi oğlu Qorxmaz da vətənə sədaqətlə xidmət etdi. Qarabağ müharibəsinin ilk günlərindən özünümüdafiə dəstələrində kəndimizin, habelə Laçın-Qubadlı ərazilərinin düşməndən qorunmasında fəal iştirak etdi. 1992-ci ildən Laçın rayon Polis şöbəsinin əməkdaşı idi. Yoldaşları danışırdılar ki, ən çətin

mövqelərə, ən ağır əməliyyatlara Qorxmaz böyük ürəklə gedərdi. O, "Malxələf" əməliyyatında, Səfiyan-Suarası istiqamətindəki hücumlarda böyük şücaət göstərmişdi. Qorxmaz Laçın istiqamətində gedən döyüşlərin birində yaralanmışdı. Qubadlıda, sonra isə Daxili İşlər Nazirliyinin hospitalında müalicə olunduqdan sonra yenidən ön cəbhəyə qayıtdı.

Məşhur "Koridor" əməliyyatında, Baldırğanlı, Dəyhan, Güləbird ətrafında gedən döyüşlərdə çox böyük igidliklər göstərdi. Ermənilərin Güləbird kəndinə hücumu zamanı düşmən qüvvələrin kənddən çıxarılmasında, qənimət kimi ermənilərin bir tankının ələ keçirilməsində Qorxmazın da böyük rolu olmuşdur.

Qorxmaz Füzuli rayonu ərazilərində gedən döyüşlərdə də igidliklə vuruşmuş düşmənin iki əsgərini əsir götürmüşdür. Onun döyüş bacarığını, cəsurluğunu nəzərə alıb taqım komandiri təyin etmişdilər. Qorxmazın xidmət etdiyi Polis Alayı Milli ordu hissələri ilə birlikdə Füzulinin bir neçə kəndini, habelə Horadizi erməni işğalçılarından azad etmişdi. Həmin ərəfədə gedən ağır döyüşlərin birində düşmənin atdığı ‘‘grad’’ mərmisi onun ömür yolunu yarımçıq qoydu. Qorxmaz canı qədər sevdiyi doğma yurdlarımız uğrunda şəhid oldu.

Onun xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətini aldı. Doğma torpaqlarımızın müdafiəsi uğrunda göstərdiyi böyük şücaət və qəhrəmanlığa görə Qorxmaz Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. O, şəhid olanda çox gənc idi, iyirmi beş yaşı vardı. Ondan yadigar Asəm və

Sona adlı iki körpə övladı qaldı. Bir də... Bir də gözü yaşlı ata və anası, həyat yoldaşı. Atası Abış kişi yurd nisgiliylə, ogul dərdiylə, dünyadan köçdü. Allah rəhmət eləsin! Anası Sona xalaya Allah səbr versin!

Qorxmazın itkisinə bütün el ağrıdı. Çünki hamının istəklisi idi. Əsl kişi xarakterli, sözünün ağası olan, həm də mehriban təbiətli, düzlüyü, halallığı, haqq-ədaləti sevən bir gənc idi. Qorxmaz cismən həyatdan getsə də, vətən yolunda göstərdiyi xidmətlər unudulan deyil. Onun əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Sözümü elimizin qəhrəman oğlu Qorxmaza həsr etdiyim bir şeirlə bitirmək istəyirəm:

Adını doğrultdun əməllərinlə,
Amalın uğrunda qəhrəman oldun.
Ömür qısa oldu, tez köçüb getdin,
Dağlarda qeyb olan bir duman oldun..

Adın Qorxmaz, özün qorxmaz, cəsurdun,
Baxışınla, duruşunla qürurdun.
Sevən ürəklərdə səltənət qurdun,
Gələcək günlərə bir güman oldun.

Neçə döyüşlərdə qələbə çaldın,
Düşmən ordusuna sən qorxu saldın.
Ellərin qəlbində əbədi qaldın,
Yurdun taleyinə çox yanan oldun.

Ana deyib, vətən deyib vuruşdun,
Şəhid olub torpaqlara qarışdın.
Taleyinlə, qismətinlə barışdın
İşıqlı həyata göz yuman oldum.

Nalələr, fəryadlar yüksəldi göyə,
"Ana-bacı",- deyə, "yurd-torpaq",- deyə.
Sən köksünü sipər etdin gülləyə,
O, saf ürəyindən qan daman oldun.

Könül bağladığın xeyli zamandı
Sənin fərağınla ürəyi qandı.
Atan həsrətinlə alışıb yandı,
Ananın qəlbində ah-aman oldun.

Doğma Güləbirddə kamala yetdin,
Vətənin eşqilə bülbültək ötdün.
Canını bu yolda verdin də getdin,
Yurdun taleyindən naguman oldun.

Dillərdə gəzəcək hər zaman adın,
Böyüyün kiçiyin yolun saxladın.
Qorxmaz idin, sən ölümdən qorxmadın.
Düşməni məhv etdin, bir aslan oldun.

Tarix yaddaşından ellər keçəcək,
Ömür yollarından sellər keçəcək.
Neçə qərinələr, illər keçəcək,
Əbədiyyət adlı bir zaman oldun.

Çiynimə dünyanın qəmi yıxılar,
Sevənlərin sənsizlikdən sıxılar.
Cəbrayıl yaş tökər, yanar-yaxılar,
Qəlbimdə inləyən bir kaman oldun.

**P.S**- *Bu yazı 2016-ci il də qələmə alınıb.*

# Qədirşünaslıq

Azərbaycanın Milli Qəhrəmanı, həmkəndlim, istəkli şagirdim, torpaqlarmızın bütövlüyü uğrunda şəhid olmuş Qorxmaz Abış oğlu Eyvazov haqqında kitab yazılması xəbərini eşidəndə çox sevindim. Birincisi, ona görə ki, bu qədirşünaslıq əlamətidir. Qədirşünaslıq çox vacib və yüksək insani keyfiyyətdir. Məhz bu yolla hər bir insan, hər bir hadisə özünün layiqli qiymətini alır. Biz Qorxmaz barəsində nə qədər yazsaq da, nə eləsək də, çox azdır. Çünki o, bizim yolumuzda, Vətən yolunda, torpaqlarımızın azad olunması uğrunda canından keçib. İkincisi, belə yuksək mənəviyyatlı, qəhrəman oğullarımızın örnək həyatı haqqında yazmaq, onu müasir və gələcək nəsillərə daha yaxından tanıtmaq böyüməkdə olan gənc nəslin vətənsevərlik tərbiyəsində çox böyük əhəmiyyətə malikdir. Özü də torpaqlarımızın bir hissəsinin hələ də işgal altında olduğu bir dövrdə.

Bu baxımdan, ardıcıl olaraq bütün zamanlarda Azərbaycan xalqının tarixi qəhrəmanlıq ənənələrinin, xalqın öz torpağı, azadlığı uğrunda dönməz mübarizəsinin istər ədəbiyyatımızda, istər dərsliklərimizdə, istər kinolarımızda, istər milli qəhrəmanlarımıza həsr olunmuş oçerk və kitablarda əks etdirilməsi təqdirəlayiq hadisədir.

Görkəmli alimimiz Yaşar Qarayev XX əsrin sonlarında yazırdı: “Millətin halallıq tərbiyəsində gecikən hər bir ziyalı günahkardır. Biz çox şeylər itirmişik... Bu gün hər bir ziyalı

düşünməlidir. Necə edək ki, Vətənin və xalqın heç olmasa, mənəvi “Mən” əxlaqı və qüruru bu sınaqlardan sağ-salamat çıxsın?!” Bəli, bu həqiqətən də belədir. Bu fikir bu gün hamımızı düşündürməlidir...

Və eşitmişdim ki, Qorxmazın oğlu, atasının yolunu ləyaqətlə davam etdirən Asəm atasının döyüş yolunu əks etdirən xeyli material toplayıb. Təxminən 5-6 ay əvvəl Asəmlə vədələşib görüşürdük. Asəm bu kitabı hazırlamağı, atasının 50 illik yubileyini onun adına layiq və geniş miqyasda keçirməyi özünün mənəvi borcu olduğunu dedi. O, çox böyük qədirşünaslıqla onu da qeyd etdi ki, atam o qanlı-qadalı günləri yaşadı, doğma yurdlarımızın hər qarışı uğrunda mübarizə apardı və sonda öz canını da qurban verdi. Milli Qəhrəman səviyyəsinə yüksəldi. Atam həyatda olmasa da, hər an mənəvi köməyi, şərəfli adı ailəmizin üstündədir. Mən də özümə mənəvi borc bilirəm ki, heç olmasa, atamın döyüş yolunu əks etdirən bir kitabın işıq üzü görməsinə nail olum. O zaman az da olsa, bir təskinlik taparam ki, mən də atam üçün nəsə elədim. Qoy gələcək nəsillər atamı daha yaxından tanısınlar, onun şərəfli hayatından qürur duysunlar. Bu, həm də boyüməkdə olan gənclərin vətənpərvərlik tərbiyəsi baxımından əhəmiyyətlidir.

Sözsüz ki, mən Asəmin bu gözəl təşəbbüsünü ürəkdən alqışladım, və kitabın yazılması prosesində bütün işlərə kömək etməyi özümə borc və şərəf hesab etdiyimi dedim. Söhbət əsnasında Asəm əlindəki qovluğu açıb atası ilə bağlı top-

ladığı materialları mənə göstərdi. Və həqiqətən də, Asəmin böyük bir sevgi ilə, canıyananlıqla, tədqiqatçı şəriştəsi ilə atasının döyüş yolu ilə bağlı xeyli sənəd və şəkillər, habelə Qorxmazın döyüş yoldaşlarının, qohumlarının Qorxmaz haqqında xatirələrini əks etdirən xeyli materiallar topladığının şahidi oldum. Məni ən çox duyğulandıran və sevindirən bir də o oldu ki, bu materiallar içərisində Asəmin üzünü görmədiyi atası haqqında çox yanğılı, məzmunlu və bədii cəhətdən mükəmməl vətənpərvərlik ruhu aşılayan təsirli yazıları vardı..

Bu görüşümüzdən xeyli vaxt keçəndən sonra, 2017-ci ilin martın ortalarında Asəm kitabın hazır variantını redaktə üçün mənə gətirmişdi. İlk olaraq kitabın adı -Asəmin öz seçimi olan "Qorxmaz olaq" adı məni cəlb etdi. Mən gəncləri qorxmazlığa, cəsurluğa dəvət edən, həm də hər birimizi Milli Qəhrəman Qorxmaz kimi olmaga səsləyən bu adın çox uğurlu seçim olduğunu dedim. Qorxmazın döyüş yolunu, Azərbaycan polisinin şərəfli yolunu əks etdirən səhifələr, döyüş yoldaşlarının, kənd camatının, ağsaqqalların, ziyalıların, yaxınlarının, dostlarının Qorxmaz haqqında ürəkdən gələn səmimi yazıların toplandığı bu kitab oxucuları, gənclərimizi qəhrəmanlığa, yüksək insanlığa səsləyən dəyərli bir kitabdır.

Qorxmazın döyüş yoldaşlarının, sadə kənd adamlarının şəhidliyə münasibəti, Vətən uğrunda döyüşənlərə, canından keçənlərə verdiyi dəyər kitab boyu qürur doğurur. Bütün yazılarda Qorxmazın insani keyfiyyətləri, cəsurluğu, yüksək amalı uğrunda dönməzliyi təqdir olunmaqla yanaşı, əsas fi-

kir ora yönəlir ki, Qorxmazın, eləcə də bütün şəhidlərimizin ruhu o zaman şad olacaq ki, doğma yurdlarımız, cənnət Qarabağımız yağı düşmən əsarətindən xilas olacaqdır.

Bu sətirləri oxuduqca, gələcəyə daha böyük ümidlə baxırsan. Fikirləşirsən ki, bu cür yetkin təfəkkür və düşüncədə, bu cür ürəkdə olan vətənsevər insanlar, onların övladları yaxın gələcəkdə işğalda olan torpaqlarımızı, doğma yurdlarımızı düşmən işğalından azad edəcəklər. Mən Qorxmazın xatirəsini əziz tutan, onun haqqında səmimi, ürəkdən gələn xatirələrini bölüşən döyüş yoldaşlarına, eloğullarıma və ümumiyyətlə, bu kitabın ərsəyə gəlməsində xidməti olan bütün insalara dərin minatdarlığımı bildirirəm.

Kitabda I Qarabağ müharibəsində şəhid olmuş digər Laçınlı Milli Qəhrəmanlar - Oktay Güləliyev, İsrafil Şahverdiyev, Kamil Nəsibov, Fazil Mehdiyev, habelə Güləbird Şəhidləri Əhliman Quliyev, İsak Məmmədov, Alış Allahverdiyev. Şəmsi Abbasov, Rizvan Hümbətov, İlyas Cabbarov, Gəray Məmmədov, İlhami Nəzərov, Əfqan Qorçuyev, İslam Aslanov, Mustafa Abbasov böyük ehtiramla, qürurla xatırlanır. Və bütünlükdə l Qarabağ müharibəsi zamanı, habelə dövlətimizin müstəqilliyi uğrunda canlarından keçən Vətən övladlarının ruhu böyük ehtiramla yad edilir.

Bəli, şəhidlərimiz, onların ailəsi, valideynləri hər cür hörmət və ehtirama layiqdirlər. Onlar haqqında nə qədər yazılsa da, nə qədər deyilsə də, azdır. Onların adlarını əbədiləş-

dirmək, onları zaman-zaman, ardıcıl olaraq təbliğ etmək hər birimizin müqəddədəs borcu olmalıdır.

Sözün əsl mənasında, qəhrəman şəhidlərimizin Vətən yolunda fədakarlığı onların gördükləri işin mənəvi siqləti o qədər böyük, dayandıqları məqam o qədər yüksəkdir ki, ən dəyərli bir söz də bu ucalığı izhar və tərənnüm etməkdə acizdir. Vətəni, onun dağını, dərəsini, bulağını, çayını öz canından çox sevmək, əzizləmək, doğrudan da, böyük bir istedaddır. Bu Allah vergisidir. Hər adama verilmir. Ona görə də onların hər biri böyük sevgi və ehtirama layiqdirlər.

Şəhidlər bilirdilər ki, fərdlər gəlib gedəndir, əbədi yaşayan Millət olacaq, Vətən olacaq. Ancaq qəhrəman şəhidlərimiz sıradan bir fərd kimi gəldi- gedər yox, şəxsiyyətə, millətin ölməz ruhuna çevrildilər. Bu kitab boyu haqqında fəxarətlə danışdığımız Qorxmaz Eyvazov Vətənə, torpağa böyük sevgisiylə Vətənin, doğma yurdun nə qədər əziz bir varlıq olduğunu, onu həmişə əziz və müqəddəs tutmağı gələcək nəsillərə ismarıc verdi.

Mən qəhrəman şəhidlərimiz haqqında düşünərkən həmişə görkəmli türk şairi Nazim Hikmətin şeirindən bir misra yadıma düşür:

Şəhidləri bərəkət toxumları tək basdırırıq torpağa.

Bəli, milləti yaşadan, onu ölməyə, tükənməyə qoymayan bu bərəkət toxumlarıdır. Vətən torpağının ehtiramla qucağına aldığı şəhidlərimiz Qəhrəmanlıq, Mübarizlik, Cəsurluq,

Qorxmazlıq, Vətənsevərlik toxumlarıdır. Bu toxumlar bir gün cücərib boy atacaq, igid oğullar meydana gələcək, Vətənimiz, millətimiz yaşayacaq, daha da güclənəcək, tarixin müəyyən dönəmindəki uğursuzluqlar Qələbələrlə sonuçlanacaq. O gün uzaqda deyil!

**P.S**- *Bu yazı 2017-ci ildə yazılıb və şükür ki, həmin gün gəldi. 8 noyabr 2020-ci il, tarixə Azərbaycanın Zəfər günü kimi daxil oldu*.

# Elinə böyük məhəbbət

Yurd-yuvasından didərgin düşmüş insanların ən çox görüşdüyü, hal-əhval tutduğu yer xeyir-şər məclisləridi. Əvvəla, bu insanlar hərəsi bir tərəfdə məskunlaşıb, o üzdən. İkincisi də, dolanışıqla bağlı hamı səhərin gözü açılmamış evdən çıxır, şər qarışanda, vaxt- bivaxt işdən evə qayıdırlar. Odur ki, asudə bir vaxt tapıb ürəyin istəyən bir dostunla sevinc və kədərini bölməyə, dərdləşməyə, söhbət etməyə vaxt tapa bilmirsən.

Yaddaşım məni aldatmırsa, 2013-cü ilin may ayı idi. Sumqayıt şəhərində yas məclislərinin birində qonşu Cicimli kəndindən olan dostum, dil-ədəbiyyat müəllimi Natiq müəllimlə görüşdüm. Hal-əhval tutduqdan sonra söhbət o yerə gəldi ki, doğma yurddan ayrı düşən ağsaqqallar, yaşlı insanlar barmaqla sayılan qədər qalıb. Əksəriyyəti yurd həsrətiylə dünyadan köçdülər. Yekunda hər ikimizin qənaəti belə oldu ki, on-on beş ildən sonra dünyagörmüş yaşlı insanlar tükənəcək və o yerlərin tarixini, nəsillərin şəcərəsini doğru-düzgün bilən insanlar artıq qalmayacaq. Və beləcə qədim tarixi olan kəndlərimiz izsiz-soraqsız yox olub gedəcək. Sanki heç belə bir kənd olmayıb. Söhbətin belə bir məqamında Natiq müəllim üzündə razılıq və təşəkkür dolu bir ifadə ilə mənə dedi: Amma sən vaxtında tərpənib öz kəndinlə bağlı bir kitab yazdın. Mənim aləmimdə elə bilirəm ki, Güləbird kəndinə ikinci bir həyat verdin. Çox sağ ol ki, belə bir xeyirxah iş gör-

müsən. Açığı mən də bir-iki aydır ki, kəndimizlə bağlı bir kitab yazmağa başlamışam. Ömür vəfa etsə, axıra çatdırmağa israrlıyam.

Natiq müəllimin üç illik yuxusuz gecələrinin, gərgin axtarışlarının nəticəsi olan bu kitab artıq bu günlərdə işıq üzü görmüşdür. Rayonumuzun dəyərli ziyalısı, elinə, obasına ürəkdən bağlı olan Natiq Laçınlının doğma kəndinin tarixi və taleyinə həsr olunmuş bu kitaba münasibət bildirməyi özümə borc bildim.

Sözün əsl mənasında kəndin tarixini, xüsusən də, nəsillərin şəcərəsini yazmaq çətin və məsuliyyətli bir işdir. Böyük zəhmət tələb edən bir işdir. Çox böyük ürəklə, minnətdarlıq hissi ilə demək olar ki, Natiq müəllim bu işin öhdəsindən layiqincə gələ bilib. Çox gözəl ad seçib. "Yurd nişanəsi" Doğrudan da, 50 il, 100 il keçəcək bu kitab Cicimli kəndindən qalan bir dəyərli nişanə olacaq. Bu gün mən sevinc hissi ilə yanaşı, həm də təəssüf qarışıq bir hiss keçirirəm ki, qədim tarixi, gözəl təbiəti bərəkətli torpaqları, tanınmış ziyalıları, söz-sənət adamları olan Cicimli kəndinin qoxusunu bu kitabdan alırıq. Təsəllimizi bunda tapırıq. Sözsüz ki, kitab tarixdir, qalır. Amma arzu edirəm ki, doğma yurdlarımızın qoxusunu təkcə kitablardan yox, həm də özündən alaq, özündə yaşayıb-yaradaq və doğulduğumuz torpaqlara da qovuşaq. Amma nə edəsən ki, biz məhkum olduğumuz bu taleyi də yaşamalıyıq.

Bu kitabın yazılma prosesi vaxtı Natiq müəllimlə bir neçə dəfə söhbətlərimiz olub. Ona görə də, üç ildən çox bir

müddətdə Natiq müəllim bu kitab üzərində nə qədər zəhmətlər çəkib, bu işə nə qədər məsuliyyətlə yanaşıb, az-çox xəbərim var. İlk növbədə Natiq müəllimə təşəkkür edirəm ki, kitab nəşrdən çıxan kimi kitabı ilk çatdırdığı adamlardan biri mən olmuşam. Demək olar ki, kitabı elə həmin gün oxumuşam. Çox əhatəli, çox maraqlı yazılıb. Ədəbi dildən daha çox canlı danışıq dilində, el dilində yazılıb. Kitabı oxuduqca elə bilirsən ki, Natiq müəllimlə üzbəüz oturmusan, Natiq müəllim öz doğma kəndindən, onun adamlarından böyük məhəbbətlə sənə söhbət edir.

Kitabın əsas qayəsi odur ki, işğalın nəticəsi olaraq, Cicimli kimi qədim tarixə malik olan bir kənd itib batmasın, adət-ənənələrimiz unudulmasın, ata-babalarımızın adı unudulmasın, kəndin şəhidləri, torpaqlarımız uğrunda döyüşən Cicimli kəndinin döyüşçüləri unudulmasın, həmçinin kəndin tanınmış ağsaqqalları, ziyalılar, sadə əmək adamları unudulmasin. Və ən əsası da işğaldan sonra Bakıda, Sumqayitda, Şəkidə… dünyaya gəlmiş və əslən Cicimlidən olan gənclərimiz dədə-baba yurdlarını və bir-birilərini daha yaxından tanısınlar daha da doğmalaşsınlar.

Müasir türk dövlətinin banisi Mustafa Kamal Atatürk deyirdi ki, tarix yazmaq tarix yapmaq qədər çətindir. Niyə çətindir? Ona görə ki, gərək həqiqəti yazasan, gərək ədalətli yazasan, gərək ibrət götürüləcək və qürur doğuracaq hadisələri yazasan. Nəyinsə, kiminsə xatirinə kimisə qaldırıb, kimisə alçatmayasan. Gərək elə yazasan ki, həm müasir, həm də gələcək nəsillər bundan nəticə çıxarıb ibrət götürsünlər. Gə-

rək elə yazasan ki, tarixdə həmişə yaxşı adla xatırlanasan. Natiq müəllim də məhz belə yazıb. Bütün bunlara görə mən Natiq müəllimə və bu xeyirxah işdə ona dəstək olan bütün insanlara təşəkkürümü bildirirəm.

Natiq müəllim bu kitabı yazarkən yaşayan hissləri vaxtılə mən də yaşamışam.Kəndimizin tarixi və taleyi ilə bağlı "Ömür bitər, yol bitməz" kitabını yazarkən bir il müddətində qələm əlimdə kədər və qürur doğuran hər bir cümlənin, hər bir sətrin, fikrin arxasında oyaq qalmışam. Dəfələrlə gözlərim dolub. "1993-cü il avqust 27-də Laçının son kəndi Güləbird kəndi də işğal olundu" -cümləsini yazanda da, şəhidlərin nakam taleyindən bəhs edəndə də, təmənnasız yaxşılıqlar edən köhnə kişilərdən, ağzı dualı sinədəftər nənələrimizdən, ömrünü şam kimi əridən analarımızdan, ismətli qız-gəlinlərimizdən yazanda də fəxarət hisslərindən gözlərim dolub. Kitaba çox böyük dəyər verənlər olub. İstər kəndimizdən, istərsə də qıraq yerlərdən. Kəndimizin qədirbilən ziyalıları mən istəməsəm də, "Ömür bitər, yol bitməz" kitabının geniş bir təqdimat mərasimini keçirdilər...

Bu günlərdə Cicimli elinin qədirbilən insanları da Natiq müəllimin yazdığı "Yurd nişanəsi" kitabına da böyük dəyər verərək, təntənəli sürətdə təqdimatını keçirdilər. Çox sağ olsunlar. Bu təqdimat mərasiminə mən də dəvət olunmuşdum. Həmkəndlim, dostum, I Qarabağ müharibəsi iştirakçısı, şair-publisist Rövşən Atakişioğlu da orada idi. Təqdimatda çıxış

edən ağsaqqallar, ziyalılar, Qarabağ müharibəsinin iştirakçıları müəllifə ürək dolusu təşəkkürlərini bildirdilər.

Doğrudan da Natiq müəllim çox böyük əziyyətə qatlaşıb, xeyirxah, dəyərli bir iş görüb. Xüsusilə də, nəsillərin şəcərəsini yazmaq üçün əziyyət çəkib. Təsəvvür edin ki, Natiq müəllim Seyid Nigaridən tutmuş Cicimlinin bu günkü körpəsinədək hamısının adını bu kitabda əks etdirib. Bunun üçün sözün əsl mənasında elə, obaya, yurda böyük məhəbbət olmalıdır. Elə yazılar var ki, onu kağıza mürəkkəblə yazmaq mümkün deyil. Bunu yalnız ürəyin qanı, qəlbin sevgisi ilə yazmaq olar. Məhz Natiq müəllim də bu kitabı ürəyinin qanı, qəlbinin sevgisi ilə yazıb.

Deyirlər ki, fransız yazıçısı Balzak "Qorio ata" əsərini yazanda yaratdığı qəhrəmanlarının həyatı ilə yaşayır, gizlin-gizlin ağlayırmış. Bir gün Balzakın arvadı ona çay aparanda görür ki, Balzak yazı stulundan yıxılıb və huşsuz haldadı. Arvadı onun üzünə su vurur və dərman içizdirir. Özünə gələn Balzak təəssüflə deyir ki, Qorio ata öldü, Qorio ata öldü. Bunu deməkdə məqsədim odur ki, kitabı oxuduqca görürsən ki, Natiq müəllim hadisələri yaşaya-yaşaya yazıb. İstər əsirlikdə olan yurdumuzun taleyini, istərsə də şəhid övladlarımızın taleyini yaşayaraqdan yazdığına görə kitabı oxuduqca, insan duyğulanır, qəhərlənir...

Diqqətəlayiq bir haldır ki, Natiq müəllim şəxsi münasibətlər səviyəsindən çıxış etməyib, canıyananlıqla, uzaqgörənliklə doğma Cicimli kəndinin qürur doğuran milli-mənəvi dəyərlərini, qədim tarixini, bu kəndin yetirdiyi böyük şair və

təriqət başçısı Seyid Nigarinin yaradıcılığını qabarıq şəkildə qələmə alı bilib. Nə yazıbsa, yaxşı yazıb, həqiqəti yazıb.

Natiq müəllim, böyük məhəbbətlə, vətənsevərliklə, yurd həsrəti ilə, ürək ağrısı ilə yazdığınız bu əsərə görə sizə hörmət və sayğılarımı bildirir və yeni yaradıcılıq uğurları arzulayıram.Bir də ən böyük arzum odur ki,Cicimli kəndinin,işğalda olan yurdlarımızın QƏLƏBƏ dastanını yazasan!

***P.S.**- Bu yazı 2016-cı ildə qələmə alınıb.*

# Koloritli adam

Yazıçı Seyran Səxavətlə bir neçə dəfə bir məclisdə olmuşam. Hər dəfə də ondan orijinal, dəyərli sözlər eşitmişəm, özünəməxsus, maraqlı jestlərini müşahidə etmişəm. Çox koloritli, duzlu söhbətləri olan bir adamdır. Bu görüşlər zamanı ondan eşitdiyim, yaddaşımda, qəlbimdə dərin iz buraxan bir neçə sözü yazmağı lazımlı bildim. Şəxsi görüşlərimizdən qabaq mən onun bir neçə əsərini "Nekroloq", "Qaçaqaç" "İt intervusu", "Evin yıxılsın, yaxud vəsiyyətnamə", "Yəhudi əlifbası"əsərlərini, habelə bir çox şeirlərini oxumuşdum. Hələ ona təəssüf edirəm ki, bizim "Bilik" tədris mərkəzinin dil-ədəbiyyat müəllimi dosent Tahir Orucovun mənə gətirdiyi və təkidlə oxu,- dediyi Seyran Səxavətin "Sanatoriya" povestini nədənsə oxuya bilməmişdim. Və açığı son illərdə bilmişəm ki, rəhmətlik Məhəbbət Kazımovun oxuduğu "Ay ilk məhəbbətim, son məhəbbətim" şeirinin də müəllifi Seyran Səxavət imiş. Və yadımdadır, 80-ci illərdə onun "Qızil teşt" pyesi Akademik Dram Teatrında anşlaqla gedirdi...

Şəxsi tanışlığımızdan əvvəl bir çox televizya kanallarında onun maraqlı çıxışlarına da qulaq asmışdım. Və bu oxuduğum, eşidiklərim sayəsində onun realist, koloritli bir yazıçı, həmçinin həddindən artıq sadə, milli, hadisələrə yüksək nüfuzetmə qabiliyyətli olan bir insan kimi tanıyırdım.

Ruhuma yaxın olan bir insan kimi, söz adamı kimi ürəyimdə onunla görüşmək, söhbət etmək arzusu vardı. Deyir,

niyyətin hara, mənzilin ora. Və Allahdan olan kimi belə bir gün qismət oldu. Gününə kimi yadımdadır: 26 iyun 2016-ci ildə mənim təşəbbüsüm, yaxın dostum yazıçı-jurnalist Kərim Kərimlinin təşkilatçılığı ilə Seyran Səxavət və bir neçə başqa adamla qardaşım Vüqarın Sulutəpədə yerləşən "Karvan" restoranında görüşdük. Seyran Səxavətin yaxın dostu, vaxt ilə sinif yoldaşı olmuş görkəmli alim, professor Allahverdi Orucov da orada idi. Yadımdadır ki, 1993-cü ildə Allahverdi Orucov Azərbaycan Texniki Universitetinin rektoru idi və o zaman mən işlədiyim "Şirvan" tədris mərkəzi üçün Texniki Universitetin 5 nömrəli korpusunu günortadan sonra bizə icarəyə vermişdi. İcarə deyəndə ki, demək olar ki, havayı. Elmə,təhsilə böyük dəyər verən xeyirxah bir insan kimi yadımda qalmışdı. Onu da həmin məclisdə görməyimə çox şad oldum.

Seyran müəllimin duzlu söhbətləri öz yerində. Demiyəsən, Seyran Səxavət həm də əməlli-başlı yeyib-içən, sona qədər müvazinətini, təmkinini saxlayan bir hal əhli imiş. Məclisdə ən çox danışdığı kəndlərindəki poçtalyon Qadir, yazıçılar Yusif Səmədoğlu, Səyavuş Sərxanlı oldu. Və tez-tez də deyirdi ki, həyatda ən çox öyrəndiyim adam kəndçimiz poçtalyon Qadir olub...

Söhbət əsnasında qardaşım Vüqar dedi ki, Seyran müəllim, bu xiyardan, tutdan niyə istifadə etmirsən? Hamsı öz həyatimizdəndir. Dərmansız filansız. Seyran müəllim Vüqarın bu sözünə bir az əsəbi, bir az da ciddi şəkildə nə desə

yaxşıdır:- Ə, qardaş, bu televizya dili camaatın dilini tamam xarab eliyib. Gəlin, dədə-babamızın dilində danışaq. Dədə-babamız nə vaxt deyib ki, bu xiyardan niyə istifadə etmirsən. Xiyarı istifadə etmirlər, yeyirlər. Dədə-babamız bir az da koloritli şəkildə deyib ki, bu xiyarı niyə basıb yemirsən?

Tutdan da lap doyunca yeyəcəm, qəti narahat olma. Amma çox xahiş edirəm, qapınızdakı o tut ağacına yaxşı qulluq elə. Gözəl ağacdır. Dərdlərə dərman meyvəsindən yeyirik, tutqurusu edirik. Yadımdaykən deyim ki, 41-45-in müharibə illərində camaatı aclıqdan tut qurusu xilas edib. Çörək çox qıt olub. Kənddə məndən bir az böyük müharibə illərinin adamları danışır ki, qışda o qədər tutqurusu yeyirdik ki, bütün uşaqların ağzından tutqurusu iyi gəlirdi. Sonra tutdan bəhməz bişiririk, mürəbbə bişiririk, araq çəkirik. Hamı bilir ki, tut arağı adınan deyilir. Bir az miqdarda o da dərmandır. Sonra yarpağından ipək istehsal olunur. Oduncağı da ki, qanana sazdı, qanmayana paz. Hamımız gülüşdük...

Yadımdadır, mən də dedim ki, Seyran müəllim gözəl şairimiz Adil Cəmil da yaxşı deyib: Tut ağacının kölgəsində tut arağından içdikcə, adamın başına tutarlı fikirlər gəlir. Dedi ki, sağ olsun Adil Cəmil, yaxşı deyib... Sözünə davam edərək dedi:- Mən də Mərdəkanda bağımda tut ağacı əkmişəm. Kənddən-Yağlıvənddən gətirmişəm. Təzə-təzə bar verir. Bütün günü qulluğundayam. Səhər tezdən durub gedirəm yanına, deyirəm:- Salam, ay Yağlıvəndli, necəsən, darıxmırsan ki, oralar üçün. Bağılşa ki, sənin yerindən-yurdundan elədim. Bəlkə də burda xiffət çəkirsən. Amma burda mənə həyansan.

Mən də Yağlıvəndliyəm, axı! Belə danışdığım yerdə görürəm ki, arvad balkondan mənə baxır. Yəqin ürəyində deyir ki, kişinin başına hava gəlib...

Yadımdadır ki, Seyran müəllim yerliçiliklə bağlı məsələyə kəskin iradlarını bildirirdi. Dedi ki, bu yaxınlarda rəhmətlik şairimiz Əliağa Kürçaylının yubileyi keçirilirdi. Əliağa Kürçaylının yerlilərindən bəziləri bir neçə dəfə vurğuladılar ki, Əliağa Kürçaylı Salyan camaatının fəxridir, Salyandan çıxmış böyük şairdi, filan. Mənə söz veriləndə çıxışımı belə başladım:- Əziz Salyan camaatı və hörmətli Azərbaycan xalqı! Mənə təəccüblə baxanda dedim ki, nə tutmusuz Salyan-Salyan. Əliağa Kürçaylı bütün Azərbaycan xalqının şairidir, fəxridir, sevimlisidir, təkcə Salyanın yox! Salyan doğulduğu yerdi, bu başqa məsələ. Hamı nə dediyimi anladı...

Seyran müəllim danışdı ki, bir dəfə Yusif Səmədoğlu ilə bizə-Fizulinin Yağlıvənd kəndinə gedirdik. Kəndin qəbirsanlığının yanından keçəndə gördüm ki, Xeti mamam ( adını demişdi yadımdan çıxıb, amma elə müraciət edərmiş) hinduşkaları otarır. Yanındada bir kişi. Çox yaxından söhbət edirlər. Evə çatıb balkonda Yusiflə söhbət edirdik. Gördüm ki, Xeti mamam qoltuğunda bir hinduşka hardansa mənim gəldiyimi eşidib bizə tərəf gəlir. Görüşdük, hal-əhval tutduq. Sonra dedim: -Ay Xeti mama, ayıb olmasın bayaq dimdik-dimdiyə söbət elədiyin o kişi kim idi. Dedi: - Ay Seyran, başına dönüm, kişi deyildi e, Salman idi. Yazıq arvad səki başa salırmış ki, əmoğlu Salmandı.

Söhbət əsnasında Seyran müəllim dedi ki, təcili Moskvaya getməli idim. O vaxtı “Ulduz” jurnalının redaksiyasında çalışırdım. Baş redaktor Yusif Səmədoğlunu tapa bilmədim ki, icazə alam. Ona görə də icazəsiz Moskvaya getməli oldum. Moskvada SSRİ Yazıçılar İttifaqının yeməkxanasına gedəndə gördüm ki, Yusif Səmədoğlu bir neçə yazıçı ilə orda əyləşib, söhbət edirlər. İstədim ki, aradan çıxam, məni görməsin. Deyəcək ki, burda nə gəzirsən? Amma demiyəsən, Yusif müəllim məni görürmüş. Məni yanına çağırdı. Soruşdu ki, Seyran, xeyirdimi, burda nə gəzirsən? Nə yaxşı gəlmisən? Dedim ki, Yusif müəllim bəs sizi axtarıram, Moskvaya getmək üçün sizdən icazə alam. Halını pozmadan dedi:- Get, problem yoxdu...

Sözsüz ki, o məclisdə maraqlı, duzlu söhbətləri çox oldu. Hələ on altı yaşında ikən yazdığı bir məhəbbət şeirini də oxudu. Çox təsirli idi. Və deyim ki, Seyran Səxavət ədəbiyyata şeirlə gəlib. Sonra nəsrə keçib. Zarafatla onu da qeyd etdi ki, Ramiz Rövşən mənə dedi:- Ay Seyran yaxşı ki, keçdin nəsrə, yoxsa şeirdə biz kölgədə qalacaqdıq...

Deməli, bir dəfə də Azərbaycan yazıçılar birliyinin “Natəvan” klubunda “Hər yer ədəbiyyat” mövzusunda bir yığıncaq keçirilirdi. Aparıcı da Seyran Səxavət idi. Məni də tədbirə özü dəvət etmişdi. Orda işlətdiyi bir söz çox ürəyimcə oldu və heç vaxt yadımdan çıxmır. Həm də dediyi sözün kökü fizika ilə bağlı, mənim ixtisasım ilə bağlı idi. Fikrin məna gözəlliyi öz yerində. Məni heyran edən o idi ki, Seyran Səxavət ixtisasca fizik olmasa da, dərin intuisiyası ilə fiziki hadisənin mahiyyətini çox gözəl duymuşdu. Dedi ki, birdən fikirləşirəm

bu atom, nüvə başlıqlarının bu qədər güclü olması, partlayış zamanı bu qədər dağıdıcılıq gücünə malik olması bəlkə də o səbəbdəndir ki, ordakı zərrəciklər bir-birinə həddindən çox yaxındır, çox “mehribandır”. Yoxsa bu qədər güc hardandır. Mənim fikrimcə, möhkəm birliyin, yaxınlığın mehribançılığın gücüdü bu! Bəli doğrudan da təbiətdə bir-birinə ən yaxın yerləşən zərrəciklər atom nüvəsindəki proton və neytronlardır... Bir də orda Seyran müəllimin bir sözü yadımda qaldı:

-Biz yazıçılar, söz adamları hamımız sözün belindən gəlmişik. Sadəcə hər birimiz atamızım belində bir müddət “astanovka” eləmişik...

Dünyanın həddindən ziyadə qarışdığını, dəyərlərin ucuzlaşdığını görəndə və indiki nəsillərlə bu dünyanı bu bəlalardan xilas etməyin mümkün olmadığını düşünəndə Seyran Səxavətin “Yəhudi əlfbası” romanı yadıma düşür. Deyəsən belə bir arzuladığımız nizamlı, saf cəmiyyətin yaradılması yolunu Seyran Səxavət tapa bilmişdir. “Yəhudi əlfbası” romanından bəzi sətrlər:

“Dünyanın insan əli, ayağı, nəfəsi dəyməyən cənnət bir güşəsində mələklər körpələri əmizdirirdilər, doğum evinə oxşayırdı buralar, uşaqları da nömrələmişdilər, adları yox idi. Uşaqlar harda olduqlarını bilmirdilər, elə mələklər də. Allah onları yerbəyer eləmişdi. Bu məkanda demək olmazdı ki, zaman dayanmışdı, yaxud dayanmamışdı, bu məkanda, ümumiyyətlə, zaman anlayışı yox idi. Bu uşaqlar nə heykəlləşmiş valideyinlərin balaları idilər, nə də zamanın. Bu uşaqlar Alla-

hın balaları idilər. Allahın körpələrə bir az rəhmi gəlmişdi, yəni, əslində körpələr Allahı bir az rəhmə gətirmişdilər. Və bu rəhm Allahın nə zamansa, adamlara elədiyi rəhmə oxşamırdı və bu rəhm özü də elə körpə idi, sanki körpələr üçün idi... Bu körpələr dünyanı xilas etmək üçün xüsusi nəzarətdə böyüdülürdü. Allahın başqa çarəsi qalmamışdı..."

# Medala öyrəşməyən sinə

15 dekabr 2016-cı ildə Azərbaycan Yazıçılar birliyinin ''Natəvan klubu''nda böyük şairimiz Ramiz Rövşənin 70 illik yubileyi keçirilirdi. Zal çox izdihamlı idi. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar başda olmaqla demək olar ki, Azərbaycanın ən tanınmış şair və yazıçıları, habelə Ramiz Rövşəni sevən bir çox tanınmış alimlər, sıravi adamlar da məclisdə iştirak edirdi. Bir xeyli adam yer olmadığına görə ayaq üstə yubileydə böyük həvəslə iştirak edirdi. Tədbirdə Anar, Fikrət Qoca, Seyran Səxavət, Vaqif Yusifli, Pərvin, Paşa Qəlbinur, Əjdər Ol, Cəlal Nağıyev, Yusif Nəğməkar, İntiqam Qasımzadə, Akademik Rafiq Əliyev, Bəsti Əlibəyli və digərləri çıxış etdilər. Özü də səmimi qəlbdən böyük çoşqu və həvəslə. Hamısında bir böyük Ramiz Rövşən sevgisi duydum. Çıxışların hamısı ürəkdən olduğuna görə demək olar ki, hamısı təxminən yadımdadı.

Həmin məclisdə qəlbimdə dərin iz buraxan bir iki məqamı həmişə xatırlayıram: Anar yazıçılar birliyinin təsis etdiyi medalı Ramiz Rövşənin sinəsinə ha çalışsa da, taxa bilmədi. Bilmirəm, bunu Anar bilərəkdən etdi ya Ramiz Rövşən şərait yaratmadı. Amma deyim ki, Anar bir xeyli müddət bu medalı Ramiz Rövşənin pencəyinin yaxasına taxmağa çalışdı və nəhayət bacarmadı. Hər ikisi yorulub oturdular. Ramiz Rövşən oturduqdan sonra yarızarafat, yarıciddi dedi: -Qardaş, bu sinə medala öyrəşməyib. Bir haşiyə çıxaraq deyim ki, üç-dörd il bundan əvvəl o sinəni də medala öyrəşdirdilər.

Ramiz Rövşənə xalq şairi adı verdilər. Hərçənd ki, Ramiz Rövşən o adı medalsız da çoxdan qazanmışdı. Bu onun halal haqqı idi...

Seyran Səxavət Ramiz Rövşəni müasir şeirimizin Eyfel qülləsi adlandırdı. Və belə bir obrazlı ifadə işlətdi ki, çoxları o zirvəyə çıxmaq istədi. Və çıxanlar da orda dayana bilməyib intihar etdilər.

İntiqam Qasımzadə Ramiz Rövşənlə bağlı xatirələrindən danışaraq qeyd etdi ki, kinematoqrafiyada Ramiz Rövşənlə işləyən vaxtı bir gün başım bərk ağrıyırdı. Ramiz mənim qoluma girib şeir deyə-deyə iki-üç dəfə kinostudiyanın ətrafına dolandıq. Və bir də hiss etdim ki, başımın ağrısı tam kəsib. Ramiz Rövşənə bunu bildirəndə dedi ki, ay İntiqam o şeirə qulaq asan adam ya ölməliydi, ya da ki, dirilməliydi: Yaxşı ki, sən dirildin.

Ramiz Rövşən sonda dərin məzmunlu bir çıxış elədi. Və adəti üzrə çox gözəl şeirlər dedi. Və çıxışında toxunduğu bir məqam diqqətimi çəkdi: Mən şeir yazanda heç vaxt oxucu haqqında düşünmürəm. Duyğulandığım hadisələri, ürəyimə, qəlbimə gələnləri ifadə etməyə çalışıram. Etiraf edim ki, cavan yaşlarımda şeir yazanda bəlkə də fikirləşərdim ki, bu şeiri Bəxtiyar Vahabzadə oxuyacaq, Məmməd Araz oxuyacaq, Anar oxuyacaq... Anar müəllim qayıtdı ki, bəs indi yazanda məni düşünmürsən? Ramiz Rövşən cavabında “İndi nə yazsam, onsuz da oxuyacaqsan”,-dedi. Və Ramiz Rövşən məclisin yekununda həm cavan yaşlarında yazdığı, həm də son vaxtlar yazdığı şeirlərdən böyük şövqlə, həvəslə bir neçəsini oxudu. Yaddaşıma yazılan tarixi günlərdən biri oldu.

# Bir nəhr kimi çalxandıqca zaman…

İnsanlar bütün zamanlarda həmişə haqsızlıqdan, ədalətsizlikdən şikayətçi olub. Amma orası da var ki, dünya davam edirsə, dağılmayıbsa, deməli, sonucda ortalama xeyir şərə, haqq nahaqqa qalibdir. Bunu tarixin minilliklərlə olan təcrübəsi sübut edir. Çox vaxt layiqli, istedadlı bir insan, yaxud mütərəqqi bir hadisə vaxtında öz qiymətini almır. Şər qüvvələr buna mane olur. Amma aqillər birmənalı olaraq tam inanır və bilirlər ki, haqq-ədalət nə zamansa öz yerini tutacaqdır.

Təəssüflər olsun ki, çox vaxt bunun üçün xeyli zaman keçir. Və həmin haqq-ədalətin zəfər gününü görmək arzusunda olan adamların bir çoxu həmin günü görmür. Görünür, bu da bir hikmətdir ki, həmin zəfər gününə kimi keçən zaman müddəti hadisələrin durulmasına, inkişafa stimul verən mübarizələrə sərf olunan zaman müddətidir. Vaxtı ilə baş vermiş hadisənin daha çox insan tərəfindən haqq-ədalət kimi təsdiq olunmasına sərf olunan zamandır.

Allah-təalanın xeyirlə bərabər şəri yaratması insanları sınağa çəkmək, onları hərəkətə və mübarizəyə sövq etmək istəyidir. Bu bütün insanlara bir ismarıcdır ki, ey insanlar, ədalətli olun, nə vaxtsa hər şey öz yerini tutacaq. Haqsızlar nə vaxtsa lənətlənəcək, özü olmasa da, nəsil-nəcabəti üçün üz qarasına çevriləcək.

Böyük şairimiz M.Ə.Sabir demişkən;

Bir nəhr kimi çalxalandıqca zaman,
Yağı yağ, ayranı ayranlıq olur.

1956-ci ildə Bakıda M.Füzulinin vəfatının 400 illiyinə həsr olunmuş anım günündə, o, geniş miqyaslı tədbirdə onlarla ölkədən şair yazıçılar, elm və sənət adamları iştirak edirdi. Həmin tədbirdə görkəmli türk şairi Nazim Hikmət gözəl bir ifadə işlətmişdir:- "Ustad, bir vaxt sənin salamını almadılar, indi bütün dünya səni salama gəlib"

Bəli, bu, gələcək nəsillər üçün bir ibrət dərsidir ki, ey insanlar, ədalətli olun. Bəlkə də bizə ağıl vermiş Allah-təala bizi sınağa çəkir, bizi müşahidə edir. Bizim ağlımız kəsməyəndə, yerbəyer hərəkət etməyəndə axırda özü hərəkətə keçir, daha doğrusu, kiminsə vasitəsi ilə haqq-ədaləti bərpa edir. Həmin adam da xoşbəxt adamdır ki, haqq-ədaləti bərpa etmək missiyası onun üzərinə düşüb.

Mən belə bir hadisənin şahidi oldum. 17 fevral 2017-ci ildə... Keçən əsrin 60-cı illərində bir çox haqsızlıqlara məruz qalmış fizik-pedaqoq, Abasqulu Abaszadənin adına fizika fakültəsində auditoriya yaradıldı. Auditoriyanın girişində Abaszadənin barelyefi vuruldu. Mənim nəzərimdə həmin gün məhz haqq-ədalətin bərpası günü idi. Bu missiya ADPU-nun rektoru professor Cəfər Cəfərovun üzərinə düşmüşdü. Görkəmli alimlər, vaxtı ilə Abaszadənin tələbəsi olmuş müəllimlər tədbirdə çıxış etdilər. Abasqulu Abaszadə irsinin tədqiqatçısı kimi mən də çıxış etdim. Hamı bir nəfər kimi bu xeyirxah işin təşkilatçısı rektor Cəfər Cəfərova öz minnətdarlığını bildirdi. Haqq-ədaləti bərpa etməkdən gözəl nə ola bilər ki! Kaş bu sevinci bütün insanlar yaşasın!

# Xalqımdan necə ayrılım?

Azərbaycan xalqının fəxri, görkəmli musiqiçi, kamança ustası, mütəfəkkir, həddindən artıq hazırcavab və yüksək yumora sahib olan Habil Əliyevi ömrünün sonlarında xəstə olarkən telejurnalist Elgiz Əkbər lentə alıb. Habil Əliyevlə olan bu müsahibəyə iki dəfə baxmışam. Birinci dəfə baxanda (bəlkə də diqqətsiz baxmışam) mənə belə gəldi ki, Habil Əliyev ölümdən qorxur. Gözləri doldu, hətta ağlamsındı. Bəlkə də adi bir adam olsaydı, buna təbii baxardım. Axı Habil sağlığında ikən ölümü öldürmüş, əbədiyyət qazanmış bir insandır. İkincisi, isə-ölüm həyatın bir mərhələsidir, nə vaxtsa gələcək bir məqamdır. Üçüncüsu, Habil Əliyev mənim üçün məğlubedilməz, cəsur, həyatın hər bir zərbələrinə hazır olan bir insan mərtəbəsində olduğu üçün belə situasiya mənə bir qədər gözlənilməz oldu.

Bu verlişə ikinci dəfə baxanda Habil Əliyev gözümdə bir qədər də ucaldı. Mənə tam yəqin oldu ki, ağlamsınmağının, gözləri dolmağının səbəbi ölüm qorxusundan daha çox xalq, millət sevgisiylə bağlıdır. Onun duyğulanan məqamda dediyi, - “xalqımdan,millətimdən necə ayrılım”- ifadəsi məndə bir anlam yaratdı ki, xalqımıza musiqi sahəsində böyük köməyi dəyən, xalqının adını ucalara qaldıran bir böyük insan daha olmayacaq. Və mənə belə gəldi ki, Habil əliyev öz itkisindən daha çox xalqın itkisinə acıyırdı, duyğulanırdı. Amma Habil sənəti, Habil musiqisi, əbədidir, ölməzidr. Onun irsi hər zaman xalqımıza xidmət edəcək və baş ucalığı gətirəcək.

# Şüuraltı zaman

İnsan hər hansı məkan və zaman daxilində qorxulu, faciəli, kədərli, üzücü, həsrətli... anlar, dəqiqələr yaşaya bilər. Həmin anlarda saniyələr, dəqiqələr sanki bitib-tükənməyən illərə dönür. Sonsuz görünən həmin anları üzücü bir tənhalıq doldurur. Həyatda özünü kimsəsiz, tək-tənha hiss edirsən. Səni bu üzücü vəziyyətdən xilas edə biləcək bir qüvvə qalmadığını duyduqca,ümidsiz halda düşdüyün uçurumunn və intəhasız boşluğun dibinə yuvarlanırsan. Sanki Tanrıdan da əlin üzülür. Düşdüyün bu ağır situasiya bəlkə də zaman baxımından qısa bir müddət çəkir. Amma bu qısa zaman kəsiyi bitib tükənmək bilmir ki, bilmir. Sanki yaranmış şəraitin zamanı durdurduğu bir an başlayır.

Həyatımda belə bir hala bir çox dəfə düşmüşəm. Atamı vaxtsız itirəndə, həyat yoldaşım gənc yaşlarında dünyasını dəyişəndə, həmin vaxtlar körpə yaşlarda iki övladımın taleyini düşünəndə, doğma yurdlarımızdan didərgin düşəndə, uşaq yaşlarımda bir şaxtalı qış axşamı anamla piyada Köhnə Rəfi qəbirstanlığın keçən zaman bizə yaxın məsafədə canavarların ağız-ağıza verib ulartılarını eşidəndə belə üzücü anlar keçirmişəm. Həmin anlar mənim üçün sonsuzluğa qədər uzanıb. Zamanın sanki dayandığını hiss etmişəm.

Nə qədər kədərli anlar, ağır dəqiqələr yaşasam da, atamın və həyat yoldaşımın dünyasını dəyişməsinə yurd itkisi ilə müqayisədə hardasa təbii bir hal kimi baxmışam. Yəni,

ata- ana itkisi həmçinin digər yaxınların itkisi hamının başına gələ bilər. Və bu həyatın qanunudur. Heç kəs bundan qaça bilməz. Geci-tezi var. Vaxtlı-vaxtsızı var. Amma yurd itkisi ağır dərddir. Allah heç düşmənin də başına gətirməsin!

Doğma yurdlarımız işğal olanda və bu hadisədən keçən iyirmi beş il ərzində (bu yazı 2017-ci ildə yazılıb) hər dəfə yurd itkisini bütün təfərrüatlarını ilə xatırlayanda, bu itkinin ağrı-acısını yaşayaraq düşünəndə yurd ağrılı bu 10-15 dəqiqənin mənəvi əzabları mənim üçün əbədiyyət qədər uzanır. Bu qısa zaman içərisində mənə çörək-su verən müqəddəs vətən torpağı, cənnət havalı dağların, zümrüd meşələrin fəryadı, mənəvi dəyərlərindən qidalandığım ulularımızın nigaran ruhları, Haqq Aşığı Sarı aşığın, eləcə də ata-babalarımızın dağıdılmış məzarlarının səsiz harayları məni çarmıxa çəkir. Fırtınalı bir dənizdə tufana düşən, şahə qalxan dalğaların hara gəldi atdığı bir gəmi kimi özümü gücsüz və köməksiz sanıram. Fırtına başa çatana qədər gəminin məhv olduğunu düşünəndə, fırtınada qərq olduğun ana qədər davam edən müddət adama sonsuzluq qədər uzun görünür. Ah! Bu fırtına bir başa çatsaydı! Ancaq fırtına başa çatmamış bu arzu bir arzu olaraq səninlə bir yerdə başa çatır. Fırtına, əgər səni məhv edirsə, onun on dəqiqə, bir saat yaxud on gün davam etməsinin sənin üçün elə bir əhəmiyyəti yoxdur. Amma hər halda fırtına nə qədər tez başa çatsa, o qədər yaxşıdır. Həm də axı, həyat tək səndən ibarət deyil. O fırtına qoynunda batmaqda olan gəmidə sənin kimi düşünən o qədər insanlar var

ki! Bu baxımdan yurd həsrəti yurd ağrıları ilə yaşadığım son iyimi beş il mənim üçün iyirmi beş əsrə bərabər bir zaman olub! Bəlkə də çox! Zamansızlığa bərabərdir! Sanki yaşadığım məkan və şərait gözlədiyin o xoş ana qədər davam edən zamanı elə udub ki, həmin o an, həmin o gün gəlmir ki, gəlmir...

Amma bunun tərsi də olur. Bu hansı anlardı? Əlbəttə, sevdiyin, sevildiyin, sevindiyin anlar, xoşbəxt, həzzlə dolu anlar, ruhi dincliklə yaşadığın anlar! Belə xoşbəxt anlar nə qədər uzun müddət davam etsə də, adama bir an kimi gəlir.Bu xoş anların, xoşbəxt anların bitib-tükənməsini istəmirsən. Amma çox heyif ki, bir göz qırpımında başa çatır. Ancaq xoş xatirəsi qalır...

Bütün zamanların ən böyük şair və filosoflardan biri olan Volfanq Hötenin bütün ömrü boyu yazdığı və ölümündən iki il əvvəl tamamladığı "Faust" əsərində Faust deyir: - An dayan, sən çox gözəlsən! Sürrealist rəssam Salvador Dalinin əsərlərinin birində belə bir mənzərə var: saatı divara mıxlayıb onu güllələyirlər. Rəsssam zamanı dayandırmaq istəyir. Amma nə edəsən ki, həmişə belə olur: Çətin anların müddəti nə qədər az olsa da, tükənmək bilmir. Xoşbəxt anların müddəti nə qədər çox olsa da, sanki anidən başa çatır. Odur ki, dahi fizik A.Eynşteynin fiziki hadisələr üçün isbat etdiyi zamanın nisbiliyi elə mənəvi hadisələr üçün də öz qüvvəsindədir. Yəni həyatda mütləq deyilən bir şey yoxdur. Allahdan başqa! Baxır ki, zamanı hansı ''hesablama sisteminə'' nəzərən ölçürsən.

# Ölüm sindromu

Elə bir insan tapılmaz ki, həyat və ölüm haqqında düşünməsin. Həyatdan, yaşamaqdan bezənləri və bəzi istisnaları nəzərə almasaq. Şirin həyatdan kim əl çəkər ki! El arasında deyildiyi kimi, nalnan mıxın arasında olum, təki işıqlı dünyada olum. Bu səbəbdən də, ölüm fikri, ölüm anlayışı hər an insanların başı üstündə bir Domokl qılıncı kimi dayanıb. Və aydın bir həqiqətdir ki, qılınc altında olan hər bir insanın, hər an ölüm təhlükəsi duyub hiss edən insanın, ömrü istər-istəməz anbaan kəsilir. Bəlkə də insan ölüm haqqında bilgilərə sahib olmasaydı, daha çox yaşayardı.

Bu fikirlərimin həqiqətə yaxın olduğunu məşhur ingilis yazıçısı Teodor Drayzerin "Cenni Herhartd" romanını oxuyarkən bir daha yəqin etdim. Demirəm ki, Drayzer nə deyibsə, mütləq həqiqətdir, amma bu əsərdə həqiqətə, reallığa yaxın olan bəzi nüanslar diqqəti cəlb edir. Pulun, var-dövlətin cövlan etdiyi kapitalizm cəmiyyətində səmimi insanların başına gələn fəlakətlərdən bəhs edən həmin romanda T.Drayzer yazır: "Hansı bir qədim haqq-hesaba görəsə, yaxud, daha doğrusu, əsrlərin tədris etdiyi "Tövrat" ifadəsinə əsasən, insana yaşamaq üçün yetmiş il verilmişdir. İntəhasız olaraq, nəsildən-nəsilə təkrar edilən bu formul insanların şüurunda elə kök salmışdır ki, inkarolunmaz həqiqət kimi qəbul edilir. Həqiqətdə isə insan, özünü məhkum hesab etsə

də, orqanik olaraq, beş dəfə artıq ömür sürməyə qadirdir. Əgər o, bədənin deyil, ruhun yaşadığını, yaşın xülya olduğunu və ölümün olmadığını bilsəydi, onun həyatı, doğrudan da, xeyli uzun sürərdi. Lakin əsrlər boyu kök salmış fikri hansı materialist hipotezlərin isə məhsulu olan bu fikri şüurdan silmək olduqca çətindir, insanlar, sanki itaət və qorxu ilə qəbul etdikləri bu riyazi formula belə tabe olaraq, hər gün ölürlər''. Bəli, doğrudan da, insanlar hər gün fiziki olaraq tükəndikləri ilə yanaşı, ölüm xofunun təzyiqi altında ikiqat olaraq, tükənib ölümə yaxınlaşırlar. Necə ki, tavanda olan siçan döşəmədəki pişiyi görüb qorxusundan onun qabağına düşən kimi !

# Yuxuda sağlıq

*Dedilər Arif ölüb,*
*Ölümə qurban olum.*
*Hüseyn Arif*

Deyim ki, çox az yatan adamam. Bu, azmış kimi, yatdıqlarımın çoxu da yuxu görməyə gedir. Demək olar ki, ayın otuz gününün ən aşağısı iyirmi-iyirmi beş günü yuxu görürəm. Və açığı bu adamı çox yorur. Elə bil gecə heç yatmamısan. Ya belə deyək ki, çox pis yatmısan. Səhər yuxudan duranda o qədər yorğun olursan ki! Bunun bir səbəbini özüm bilirəm. Bilirəm ki, çox narahat adamam. Belə bir məsəl var: deyirlər ki, dağı arana daşıyır, aranı da dağa. Elə bir maddi problemim olmasa da, dünyanın get-gəlləri məni rahat buraxmır. Hər yatanda beynimdən, qəlbimdən keçən saysız-hesabsız suallara cavab axtarmağın mabədi yuxuda davam edir.

Bəlkə də inanmazsınız, Laçından köçkün düşdüyümüz ilk on-on beş ildə hər gün, ya günaşırı kəndimizlə, rayonla, ordakı dağ-dərlərlə... bağlı yuxular görürdüm. Sonrakı illərdə deyim ki, doğma yurdlarla bağlı yuxuların sayı bir qədər azaldı. Amma yuxu görmə intevsivliyin əvvəlki qaydada davam edir. Hələ bəlkə də bir az üstə qoymuşam.

Alimlər hələ də bu yuxugörmənin səbəblərini tam aydınlaşdıra bilməyiblər. İlk yaxınlaşmada belə mülahizə irəli

sürürlər ki, yuxugörmə əsasən insan xarakteri, psixologiyası və orqanizmin sağlamlıq dərəcəsi ilə əlaqədardır. Yəni, müəyyən orqanlar nasaz olanda yuxugörmə daha intensiv olur. Amma məlumdur ki, tam sağlam adamlar da yuxu görürlər. Əlqərəz, filosofluq eləmək fikrim yoxdur. Sadəcə bu yuxugörmə məsələsi məni çox yorduğuna görə bir az çox danışdım. Keçirəm əsas məsələyə...

Deməli, yuxuda görürəm ki,yaxın dost-tanışlarla bir ziyafət məclisi qurmuşuq. (Adətən dostlarla belə məclislərimiz real həyatda tez-tez olur) Dağətəyi bir yerdə, ağacların altında gözəl bir şənlik məclisidir. Sağlıqlar, tələbəlik illərinin zarafatları, duzlu-məzəli söhbətlər, lətifələr... baş alıb gedir. Hərə bir sağlıq dedi. Həmçinin mən də. Sağlıq demək dairəsi qapanıb yenidən mənə çatanda mən bir az zarafatyana, elə bir az da ciddiliklə belə bir sağlıq dedim:

-Gəlin, bu badələri də içək ölümün sağlığına! Dostlar hamısı təəccüblə mənə baxanda dedim ki, dayanın, bir azca səbr eliyin, səbəbini deyim. Əvvəla, əcəldi, ölümdü, deyildiyi kimi qaşla gözün arasındadır. Gəlin, ölümə minnətdarlığımızı, təşəkkürümüzü bildirək ki, indiyə kimi bu yaşa kimi möhlət verib və biz bu gün bura toplaşa bilmişik. Hamımız olmasa da, bəlkə də bəzilərimiz bu gün burada olmaya bilərdik.

İkincisi, bizdən çox-çox uzaq, bir çox az qananlar var ki, ölü görəndən-görənə, kimisə dəfn edəndə, ölümdən nəticə çıxarırlar. Qəbirstanlıqda dərk edirlər ki, həə... dünya faniymiş. Çalışmaq lazımdır ki, yaşadığın zaman kəsiyində həmişə imkan daxilində yaxşılıq edəsən. Bax bu da ölümün bir dərsi.

Yüz aqilin başa sala bilmədiyini bir ölüm başa salır. Təəssüf ki, həmin o, az qananlar dediyim qəbirstanlıqdan bir az uzaqlaşdıqdan sonra bayaq ağlından keçənlər hamısı yadından çıxır. Əvvəl nə ilə məşğul idilərsə, yenə də öz "sənət"lərinə qayıdırlar.

Üçüncüsü, ölüm hər gün yüzlərlə şər qüvvələrə xidmət edən yaramazların həyatına son qoyur. Yoxsa, yaramazlar qanqal kimi bütün dünyanı basardı. Bəli, Ölüm hər gün yüzlərlə şər xislətli adamların ayıbını örtür. Adamların canını min cür fitnə-fəsaddan, bəladan qurtarır. Belə nadürüst, ləyaqətsiz adamlar öləndə, rəhmətlik anam deyərdi ki, hayıfsan a qara torpaq, filankəsi də alıb qoynuna gizlətdin, ayıbını örtdün.

Dördüncüsü, ölüm bizi istəklilərimizə, sevdiklərimizə-Tanrıya, ata-anamıza, Vətənimizə, övladlarımıza, qohum əqrabaya, el-obaya, özümüzə, dünyanın, təbiətin gözəlliklərinə daha çox bağlayır. Biz onsuz da onları çox sevirik. Amma biləndə ki, bir gün onlar olmayacaq, ölüm onları bizdən alacaq, ona görə də istər-istəməz biz onlara daha çox bağlanırıq. Onları itirmək qorxusu bu sevgini daha da gücləndirir. Yaxud, Allaha xoş gedən yaxşı həyat tərzi keçirməklə özümüzü qorumağa çalışırıq, başımızın üstündə hərlənən ölüm kabusundan.

Beşincisi, bəzən adi vaxtlarda o qədər də nəzərə çarpmayan bir nəfər müqəddəs bir amal uğrunda özünü ölümün ağuşuna ataraq qəhrəmanlıq göstərir. Bu ölüm həmin adamı

yüksəklərə qaldırır. Ona ölümsüzlük qazandırır, əbədiyyətə qovuşdurur.

Altıncısı, dünya əbədi olsaydı ölüm olmasaydı, insanlar nə hoqqadan çıxmazdı ki?!

Bilmirəm, yeddincisi olacaqdı, yoxsa yox, məclisin yuxarı başında oturan dostumun uca səslə-bax, axrıncısını yaman dedin! -səsinə yuxudan oyandım... Və dostlarla dünən axşam birgə keçirdiyimiz real ziyafət məclisi yadıma düşdü. Amma orada nə belə, nə də buna bənzər bir sağlıq deməmişdim.

Bu yuxudan bir xeyli sonra Portuqal yazıçısı Nobel mükafatı laureatı Joze Saramoqonun "Təxirə salınmış ölüm" romanı haqqında bir yazıya rast gəldim. Əsərin qısa məzmunu belədir ki, bir ölkədə ölüm təxirə salınır. İnsanlar həyatla vidalaşmırlar. Ölümün olmamasının nələrə gətirib çıxaracağını yazıçı fitri istedadı, dərin təxəyyülü ilə təhlil edir. Əhali arasında eyforiya hökm sürür ki, bu hadisəyə necə son qoysunlar, necə etsinlər ki, ölüm yenidən qayıtsın. Belə bir gərginlik yaşanan vaxtı Saramaqo ölkənin kardinalı ilə baş naziri arasındakı dialoqu çox ustalıqla qələmə alıb. Həmin dialoqdan belə nəticə çıxır ki, ölümün təxirə salınması izaholunmaz hadisələrə gətirib çıxara bilər. Joze Saramaqo belə qənaətə gəlir ki, ölümün olmaması ilə həyat kodeksləri də tamamilə dəyişir. İnsanların min illərdən bəri şüuruna oturmuş, gündəlik həyatlarına daxil olmuş dəyərlər də öz qüvvəsini itirir.

Deməli, nə təbiətdə, nə də cəmiyyətdə Allahın lazım bildiklərinin ziddinə heç bir dəyişiklik aparmaq olmaz! Yəni

ölüm də həyatın bir həlqəsidir. Ondan ayrılmazdır. Bir qədər qəribə görünsə də məqamında, vaxtında gələn ölüm həyatın son gözəlliyidir!

Bəlkə də yuxudan tez oyanmasaydım, yazıçı Əjdər Olun çoxdan oxuduğum bir sözünü: "Elə məqam var ki,həmin anda ölüm-ləyaqət qapısıdır, ordan rahatca çıxıb getməlisən. Çünki geri çəkilmək alçalmağa bərabərdir" – sağlığın yeddinci bəndi kimi qeyd edəcəkdim. Ləyaqət qapısının sağlığına içmək olar.

Yuxudan tez ayılmasaydım bəlkə də böyük Sərkərdə İsgəndərin Hindistan filosofuna verdiyi sualı və filosofun verdiyi mükəmməl cavabı da sağlığa əlavə edəcəkdim. İsgəndər filosofdan soruşur:

-İnsan nə qədər yaşamalıdır? Filosof: – Ölüm yaşamaqdan sərfəli olana qədər. Gözəl cavabdır. Doğrudan da adam sərfəli olanı seçməlidir. Bu da ölümün bir müsbət tərəfidir.

Bilmirəm, yuxudakı bu şənlik məclisində ölüm məsələsi hardan gəlib beynimə girmişdi. Amma yuxudu, hər şey ola bilər. Bir də ki, adam yatanda beynin çox cuzi bir payı fəaliyyətdə olur. Ona görə də yuxu görəni bağışlamaq olar. Nə görüb, kimi görüb, necə görüb, hansı vəziyyətdə görüb. Beynin cuzi payı işləsə də, yuxu babat alınıb, sağlıq da öz yerində. Amma adama deyərlər ki, yuxudu da, görmüsən, görmüsən,özünçün. Elə bilirəm maraqlı yuxuları danışmağın bir ziyanı yoxdur. Bəlkə kiməsə gərək oldu.

# Təbiətin ən ali modeli – İnsan

İnsan təbiətin bir zərrəsi olsa da, təbiətin ən ali modelidir. Maraqlıdır ki, Yer kürəsinin təxminən üçdə ikisi su olduğu kimi, insan bədəninin də təxminən üçdə iki hissəsi sudan ibdarətdir. Və kainatı, anamız Yer kürəsin təşkil edən kimyəvi elementlərin əksəriyyəti insan bədənində vardır. Müasir elmi təssəvvürlərə görə, bəlkə də elə insan orqanizmi kainatı təşkil edən bütün elementlərdən ibarətdir?

İnsan orqanizmi o qədər mürəkkəb quruluşa malikdir ki, o hələ tam öyrənilməyib. İnsan dərddən, qəmdən, sevincdən dolanda gözlərindən yaş gəlir. Deyirlər ki, filankəs qara bulud kimi dolub. Necə səmada buludlar dolub leysan yağdırdığı kimi. İnsanın sarsıntıları, daxili təbədülatları, qəzəblənməsi qabarma -çəkilmələrə qasırğa, tufanlara, zəlzələ və vulkanlara uyğun gəlmirmi? Əksinə qasırğalar, tufanlar, zəlzələ və vulkanlar, göy gurultusu, şimşək çaxması, yer kürəsinin sarsıntıları deyilmi? Kainatın ucsuz - bucaqsız kəhkəşanları, ulduzları olduğu kimi, insan aləminin də özünün sonsuz kəhkəşanları, ucsuz-bucaqsız bir aləmi vardır. İnsan bədənindəki qanla dolu damarlar, kapilyarlar bədənimizi qidalandıran, ‘‘suvaran’’ xırda çaylar deyilmi?

Qalaktiklar bir mərkəz ətrafında dövr etdiyi kimi insan da ağıl və duyğularının cazibəsində, sevgisinin ətrafında hərəkət etmirmi? Qısası, dünyada nə baş verirsə, kainatda nə baş verirsə, onların hamısı mikroşəkildə insan orqanizmində, insan dünyasında baş verir. Və ona görə də, insana təbiətin ən ali modeli kimi yanaşmaq, baxmaq olar.

# Qadağalar qadağandır

Dünyanın tanınmış pedaqoqlarından olan İtaliyalı Mariya Montessorinin (1870-1952) yaradıcılığı pedaqogika tarixində bir inqilab idi. İtaliyanın ilk qadın həkimi olan Montessori 1899-ci ildə, 29 yaşında Universitet xəstəxanasında həkim assistenti işləyəndə, ilk dəfə olaraq əqli geriliyi olan uşaqlarla qarşılaşır.

Uşaqlar boş otaqlarda saxlanılırdı. Onların oyuncaq və kitabları yox idi. Və uşaqlarla demək olar ki, ünsiyyət qurulmurdu. Bir dəfə Mariya qəribə bir hadisənin şahidi olur; nahardan sonra uşaqlar quru çörək qabığı tapırlar və onu əzirlər. Çörək qabığı onların yeganə oyuncağı idi. Bundan təsirlənən Mariya usaqlara sadə əşyalar – qutular, parçalar gətirməyə başlayır. Tez bir zamanda uşaqların davranışında müsbətə doğru dəyişiklik müşahidə olunur. Beləliklə, Mariya Montessorinin metodikasının əsas ideyası yaranır: İstər normal, istərsə də əqli qüsuru olan uşaqların ətraf aləmi anlaması üçün onlara inkişafetdirici mühit lazımdır.

Mariya Montessori pedaqogika, psixologiya və antropologiyanı tədqiq etməyə başlayır, müşahidə və təcrübələr aparır. Tədqiqatları əsasında o, belə qərara gəlir ki, əqli geriliyi olan uşaqlar tibbdən çox, pedaqogikanın problemidir. Buna görə də onlarla xəstəxanada deyil, məktəbdə məşğul olmaq lazımdır.

1900-cu ildə 30 yaşlı Montessori Romada əqli geriliyi olan uşaqlar üçün məktəb yaradır və ona rəhbərlik edir. Məktəbdə uşaqlar üçün xüsusi inkişafetdirici mühit formalaşdırılır. Bir müddət sonra məktəbə baş çəkən İtaliya Təhsil Nazirliyinin nümayəndələri öz heyrətlərini gizlədə bilmirlər: əqli geriliyi olan uşaqlar inkişaf baxımından öz həmyaşıdlarını geridə qoymuşdular. Beləliklə, Mariya Montessorinin metodikası öz sözünün deyir və 1907-ci ildə ilk Montessori məktəbi açılır.

1907-ci ildən sonra demək olar ki, bir çox ölkələrdə - Amerika, İspaniya, İngiltərə, Fransa, Hindistan, Hollandiyada bu tipli məktəblər açılır və uğurlu nəticələrini verir.

Montessorinin pedaqoji sisteminin mərkəzində uşağın özü durur. Bu sistemdə qadağalar qadağandır. O deyirdi: "Heç vaxt uşağın uğursuzluğa düçar olmasına imkan verməyin. Biz dahilər yaratmaq iqtidarında deyilik. Bizim məqsədimiz yalnız uşağa müstəqil və əmin bir şəxsiyyət olması üçün öz potensial bacarıqlarından istifadə şansını verməkdi".

Bu metoda görə, müəllim uşağın ən yaxın dostudur. Uşaqların etdiyi səhvi müəllim düzəltmir. Uşaq səhvi özü görüb anlamalı və özü də düzəltməlidir. Müəllim uşağın səhvini onun özünün görüb anlaması üçün uşağa yardım etməlidir. Montesseriyə görə, pedaqoq daim uşağın nəyə maraq göstərdiyini və daha çox nə ilə məşğul olmağı xoşladığını izləməlidir. Əgər zamanı çatıbsa, uşağa daha çətin işlərlə məşğul olmağı təklif etməlidir.

Montessori deyirdi ki, pedoqogikanın əsas məqsədi uşağın psixi inkişafına kömək etmək olmalıdır. Hər hansı fikir, fakt uşağın yadda saxlaması üçün ona diktə olunmamalıdır. Müəllim hər bir şagirdin istedadını müəyyən edir və onun hər növ şıltaqlıq və dəcəlliyinə rəğmən öz müdrikliyi nəticəsində hər hər uşaqdan bir şəxsiyyət yetişdirir…

Bu gün, demək olar ki, Montessori təlimi bütün dünyada tətbiq edilir və uşaqlar bu təlim sayəsində sərbəstliyə, özünə inamlı olmağa və başqa yardımçı bacarıqların inkişafına yiyələnirlər.

# Özünü dəyişmək – çətin məsələ

Uzun illərin müşahidəsi nəticəsində belə qənaətə gəlmişəm ki, insan müsbətə doğru çox az və çətin dəyişir. Mənfiyə doğru dəyişmənin (özü də çox böyük dərəcədə) çox şahidi olmuşam. Əslində buna da təbii baxmaq lazımdır. Çünki, müəyyən bir qaya parçasının kiçik bir qüvvənin təsiri ilə dağın başına qalxma ehtimalı sıfır olduğu halda, kiçik bir təsirlə ilə dağın başından üzü aşağı yuvarlanma ehtimalı yüz faizə bərabərdir.

Bu fizika qanunlarına da tam uyğundur. Həmin qaya parçasının dağın başına çıxarılması mümkündür. Ancaq çox böyük əziyyət hesabına, fizika diliylə desək, çox böyük enerji sərf etmək hesabına.

Adamın mənəviyyat zirvəsinə çıxması bundan da qat-qat əzablı və əziyyətli işdir. Yalnız o adamlar mənəviyyat zirvəsini fəth edə bilirlər ki, onlarda anadangəlmə, irsi olaraq yüksək mənəviyyat toxumları olur. Və bununla yanaşı, həmin zirvəyə çıxmaq üçün yüksək ağıl və iradəyə malik olsunlar, böyük zəhmət çəksinlər. Yəni, burada ağıl zəhmət və iradə çox vacib amillərdir. Necə ki, N.Gəncəvi demişdir:

Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular.

Sözsüz ki, yaxşı toxum üçün münbit şərait də olmalıdır, əks halda quruyub tələf ola bilər.

Bu məsələyə yaxın olan digər bir məsələ də həmişə diqqətimi çəkib. Çox müşahidə etmişəm ki, hər hansı bir adam müəyyən bir vəzifəyə təsadüfən düşüb. Və işinin öhdəsindən gələ bilmədiynə görə rəhbərlik onu müsbətə doğru dəyişməyə ha cəhd etsə də, bir şey alınmayıb.

Hans Şeelye yazır ki, əgər adam öz vəzifəsinə uyğun gəlmirsə, onu dəyişdirməyə çalışmayın. Bu, çox çətin məsələdir, bəlkə də qeyri-mümkündür. Onun vəzifəsini dəyişin. Yəni özünə uyğun vəzifəyə təyin edin. Çox haqlı fikirdir. Ola bilər ki, həmin adam digər bir işdə özünü çox yaxşı göstərə bilər. Sadəcə onu müəyənləşdirmək lazımdır. Yəni hər bir insan anadangəlmə müəyyən yönümlüdür. Əgər insan onu özündə kəşf edə bilsə, uğurlar qazana bilər.

# Hər adamın bir zəif nöqtəsi

Yunanların "Axillesin dabanı" əsatiri çox mənalı bir əsatirdir. Əfsanədə deyilir ki, Axillesin anası Fetida oğlunun məğlubedilməz olması istəyi ilə onu yunanların müqəddəs sayılan Stiks çayının suyuna salır. Amma bu zaman oğlunun dabanından tutduğundan, ora su dəymir və daban qorunmaz qalır. Yəni böyüyəndə nə qədər güclü, məğlubedilməz qəhrəman olsa da, onun ən zəif yeri dabanı olur. Makedoniyalı İsgəndərin sevimli qəhrəmanı olan məğrur və şücaətli Axilles döyüşlərin birində Parisin atdığı ox dabanına sancılır və o ölür. O vaxtdan bu yana insanlar zəif və həssas yerləri "Axillesin dabanı" adlandırırlar.

Aydın məsələdir ki, güclü və ya zəif olmasından asılı olmayaraq, hər bir insanın bir zəif nöqtəsi var. Nəinki insanda, ümumiyyətlə bütün canlı və cansız aləmdə hər bir şeyin bir zəif, həssas nöqtəsi var ki, həmin yerdən onu asanlıqla məhv etmək olar.

Bəzən adam özündə həmin zəif nöqtəni görməyə də bilər. Amma onun yaxınları, dostları həmin zəif nöqtəni görə bilərlər. Dost odur ki, dostunun zəif nöqtəsini gördükdə onu xəbərdar etsin. Dostu da o zəif nöqtəni gücü çatan qədər gücləndirməyə çalışmalıdır. Bəlkə də ona görə deyirlər ki, dostu olan adama güzgü lazım deyil. Düşmən isə təbiidir ki, məqam düşən kimi adamı zəif nöqtəsindən vurur. Özünü dərk edən adama ona görə güclü adam deyirlər ki, o, özünün güclü və zəif tərəflərini yaxşı bilir. Lazım olanda güclü tərəfini işə salır və hər zaman zəif tərəfini gücləndirməklə məşğul olur.

# Adam özü olmalıdır

Bir müdrik kəlamda deyildiyi kimi, hər kəs özünə oxşayır. Bunu hər bir insana və bütövlükdə bir millətə, xalqa da şamil etmək olar. Ayrılıqda bir insan üçün özünə oxşamaq ifadəsinə aydınlıq gətirsək, belə demək olar ki, həmin adamın əməlləri, gördüyü işləri necə tanınırsa, nəsli-nəcabəti necədirsə, ona uyğun olacaq. Eləcə də, bir millətin nümayəndəsi və ya toplumu, başqa millətlərin içərisində hal-hazırki səviyyəsinə uyğun özünə oxşayacaq və digər millətlərdən seçiləcək. Əgər müsbət mənada özünəməxsus özəllikləri ilə seçilirsə, bu təqdirəlayiqdir. Yəni "hal-hazırki özündən" kənara çıxmaq mümkün deyil. Çıxsa da, süni görünəcək. Əgər fərd və millət bəşəri dəyərləri mənimsəyib özünküləşdirə bilsə, inkişaf edə bilsə, özünü daha yüksək səviyyədə təqdim edə bilər.

Demək istədiyim əsas mətləb ondan ibarətdir ki, adam özü ola bilməyəndə, daha doğrusu, müsbət mənada nəzərə çarpan bir səviyyəyə qalxa bilməyəndə gözü qalır onda-bunda. Son vaxtlar dəb düşüb ki, ay Avropada belədir, Amerikada belədir, biz inkişafdan qalmışıq, gəlin biz də bu yolla gedək. Bu yanlış fikirdir. Mütərəqqi cəhətləri istifadə etmək, özününküləşdirmək olar. Amma hərənin öz yolu var və bu yolu seçmək tam təbii bizim haqqımızdır. Orası da var ki, quş qanadıyla, at ayaqlarıyla, maşın təkəriylə məsafə qət etdiyi kimi hər bir insan, habelə, böyük anlamda hər bir millət də

müəyyən hədəflərə öz inkişaf səviyyəsinə uyğun olaraq öz mentaliteti və öz yolu ilə getməlidir.

Sən dahilərdən sitat gətirməklə özünün savadlı, ziyalı olduğunu kiməsə inandıra bilməzsən. Amma sən dahiləri öyrənib mənimsəyə bilmisənsə, özününküləşdirə bilmisənsə, sənə qulaq asanları inandıra bilərsən. Yəni bir çox elmləri, dahi şəxsiyyətləri mənimsədikdən sona özün olmalısan. Özün ola bilməsən, mütləq yenə də gözün onda-bunda qalacaqdır.

# Hər kəsin haqqını ödəmək tərbiyəsi

Dünyanın əşrəfi adlandırılan insan bəzən tərbiyə baxımından onu əhatə edən dilsiz-ağızsız təbiətə uduzur. Təbiət o qədər kamil yaradılıb ki, insan çox vaxt öz səhvlərini cansız təbiətə baxaraqdan düzəldir. O da görüb duya bilsə, anlaya bilsə. Adi bir həqiqətdir ki, torpağı yaxşı becərsən, yaxşı da məhsul götürərsən.Yəni dilsiz, ağızsız, şüursuz torpaq çəkilən zəhmətin əvəzini artıqlaması ilə qaytarır. Yaxud bir meyvə ağacına vaxtlı-vaxtında yaxşı qulluq etsən, yaxşı meyvə götürərsən və s.

Amma biz "dünyanın əşrəfi" olan insanlar çox vaxt hər kəsin haqqını doğru-dürüst, vaxtında ödəyə bilmirik. Əslində, hər kəsin haqqını doğru dürüst dəyərləndirmək böyük tərbiyədir. Və bu məsələ hər zaman diqqət mərkəzində olmaldır. Götürək elə müəllim əməyini dəyərləndirmək məsələsini. Həzrət Əli deyir ki, mənə bir hərf öyrədənin əbədi qulu olaram. Bəli, bu fikir müəllim əməyinə verilən böyük dəyərin ifadəsidir. Həqiqətdə isə müasir dövrdə müəllim əməyini yetərincə dəyərləndirə bilmirik. Ümumiyyətlə, insanların haqqını ödəmək müşkül məsələyə çevrilib. İnsanların haqqını ödəmək məsələsini düşünəndə həmişə ilk olaraq Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" filmindəki Hambal obrazı gəlib durur gözlərimin qarşısında. Kinonun əvvəlindən axırına kimi Hambal Məşədi İbaddan haqqını istəyir:- "A

Məşədi, mənim də bir abbasımı ver, çıxım gedim''. Ancaq ala bilmir, əvəzində qapaz yeyir. Qoçular, dələduzlar isə Məşədi İbaddan xeyli pul qoparırlar. Əslində isə Məşədi İbaddan pul almağa haqqı çatan bir Hambaldır. Çünki az-çox real iş görən, hamballıq eliyib, Məşədi İbadı barının üstünə çıxaran Hambaldır. Bax beləcə, haqqı ödəmək tərbiyəsi hər bir insanın müqəddəs borcuna çevrilməlidir. Haqqı ödənilən insan qəlbən, ruhən rahat olar, haqqı ödəyənin də yeri cənnət. Hamıya cənnətməkan olmağı arzulayıram.

# Keçmiş gələcəyi idarə edir

Yaşadığımız hər gün keçmişə qovuşur. Keçmiş dediyimiz ötən anlarda, günlərdə biz oxuyur, öyrənir, sevib-sevilir, qurub-yaradır, kömək edir, kimdənsə kömək alır, xeyirdə-şərdə iştirak edir, kiminsə əlindən tutur, ailə, ev-eşik sahibi oluruq. Cəmiyyətdə hərə öz bacarıq və qabiliyyətinə uyğun mövqe tutur, bəzən də layiq olduğu mərtəbəyə çıxa bilmir... Və sözsüz ki, həyat birrəngli deyil. Bu da bir həqiqətdir ki, həyatda oxuyub-öyrənməyənlər (amma onlara həyat özü dərs verir), sevib-sevilməyənlər, yaratmaq, qurmaq bir tərəfə, olanları vurub-dağıdanlar, xeyirə-şərə yaramayanlar, yüngül həyat tərzi keçirən insanlar... da var. Bir sözlə həyatda saysız-hesabsız müsbət və ya mənfi hadisələrlə, situasiyalarla qarşılaşırıq. Bu situasiyalar, bu əməllər kiməsə uğur gətirir, kiməsə məğlubiyyət. Yəni insanın keçmişi onun gələcəyini idarə edir. Ya yaxşı, ya da ki, pis istiqamətdə. Başqa sözlə, keçmiş ötüb keçsə də, bu gün keçmiş üzərində qurulur. Yaşadığımız hər gün sabah üçün keçmişdir. Ona görə də ötən hər bir günü uğurlu yaşamağa çalışmalıyıq.

Bu da bir həqiqətdir ki, insanlara, adətən, keçmişinə uyğun hörmət edirlər, dəyər verirlər; keçmişi yaxşı olubsa, yaxşı, pis olubsa, pis. Keçmişdə bəhrələndiyimiz dünyagörmüş ağsaqqallar bu gün həyatda olmasalar da, bu gün hər an bizə yol göstərir, istiqamət verir. Bu nə deməkdir? O demək-

dir ki, keçmiş dolayısı ilə gələcəyi idarə edir. Böyük türk şairi Yəhya Kamal "İstanbulun əhalisini sayarkən, ölülərini də saymaq lazımdır",- demişdir. Doğrudan da keçmiş həm də bü günün ayrılmaz hissəsidir. Uğurlarımızın, elə uğursuzluqlarımızın da çoxunun kökündə keçmişimiz dayanır. Bu gün nəyi edib, nəyi etməmək məsələsində sanki o müdriklərin gözü ilə baxırıq. Görəsən filan ağsaqqal sağ olsaydı, mənim bu hərəkətimə necə baxardı? Bir xeyir-şər məsələsi olanda həmişə atamın bir sözü yadıma düşür: Xeyir-şərə yaramayan adam elə yox kimidir. Bir insanla ünsiyyətdə, münasibətdə anamın: İnsanın qəlbinə dəymək ən böyük günahdır,– fikri həmişə mənimlə birgə olur.

Keçmişdə etdiyin hər bir yaxşılıq bu gün qarşına çıxır. Keçmişdə qazandığın biliklər, oxuduğun kitablar bu gün sənə bələdçilik edir. Keçmişdə yaxşı öyrətdiyin bir şagird, tələbə bu gün cəmiyyətə xeyir verir, mühüm bir elmi kəşf edir. Bir sözlə, keçmiş kimi baxdığımız hər ötən gündə istənilən bir sahədə möhkəm bünövrə qoymusansa, bu gün onun üzərində möhtəşəm bir bina, abidə qura bilərsən.

Xalq şairi Fikrət Qocanın bir şeiri var. Məzmunu bundan ibarətdir ki, baba və nəvə bir el ağsaqqalını dəfn edib qəbristanlıqdan qayıdır. Nəvə babaya sual verir: – Baba, ölən kişilər hara gedir? Baba cavab verir: Ölən kişiləri gələcək günlərin bünövrəsinə qoyuruq. Bəli bu rəmzdə böyük məna var. Yəni, gələcəyin necə olması keçmişdən çox asılıdır. Başqa sözlə keçmiş gələcəyi idarə edir.

# İdarəedənlər və idarəolunanlar

Tanrının külli kainatı şəriksiz, mütləq idarəetməsi aksiomadır. Amma cəmiyyətdə mütləq idarəedən, eyini zamanda mütləq idarəedilən yoxdur. İdarəedən idarəedilənlərin diktəsi ilə eyni zamanda idarəedilələndir. İdarəedilən isə öz maraqlarının tələbatçısı kimi, idarəedənə bir təzyiq vasitəsi kimi həm də idarəedəndir. İdarəedənlər-fərdlər (rəhbərlər, liderlər), qruplar (büro, şura, heyət) şəklində olur. İdarəolunanlar isə insanlar, hadisələr, proseslərdir. Proses və hadisələrin də özünəməxsus özəllikləri var: Belə ki, idarəedənə həmin proses və şəraitə uyğunlaşmağı tələb edir. Deməli, nəinki idarə edilən insanlar, habelə hər hansı təbiət və cəmiyyət hadisələri də idarəedənə həmin hala uyğunlaşmağı diktə edir. Yəni idarəedən mütləq idarəçi olmayıb, həm də idarəedilləndir.

# Millətinə, dövlətinə böyük sevgi

Bir dəfə oxuduğum bir yazı məni çox təsirləndirdi. Bu millətinə, dövlətinə böyük sevginin bariz bir nümunəsi idi... Bu yazı böyük türk alimi, tarixçi, ədəbiyyatşünas, siyasətçi Fuad Köprülünün (1890-1966) başına gələn bir hadisədən bəhs edirdi. Və açığı Fuad Köprülünün Vətən sevgisindən həm böyük fəxarət hissləri yaşadım, həm də həsəd apardım. Bizdə də millət, vətən sevgisinin belə yüksək məqamda olmasını arzuladım. Söz yox ki, bizdə də vətəni, milləti, dövlətini böyük məhəbbətlə sevən ziyalılar, alimlər və digər sahələrinin insanları olub və indi də var. Amma etiraf edək ki, əbədi dostumuz, qardaşımız olan Türkiyədə bu kütləvi şəkildədir. Və hər zaman bariz şəkildə özünü göstərir...

Deməli, böyük türk alimi, həmişə Əli bəy Hüseynzadəni özünə ustad hesab edən Fuad Köprülü Fransanın Sarbonna universtetinə mühazirə oxumağa dəvət olunur. Və universtetdə mühazirə oxuduğu günlərdə universtetin qarşısında üç gün Türkiyə Cumhurriyyətinin bayrağı dalğalanmışdır.

Deyilənə görə, həmin ərəfədə Sarbonn universtetinin yanından keçən Fransa prezidenti Sarbonnanın üzərində dalğalanan türk bayrağını görüb təəccüblənmiş, maşını universtetə sürdürmüşdü. “Bu nədir, türklər Parisi işğal etdi?”, –deyə rektor soruşur. Bir nəfər fransız alim isə “Xeyr, sadəcə auditoriyada türk professoru Fuad Köprülü mühazirə oxuyur”, -deyə cavab vermişdi.

Fuad Köprülü özü yazır ki, "Bu mənim həyatımın ən dəyərli mükafatı oldu. Sarbonna üstündə Türk bayrağı dalğalanırkən, Üniversitetə Fransız Rəisi-Cumhiri girmişdi. Kəndilərinə məni Türk alimi, -deyə təqdim etdilər. Əlimi sıxdı, nazikanə təbrik etdi"

Bəli, türk ədəbiyyat professoru Fuad Köprülü Sarbonn Universitetində yalnız bu şərtlə mühazirə oxumağa razılıq verib, yaxud Sarbon Universitetinin fəxri doktorluq diplomunu bir türk professoruna təqdim edərəkən, belə davranmağı gərəkli bilib.

Yeri gəlmişkən, deyim ki, Fuad Köprülü ədəbiyyat tarixçisi, tarixçi olmaqla yanaşı, həm də Türkiyənin millət vəkili, xarici işlər naziri olmuşdur. O, Stalinin türk torpaqlarına qarşı ərazi iddialarını elmi dəlillərlə və beynəlxalq miqyasda alt-üst etmiş, SSRi Elmlər Akademiyasının üzvlüyündən imtina etmişdir.

Fuad Köprülü istər elm, istərsə də siyasət sahəsində böyük uğurlara imza atan bir şəxsiyyət olmuşdur. Mənim bu kiçik yazıda əsas məqsədim böyük alimin Vətənə, Xalqına böyük sevgisinin bir epizodunu oxucularla bölüşmək istəyi oldu.

# Ruh yaxınlığı – sevgi qaynağım

Gəlin etiraf edək ki, insan ətraf aləmə nisbətən özünü daha çətin dərk edir. Və bəlkə də özündə dərk etdiyi qüsurları qəbul edə bilməməsi özünüdərkə mane olur. Şübhəsizdir ki, insan özünü daha çox dərk etdikcə, daha güclü olur. Kim güclü olmaq istəməz ki! Bu gücün səviyyəsi isə asılıdır özünü hansı dərəcədə dərk etməyindən. Bu mənada məni ən çox məşğul edən, məni ən çox düşündürən ən çətin suallardan biri-mən kiməm?-sualdır. Mən Kiməm?-sualının cavabları içərisində mənim üçün ən aydın cavablardan biri budur ki, mən sevdiyim, könüldən, ürəkdən bağlı olduğum insanları, nəsnələri istifadəlilik, maddi xeyirlilik baxımından deyil, mənə ruhən yaxın olduğu üçün sevirəm. Bu insan da ola bilər, heyvan da, bitki də, çiçək də, ağac da, çay da, dəniz də adi bir daş da, əşya da... Bu mənada Allahımdan çox razıyam. Və bunu Tanrının mənə ən böyük lütfü, bəxşişi hesab edirəm.

Təmənnalı olaraq, sifarişli olaraq heç bir şeyi sevə bilmirəm. Yalnız o şeyləri sevirəm ki, o mənə ruhən yaxın olur. Hesab edirəm ki, mənə güc verən əsas cəhətlərdən ən birincisi, məhz budur. İkincisi, mənfi cəhətlərimi bilməyimdir. Yəqin ki, özüm bilmədiyim mənfi cəhətlərim də var. Və zaman gəldikcə bunları hiss edib düzəltməyə çalışıram. Sevinirəm ki, nə yaxşı mən bunları görüb hiss edə bilirəm və gücüm çatan qədər bu qüsurları aradan qaldırmağa çalışıram. Elələri də var ki, ha çalışsam da düzəldə bilmirəm. Necə deyərlər, südlə gələn sümüklə çıxar.

# Problemsiz adam – "xoşbəxt adam"

Bir dəfə rejissor-ssenarist, xalq artisti Oktay Mirqasımov - "Ovqat" televizya verlişinin qonağı idi. Tanıyanlar bilirlər ki, Oktay müəllim sözün əsil mənasında ziyalı, yüksək intellektə malik bir insandır. Hər dəfə çıxışlarında yeni bir söz deməyi bacaran söz adamıdır, səmimi müsahibdir. Ona görə də verlişi çox maraqla izləyirdim. Aparıcı Nəcibə xanım onu xoşbəxt insan adlandırdı. Oktay müəllimin bu fikirə münasibəti belə oldu: Allahımdan çox razıyam ki, sənətimlə, bir insan kimi əməlimlə yaxşı mövqeydə olmaq qismətimə yazılıb. Bu elə böyük xoşbəxtçilikdir. Amma mən özümü tam xoşbəxt hesab edə bilmərəm. Həyatda adamın özünün də bilmədən o qədər səhvləri olur ki. Və eyni zamanda, ətrafında cəmiyyətdə ürək ağrıdan neqativ hallar varsa, sənin onları düzəltməyə gücün çatmırsa, necə özünü tam xoşbəxt hesab edə bilərsən?

Oktay müəllim sözünə davam edərək dedi ki, adamın bir problemi yoxdursa, o artıq normal adam deyil. Və bir misal çəkdi. Dedi ki, ailəmizdə bir ad günü məclisi idi. Bibimin yoldaşı respublikanın baş psixiatrı Ağabəy Sultanov da bizdə idi. Məclisdə mən də bir sağlıq dedim. Yadımdadır, yekunda qeyd elədim ki, mən özümü xoşbəxt hesab edirəm. Sözsüz ki, cavanlığın da ruhu, ötkəmliyi vardı bu sağlığın içərisində. Sağlığı deyib qurtardıqdan sonra Ağabəy müəllim üzünü mə-

nə tutub dedi: - Oktay, o, xoşbəxtlik məsələsi ilə bir az ehtiyyatlı ol. Özünü tam xoşbəxt hesab edən adam artıq bizim xəstəmizdir.

Sonra dərindən fikirləşəndə gördüm ki, Ağabəy müəllim düz deyir. Yəni, doğrudan da, özünü tam xoşbəxt hiss etmək o deməkdir ki, həmin adamın heç bir problemi yoxdur. Problemsiz adam isə dəlidir. Veriliş boyu Oktay müəllimin bütün söhbətləri ürəyimcə oldu. Və açığı adam belə səmimi, yüksək səviyyəli söhbətdən həmişə zövq alır. Arzu edərdik ki, bütün ola bilməsə də, əksər televiziya verlişlərimiz belə maraqlı, öyrədici, ruha dinclik gətirən verilişlər olsun ki, baxanlar, eşidənlər də bir şey əxz edə bilsinlər.

Bir də bu xoşbəxtlik məsələsini ona görə qabartdım ki, indi yetirən verilişdə bayağı adamlara sual verirlər ki, özünü xoşbəxt sanırsanmı? O da fikirləşmədən: -Bəli,deyir. Axı ətrafımızda bu qədər imkansız, haqqı tapdanmış insanlar varsa, mən özümü necə xoşbəxt hesab edə bilərəm. Mənim üçün bədbəxt adamın ən böyüyü kiminsə haqqına girən, kiminsə çörəyini qamarlayıb alan harınlamış adamlardı. Onlar mənəvi xəstədirlər, şikəstdirlər. Belə harınlamış mənəvi xəstələrə dərman tapılmayınca, biz necə xoşbəxt ola bilərik?

# Ciddiliyin sərhədləri

Bir dəfə baş verən bir hadisəni düşünərəkən özümün, habelə bu hadisədə iştirak edən digər insanın hərəkətləri mənə bir qədər sadəlövh göründü. Həmin insan da sıradan bir adam deyildi. Öz sahəsində elmlər doktoru, professor, eyni zamanda, yüksək vəzifəli bir adam idi. Mən ondan bir nəfərin işinin düzəlməsi üçün ciddi yanaşmasını xahiş etdim. O, da cavabında mən ciddi adamam, söz verdimsə, deməli, mütləq edəcəyəm. Axı dilimizdə yaxşı bir ifadə var. Bir işin həll olunması üçün söz verəndə deyirik ki, İnşallah ölməsəm, sağ qalsam, çalışacam ki, həll edəm.

Bir müddət sonra F.Kafkadan oxuduğum bir söz "Sadəlövh düşünməyimiz" fikrini bir daha təsdiq etdi. F.Kafka deyir ki, ölümün mövcud olduğu yerdə ciddi heç nə ola bilməz. Doğrudan da belədir. İnsan yüz faizliklə, tam əminliklə qarşısına ciddi bir məsələ qoya bilməz ki, sabah saat on birdə mən filan məsələni mütləq həll etməliyəm. Qarşısına ciddi bir məsələ qoyan və xaraktercə ciddi olan bir adam amansız ölümün diktəsi ilə tragikomik bir vəziyyətə düşə bilər. Yəni mütləq heç nə olmadığı kimi mütləq ciddilik də yoxdur. Və mövcud olan ciddiliyin sərhəddi ölümə kimidir.

# "Solo oxuyanlar" qıtlığı

Mən hər zaman birlik acı olmuşam. Bu da səbəbsiz deyil. Birincisi, birliyin məğlubedilməzlik olması, tamlıq, ahəngdarlıq, gözəllik olması baxımından. İkincisi, bir millət olaraq birliyimizin, yetərincə olmamasından, zaman-zaman parçalanmadan əziyyətlər çəkdiyimizə görə.

Ona görə də əksər yazılarımda, kitablarımda istər ailə, istər cəmiyyət, istərsə də daha qlobal miqyasda birlik məsələsi xüsusi yer tutur. Bəlkə də belə görünə bilər ki, axı bu sadə həqiqəti bu qədər təblig etməyə nə hacət. Birliyin yaxşı bir xüsusiyyət olmağını kim bilmir axı? Amma nə edəsən ki, bu sadə həqiqəti hamımız bilsək də, birliyimiz ürəkaçan deyil. Elə bu səbəbdən də sosial, iqtisadi, mədəni durumumuz da birliyimizin səviyyəsinə mütənasibdir. Əslində birliyin məna və siqlətinin başa düşülməsi nə qədər sadə olsa da, ona əməl etmək elə həmin dərəcədə də çətindir. Niyə? Çünki birlik fiziki olaraq on-on beş çubuğu toplayıb üst-üstə bağlamaq kimi deyil. Birlik bir-birinin sevincinə, nailiyyətinə, kədərinə şərik olmağı bacarmaqdır. Birlik həqiqətləri deməyi bacarmaqdır. Birlik millətini inkişafa, tərəqqiyə aparan yolu müəyyən etməkdir. Birlik-bütün sferalarda ədaləti bərqərar etmək deməkdir, heç olmasa, kafi səviyyədə.

İnsanın bir orqanı ağrıyanda başqa orqanlarının da bu ağrıya müqavimət göstərməsi birliyin təzahürüdür. Necə ki, deyirik: Adamın bir yeri ağrıyanda bütün canı ağrıyır. Yaxud orqanizmin sağlamlığı insanın ruhunu və əksinə, ruhun və-

ziyyəti orqanizmin sağlamlığını stimullaşdırır. Gərək ki, Tolstoyun fikridir, deyir, ağrıyırsansa, canlısan, başqasının ağrısına ağrıyırsansa insansan. Başqasının ağrısına ağrımaq elə birliyin təzahürüdür. Millətimizin bir qismi qaçqın çadırlarında səfalət içindədirsə, başqa bir qismi yağ içində üzürsə, hansı birlikdən danışmaq olar? Yaxud millətimizin bir istedadlı nümayəndəsinin yaratdıqlarına, uğurlarına sevinə bilmiriksə, onu layiqincə qiymətləndirə bilmiriksə, xalqım malını talayanlara öz yerini göstərə bilmiriksə, hansı birlikdən danışmaq olar?

Çox az-bir qisim insan timsalında mükafatlandırma və cəzavermə hələ yetərli deyil. Ən yaxşı ədalət, ən yaxşı idarəetmə hərəni öz yerində görmək, hərəni öz yerinə göndərməkdir. İdeal olmasa da, müəyyən həddə qədər etmək olar. Bunun üçün sözsüz ki, uyğun qanunlar , mexanizmlər işləməlidir və yenilənməkdə olan şəraitə uyğun yeni mexanizmləri yaratmaq lazımdır. Bizdə əksər vəzifəlilər, öz vəzifələrini, dolanışığını itirməmək naminə bir çox sterotipləri hələ də sındıra bilmirlər. Sanki xorda oxuyurlar. Bir nəfər də olsun “Solo oxuyan” yoxdur. Birlik xorda oxumaq deyil. Daha doğrusu, yalanı xorda oxuyurlar. Söhbət həqiqəti xorda oxumaqdan getmir. Hər kəsin müstəqil fikirləri, azad düşüncəsi olmalıdır. Bu müstəqil, azad fikirlərin toqquşmasından yaranan həqiqətlər birliyin olmasını sübut edən hadisədir. Birliyin qüdrəti isə inkar edilməzdir.

# Xələflər və naxələflər

Tarixi şərait, zaman çox mühüm amillərdir. Pifaqordan soruşurlar ki, övladım olub, nə cür tərbiyə edim? Deyir ki,ədalətli cəmiyyətdə doğulsa bəsidir.Bəzən mən heç kimi qınamıram. Xüsusən, uşaqları heç qınamıram: Niyə oxumurlar, niyə tərbiyəsizlik edirlər. Çünki ən yaxşı tərbiyə üsulu Eynşteyn dediyi kimi nümunə üsuludur. Yəni, uşaq nəyi görür, onu da götürür. Uşaqlar yaxşı oxuyanların, ziyalıların, alimlərin dolanışığını görür, onlara verilən qiyməti görür, onların yaşayış səviyyəsini görür və nəticədə oxumağa meyli, həvəsi azalır.

Çox təəsüflər olsun ki, cəmiyyət özü də bilmədən qoyun sürüsü müəyyən istiqamətdə yönləndirilən kimi yönləndirilib. Özü də insanlığın zərərinə olan, onu səfalətə, rəzalətə aparan bir istiqamətə. Elə bir tarixi şəraitdə yaşayırıq ki, insanlığını, namus-qeyrətini vəzifəyə, pula satanların sayı gündən-günə çoxalır. İctimai qınaq da yox. Yaxud, ictimai qınaq da hər şeyini vəzifəyə, pula satanların heç vecinə də deyil. Təki var-dövlət olsun, vəzifə olsun. Çünki o, mənəvi dəyərlərin, dədə-baba adət-ənənələrmizin daşıyıcısı deyil. Yəni, xələf deyil, naxələfdir.

Belə-belə mənəviyyatsızlar kütləviləşir və cəmiyyətdə adi bir hal alır. Camaatın gözü öyrəşir belə əxlaqsızlığa. Yəni gələn nəsillər də elə bilirlər ki, elə belə də olmalıdır. Sözsüz

ki, dünyadan xəbəri olanlar, əsl mənəviyyat daşıyıcıları bilirlər ki, belə olmalı deyil. Və bu kimi neqativ hallarla mübarizəni də elə o mənəviyyat daşıyıcıları aparır. Haqqı deyənlərə, mübarizə aparanlara da deyirlər ki, filankəs zamana adamı deyil. Yaxşı ki, zamana yaxa verməyən, mübarizə aparan xələflər var. İnsanlığı yaşadan, yaxşı nə varsa, gələcək nəsillərə çatdıran da elə xələflərdir.

# Kim türkün düşmənidirsə...

Deyilənə görə, ingilis şairi Bayron arvadının əlindən qaçaraq Londondan Afinaya gəlir. Orada yunanların türklərə qarşı apardıqları müharibəyə qoşularaq, türklərə qarşı vuruşur. Və həmin müharibədə soyuqdəymədən xəstələnib ölür. Erməni "ziyalılarını" Bayronun şairliyindən daha çox türklərə qarşı döyüşlərdə iştirak etməsi maraqlandırdığına görə, İrəvanda onun heykəlini qoydular. Özü də I Qarabağ müharibəsi zamanı, günahsız qanlar töküldüyü bir dövrdə. İngiltərənin baş naziri M.Tetçer də bu münasibətlə Ermənistana gəldi və Bayronun heykəlini ziyarət etdi. Bunu deməkdə məqsədim odur ki, ermənilərin dostluq meyarında yalnız bir ölçüsü var. Kim türkün düşmənidirsə, erməni onu özünə dost bilir. Əslində buna dostluq da demək olmaz. Bu sadəcə ermənilərin siyasi marağıdır.

# Erməni xisləti

Erməni xislətinin biz türklər çox yaxşı bilirik. Onların türklərə qarşı törətdikləri cinayətləri, vandalizmi uşaqdan böyüyə hamı bilir. Onların xislətini, bilavasitə öz dillərindən eşidəndə, öz "ziyalı"larının, "şair" və "yazıçı"larının "kitab" larından oxuyanda, adam dəhşətə gəlir. Bunu bir sıravi erməninin dilindən eşitsən, bəlkə də qəbul etmək olar. Amma özünü yazıçı adlandıran bir məxluqun (insan deməyə adamın dili gəlmir) bu qədər vəhşi, murdar xislətə malik olduğu adamda təəccüb doğurur...

Qarabağ hadisələrinin ən fəal iştirakçısı, ermənilərin ən çox sevdiyi ideoloqlarından biri Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında Xocalıda törətdikləri soyqırım haqqında belə yazır: "Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra mən 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək, dünyasını dəyişdi. Ruhum sevincdən qürurlanırdı. Daha sonra Xaçatur türk uşağının meyitini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni bizim hərəkətimizlə fəxr duyacaq". Sözün əsl mənasında bu sətirləri yazan bir varlığa (insan yox!) yazıçı-şair demək ən azı cinayətdir. Bunun adı qaniçəndir, vampirdir!

# Köhnə divar çatı

"Qarı düşmən dost olmaz" atalar sözünü yenidən isbat etmək fikrində deyiləm. Atalar sözləri isbata ehtiyacı olmayan aksiomadır. Amma istər şəxsi münasibətlərdə, istərsə də qlobal səviyyədə, deyək ki, dövlətlər arasında bu atalar sözünü nəzərə almayıb yenidən "dostluğa" başlayanda bu mənə heç cür səmimi görünmür. Ancaq düşünəndə ayrı bir yol da yoxdur. Bu münasibətlər məndə köhnə divar çatını malalamaq effekti doğurur. Bu divar çatını nə qədər suvasan da, malalasan da yenidən çat yaranacaqdır. Düzü, mən əbədi düşmənçiliyin qəti əleyhinəyəm. Hindistan lideri, siyasətçisi Cəvahir Ləl Nehrunun hamıyla dost olmağı bacarmaq prinsipi əslində çox yaxşıdır. Xüsusilə də, qlobal səviyyədə. Çünki bu əlavə güc deməkdir. Əgər düşmənçiliyə, münaqişəyə səbəb olan faktor antoqonist deyilsə, əks qütblərdə dayanmırsa, barışmaq üçün yollar axtarmaq Allaha da xoş gələr. Bir-birini bağışlamaq olar və dostluğa yol varsa, düşmənçilik etmək cahillikdir.

Mən bunu Türkiyə-Yunanıstan, Türkiyə-Rusiya timsalında çox müşahidə etmişəm. Əzəli münaqişəli olan bu dövlətlər nə qədər yaxınlığa, dostluğa meyilli münasibətlər göstərsə də, mən buna hələ də inanmıram. Çünki o dostluq münasibətlərinə stimul olacaq bazanı yarada bilməyiblər. Odur ki, hər deyilənə inanıb sayıqlığı itirmək olmaz. Çünki bizim güvəndiyimiz, əzəli, əbədi dostumuz bir qardaş Türkiyə var. O Türkiyənin sarsılmağı bütün türk xalqlarının sarsılmağı deməkdir. Odur ki, hər zaman ayıq-sayıq olmalıyıq.

# Nə isə itirməsən...

İnqilablar və müharibələr haqqında düşünərkən ilk ağlımıza gələn o olur ki, insanlar məhrumiyyətlərə düçar olur, ölüm, itim, aclıq, səfalət, bədbəxtçiliklər baş alıb gedir. Rus inqilabçısı Lev Trotskinin fikrincə, inqilab tarixin dəlicəsinə ilhamlanmasıdır. Həqiqət var. Tarixin dəlicəsinə ilhamlanması nəticəsində cəmiyyətdə qeyri-adi dəyişikliklər baş verir ki, bu da cəmiyyətin bütün sferalarına-elmi, iqtisadi, siyasi, təhsil... və digər sahələrinə əhəmiyyətli dərəcədə təsir edir. Söz yox ki, əsasən proqressiv istiqamətdə. Sözsüz ki, inqilab dağıntılara, fəlakətlərə, insan ölümünə səbəb olur. Amma tarix müəyyən zamanla ölçülmür. Bu inqilablar, müharibələr nəticəsində insanlar əzab-əziyyət çəksələr də, gələcək üçün insan təfəkkürü üçün iqtisadiyyat və siyasət üçün, elmi-texniki tərəqqi üçün proqressiv ideyalar, çevrilmələr yaranır ki, bu da cəmiyyətin gələcək inkişafı üçün böyük əhəmiyyətə malikdir. Yəni hər bir hadisənin miqyası konkret bir hadisə ilə ölçülmür. İnqilab və müharibələr nə qədər ziyan versə də, onun gələcək üçün xeyri ondan dəfələrlə çoxdur. Nə isə itirməsən, nə isə qazana bilmərsən.

# Bağda ərik var idi...

İnsanların güclülərin yanında olması, onlardan faydalanması başa düşüləndir. Amma çox olub ki, güclü bir insan həyatının müəyyən mərhələsində hər hansı bir səbəbdən, yaxud bəxtsizlikdən zəif düşə bilər. Çox qəribədir ki, belə çətin məqamlarda əksər dostlar və yaxınlar vaxtı ilə güclü olmuş və taleyin amansız zərbəsindən səndirləyən həmin adamdan üz çevirir. Yoluxucu xəstəlikdən ehtiyat edirmiş kimi qaçırlar.

Məntiqlə yanaşsaq, əslində yaxınlar dara düşənə kömək etməli idi. Müşahidələr isə çox vaxt bunun tam əksini deyir. Bu yerdə təsəllimiz bir atalar sözü olur: Yıxılana balta çalan çox olar. Çox təəssüf ki,bu belədir! Çalış yıxılma. Bu həqiqəti dərk etməyin bir yolu da belədir ki, vaxtı ilə güclünün ətrafına yığışanlar əqidə dostları deyilmiş. Onlar vaxt adamlarıimiş. Onların prinsipləri belədir:

Bağda ərik var idi,
Salam əleyk var idi.
Bağdan ərik qutardı,
Salaməleyk qutardı.

Əqidə dostları adamı heç vaxt darda qoymazlar. Ona görə də həmişə ayıq olmaq gərək. Özünə həmişə sual vermək: Ətrafımdakılar kimlərdir?

# Şam, iynə və saç

Deyilənə görə, təsəvvüf tarixinin birinci xanımı Rəbiyyə Əl-Ədəviyyə şərqin məşhur sufilərindən sayılan Bəsrəli Həsənə ad günü münasibətilə bir qabda üç şey göndərir: şam, iynə, saç. Həsən təəccüblənir və bu gizli mətnin mənasını aça bilmir. Odur ki, həmin simvolların mənasını açmaq üçün Rəbiyyəyə məktub göndərir. Rəbiyyə ona cavab məktubu yazır və simvolların mənasını belə izah edir: şam kimi ol, özünü yandır, ətrafını nurlandır. İynəyə bənzəyib təmənnasız işlə, söküləni tik, ayrı düşənləri birləşdir, əvəzində heç nə umma: o vaxt min il sənə bir saç kimi qısa görünər. Çox gözəl alqışdır, dəyərli arzudur: Şam kimi yanıb ətrafı nurlandırmaq, iynə kimi təmannasız xidmət! Doğrudan da, belə xeyirxah insanların ömrü min il də olsa azdır. Çünki belə insanlar cəmiyyətə ancaq xeyir vermək üçün, yaxşılıqlar etmək üçün yaranıblar.Belə insanlar hər zaman qəlblərdə yaşayır və əbədiyaşardılar.

# Müəllim niyə sınıxmısan?

Yas yerində tanışlardan biri mənə müraciətlə:- Müəllim, gözümə bir təhər dəyirsən. Niyə belə sınıxmısan? –dedi. Həmin məqamda cavab olaraq ilk ağlıma gələn türk şairlərindən birinin şeirindən iki misra oldu:

Ölüm deyildir dünyanın ən fəci işi,
Müşkül olan odur ki, ölümdən qabaq ölür kişi.

Və bu misraları həmin tanışıma dedim. Bilirdim ki, söz, şer onun malı deyil. Amma nə isə dedim. Çox gec-gec görüşsək də, kənddən üzü bəri bilirdim ki, onun həyat amalı nə yolla olur-olsun pul qazanmaq, var-dövlət toplamaq, bahalı maşınlar sürmək idi. Sabir demişkən, millət necə tarac olur-olsun, onun üçün o qədər də əhəmiyyət daşımır. Nəinki millət, hətta yaxınları belə onu maraqlandırmırdı.

Sözümə davam edərək dedim ki, ay filankəs, sən bu gün bir ölü üstə gəlmisən, mən isə yüz ölü üstə. Tanışım sual dolu nəzərlə üzümə baxdı. Necə yəni yüz ölü üstə? Mən cavabında: Bax bu yas yerində gördüyün üç yüz adamın ən azı yüzü canlı ölüdür. Niyə? Ona görə ki, öz sözü, mövqeyi olmayan, həqiqəti deməyə cəsarəti çatmayan, yaxşı yaşamağa haqqı çatsa da, Allahın xalqımıza verdiyi bol-bol sərvətlərə baxa-baxa qalan, üzərinə "qaçqın", "köçkün" damğası vurulan, yaxud da vəzifə almaq üçün onun-bunun qabağında əyi-

lən, yaltaqlıq edən, yazığın başından basıb zalıma nökərçilik edən, və digər dürlü-dürlü "adamlar" elə diri ikən ölmüş insanlardı. Hər gün belə mənzərələrlə, belə "adamlar"la üzləşən insan necə gümrah ola bilər? Bax, məni sınıxdıran belə-belə şeylərdi. Şükür Allaha, maddi cəhətdən elə bir korluğum yoxdur. Az-çox dolanıram. Ən dəhşətlisi odur ki, içi mən qarışıq hamımız bir çox həqiqətləri deyə bilmirik. Sözlərimiz içimizdə dustaq qalıb. Şair Məmməd Dəmirçioğlu deyirdi ki,

Söz ürəkdə duruldu,
Dilə möhür vuruldu.
Dar ağacı quruldu,
Barı ola bilmədim.

Qəlbi sözlərinə zindan olan adam necə sınıxmaya bilər? Millətinin bir milyonu didərgin olan, bir neçə milyonu bir tikə çörək qazanmaq üçün xarici ölkələrə üz tutan, millətinin otuz milyonunun öz dilində yazmaq hüququ olmayan, öz məktəbi olmayan bir millətin övladı hansı xoş hissələrlə yaşaya bilər? Bax, belə-belə şeylərdi müəllimi sınıxdıran!

# Gözəl danışmaq xoşbəxtlikdir.

Çox adam tanıyıram ki, fikirlərini yazılarında oxunaqlı, səlis, cazibədar bir dildə, yüksək elmi-publisistik səviyyədə ifadə edə bilirlər. Amma hər hansı bir məclisdə, tədbirdə çıxış edəndə isə elə maraqsız və rabitəsiz danışırlar ki, onları dinləyənlər tez yorulur, diqqətlər yayınmağa başlayır. Və açığı bu nitqdən nə zövq ala bilirsən, nə də bir fikir anlaya bilirsən. Və əksinə, elə qisim adamlar var ki, nitqindən doymursan, amma yazıları çox yorucudur, oxunaqlı deyil. Sözsüz ki, alim üçün, yazar üçün, müəllim üçün, ümumiyyətlə, bir sənət adamı üçün həm nitqin, həm də yazının gözəl və cazibədar olması yaxşı olardı.

Elə sənət sahələri var ki, həmin sahədə çalışan insanların aydın və parlaq nitqinin olması çox vacibdir, xüsusi ilə də, müəllimlərin, alimlərin, ədəbiyyatşünasların, yazıçıların. Düzdür, burada da gendən, qandan gəlmə xüsusiyyətlərdən çox şey asılıdır. Ancaq öz üzərində işləmək, məlumatlı olmaq da vacib şərtdir. Bunlara malik olduqda belə, nitq zamanı fikir və məlumatların ardıcıllıqla düzülməsinin, ifadə edilməsinin texnologiyasını da öz üzərində ardıcıl işləyərək öyrənməlisən.

Sözsüz ki, natiqliyin elementlərinə jest və mimikaların, boy-buxunun, üz ifadələrinin, üz quruluşunun, baxış formasının müxtəlifliyi, cazibədarlığı da daxildir. Eyni zamanda,

natiq doğma dilinin söz xəzinəsinə, folkloruna da dərindən bələd olmalıdır. Mövzu ətrafında paralellər, müqayisələr aparmağı bacarmalıdır. İfadə etdiyin fikirlərə dərindən əmin olmalısan. Ən əsası isə yeni nəsə bir fikir deməyi bacarmalısan ki, dinləyicilər yorulmasın. Yalnız bu təqdirdə auditoriyanı ələ almaq, dinləyicilərin rəğbətini qazanmaq olar.

# "Üç meymun" fəlsəfəsi

Gözəl danışmaq, hər şeyin gözəl tərəfini görmək, hər zaman yaxşı sözlər eşitmək həqiqətən xoşbəxtlikdir. Bu gözəllikləri təbliğ etmək üçün Hindistanda ta qədimdən indiyədək çox yayılmış bir üsuldan istifadə edirlər. Hindistana gedib-gələnlər danışırlar ki, həmin ölkədə ən kasıb ailənin körpəsinin beşiyi üstündən tutmuş hər bir evdə, məktəblərdə iş adamlarının, məmurların otaqlarında, hətta Hindistanın Böyük Britaniyanın iki yüz illik müstəmləkəçiliyindən azad edilməsinin rəhbəri Mahatma Qandinin Ev müzeyindəki gündəlik iş stolunun üstünədək hər yerdə "Üç meymun" fiquruna rast gəlmək olar. Bu fiqurda oturmuş vəziyyətdə arxalarını bir-birinə söykəmiş üç meymundan biri iki əli ilə ağzını, ikincisi qulaqlarını, üçüncüsü isə gözlərini yumub.

Bu simvol mənasına görə o qədər kütləviləşib ki, ən kiçik ölçüdən tutmuş nəhəng abidələrədək bütün ölkə ərazisində yayılıb. Özü də adi oyuncaqdan, daşdan tutmuş gümüşə, qızıla qədər hər cür xammaldan hazırlanır. Məsələ burasındadır ki, bu adi bir fiqur olmayıb böyük simvolik fəlsəfi məna daşıyır. Onun fəlsəfəsi və tərbiyəvi mənası belədir: Əlləri ilə ağzını tutan meymun deyir: "Mən yalnız yaxşı sözlər danışa bilərəm. Mən heç vaxt pis söz danışmaram. Əlləri ilə qulaqlarını tutan meymun deyir: "Mən yalnız yaxşı sözlər eşidə bilərəm. Heç vaxt pis söz eşitmək istəmirəm" Əlləri ilə

gözlərini tutan meymun deyir. “Mən yalnız yaxşı şeyləri görə bilərəm. Heç vaxt pis şeyləri görmək istəmirəm”

Bu dərin mənalı fəlsəfə hind xalqının tərbiyəsində çox güclü metodoji əsas sayılır və uşaqlar bu ruhda tərbiyə olunur. Fəlsəfəinin bu dərəcədə sadə ifadə edilməsi, əyanniləşdirilməsi və körpəlikdən başlayaraq, uşaqlara təlqin olunması həqiqətən son dərəcə ibrətamizidir.

# Nə zaman ki...

Tarixdə çox olub ki, ən təmiz, ən vicdanlı, ən ağıllı və yüksək əxlaqi dəyərlərə malik olan adamlar əxlaqsızlıqda, mövcud olan əxlaqi norma və qaydalara, habelə qanunlara qəsd etmək üstündə mühakimə olunub. Bunlardan Sokratı, Epikürü, C.Brunonu, Spinozanı, Tomas Moru, Koperniki, Kompanellanı, Nəsimini, Həllac Mənsuru... və digərlərini göstərmək olar. Adları çəkilən bu mütəfəkkir, dahi insanlar hər biri böyük ideyalar carçısı və yüksək mənəviyyata malik olsalar da, mövcud cəmiyyətin ən əxlaqsız nümayəndələri onları əxlaqsızlıqla günahlandırmışlar.

Nə zaman ki, əxlaqı, mənəviyyatı olmayanlar mənəviyyatdan "dərs" deyir, elm və təhsil cahil adamların nəzarəti altında olur, nə zaman ki, siyasətlə, səriştəsiz, adamlar, avanturistlər, fırıldaqçılar, intriqaçılar məşğul olur, onların bilikli, müdrik, həqiqətpərvər, nəcib insanlara nifrət bəsləməsi təbii haldır. Buna təəccüblənməyə dəyməz.

# İlk növbədə zəif və zəriflərin...

19 may 2016-cı ildə təsadüfən ANS televizya kanalında gedən "Beşbarmaq" verlişindəki bir məqam diqqətimi çəkdi. Verlişə əvvəldən baxmasam da, hiss elədim ki, söhbət insan hüquqlarının qorunmasından gedir. Verilişin qonaqlarından ikisini tanıdım: Yazıçılar Murad Köhnəqala və bir çox tarixi romanlar müəllifi Yunuz Oğuz. Murad Köhnəqala İsveç səfərinin təəssüratlarından danışaraq qeyd etdi ki, İsveç dövlətində hüquqların qorunma ardıcıllığı belədir:

Birinci yerdə uşaqların, ikinci qadınların, üçüncü it və pişiklərin, yəni heyvanların, dördüncü sırada isə kişilərin hüquqlarının qorunması dayanır. Yunus Oğuz bunu bir növ normal qarşılamasa da (o baxımdan ki, kişilərin hüquqları lap axıra salınıb) verlişin aparıcısı Ulvira xanım qanunun bu ardıcıllığını təəccüb qarışıq bir məmnunluqla qəbul edərək, kişilərin bu sırada axırda dayanmasına təbii baxdı. Hiss elədim ki, qadınların kişilərdən qabaqda dayanması ona, hətta bir az da ləzzət elədi.

Düzü, bu qanun mənə də bir az inandırıcı gəlmədi. İtin-pişiyin hüquqlarının kişilərin hüquqlarından irəlidə olması. Əvvəla, hüquqlar ya qorunur, ya da ki, qorunmur. Burada ardıcıllıq elə bir əhəmiyyət daşımır. Qanunu pozan məsuliyyət daşımalıdır (heyvanlar istisnadır). Tutaq ki, qadın kişiyə qarşı cinayət hərəkəti törədib. Burada nə birinci, nə ikinci ola bilər. Qadın cəzalanmalıdır. Ancaq hüquqların qorunma-

sında qadına belə birincilik vermək olar ki, kişi qadına qarşı həmin cinayəti törədibsə, kişinin cəzasını daha ağır etmək olar. Yəni qadının hüququ bu mənada önə keçə bilər. Qaldı heyvanların hüququna. Heyvanların hüququnu nəinki qanun, hamımız qorumalıyıq. Əgər insan heyvanı öldürürsə, o cəzalanmalıdır, heyvan insanı öldürürsə, biz heyvana nə cəza verməliyik ki! Heyvandan qorunmaq, təhlükəsizlik tədbirləri görmək insanın borcudur. İsveçdə, doğrudan da, bu belədirsə, burda da bir hikmət var. Deməli, birinci növbədə zərif, aciz və zəif məxluqların hüquqlarını qorumaq lazımdır.

# Varlığın yoxluğu

Kiminsə bir işinə yarayanda özümü çox rahat və məmnun hesab edirəm. Əslində elə belə də olmalıdır. Yəni, təbiisi budur. Allah bizi yaradanda hərəmizin üzərinə bir missiya qoyub. Bu missiyalardan biri də kiməsə, hardasa, nədəsə lazımlılıq missiyasıdır. Əks halda, yəni bir işə yaramamaq, eldə deyildiyi kimi yaramaz olmaqdır. Bu isə yumşaq şəkildə desək, varlığın yoxluğudur: Var ikən yox olmaq deməkdir. Sadəcə bu fiziki olaraq mövcud olmaqdır. Hətta cəmiyyət üçün əlavə yük və maneə deməkdir. Ona görə də hər bir insan qadir olduğu, bacardığı işdə, yaraya bildiyi məqamlarda insanlara lazımlılığı özünün əsas vəzifələrindən hesab etməlidir.

# Saf qəlbin hikməti

Allaha aparan yol qəlbin saflaşmasından keçir. İnsanın qəlbi nə qədər təmizdirsə, nə qədər safdırsa, o, Allaha bir o qədər yaxındır. Allaha qovuşma qəlbin ən saf halında mümkün olur. Sözsüz ki, Allaha qovuşma Allahla eyniləşmə deyil. Sadəcə onun bir zərrəsinə çevrilməkdir. Əslində hər bir insan qəlbinin saf və ya qeyri-saf olmasından aslılı olmayaraq, Allahın nişanəsini daşıyır. Ancaq Allaha qovuşmayınca o, hələ mövcud bir məkanda və zamanda yaşayır. Allah isə zamansız və məkansızdır. Odur ki, Allaha qovuşma anından sonra insan da məkan və zamana sığmayaraq ən uca mərtəbəyə çatır. Əbəs yerə demirlər ki, Tanrı sevənlərin qəlbində gecələyir. Çünki sevən insanın qəlbi billur kimi saf, günəş kimi parlaq və hərarətlidir. Hədislərin birində deyildiyi kimi, "Mən (Tanrı) yerlərə,göylərə sığmaram,amma mömin bir bəndənin qəlbinə sığaram"

# Səbir, təmkin və hazırcavablıq

İki-üç il bundan əvvəl rəhmətlik şair Ağa Laçınlının oğlu yazıçı-jurnalist Azər Qaraçənlinin toyunda iştirak edirdim. Məclisin ortalarında sözü rəhmətlik şair Oktay Rzaya verdilər. Oktay Rza şirin danışdığı yerdə bir nəfər orta yaşlı, cantalaq bir adam sərxoş halda Oktay Rzaya yaxınlaşıb mikrafonu onun əlindən aldı. Və lazımsız, yersiz sözlər işlətməyə başladı. Oktay Rza, heç bir söz demədən, müqavimət göstərmədən həmin adama mikrafonu özü verdi və səbirlə həmin adamı dinləyirdi. Və nəhayət bir nəfər gəlib mikrafonu həmin sərxoşun əlindən alıb Oktay Rzaya verdi. Oktay Rza əhvalını, təmkinini pozmadan dedi:

-Qəti narahat olmayın, elə bilin ki, verlişin ortasında reklam gedir. Və harda qalmışdısa, səliqə-səhman ilə həmin yerdən nitqini davam etdirməyə başladı. Və açığı Oktay müəllimin hazırcavablığı və təmkininə heyran oldum. Bu sətirləri yaza-yaza onun bir şeiri yadıma düşdü:

Atəşkəs var sənətdə,
Tənqidçilər atışmır.
Şeir yazan çoxalıb,
Fəqət şair çatışmır.

Təəssüf ki, elə bu da bir həqiqətdir.

# Təsadüflər və dahilər

Təsadüf nəticəsində kəşf olunmuş bir çox dahiyanə kəşfləri xatırlayanda dahi Lui Pasterin bir fikri yadıma düşür: "Təsadüf hazırlıqlı zəkaya kömək edir". Elm tarixindən məlumdur ki, bir çox kəşflər xoş təsadüf nəticəsində baş vermişdi.

Arximed çimərkən vannada suyun səviyyəsinin qalxması cisimlərinin üzmə qanunlarını kəşf olunmasına, ağacdan düşən alma İsaak Nyutona bütün zamanların ən böyük kəşflərindən biri olan- Ümumdünya cazibə qanununun kəşf olunmasına gətirib çıxarmışdır. Bu kəşf isə səma cisimlərinin, planetlərin hərəkət qanunlarını ifadə etməyə imkan vermişdi.

Maykl Faradey xoş təsadüf nəticəsində elektromaqnit induksiya hadisəsini kəşf etdi. O, maqniti sarğaca daxil edib çıxaran zaman induksiya cərəyanın yarandığını müşahidə etmiş ,mexaniki enerjinin elektrik enerjisinə çevirməyin mümkün olduğu qənaətinə gəlmişdi. İki əsrə yaxındır ki, bəşəriyyət bu üsulla elektrik enerjisi əldə edir...

Bu və ya başqa kəşflərə gətirən yollar təsadüfən olsa da, bu təsadüfləri böyük elmi kəşflərə çevirmək üçün böyük elmi təfəkür, yüksək alimlik duyğusu lazımdır. Bəlkə də biz hər gün böyük kəşflərə səbəb ola biləcək onlarla hadisələrin, obyektlərin yanından etinasız keçirik.

# Aristotel modeli

Dərindən nüfuz etsək, görərik ki, bütün elmlər müəyyən sərhəddən sonra qovuşur. Riyaziyyat fizika ilə, fizika kimya ilə, kimya biologiya ilə, tarix,coğrafiya ilə, coğrafiya fizika ilə, tarix siyasətlə... Və bu elmlərin hamısı fəlsəfə ilə. Bir sözlə təbiət və cəmiyyətin ümumi mənzərəsini aydınlaşdırmaq üçün bu elmləri vəhdətdə öyrənməliyik. Yəni əsl elmi həqiqətlər və dünyanın, kainatın ümumi mənzərəsi bu elmlərin qovşağında axtarılmalıdır. Elmi-texniki tərəqqinin bu günkü nailiyyətləri, bu nailiyyətlərin həyatın bütün sahələrində tətbiqi, eyni zamanda, bu tətbiqin müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri, nüvə silahlarının, kütləvi qırğın silahlarının sınağı və tətbiqi öyrəndiyimiz bütün elmlərlə bilavasitə əlaqədardır. Nəinki əlaqədardır, bu elmləri bir-birinə daha sıx qovuşdurur. Təbiət elmlərindən tutmuş siyasətə, fəlsəfəyədək. Ona görə də bu elmlərin inteqrativ şəkildə öyrənilməsi indi daha aktualdır. Mən inanmıram ki, fəlsəfənin qanunauyğunluqlarını dərindən bilməyən, dar çərçivədə fəaliyyət göstərən bir alim böyük elmi kəşflər edə bilsin. Mənim fikrimcə, vaxtı ilə Aristotel dövründə elmlərə fəlsəfədən başladığımız kimi, indi inkişaf spiralının daha yüksək səviyyəsindən fəlsəfəyə qayıtmaq, başqa sözlə, qazanılmış böyük elmi nailiyyətləri ümumiləşmiş şəkildə fəlsəfə prizmasından baxaraq öyrənmək daha məqsədə uyğun və əhəmiyyətli olardı.

# Göz yaşları

Ürəyimizin aynası, ruhumuzun pəncərəsi olan gözlər! Heç vaxt yalan danışmayan gözlər! Həqiqəti bəyan edən gözlər! Ürəyimizə eşq odu salan gözlər! Dünyanın gözəlliklərini bizə göstərən gözlər! Nəsiminin diri-diri soyulmasına şahid olan gözlər! Ürəyin sözünü göz yaşları ilə deyən gözlər! Dili göz yaşları olan gözlər! Dərdimizin görünən ünvanı olan gözlər. Elə sevincimizin də görünən ünvanı olan gözlər. Dərdi, qəmi sevinci, həyəcanı ilk hiss edən ürək olsa da, göz yaşları ilə bəyan edib bizə göstərən gözlərdi. Gözlər hər zaman həqiqəti ifadə etdiyi kimi göz yaşları da elə hər zaman həqiqəti ifadə edir.

Ruhi halımızın məhsulu olan göz yaşlarını yəqin analiz etsək, onun dərddən, sevincdən, eşqdən yarandığını, yaxud tərkibindəki komponentlərin miqdarına görə dərdin, sevincin, eşqin hansı fazada, hansı tərtibdə olduğunu da, bəlkə bilmək olar. Mən bunun elmi tərəfini deyə bilmərəm. Bunun da bir bioloji mexanizmi var. Amma mənə belə gəlir ki, göz yaşları hazır şəkildə ola bilməz, göz yaşları insan halının, ovqatının məhsuludur. Yəni, o, hardasa hazır şəkildə və həmişə eyni tərkibdə dayanmayıb ki, sən ağlayanda gözdən gəlsin. Mənim fikrimcə, insanın kədərli və sevincli anının elə bir pik həddi var ki, məhz göz yaşları həmin anda yaranır, “istehsal olunur”.

Gözün quruluşu ilə bağlı biologiyadan az-çox yadımda qalan odur ki, gözün hissələri həmişə nəm mühitə olmalıdır ki, asanlıqla maneəsiz hərəkət edə bilsin, mühit sürüşkən olmalıdır ki, göz qapaqları da sürtünməsiz rahat hərəkət etsin və gözdə həmişə az miqdarda göz yaşı mayesi olmalıdır ki, gözə düşən xırda cisimləri yuyub apara bilsin. Və biz göz qapaqlarımızı ona görə qeyri- ixtiyarı qırpırıq ki, o göz yaşı mayesi gözün hər tərəfinə bərabər yayılsın. Bu öz yerində.

Əsas demək istədiyim mətləb ondan ibarətdir ki, adi haldakı göz yaşı mayesi ilə ağlayarkən yaranan göz yaşı mayesi kimyəvi cəhətdən fərqli olmalıdır. Hər halda bu mənim şəxsi qənaətimdir. Bəlkə də belə deyil. Analiz etsək, onu da müəyyən etmək olar ki, kədər göz yaşları sevinc göz yaşları, yaxud ilahi eşqdən yaranan göz yaşlarının da hərəsinin özünəməxsus kimyəvi tərkibi vardır. Amma onu dəqiq bilirəm ki, kədərdən, sevincdən, stressdən, ilahi eşqdən əmələ gələn göz yaşlarının bədən sağlamlığı ilə bərabər ruhumuzu dincəldən, stress yükünü azaldan və beləliklə, ürək sağlamlığımızı qoruyan bir müsbət tərəfi də vardır. Vulkan püskürmələri zamanı lava axınları yarandığı kimi, göz yaşları da qəlbimizin, ürəyimizin lava axınlarıdır. Yer vulkan püskürmələrindən "rahatlaşdığı" kimi ürək də göz yaşları ilə rahatlaşır. Allah hamıya sevinc göz yaşları qismət eləsin.

# Musiqi-ecazkar qüvvə

Adi bir vaxtda insanın ağlından, qəlbindən çox şey keçə bilər: Qurub yaratmaqdan, vurub dağıtmağadək. Amma insan qəlbinə toxunacaq qədər yaxın olan gözəl bir musiqinin təsiri altında yalnız ülvi, müqəddəs məfhumlar, amallar haqqında düşünür. Bu düşüncə və duyğular onu Tanrıya, sevgiyə, yaxşılıqlara səsləyir. İnsanın qəlbi insanlara, təbiətə, ətraf aləmə qarşı bir sevgiylə dolur. Onun yaşamaq, yaratmaq sevgisi daha da güclənir.

Musiqiyə köklənmiş qəlbdə kin-küdurətə, pisliklərə yer yoxdur. Musiqinin təsiri altında ötən günlərin sevgi dolu, müqəddəs kədər dolu ( bu elə sevgidən doğan kədərdir) günləri bir-bir keçir xəyalından. Kövrəlirsən, gözlərin dolur. İçinə sel kimi axan göz yaşları qəlbimizi kin-kudurətdən təmizləyib saflaşdırır. Həmin musiqili, duyğulu onlarda qəlbimiz qalaylanmış qab kimi parıldayıb şəfəq saçır. İlk dəfə musiqi ifa edən, belə demək mümkünsə, ilk musiqi səslərini, ilk musiqi alətini icad edən insan qəlbimizdə ilahiləşir. Nəyə görə? Bizi riqqətə gətirdiyinə görə, dərin düşüncələrə daldırdığına görə, qəlbimizi paklaşdırdığına görə, qəlbimizə saf, pak hisslər gətirdiyinə görə...

İlk musiqi alətinin yaranması ilə bağlı Yunan mifində deyilir: Bir dəfə kamandan istifadə edən Artemida birdən anladı ki, kamanın gərilmiş ipi çox gözəl səs çıxarır. Artemidanın kəşfi Apollonun da çox xoşuna gəlir. Mifdə göstərildiyi kimi o da kişi öldürən bu ecazkar səslə məşğul olmağa başla-

yır. Sözsüz ki, miflər-içərisində müəyyən həqiqətlər, tərbiyəvi məqamlar daşıyan deyimlərdir. Doğrudan da, ilk musiqi alətinin yarandığı gün müqəddəs və tarixi bir gün idi. Və sözsüz ki, bu bəşər övladının ən böyük kəşflərindən biri idi...

Bütün musiqi növləri insan psixikasına təsir edən çox mühüm vasitədir. Görünür, radikal din nümayəndələri Qədim şərq xalqlarını, islam ümmətini depressiv vəziyyəndə, ruh düşgünlüyündə saxlamaq üçün musiqini haram buyurmuş, qadağan etmişdir. Amma fikir versək görərik ki, minbərdən ucalan əzan səsləri özü musiqinin bir növüdür. Və əzan musiqi şəklində insanların qəlbinə daha yaxşı yol tapır. Deyilənə görə, Məhəmməd peyğəmbər özü Bilalın ifasında əzanın səslənməsini çox sevərmiş.

Bildiyimiz kimi musiqi ilə müalicə, cərahiyyə əməliyatı zamanı musiqidən isifadə geniş yayılmışdır. Azərbaycanda cərrahiyyə əməliyyatı zamanı musiqidən istifadə edən tanınmış həkimlərdən biri Topçubaşov olmuşdur. O da məlumdur ki, tarixdə ilk dəfə olaraq yunan alimi, riyaziyyatçı-filosof Pifaqor musiqinin insan orqanizminə təsirini tədqiq etmiş, onun elmi əsaslarını vermişdir. Onun fikirlərinə görə, musiqi insanın daxili orqanlarının işinə müsbət mənada böyük təsir göstərir. Belə ki,bizim daxili orqanlarımız hər biri enerji,həmçinin müxtəlif təbiətli dalğaları qəbuletmə mənbəyidir. Musiqi də səs dalğalarından ibarət olduğuna görə bizim daxili orqanlarımızın energetik durumunu dəyişdirir. Və onu yeni energetik duruma köklənmiş olur.

Son zamanlar müəyyən edilmişdir ki, Kortizol hormonu orqanizimin yalnız musiqi dinləyən zaman ifraz etdiyi ən qiymətli, xeyirli hormonlardan biridir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, məhz bu hormon həm də yaddaşın möhkəmlənməsi üçün əsas yardımçılardan biridir. Əbəs deyil ki, dünyanın elədə də, azərbaycanın bir çox mütəfəkkir insanları, şair və yazıçıları, filosofları musiqinin ecazkar qüdrəti haqqında öz əsərlərində bəhs etmişlər. Azərbaycanın böyük şairləri N.Gəncəvi, M.Füzuli, S.Ə.Şirvani, S.Vurğun, M.Müşviq, Ə.Vahid, Ə.Kərim, B.Vahabzadə, N.Həsənzadə... musiqi haqqında, muğamlarımız haqqında dəyərli fikirlər söyləmiş, sənət nümunələri yaratmışlar. S.Ə.Şirvani dini xurafatın hökm sürdüyü XIX əsrdə “Guş qıl” müxəmməsi ilə musiqiyə böyük bir abidə ucaltmışdır:

Güş qıl, ey ki, bilirsən özüvü vaqifi-kar,
Agəh ol, gör ki,nədir naleyi-ney,nəğmeyi-tar.
Nədir ol xuşk olan çubidə bu naleyi-zar,
Ki,sədasından onun qarət olur səbru-qərar.
Açma sən pərdəni,hər pərdədə var yüz əsrar…

Bütövlükdə şeirin təlqin etdiyi qayə ondan ibarətdir ki,musiqinin hər pərdəsində yüz əsrar, sirr var.Musiqi ölünü dirildir və dirilmiş insan ruh aləmini seyr edir.

Böyük şairimiz S.Vurğun təbirincə,

Musiqi can verir ruha əzəldən,
Musiqi qəlb alır min bir gözəldən.

XX əsrin bənzərsiz şairlərindən olan Əli Kərimin "Vəsiyyət" şeirində musiqi və şeir haqqında yazdığı misralar çox təqdirə layiqdir:

Tabutuma
Bir ağ kağız qoyun,
Bir dənə də qələm.
Hayıf, bu yaşda
heç nə,
heç nə deməmişəm.
Dostlar
Bir şeir desinlər,
İşdi
İmkan olsa,
bir dənə də mahnı
çaldırsınlar.
Şeirlə mahnının möcüzəsilə
ayılmağa
çox dəli bir ümidim var.

Ə.Kərim, həmçinin, musiqinin insan ovqatında yaratdığı əsrarəngiz duyğuları "Muğamı dinləyirəm" şeirində də gözəl ifadə etmişdir. Bu şeir bizə muğam haqqında xeyli bilgilər verir. Sözün, səsin vəhdətindən yaranan ecazkar muğamlar insan duyğularını riqqətə gətirir. Bir anın içində dörd fəsilə düşürsən, duyğuların əlvanlığına qərq olursan:

Ürəyim, nə var yenə!
Ürək ,döyünmə belə!
Duyan sən,səs salan sən,
Qoy eşidim,
Nə olar bir az yavaş döyünsən.
Ürəyimdə sevinc,qəm,
Muğam dinləyirəm.

Birdən düşünürəm: Nədir məni musiqiyə, muğamlarımıza bağlıyan bu qırılmaz tellər? Elə həmin anda cavabı özümdən gəlir: muğamlar xalqımızın ağrılı-acılı, keşməkeşli tarixinin, onun mübarizəsinin, sevinc və kədərinin, məhəbbətinin, fəryadının ilahi, sehrli səsləridir. Bu səslər bizi daim düşünməyə, tarixi dərk etməyə səsləyir. Bizi ülvi, saf sevgiyə səsləyir, haqqa, ədalətə səsləyir...

Bəxtiyar Vahabzadə "Muğam" poemasında yazdığı kimi:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Neçə-neçə əsrlərdir ki, nəsillər "Haqqa tapındıran", "hər güşəsi bir xatirə", "hər guşəsi bir canlı kitab" olan, "keçilən yolları bizə andıran" "neçə qəsdin önün kəsib dayandıran" muğamın ecazkar gücü ilə, qüdrətli, həzin sədaları ilə tərbiyə olunur. Neçə ki, insanlıq yaşayır, bizi sevgiyə, qəhrəmanlığa, saflığa, halallığa, haqqa səsləyən musiqi də yaşayacaq və sözün əsl mənasında bizi də yaşadacaqdır.

# Sözlərin tükəndiyi an

Bəzən sözlərin tükəndiyi an olur. Heç nə deyə bilmirsən. Ha fikirləşirsən, ha istəyirsən bir söz deyəsən, amma görürsən yox, demək istədiyin söz həmin anın, həmin situasiyanın fövqündə deyil... və susursan. Bəlkə də həmin anın ən dəyərli sözü sükutdur.

# "Bizimdir" demək, hələ bizim olmaq deyil

13 fevral 2016-ci ildə "Şikəstə"lərlə bağlı televizorda bir verlişə baxırdım. Azərbaycanın tanınmış xanəndələri Alim Qasımov və Mənsum İbrahimovun "Şikəstə"lərlə bağlı fikirlərini dinlədim. Qaneedici və dolğun fikirlər idi. Ancaq sonda aparıcının,-ermənilər bizim şikəstələrin bir çoxuna sahib çıxıblar, fikri açığı, məni qane etmədi. Ermənilərin bizim bir çox xalq musiqimizə sahib çıxmasını bəyan edən fikirlərin bizim jurnalistlərin, söz adamlarımızın dilindən eşidilməsini mən qəbul edə bilmirəm.Əgər erməni deyirsə ki, filan xalq mahnısı bizimdir, buyurusun erməninin ən məşhur müğənnisi, ən məşhur musiqi alətləri ifaçısı həmin mahnını oxusun, musiqi alətində ifa etsin. Yüz dəfə oxusa da, min dəfə üzərində məşq eləsə də həmin mahnının ruhunu tuta bilməz. Çünki bu musiqi onların milli musiiqisi olmadığı üçün sözün saxtalığı anındaca özünü göstərir. "Bizimdir",- demək, hələ bizim olmaq deyil. Gərək ona həqiqi sahib olasan.

# İşğal və Qələbə tarixləri

*Tarixin dərslərini unudanda o, təkrar olunur. "Bismillah" eləməyəndə və "lənət şeytana" sözünü hər dəfə təkrar söyləməyəndə iblis təzədən qayıdır. "1905" unudulduğu üçün "1918", o, unudulduğuna görə isə "1948", "1952", "1988" baş verdi.*

Akademik Yaşar Qarayev

Zəfərlə bitən 44 günlük İkinci Qarabağ müharibəsindən sonra bəzən deyirlər ki, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının işğal tarixlərinin silib qələbə tarixlərini yazmaq lazımdır. Mənim fikrimcə, biz işğal tarixlərini qətiyyən silə bilmərik. Çünki bu tarixlərin arxasında minlərlə insanın acı taleyi, şəhidliyi, ulular-dan qalan maddi-mədəniyyət abidələrinin dağıdılması kimi acı faktlar dayanır. Qələbə gününü tarixə yazmaqla, bu günləri bayram etməklə yanaşı, işğal tarixlərini də həmişə anmalıyıq. Böyük alimimiz Y.Qarayevin təbirincə desək, tarixin dərslərini unudanda, "lənət şeytana" sözünü hər dəfə təkrar etməyəndə, iblis təzədən qayıdır.

# Kədərlə yox, qürurla

Elə dərdlərimiz var ki, onu kədərlə yox, qürurla anmalıyıq. "20 yanvar" hadisəsi də belə dərdlərimizdəndir. Çünki həmin gün millətin daha yüksək səviyyədə özünüdərk günüdür, özünütəsdiq günüdür. Azadlığın qələbəsi günüdür. Həmin gün qeyrətimizin zirvə günüdür. Müstəqilliyə gedən yolun qanlı hissəsidir. Biz azadlıq və müstəqillik yolunda qanımızdan, canımızdan keçməyi sübut etdik. Ona görə də, "20 yanvar" hadisəsi gələcək nəsillərin öz babalarının əməllərindən qürur duyacaq bir hadisədir. " 20 yanvar " hadisəsi Azərbaycan xalqının tarixinə şərəf və qəhrəmanlıq səhifəsi kimi daxil oldu.

# Qorxmaq, ya sevmək?

Deyirlər ki, Allahdan qorxana iki cənnət qismət olar: Biri bu dünyada, biri o dünyada. Düzü bilmirəm, bu ifadə harada yazılıb, ya kim deyib, amma mənə belə gəlir ki, bu ifadədə ''Allahdan qorxana'' ifadəsi əvəzinə ''Allahı sevənə'' ifadəsi daha dəqiq və yerində olardı. Çünki insan qorxduğu kimisə, ya nəyisə sevə bilməz. Əgər Allah bizi sevərək yaradıbsa, kamil insan nə üçün Allahdan qorxaraq hərəkət etməlidir. Ona görə də mənim fikrimcə, kamil insan Allahı və onun yaratdıqlarını həmişə böyük ürəklə, məhəbbətlə sevməlidir. Kamil insan dərk edir ki, Allahdan qorxsa da, ya onu sevsə də, onun taleyi Allahın əlindədir. Eləcə də bütün külli-aləmin ixtiyarı onun əlindədir. Məgər bizim Allahdan qorxmağımızdan Allah zövq alırmı? Ondan qorxduqumuza görəmi bizə nəsə verir? Qorxaqlıq naqis keyfiyyətdir. Allah qorxaqları sevə bilərmi? Allahı həmişə başı üstə görənlər və Allahı hər zaman böyük ürəklə sevənlər elə Allahın sevimli bəndələridir.

*Bir hikmətdir təbiət-*
*Suallara cavabdır.*
*Oxuya bilsən onu,*
*Ən mənalı kitabdır.*
*Cəbrayıl Qəhrəman*

# TƏBİƏTİN DEDİKLƏRİ



# Arximed qanunu bizə nə deyir?

Fizikadan məlumdur ki, mayeyə ixtiyari bir cisim-dəmir, taxta, rezin... daxil edildikdə, bu cisimlər müəyyən qüvvə ilə mayedən itələnir. Bu itələyəci qüvvəyə Arximed qüvvəsi deyirlər. İlk dəfə bu qüvvəni yunan alimi Arximed müəyyən etdiyinə görə. Məcazi şəkildə belə deyək ki, maye yad cismi özündən itələyib çıxarmaq istəyir, yəni, ‘‘işğalla’’ barışmaq istəmir. Mayeyə daxil olan cisim havayı daxil ola bilmir. Sıxışdırıb çıxartdığı mayenin çəkisi qədər öz çəkisindən itirir. Deməli, mayeyə daxil olan cisim ‘‘itkilər’’ verərək ora daxil ola bilər. Kütləsindən, çəkisindən, sıxlığından, növündən asılı olmayaraq, bütün maye içərisinə atılmış cisimlər bu itələyici qüvvə ilə, bu müqavimətlə qarşılaşır. Sözsüz ki, sıxlığı mayenin sıxlığından böyük olan cisimlər mayeni “işğal” edə bilirlər- öz həcmləri qədər mayeni sıxışdırıb çıxarırlar. Amma əvəzində öz çəkilərindən müəyyən qədər itirirlər. Yəni, itkilər verərək, “işğal’’a nail olurlar.

Cansız təbiət nümunə göstərir. Haqqımızı qorumağı öyrənərək təbiətdən. İstər şəxsi müstəvidə, istərsə də qlobal miqyasda işğalla barışmaq olmaz. Həmişə müqavimət göstərmək, mübarizə aparmaq lazımdır. Bunu bizə cansız cisimlər də mesaj verir.

# Maddənin aqreqat halları və insan

Maddələr müxtəlif halarda (maye,qaz,bərk,plazma) olduğu kimi insanlar da müxtəlif xarakterli olur, yəni insanların da maddələr kimi "kristal" olanı da var, "maye" və "qaz" kimisi də. Hələ eyni bir maddənin şəraitdən asılı olaraq, maye, qaz, bərk (su,buz,buxar) halda olmasını qoyuram bir kənara.

Fizikadan məlumdur ki, maye töküldüyü qabın formasını alır. Bunu mən bənzədirəm zamana yaxa verən insanlara. Yəni elə insanlar var ki, zamanı bir qaba bənzətsək, həmin qabın formasını alır, öz forması, şəkli yoxdur-xaraktersizdir onun xarakteri xaraktersizliydir.Amma kristal cisimlər öz formasını saxlayır. Düzdür müəyyən fiziki şəraitdə. Buna bənzər kristal adamlar da var ki, onlar qabın (zamanın) formasından asılı deyil. Yəni özlərinin şəklini –xarakterini həmişə qoruyub saxlayır.

Qazlar isə bildiyimiz kimi nə formasını nə də həcmini saxlayır. Qazlara baxanda, mayelərə şükür! Qazlar bir balaca mehə bənddi ki, dağılıb hər tərəfə yayılsın. Hətta mehsiz də uçub gedirlər. Bax həyatda da belə səbatsız, hara gəldi ora yönələn, yönləndirilən insanlar var!

Amma orası da var ki, enerji hesabına, istilik verməklə kristalı da maye və qazlara çevirmək olur. Bunun kimi bəzən kristal adamları da "mayeləşdirməyə", "qazlaşdırmağa" nail olurlar. Bax, kristal adamları da bu günə salmaq olur.

Fiziki kristallardan fərqli olaraq elə ''kristal'' adamlar var ki, onları heç bir vəchlə öz əqidə və yollarından döndərmək mümkün deyil. Yəni kristal olaraq qalır, kristal olaraq dünyalarını dəyişirlər. Onların ideyalarını, əqidələrini yox, ancaq özlərini fiziki olaraq məhv etmək olar. Nəsimi kimi, Həllac Mənsur kimi Cordana Bruno kimi!...

# Ağaclar və adamlar

Bağdakı ağacları budayarkən təbiətlə cəmiyyət, dövlət və ailə arasındakı daha bir oxşarlıq diqqətimi çəkdi. Qollu-budaqlı bir ağacla bir ailənin nə qədər yaxın olduğu anlamına gəldim. Bir anlıq xəyalımdan keçdi ki, ağacın kök və gövdəsi ailənin böyükləridir- atadır anadır, babadır, nənədir. Qol-budaqlar isə ailənin övladlarıdır. Ağacın köklərinin yerləşdiyi torpaq və ümumiyyətlə, ağacın bütövlükdə yerləşdiyi mühit torpağıyla, suyuyla, münbitliyi ilə, havası və günəşiylə cəmıyyət və dövlətə uyğun gəlir. Bu fikirlər ağacın qol-budaqlarını budayarkən ağlıma gəldiyinə görə sözümə qol-budaqlardan başlamaq istəyirəm.

Ağacın qol-budaqları, qanadları kök və gövdə üzərində dayanmaqla yanaşı, onlar vasitəsilə qidalanır, böyüyür inkişaf edirlər. Üzərlərində tumurcuqlar, yarpaqlar, çiçəklər, meyvələr əmələ gəlir. İlbəil ağacın qol-qanadları budanır, yəni, artıq-əskiyi kəsilir, ağacın inkişafına bir istiqamət verilir. Ağacın budanması yaxşı bar verməsi üçün, normal inkişafı üçün, habelə ətraf təsirlərdən- küləkdən, çovğundan qorunması, qırılmaması üçün böyük əhəmiyyət daşıyır. Tamamilə bu prosesə oxşar olaraq ailədəki uşaqların, cavanların artıq-əskiyini düzəltmək üçün böyüklər onlara istiqamət verir, belə demək mümkünsə, ağacların qol-qanadları budanan kimi böyüklər də övladlarını "budayır". Sözsüz ki, bu "budama" prosesi uşaqların, gənclərin qəlbinə dəymədən, onların şəxsiyyətini alçaltmadan aparılmalıdır. Cavanlar da böyüklərin, valideynlərin bu "budamasını" ehtiramla, hörmətlə qarşılamağa borcludur.

Kök və gövdə (ata və ana, böyüklər) vasitəsiylə ağacın qol-budaqlarına (övladlarına) və onlar özərindəki yarpaqlara çatdırılan su və minerallar fotosintez prosesi nəticəsində üzvü maddələrə çevrilib yenidən ağacın bütün hissələrinin– kökdən tutmuş meyvəyədək, hamısının inkişafına, böyüməsinə sərf olunur. Övladlar yaxşı əməlləriylə valideynləri yaşatdıqları kimi, onlara qol-qanad verdikləri kimi ağacın qol-qanadları da ağacın kök və gövdəsini böyüdürlər, yaşadırlar.

Ağacın bar verməsi, özü də necə bar verməsi övladların həyatda, cəmiyyətdə nə kimi səviyyədə mövqe tutmasına uygun gəlir. Ailənin böyüklərinə bənzətdiyimiz köklərin yerləşdiyi mühit əvvəldə qeyd etdiyimiz kimi, cəmiyyət və dövlət rolunu oynayır. Yəni cəmiyyət, dövlət nə qədər “münbit” olarsa, ağacın inkişafı, böyüməsi, yaxşı bar verməsi də o qədər yüksək olar. Sözsüz ki, ağacın növündən ( “nəsil-kökündən” ) də çox şey asılıdır. Hələ onu da demək lazımdır ki, ağacın dibini vaxtlı-vaxtında boşaldılması, su verilməsi, əlavə gübrə və minerallarla təmin olunması, köklərə qayğı göstərilməsi ağacın inkişafı, yaxşı bar verməsi üçün çox önəmlidir. Bu qayğı da uyğun gəlir ata-ananın cəmiyyət, dövlət tərəfindən qorunmasına, ona qayğı göstərilməsinə. Bax beləcə, bir ağacın timsalında insan baxıb çox şey öyrənə bilər və öyrənməlidir. Təbiətdən gələn hər nə varsa, təbii və səmimidir.

# İşıq, dualizm və insan

İşığın təbiətini aydınlaşdırmaq üçün çox əsrlər keçmiş və bu dövrlərdə müxtəlif fərziyyələr, nəzəriyyələr bir-birini əvəz etmişdir. Qədim yunan alimləri, həmçinin, digər ölkələrin alimləri, Azərbaycan filosofları Ə.Bəhmənyar və N.Tusidən tutmuş M.Plank və A.Eynşteynə qədər bir çox görkəmli alimlər, xüsusilə, İ.Nyuton, X.Hüygens, O.Frenel, T.Yung, C.Maksvell, H.Hers və başqaları işıq haqqında bitkin bir elmin yaranmasında böyük xidmətlər göstərmişdir.

Uzun illər İ.Nyutonun irəli sürdüyü işığın korpuskulyar nəzəriyyəsi hakim olmuş, sonra yenidən X.Hüygensin verdiyi işığın dalğa nəzəriyyəsi üstün mövqe qazanmışdır. Ta XX əsrin əvvəllərinə kimi bu nəzəriyyələr ''çarpışa-çarpışa'' gəlmişdir. Və nəhayətdə təsdiq edilmişdir ki, demiyəsən, işıq düalizm təbiətinə malikdir; yəni, işıq elektromaqnit təbiətli olub həm zərrəcik, həm də dalğa təbiətini özündə ehtiva edir. Bu xassələr nəinki bir-birini inkar etmir, əksinə bir-birini tamamlayır. Yəni müəyyən şəraitdə işığın dalğa, başqa bir şəraitdə zərrəcik xarakteri daha qabarıq şəkildə özünü büruzə verir.

Bu məlum fikirlər, işığın bu dualizm məsələsi yazıçı Kənan Hacının bir şeirini oxuyarkən fikrimi daha çox məşğul etdi. Və təbiətdə, cəmiyyətdə, ayrılıqda hər bir insandakı ikili hallar- dualizm bir-bir xəyalımda vərəqləndi. Həmin şeir belə idi;

Mənim içimdə
Bir cavan oğlan
Bir tənha qoca var.
Cavanın sevgiyə
Qocanın mərhəmətə
Ehtiyacı var.

Bəli, nəinki işıq, bütövlükdə təbiət, cəmiyyət və ayrılıqda hər bir insan dualizm içərisindədir. Mənim fikrimcə, adamın yüz yaşı olsa belə, eyni zamanda onun içərisində bir cavan oğlanın sevgiyə, bir qocanın isə mərhəmətə, qayğıya ehtiyacı var.

Hər bir insanın qəlbində zamandan, şəraitdən, məqamdan asılı olaraq, həm böyük sevgi, həm də dərin nifrət yarana bilər. Yəni insan təkcə sevgiyə, xeyirə, yaxşılıqlara köklənməyib. O, həm də bunların əksinin daşıyıcılarıdır. Yəni dualizmə malikdir. Deyək ki, müharibə zamanı adam öldürmək qəhrəmanlıq sayılırsa, sülh şəraitində adam öldürmək qatillik hesab olunur. Eyni bir hadisə ikili münasibət doğurur, ikili xarakter daşıyır. Yaxud, ilan zəhəri müəyyən şəraitdə- konsentrasiyası çox az olduqda dərman xarakterlidir, qatı halda, ilkin halda isə öldürücü zəhərdir. Fizikada öyrəndiyimiz sürtünmə qüvvəsi həm hərəkətin yaranmasına, mexanizmlərin işləməsinə səbəb olur, yəni çox əhəmiyyəylidir, həm də mexanizmlərin hissələrini yeyib-dağıdır, yəni zərərlidir.

İnsandakı nəfsani hisslər məyyən həddində insanın yaşamasına, inkişafına, nəsil artımına səbəb olur, yəni xeyirlidir. Amma nəfsinin qulu olmaq insanı rəzalətə, məhvə sürükləyir, yəni ziyanlıdır. Bu kimi misalları təbiət, cəmiyyət dövlət misalında sonsuzluğa qədər davam etdirmək olar. Yəni dualizm təkcə işığa aid olmayıb, külli-aləmdə özünü biruzə verir. Dualizm yaradılışın xarakterindədir.

# Hərəkətin mənbəyi, termodinamikanın ikinci prinsipi və cəmiyyət

Bütün yaradılış daim hərəkətdə və dəyişmədədir. Var olmanın əsas əlamətlərindən birincisi, hərəkətdir. İnsan tərbiyəsi haqqında düşünərkən bu məlum fikirlər keçdi xəyalımdan. Bir anlığa təsəvvür etdim ki, bütün insanlar kamildir, müdrikdir. Bu halda sözsüz ki, dövlətə, məhkəməyə, məktəbə, oxuyub-öyrənməyə, müharibəyə, diplomatiyaya... daha nələr-nələrə ehtiyac qalmır. İnsanları hərəkətə, öyrənməyə, öyrətməyə sövq edən amillər aradan qalxır. Pisdən və yaxşıdan ibrət götürmək kimi mənəvi hərəkət də aradan qalxır. Bunu düz yerdə olan suyun axmaması, potensiallar fərqi olmayan yerdə elektrik cərəyanı yarana bilməməsi, yaxud daim gecə, daim gündüz, həmişə eyni bir fəslin olması ilə müqayisə etmək olar. Doğrudan da birrənglik, monotonluq, eynilik, yeknəsəklik darıxıdırcı və bezdiricidir, hərəkətsizlikdir.

Nəzəri olaraq belə demək mümkünsə, bizim daima can atdığımız hamının tərbiyəli, kamil olması mövcudluğun əsası olan hərəkətdən-hərəkətsizliyə gətirir. Əslində bu qeyri-mümkündür. Ona görə də insan oğlunun əbədi olaraq bir işi var: Kəm-kəsirləri yerbəyer etməklə məşğul olmaq. Əslində heç yerbəyer edə bilirikmi? Sadəcə olaraq bununla məşquluq. Deməli, neçə ki, həyat var, insanlar öz anlamında maddi

və mənəvi sferada harmoniya, ahəng yaratmaqla məşğuldur. Bəlkə də elə harmoniyanı pozmaqla məşğuldur. Ekoloji tarazlığın pozulmasının bu günkü səviyyəsi, insanların sağlamlığına, mənəviyyatına əks təsir edən bir çox İKT məhsullarının sürətlə yaranması, inkişafı bunu deməyə əsas verir. Amma bir məsələ gün kimi aydındır ki, həyatda hərəkətə, fəaliyyətə stimul verən, təhrik edən gözəlliklərlə yanaşı, görünür ki , mənfiliklərin, nöqsanların, xeyirlə yanaşı şərin, işıqla yanaşı qaranlığın varlığı zəruridir.

Hərəkətə stimul verən işıq və qaranlıq ,xeyir və şər, kamillik və cahillik vahid bir orqanizmin, vahid bir tamın ayrı-ayrı hissələridir, özü də ayrılmaz hissəsidir. Qeyri-ixtiyari olaraq fizikadan bildiyimiz termodinamikanın ikinci prinsipi yadıma düşür: “Təkcə istilik mənbəyi hesabına iş görmək mümkün deyildir”. Doğrudan da yalnız istilik mənbəyi hesabına iş görmək olmaz. Çünki istiliyin axması üçün, sonucda işin görülməsi üçün temperaturlar fərqi yaratmaq lazımdır. Deməli, sistemin iş görməsi üçün qızdırıcı ilə yanaşı soyuducu da lazımdır. Görünür, təbiətin ayrılmaz bir parçası olan cəmiyyətdə də iş görməyə, inkişafa, hərəkətə sövq edən əksiliklərin olması zəruridir.

# Fizika, riyaziyyat... və insan münasibətləri

Bir dəfə bir məclisdə insanların bir-birinə olan münasibətindən, bu münasibətlərin istilik və soyuqluğundan, münasibətlərin get-gedə yaxşılaşması, yaxud da korlanmasına səbəb olan amillərdən, qarşı tərəflərdən kimin haqlı, kimin haqsız olmasından qızğın söhbət gedirdi. Həmin məclisdə iştirak edən bir qonşumun dediyi söz ürəyimcə oldu. Qonşum dedi ki, mən elə bilirəm kim necə salam verirsə, ona da o cür salam verirlər, kim insanlara necə münasibət göstərirsə, cavabını da elə alır. Bəlkə də, ixtisasım fizika olduğuna görə qeyri-ixtiyari Nyutonun üçüncü qanunu yadıma düşdü: Təsir əks-təsirə bərabərdir. Və ağlıma gələn bu fikri, əslində qonşum deyən fikri başqa bir formada, belə demək mümkünsə, Nyutonun üçüncü qanunu formasında qonşuma dedim. Dedim ki, ay qonşu, çox düz deyirsən, Nyuton demişkən, təsir əks-təsirə bərabərdir. Yəni sənin insanlara göstərdiyin münasibət, sənə qarşı eynilə həmin münasibəti doğurur. Nə qədər sevirsənsə, səni də o qədər sevirlər, insanlara qarşı hansı dərəcədə pislik edirsənsə, özünə qarşı da həmin dərəcədə pislik qazanırsan...

Məclisdən sonra yol boyu eşitdiyim müxtəlif fikirləri saf-çürük edə-edə birdən L.Tolstoyun insanı qiymətləndir-

mək üçün verdiyi bir riyazi düstur yadıma düşdü. Bu düstura görə, L.Tolstoy insanı bir adi kəsrə bənzədirdi. Deyirdi ki, kəsrin surəti insanın özünün həqiqi qiyməti, məxrəci isə insanın özü haqqında düşündüyü qiymətdir. Yəni insan özü haqqında nə qədər yüksək fikirdədirsə (məxrəc nə qədər böyükdürsə), onun dəyəri o qədər az olur. Doğrudan da, riyaziyyatdan bilirik ki, kəsrin surəti sabit qalıb məxrəci böyüdükcə qiyməti kiçilir. Əksinə, təvazökar insan, yəni özü haqqında müştəbeh olmayan, özünü hamıdan yüksək bilməyən (kəsrin məxrəci kiçik) insan daha dəyərli, daha yaxşı insandır.

L.Tolstoyun insanla bağlı bu riyazi düsturu ağlıma gələndən sonra bir az da ürəkləndim. Daxilən özümdə bir sevinc duydum. Mənə belə gəldi ki, fizika qanunlarını, riyazi düsturları bu və ya digər formada insan münasibətlərinə tətbiq etmək olar. Dahi Nyutonun o biri qanunlarının da insan münasibətlərinə tətbiqini, "cəmiyyət həllini" fikirləşməyə başladım. Nyutonun birinci qanununda deyilir ki, cismə təsir edən qüvvələr bir-birini kompensasiya edirsə (tarazlaşdırırsa), yaxud cismə təsir edən əvəzləyici qüvvə (yekun qüvvə) sıfıra bərabərdirsə, cisim təcilsiz vəziyyətdə (ya sükunətdə, ya da düzxətli bərabərsürətli hərəkətdə) olur. Bunu insanlar arasındakı münasibətlərə tətbiq etsək, tamamilə ödəndiyini görərik. İndi Nyutonun birinci qanununu "insanlaşdıraq": Əgər hər hansı bir insana ətrafdan və ya öz daxilindən (axı o, insandır!) təsir olmazsa, yaxud təsir edən, yaranan insani münasibətlər (pislik va yaxşılıqlar, sevinc va kədər ağıl va

duyğuların vəhdətindən yaranan münasibətlər) bir-birini kompensasiya edərsə (tarazlaşdırarsa), insan təbii, sakit halında olur, yəni təcilsiz olur.

Nyutonun ikinci qanununda deyilir ki, cismin aldığı təcil təsir edən qüvvə ilə düz, cismin kütləsi ilə tərs mütənasibdir. İndi bu qanunu insan münasibətlərinə tətbiq edək. Bunun üçün qanuna daxil olan qüvvə, kütlə və təcilin "insan həllini" müəyyənləşdirək. Qüvvəni insanın ağıl və duyğularına təsir edən xarici və daxili təsirlər, kütləni isə insanın ağıl gücünə, ağıl dərəcəsinə bərabər tutsaq (insan mənəvi varlıq olduğuna görə kütləni insanın kütləsi kimi yox, ağıl kütləsi kimi qəbul edirik), Nyutonun ikinci qanununu insan münasibətləri üçün belə ifadə etmək olar: İnsanın normal, təbii halından uşaqlaşma təcili, yəni özündən çıxma dərəcəsi kənardan və daxildən qıcıqlandıran təsirlərin qüvvəsi ilə düz, insanın ağıl gücü, ağıl kütləsi ilə tərs mütənasibdir. Başqa sözlə, sanballı adamı, (ağıllı adamı) hər söz, hər hadisə özündən çıxara bilməz. Hər kiçik qüvvə "kütləli" adamı, sanballı adamı təcilləndirə bilməz. Şair demişkən;

Dəryaya yüz çay tökülə,
O, yenə sakit durar.
Arxa bir sel gələndə,
Çalxanıbləngər vurar.

# Həyat dərsləri və təbiətin "dedikləri"

Mənim unudulmaz müəllimlərim olub. Hər zaman öyrəndiyim, yolunu saxladığım ağsaqqallar olub. Ancaq ən böyük müəllimi həyat hesab etmişəm. Həyat həm uğurları, həm də sınaqları ilə insanı öyrədir. Dostluq, yoldaşlıq etdiyimiz hər bir insandan, hətta ünsiyyətdə olduğumuz, dərs dediyimiz uşaqdan, bizi əhatə edən və daima təmasda olduğumuz təbiətdən, onun hər bir elementindən- daşdan, axan çaydan, yağan yağışdan, göyərən otdan, yamacları bəzəyən gül-çiçəkdən, dağların əzəmətindən, şimşəyin çaxmağından, dimdiyindən buz sallansa da, yuvasını tərk etməyən qartaldan, zəhmət simvolu olan qarışqadan, bir sözlə, həyatımızın ayrılmaz bir hissəsi olan canlı və cansız aləmdən daima öyrənir və bəhrələnirik.

Bəlkə də, birlik və onun əhəmiyyəti haqqında ən böyük hissləri bir alma ağacının kölgəsində dincələrkən duymuşam. Yəni, alma ağacından öyrənmişəm. Nyutonluq eləmək fikrim yoxdur. Hamının bildiyi kimi Nyuton başına düşən almanın təsirindən çox böyük və fundamental bir qanunu-Ümumdünya cazibə qanununu kəşf etmişdir. Mən isə alma ağacına, onun budaqlarını əyən meyvələrinə baxa-baxa qeyri-ixtiyari böyük alim Nyuton haqqında düşünür, həm də bu ağacın kökündən yarpaqlarınadək bütövlüyünün, birliyinin vəhdətindən yaranan şirin meyvəsini, yayın istisində sərin kölgəsini, bar gətirdikcə başını aşağı əyməsini, sanki gətirdiyi bara görə torpağa və kökünə minnətdarlıq etməsini düşünmüşəm. Düşünmüşəm ki, bütün ağaclar kimi alma ağa-

cının da əsas hissələri kök, gövdə, şaxələnmiş budaqlar, yarpaq və meyvədir.

Bu dilsiz, hərəkətsiz yaradılışda ilk olaraq onu görür və duyuruq ki, ağacın kökü torpaqdan su və mineralları sorur, gövdə və budaqları bu maddələri yarpağa qədər ötürür, yarpaqlarda fotosintez prosesi nəticəsində yaranmış üzvi maddələr bütün ağacı və meyvəni qidalandırır. Yarpaq da yarpaq olana qədər kökə, gövdəyə və budaqlara borcludur. Və borcunu saralıb solana qədər ləyaqətlə qaytarır. Sözsüz ki, son məhsul onun meyvəsidir. Bu birliyin, bu vəhdətin məhsulu olan şirin meyvə! Hələ barından əlavə ağac kölgəsi və ətrafa verdiyi oksigenlə ətraf aləmə də öz yaxşılığını göstərir. Bir az düşünsək, görərik ki, ağacın bu orqanlarının biri olmasa, bu tamlıq, bu harmoniya pozular. Kök olmasa ağac su va mineralları necə alar, gövdə olmasa bu maddələr necə yarpağa çıxar, budaqlar olmasa yarpaq nəyin üstündə qərar tutar, yarpaq olmasa, ağac necə böyüyər və inkişaf edər, meyvədəki toxumlar olmasa ağac necə nəsil artırar. Hətta ağacın barı çoxaldıqca başını daha çox aşağı əyməsi biz insanlara bir mesaj deyilmi ki, ey insanlar, dikbaş olmayın, təvazökar olun! Yaxud bu hal ağacın öz kökünə və qidalandığı torpağa bir ehtiramı, minnətdarlığı deyilmi? Bu təkcə bir misaldır. Mənə belə gəlir ki, Allah-təala bizə necə olmağı başa salmaq üçün ətrafımızda olan canlı və cansız varlıqlarda əks etdirdiyi xassə və xüsusiyyətləri, sadəcə görmək, duymaq və analiz etmək lazımdır.

# Abışın vimi

Kəndimizdə taxıl anbarının həyətində buğdanı, arpanı, pərinci əlavə qarışıqlardan, toz-torpaqdan ayırıb təmizləyən bir Vim aparatı vardı. Bu Vim aparatı müxtəlif cisimləri bir-birindən "ağılla" ayırdığına, hər şeyi öz yerinə göndərdiyinə görə məndə həmişə qəribə hisslər yaradar və mənim bu "ağıllı" aparata xüsusi rəğbətim olardı. İşlək vəziyyətdə olanda kənardan durub bu texnikanı saatlarla müşahidə edərdim. Buna hamı "Abışın vimi" deyərdi. Çünki həmin Vim texnikasını rəhmətlik Abış kişi işlədərdi. Nəinki işlədər, Abış kişi həmin Vimi göz bəbəyi kimi qoruyar, vaxtlı-vaxtında texniki qulluq edər, xarab olanda düzəldərdi.

Bəzən biz uşaqlar bu aparatın firlanan lentinin üstünə çıxar, uşaq marağı ilə müəyyən hissələrini açıb-bağlayar, hətta bəzi uşaqlar velosipedləri, samakatları üçün lazım olanları sökərdilər. Amma bütün bunları qorxa-qorxa edərdik. Bir gözümüz taxıl anbarına yaxın olan Abış kişinin evində olardı. Abış kişinin başı görüksə, tez qaçardıq. Kənddə hamı bilirdi ki, Abış kişi çox möhkəm adamdı. Ona tapşırılan hər şeyi göz bəbəyi kimi qoruyar, əmanətə xəyanət etməzdi. Yeri gəlmişkən, qeyd edim ki, Abış kişinin oğlu, Azərbaycanın Milli Qəhrəmanı Qorxmaz Eyvazov da Qarabağ döyüşlərində torpaqlarımızı göz bəbəyi kimi qoruyurdu. 1988-1992-ci illərdə torpaqlarımızın bütövlüyü uğrunda mənfur düşmənlərə qarşı rəşadətlə döyüşmüşdü. Ağır döyüşlərin birin-

də qəhrəmancasına şəhid oldu. Son vaxtlara qədər yurd həsrətiylə, oğul dağıyla yaşayan Abış kişi Sumqayıt şəhərində dünyasını dəyişdi. Allah hər ikisinə rəhmət eləsin!

Taxıl zəmilərindən maşın karvanları ilə daşınan buğda, arpa, pərinci həmin aparatın- "Abışın Vimi"nin eskalator şəklində olan fırlanan lentinə verərdilər. Vimin o biri tərəfindən təmiz buğda, köçəl, əlavə bitki toxumları, toz-torpaq və digər qarışıqlar ayrılardı. Bəzən idarəetmə strukturunda məmurların yerində olmamasını və digər əyintiləri görəndə "Abışın Vimi" yadıma düşür. Deyirəm kaş cəmiyyətdəki insanları da qabiliyyət və bacarığına uyğun olaraq, hərəsini öz yerinə, öz vəzifəsinə yönəldən strukturlarımız da "Abışın Vimi" kimi dəqiq işləyəydi.

# Torpağın hikməti

Allah-təala hər yerin havasına, suyuna, torpağına, insanına uyğun nemət bitirir, yetişdirir. İnsanın elə üzünün quruluşu, fizionamiyası, təbiəti yaşadığı yerin-yurdun, torpağın, suyun, havanın xüsusiyyətlərinə uyğun formalaşır. Nəinki insan, hətta cansız, ən sərt kristallardan olan almaz kristalı əmələ gəldiyi yerin sərt xarakterini özündə daşıyır. Məlumdur ki, almaz kristalı, adətən, vulkan kraterlərində tapılır. Min dərəcələrlə tempuraturda formalaşıb meydana gələn almaz kristalı elə həmin sərtliyə malik olmalı idi. Başqa sözlə, almaz kristalı yarandığı yerin sərt təbiətini öz "yaddaşında yaşadır".

Son zamanlar elm sübut edib ki, havanın, suyun, torpağın, odun da yaddaşı var. Bu bir başqa yazının mövzusudur... Bir ağsaqqalın sözündən sonra bu sətirləri yazdım. Bir məclisdə süfrəyə nar və qarpız qoyulanda bir nəfər məclis əhli dedi ki, nar və qarpız gözəl nemətdi. Məclisdə olan bir ağsaqqal isə cavabında dedi ki, bəli, çox düz deyirsən. Xüsusi ilə də aran camaatını qarpızla nar saxlayır. Qarpız böyrəkləri yuyub təmizləyir, nar isə qanlarını. Görürsüz, nar və qarpız torpağı şoran olan yerlərdə necə gözəl əmələ gəlir. Məsələn Sabirabadda, İmişlidə, Beyləqanda, Zərdabda. Allah bilir ki, nəyi harda bitirmək lazımdı. Yoxsa, şor su içən camaatın bədəni duzlaşıb, daşlaşıb gedərdi.

# Hər varlığın öz mühiti

Həyatda olan hər bir varlıq (canlı, cansız) -insan, heyvan, daş, ağac, torpaq, çiçək... yalnız müəyyən mühitdə müəyyən şəraitdə öz spesifikliyini, yəni özünə məxsusluğunu saxlayır. Hər varlığın öz mühiti dedikdə, ilk olaraq, ağlımıza balıq və su gəlir. Yəni balıq sudan çıxdı, məhv oldu. Yaxud mümkün olmayan bir şey haqqında danışarkən deyirlər ki, bu balığın quruda yaşaması kimi bir şeydi. Əslində bütün varlıqlar belədir. Ancaq bilavasitə nəzərə çarpmır. Daş daşlığını, çiçək çiçəkliyini qorumaq üçün müəyyən bir fiziki, kimyəvi, bioloji şəraitin, insan isə insanlığını qorumaq üçün həm optimal fiziki, kimyəvi, bioloji şəraitin, həm də mənəvi-psixoloji şəraitin mövcudluğu zəruridir. Əks halda ya məhv olmuş, ya da deformasiya olunmuş varlıqdan söhbət gedə bilər.

# Bu ardıcıllıq bizə nə deyir?

Birdən fikirləşirəm: Baş, ağıl, ruh, ürək, mədədən, bir az da aşağı getsək, bəzi nəfsani orqanlardan yuxarıda yerləşir. Yəni Allah belə məsləhət bilib, bədən hissələrini yuxarıdan aşağıya belə düzüb. Ona görə hər bir insanın da borcudur ki, Allahın nizamına xilaf çıxmayıb nəfsindən yuixarıda dayanmağı bacarsın. Bilik, savad adamı güclü edə bilər. Amma adamın şəxsiyyəti, hörməti, nüfuzu yaxşı əməllə, nəfsindən yuxarıda dayanması ilə, yüksək insani keyfiyyətləri ilə qazanılır. Doğrudan da, insan nə qədər bilikli olsa da, hansı vəzifənin sahibi olsa da, kimin övladı olsa da, şəxsiyyəti, əxlaqı yoxdursa, daha doğrusu, şəxsiyyəti, əxlaqı hansı səviyyədədirsə, onun hörmət və nüfuzu da o səviyyədədir.

# Yenə də təbiət

Çox oxumaq, məlumatlı olmaq yaxşı haldır. Amma oxuduqlarını, bildiklərini təfəkküründən keçirib mənimsəyə bilmirsənsə, öz fikirlərini yarada bilmirsənsə, deməli, oxuduqların boşa gedib. Hardansa beş-on söz oxuyub gözə soxmaq, özünü bilikli göstərmək, dahilərdən saatlarla sitatlar gətirmək diletantlıqdır.

Alman fiziki Maks Lauenin gözəl bir sözü var: "Təhsil-öyrənilənlərin hamısı unudulduqdan sonra yerdə qalanlardır". Deyəcəksiniz, bəs siz niyə dahilərdən sitat gətirirsisiniz? Cavabı odur ki, mən M.Lauenin dediyi o hikməti az-çox başa düşürəm. Və bu yazını yazanda anidən beynimə gəldi və fikrimi izah etmək üçün mənə köməkçi oldu. Yadımdar ki, M.Lauenin bu fikrini təxminən 15 il əvvəl oxumuşam və beynimdə dərin iz buraxdığına görə yenidən yadıma düşdü və indi də keçək izahına. İlk baxışda çox təzadlı görünür: Necə yəni hamısı unudulduqdan sonra yerdə qalan? Bəli, bunu saf-çürük etsək, mənası odur ki, orta məktəbdə, ali məktəbdə, həyatda öyrəndiyimiz qanun, qayda, əxlaqi dəyərlər mənimsənilibsə, öz izini buraxıb. Təhsil illərindən on il, iyirmi il... keçəndən sonra da həmin qanun-qaydalar tamam yaddan çıxsa da, həmin o biliklərin beynimizdə buraxdığı izlər bizi fikirlər irəli sürməyə, yeni nələrsə yaratmağa sövq edir.Yəni təhsil əzbərçilik, bilik yığını deyil.

Təsəvvür edin ki, hər hansı bir yerə daş, qum, sement, taxta, dəmir... üst-üstə qalaqlanıb. Yəni ürək açan bir mənzərə deyil. Əl-ayağa dolaşan zibilxananı xatırladır, bir xaos, qarmaqarışıqlıq təsəvvürü yaradır. Amma bu inşaat materiallarından memar göz oxşayan, möhtəşəm bir saray da yarada bilər. Bax, hikmətli sözlər də belə. Onları mənimsəməsən, beyində, dildə üst-üstə qalaqlanmış xaotik bir mənzərə yaradır. Bəlkə də o hikmətli sözlər zəif təfəkkürlü adamların heç beyninə gedib çatmır, dilinin ucunda qalır, ordan da hara gəldi səpələyirlər. Başa düşdük: Deyirsən, Platon belə deyib, Aristotel belə deyib, Nizami Gəncəvi belə deyib. Bəs, sən özün nə deyirsən?

Gəlin, təbiətə üz tutaq: Müxtəlif meyvə ağacları- tut,alma,nar,heyva... müxtəlif miqdarda olsa da, torpaqdan təxminən eyni maddələri su və mineralları alır. Amma onların yetişdirdiyi, üzə çıxardığı meyvələr bambaşqadır. Alma ağacı torpaqdan aldığı su və mineralları bizə təkrar su və mineral kimi deyil, alma meyvəsi kimi "təqdim" edir. Yaxud, inək həzm etdiyi otu və suyu bizə süd şəklində, arı çiçək nektarını bal şəkilində qaytarır.

Yolumuzu azanda təbiətdən öyrənək. Nə istərsən orda tapmaq olar. Tək elmi bilikləri yox. Dilsiz-ağızsız təbiətdə (bəlkə də belə deyək: onların da dili var, biz bilmirik) o qədər tərbiyə nümunələri var ki! Saysız-hesabsız... Onları görmək, dərk etmək nümunə götürmək gərək!

# Yaratdığının əsiri

Birdən fikirləşirəm: Heyvanların, quşların, böcəklərin dövlətləri yoxdur. Yəni, heyvanlar dövlətsiz, dinsiz-filansız yaşaya bilir. Öz nəslini davam etdirir. Özü də azad, təbii olaraq, heç kimdən asılı olmadan. (Bəlkədə, səhv edirəm. Heyvanların da öz "dillərində", öz aləmində "dövlətləri", "təşkilatları" var. Və onların təbii, azad davranışlarına əsaslanıb, belə mühakimə yürütmək olar ki, onların "dövlətləri" bizimkindən demokratik və ədalətlidir.) Amma insan dövləti yaradıb, dini yaradıb bu qədər ictimai təşkilatlar, qurumlar yaradıb, bu qədər elmi-texniki tərəqqiyyə nail olub, amma özü də çox vaxt çevrilib yaratdıqlarının əsirinə. Demək olar ki, azadlığının əksər faizini əldən verib. Çox qəribə paradoksdur.

# Birlik və pərdə

Görünür, insan onu əhatə edən aləmə, canlı və cansızlara baxıb hələ çox öyrənəcək. Bizi düzlüyə, harmoniyaya, yüksək əxlaqi dəyərlərə çəkən hər bir şey bizim əhatəmizdədir. Sadəcə, onu görmək və götürmək lazımdır. Belə nümunələrdən biri nar meyvəsidir. Bildiyimiz kimi nar dənələri bir-birinə nə qədər sıx olsalar da, aralarında pərdə var. Ona görə deyirlər ki, birliyimiz nar dənələri kimi sıx olsun, amma aramızdan pərdə götürülməsin. Doğrudan da, pərdəlilik çox gözəldir. Lap eyni bir ailə daxilində-ata, ana, qardaş, bacı, ata-oğul nə qədər mehriban və yaxın olsalar da, aradakı pərdə bu münasibətləri daha da gözəlləşdirir. Yaxud ən yaxın iki dost arasında olan pərdə də bu dostluğu daha da möhkəmləndirir. Əslində, münasibətlərdə həddindən artıq açıqlıq dostluğun pozulmasına səbəb ola bilər. Hətta insanın özüylə özü arasında da bir pərdə olsa, daha yaxşı olar. Belə insana nəcib insan deyirlər.

# Qartalın "dedikləri"

Uca, sıldırım dağlarda, yüksək qayaların zirvəsində məskən salan, yuva quran qartalın məğrurluq, uzaqgörənlik, itigörənlik, ucalıq rəmzi kimi qəbul edilməsini çoxumuz bilirik. Qartalın qüruruna qürur qatan daha bir cəhəti də var ki, bəzən onun mahiyyətinə varmırıq. Uşaqlığım, gəncliyim qartallar, laçınlar oylağı Laçında keçsə də, bunu mən şəxsən qaçqınlıq illərində daha dərindən duydum və dərk elədim. Daxilən bir utanc hissləri də keçirdim. Qartalın haqqında danışdığım həmin maraqlı və qürurlu cəhəti onun isti-soyuqdan asılı olmayaraq, miqrasiya etməməsidir. Bildiyimiz kimi, əksər quşlar soyuqlar düşəndə isti ölkələrə miqrasiya edirlər. Yazda, istilər düşəndə isə qayıdırlar. Qartal isə heç vaxt doğma yerini, zirvədəki yuvasını tərk etmir. Soyuqdan donsa da, dimdiyindən buz sallansa da. Bəli, anamız təbiətdə maddi sərvət də var, mənəvi sərvət də. Sadəcə baxıb götürmək lazımdır (təəssüf ki, çoxumuz maddi sərvətləri görürük). Qartala baxıb öyrənmək olar: baş girələmək nədir, qürurlu olmaq nədir, Vətən nədir, Vətənsizlik nədir!

## Kitabın içindəkilər


Həqiqət və gözəllik sorağında .................................................. 3

**Analar dünyadan nigaran gedir ........................................... 11**

Ana ................................................................................ 13

Getdi .............................................................................. 16

Anasız dünyam ............................................................... 18

Ağlama, anam, ağlama ...................................................... 19

Anamın dediklərindən ....................................................... 20

Qayıdarıq vətən sarı ......................................................... 20

Bayatılar ......................................................................... 23

Darıxdım ......................................................................... 27

Qədir oxuyur .................................................................... 28

“Allahım, sınaqsa,bəs eylə daha” ........................................ 30

Yerindən .......................................................................... 32

Bir gün ............................................................................ 33

Qardaşım ......................................................................... 34

Ölməz şəhidlər ................................................................. 35

Qartal ömrü ..................................................................... 37

Məni dərd böyütdü ........................................................... 38

Tanrım ............................................................................ 39

Dünyadı .......................................................................... 40

Axtar ............................................................................... 41

Gəncliyim ........................................................................ 42

Dolanır ............................................................................ 43

Təbiətdən öyrənək ........ 44
Tanımaz ........ 46
İlahi ........ 47
Var ........ 48
Susmaq ağrısı ........ 49
Məktəb xatirələri ........ 51
Dolanıram ........ 55
Deyəsən dəhnədən, başdan bulanıb ........ 56
Belə də olur ........ 57
A dünya ........ 58
Yaşa ........ 59
Nə xəbər var ........ 61
Altmışın mübarək ........ 63

**Ürək_deyir ki... ........ 65**
Sənsən ........ 67
O gözlərdə axtarın ........ 68
Neylim ........ 69
Gözəl ........ 70
Deyir ........ 72
Gözlər ........ 73
Ala gözlər ........ 74
Bu necə sevdadır ........ 75
Yaşadım ........ 77
Sənin ........ 78

Gəlmədi ........................................................................ 79
Məni ........................................................................ 80
Gülüm ........................................................................ 81
Gözümdə ........................................................................ 82
A Leyli ........................................................................ 83
Nədir ........................................................................ 84
Bu gecə ........................................................................ 85
Olmasaydı ........................................................................ 86
Sənsən ........................................................................ 87

***Esselər, Hekayələr, Publisistika, Xatirələr ............................ 89***
İllər nə tez keçdi... ........................................................ 91
Üç sualın ağrısı ........................................................ 97
Yol gedir Vətən sarı... ........................................................ 105
Çin olmuş yuxular ........................................................ 124
Nisgil ........................................................ 139
Ana məhəbbəti ........................................................ 144
Anamla söhbət ........................................................ 150
Bir qış axşamı ........................................................ 155
Bir sualın tarixçəsi ........................................................ 159
Qəhrəmanlığa aparan əxlaq ........................................................ 163
Qədirşünaslıq ........................................................ 170
Elinə böyük məhəbbət ........................................................ 176
Koloritli adam ........................................................ 182
Medala öyrəşməyən sinə ........................................................ 189

Bir nəhr kimi çalxandıqca zaman… ........................................ 191
Xalqımdan necə ayrılım?.......................................................... 193
Şüuraltı zaman ....................................................................... 194
Ölüm sindromu ....................................................................... 197
Yuxuda sağlıq ......................................................................... 199
Təbiətin ən ali modeli İnsan ................................................... 204
Qadağalar qadağandır ............................................................ 205
Özünü dəyişmək – çətin məsələ ............................................. 208
Hər adamın bir zəif nöqtəsi .................................................... 210
Adam özü olmalıdır................................................................. 211
Hər kəsin haqqını ödəmək tərbiyəsi ........................................ 213
Keçmiş gələcəyi idarə edir ....................................................... 215
İdarəedənlər və idarəolunanlar ............................................... 217
Millətinə, dövlətinə böyük sevgi.............................................. 218
Ruh yaxınlığı – sevgi qaynağım ............................................... 220
Problemsiz adam – “xoşbəxt adam”........................................ 221
Ciddiliyin sərhədləri ................................................................. 223
“Solo oxuyanlar” qıtlığı ............................................................ 224
Xələflər və naxələflər ............................................................... 226
Kim türkün düşmənidirsə... ..................................................... 228
Erməni xisləti ........................................................................... 229
Köhnə divar çatı ....................................................................... 230
Nə isə itirməsən... ..................................................................... 231
Bağda ərik var idi... .................................................................. 232
Şam, iynə və saç........................................................................ 233

Müəllim niyə sınıxmısan? .......................................................... 234
Gözəl danışmaq xoşbəxtlikdir. ................................................ 236
‘‘Üç meymun’’ fəlsəfəsi ........................................................... 238
Nə zaman ki... ........................................................................... 240
İlk növbədə zəif və zəriflərin... ................................................. 241
Varlığın yoxluğu ........................................................................ 243
Saf qəlbin hikməti ...................................................................... 244
Səbir, təmkin və hazırcavablıq .................................................. 245
Təsadüflər və dahilər ................................................................. 246
Aristotel modeli ......................................................................... 247
Göz yaşları ................................................................................. 248
Musiqi-ecazkar qüvvə ............................................................... 250
Sözlərin tükəndiyi an ................................................................. 255
‘‘Bizimdir’’ demək, hələ bizim olmaq deyil ............................. 255
İşğal və Qələbə tarixləri ............................................................ 256
Kədərlə yox, qürurla ................................................................. 257
Qorxmaq, ya sevmək? ............................................................... 258

**TƏBİƏTİN DEDİKLƏRİ ......................................................... 259**
Arximed qanunu bizə nə deyir? ................................................ 261
Maddənin aqreqat halları və insan ............................................ 262
Ağaclar və adamlar ................................................................... 264
İşıq, dualizm və insan ............................................................... 266
Hərəkətin mənbəyi, termodinamikanın ikinci prinsipi və cəmiyyət ........................................................................................ 269

Fizika, riyaziyyat... və insan münasibətləri............................ 271
Həyat dərsləri və təbiətin "dedikləri" .................................... 274
Abışın vimi.................................................................................. 276
Torpağın hikməti.......................................................................... 278
Hər varlığın öz mühiti................................................................... 279
Bu ardıcıllıq bizə nə deyir?.......................................................... 280
Yenə də təbiət.............................................................................. 281
Yaratdığının əsiri .......................................................................... 283
Birlik və pərdə.............................................................................. 284
Qartalın ''dedikləri" .......................................................................285

**Cəbrayıl Qəhrəman**

***(Cəbrayıl İsmayıl oğlu Qəhrəmanov)***

# DAĞLARIN TƏBƏSSÜMÜ

**Korrektor**: Günay Qəhrəmanlı
**Mətn dizaynı**: Vəfa Qəhrəmanlı

Çapa imzalanıb 17.07.2023
Formatı 60x84 1/16
Ofset kağız №1
Fiz. çap. vər. 18.25
Tiraj 300

Kitab "APOSTROF-A"
nəşriyyatında ofset üsulu çap edilib.
E-mail: apostrof0706@gmail.com
Tel: +99412 432 51 04 / +99450 313 07 06